**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

**İnstitusional akkreditasiya üzrə özünütəhlilin nəticələri haqqında**

# H E S A B A T

**Hesabat Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi Şurasının 14.02.2023-cü il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir.**

**Tarix** 17.02.2023

**İmza** ____________

**M.Y**

**2023-cü il**

**Mündəricat**

**I. Giriş**

1. Azərbaycan Dövlət Pedaqoji Universitetinə dair ümumi məlumatlar

2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki

3. Azərbaycan Dövlət Pedaqoji Universitetinə öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyətinə dair

**II. Azərbaycan Dövlət Pedaqoji Universitetinin özünütəhlili**

4. Özünütəhlil qiymətləndirilməsinin icmalı

5. Azərbaycan Dövlət Pedaqoji Universitetinin özünütəhlil nəticələri

6. Təşkilati komissiyanın gəldiyi nəticələr və qeydlər

**III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər**

## I Giriş

Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) Azərbaycan Xalq Komissarları Sovetinin (XKS) sədri Nərman Nərimanovun imzaladığı 1921-ci il 26 avqust tarixli dekret əsasında 6 nəfər tələbə ilə milli dildə fəaliyyətə başlayan ilk ali pedaqoji təhsil ocağıdır. Bu təhsil ocağı o dövrdə yeni təşkil olunan I və II dərəcəli məktəbləri yüksəkixtisaslı pedaqoji kadrlarla təmin etmək məqsədilə yaradılmışdı. İlk dövrlərdə Ali Pedaqoji Kişi və Ali Pedaqoji Qadın İnstitutları kimi fəaliyyətə başlasa da, böyük tarixi inkişaf yolu keçən Azərbaycan Dövlət Pedaqoji İnstitutu XX əsrin 90-cı illərində Azərbaycan Dövlət Pedaqoji Universiteti adını almışdır. Fəaliyyəti dövründə ali təhsil ocağı 150 mindən çox müəllim kadrı hazırlamış, bir çox ixtisaslar üzrə elmi-pedaqoji kadr hazırlığının mərkəzinə çevrilmişdir.

ADPU 4 aprel 2008-ci ildə yenilənmiş nizamnaməsi ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində təhsil müəssisəsi kimi qeydiyyatdan (nömrəsi: 1108-A3-459) keçmişdir. Universitet sonuncu dəfə 2016-cı ildə akkreditasiyadan keçirilmiş və 7 iyun 2016-cı il tarixli 005 nömrəli sertifikatla 5 il müddətinə akkreditasiya olunmuşdur.

ADPU öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununu, "Elm haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin əmrlərini, kollegiya qərarlarını və öz Nizamnaməsini rəhbər tutur.

ADPU-da idarəetmə prosesində mütəşəkkilliyi təmin etmək üçün ümumi qaydalardan, fakültə, kafedra və şöbələrin daxili əsasnamələrindən əlavə ADPU-nun Elmi Şurası, Tədris-Metodiki Şurası, ADPU-nun Fəxri professoru adının verilməsi, Daxili fəaliyyət qaydaları, İntizam Komissiyası, İşçilərin etik davranış qaydaları, Kargüzarlığın aparılmasına dair əsasnamə, qayda və təlimatlar qəbul edilmiş, universitetin internet səhifəsində yerləşdirilmişdir.

ADPU təhsilin subbakalavr, bakalavriatura, magistratura və doktorantura səviyyələri, o cümlədən əlavə təhsil üzrə təhsil proqramlarını həyata keçirən, publik hüquqi şəxs statusuna və geniş şəbəkəyə malik dövlət təhsil müəssisəsidir.

2021-ci ildə 100 illiyini qeyd etmiş ADPU tarixi inkişaf yolu keçmiş, ölkədə təhsilin və müəllim kadrlarının hazırlanmasında böyük xidmətlər göstərmişdir. XX əsrin 50-60-cı illərində M.Muradxanov, Ə.Zəkuzadə və Ə.Əbdülrəhmanova professor elmi adının verilməsi, professor A.Abbaszadənin RSFSR PEA-nın müxbir üzvü, M.Mehdizadənin SSRİ Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi böyük elmi hadisə kimi gənc elmi kadrların inkişafına təkan verən əsas amilə çevrilmişdir. Fəxrlə deyə bilərik ki, SSRİ PEA-nın həqiqi və müxbir üzvü seçilən azərbaycanlı alimlər - M.Mehdizadə, A.Abbaszadə, H.Əhmədov, S.İmanov məhz ADPU-nun əməkdaşları olmuşlar. Böyük qürur hissi ilə deyə bilərik ki, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) on iki prezidentinin dördü Yusif Məmmədəliyev, Zahid Xəlilov, Həsən Abdullayev və İsa Həbibbəyli ADPU-nun məzunlarıdır.

Pedaqoji Universitet 160 mindən çox məzunu ilə Azərbaycanda yalnız orta təhsilin deyil, elm və ali təhsilin inkişafına dəyərli töhfələr verən tanınmış alimlər yetişdirmiş, fəaliyyəti dövründə elmi mərkəz kimi formalaşıb inkişaf etmişdir. Bu ali təhsil müəssisəsində pedaqogika və psixologiya (Ə.Y.Seyidov, M.M.Mehdizadə, Ə.K.Zəkuzadə, M.Ə.Muradxanov, Ş.S.Ağayev, H.M.Əhmədov, Ə.Ə.Əlizadə), riyaziyyat (M.R.Əfəndiyev, M.Ə.Cavadov, İ.İ.İbrahimov, M.H.Cavadov), fizika (A.Q.Abbaszadə, S.Ş.İmanov), kimya (H.Şahtaxtinski, Ş.Ə.Məmmədov, A.Ə.Verdizadə), biologiya (Z.M.Şahtaxtinskaya, A.İ.Qarayev), tarix (Z.İ.İbrahimov, Y.B.Yusifov), fılologiya (B.V.Çobanzadə, M.Ş.Şirəliyev, Ə.M.Dəmirçizadə, M.H.Rəfili, Ə.R.Sultanlı, H.M.Araslı, F.S.Qasımzadə, A.M.Qurbanov, H.İ.Mirzəyev), fəlsəfə (H.İ.Hüseynov) və başqa sahələr üzrə elmi məktəblər və istiqamətlər yaradılıb inkişaf etdirilmişdir.

Xalqımızın fəxr etdiyi yüzlərlə tanınmış alim, yaradıcı ziyalı, ictimai və dövlət xadimi ADPU-da təhsil almışdır. Universitetin məzunlarından Y.Məmmədəliyev, H.Hüseynov, Z.Xəlilov, H.Abdullayev, M.Rəsulov, Ə.Hüseynov, İ.Hüseynov, S.Rəhimov, Ş.Qurbanov, A.Qarayev, Ə.Sumbatzadə, M.Dadaşzadə, M.Cəfərov, İ.İbrahimov, M.Şirəliyev, İ.Şıxlı, H.Əmirxanov kimi tanınmış elm və mədəniyyət xadimləri çoxdan xalqımızın elm və şöhrət simvollarına çevrilmişlər. Onların ayrı-ayrılıqda hər birinin adı xarici ölkələrdə keçirilən beynəlxalq səviyyəli nüfuzlu elmi tədbirlərdə böyük iftixarla çəkilir.

Sovet İttifaqı Qəhrəmanları - Mehdi Hüseynzadə, Xıdır Mustafayev, Fariz Səfərov, Səlahəddin Kazımov, Sosialist Əməyi Qəhrəmanları - Səfa İmanov, Zərbəli Səmədov, Rüstəm Səfərəliyev, Azərbaycanın Milli Qəhrəmanları - Mirələkbər İbrahimov, Mətləb Quliyev, “Azərbaycan Bayrağı” ordenli Malik Bayramov, Mürşid Məmmədov igidlik, hünər, vətənpərvərlik rəmzi kimi xatırlanırlar. Onlar mərdlik və şücaətləri ilə məzunu olduqları ADPU-nun şərəfini uca tutmaqla, on minlərlə insana örnək və tərbiyə nümunəsidirlər. ADPU-nun məzunları müxtəlif ali məktəblərdə, elmi-tədqiqat institutlarında, dövlət təşkilatlarında uğurla fəaliyyət göstərirlər.

Ulu öndər Heydər Əliyevin xatirəsini əbədiləşdirmək, onun zəngin və mənalı həyat yolunu, çoxşaxəli fəaliyyətini dərindən öyrənmək, təbliğ etmək, gələcəyin müəllimlərini dövlətçiliyə sədaqət və azərbaycançılıq ruhunda tərbiyə etmək ADPU-nun professor-müəllim heyətinin ən ümdə vəzifələrindəndir. Heydər Əliyev irsində Vətən sevgisi, Azərbaycan sevgisi, azərbaycançılıq hissi, xalq, millət sevgisi, dil sevgisi, milli mədəniyyət sevgisi, insanın insana, insanın Vətəninə, xalqına, dövlətinə sədaqət hissi mühüm yer tutur. Bu irsin qorunması və gələcək nəsillərə çatdırılması, hər bir gəncdə azərbaycançılıq hissinin formalaşdırılması, gənc nəslin dövlətçilik ənənələrinə sədaqət ruhunda tərbiyə olunması ən vacib şərtlərdən biridir. Ulu öndərin xatirəsinə ehtiram əlaməti olaraq ADPU-nun foyesində abidəsi qoyulmuş, nadir eksponatları sərgiləyən, professor-müəllimlərin, tələbələrin və universitetin qonaqlarının ziyarət məkanına çevrilən Heydər Əliyev Muzeyi yaradılmışdır. Zəngin irsinin gənc nəslə çatdırılması məqsədilə “Heydər Əliyev məktəbinin lektoriyası” təşkil edilmiş, ADPU-nun 2 nömrəli tədris binasında möhtəşəm Heydər Əliyev Mərkəzi yaradılmışdır. Heydər Əliyevin irsini dərindən öyrənmək məqsədilə universitetin professor-müəllim heyəti, magistr və doktorantları üçün xüsusi kurslar təşkil edilmişdir.

Hazırda ADPU-da Filologiya, Tarix və coğrafiya, Riyaziyyat, Kimya və biologiya, Fizika, Məktəbəqədər təhsil, İncəsənət və fiziki tərbiyə, İbtidai təhsil fakültələri olmaqla, 8 fakültə fəaliyyət göstərir. Eyni zamanda Universitetdə Magistratura və doktorantura, Davamlı təhsil və innovasiyalar şöbələri, həmçinin SABAH Mərkəzi fəaliyyət göstərir.

Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda nəzərdə tutulan ən mühüm vəzifələrdən biri də müasir tələblərə cavab verən təhsil infrastrukturunun yaradılması və təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılmasıdır. Dövlət Strategiyasının bu tələblərinə uyğun olaraq ölkə Prezidentinin 26 noyabr 2015-ci il tarixli Sərəncamı ilə Azərbaycan Müəllimlər İnstitutunun (AMİ) ADPU-ya qovuşması və onun filiallarının da ADPU-nun filiallarına çevrilməsi nəticəsində ADPU ölkədə pedaqoji kadr hazırlığı ilə məşğul olan vahid ixtisaslaşmış ali təhsil müəssisəsinə çevrilmişdir. Bununla yanaşı, Nazirlər Kabinetinin 3 fevral 2016-cı il tarixli qərarı ilə Bakı Sənaye-Pedaqoji Kolleci Azərbaycan Dövlət Pedaqoji Kollecinə (ADPK) birləşdirilməklə ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci kimi fəaliyyət göstərməyə başlayıb. Qeyd edək ki, ölkə Prezidentinin 2016-cı il 29 aprel tarixli Sərəncamı ilə ADPU-nun Qazax filialı Bakı Dövlət Universitetinə, Zaqatala filialı isə Azərbaycan Dövlət İqtisad Universitetinə verilib. Hazırda ölkənin 5 müxtəlif regionunda ADPU-nun Şəki, Quba, Ağcabədi, Cəlilabad və Şamaxı filialları fəaliyyət göstərir. ADPU şəbəkəsi ilə bu linkdən - *https://adpu.edu.az/index.php/az/universitet/adpu-şəbəkəsi* tanış olmaq olar.

Azərbaycan Respublikası təhsil nazirinin 20 iyul 2016-cı il tarixli əmri ilə Bakı şəhərindəki Məmməd Rahim adına 7 nömrəli tam orta məktəb 2016-2017-ci tədris ilindən etibarən ADPU-nun baza məktəbi kimi müəyyən olunub. Bu əmrin verilməsi ölkəmizdə ardıcıl şəkildə həyata keçirilən təhsil islahatlarının, eləcə də yüksəkixtisaslı pedaqoji kadrların hazırlanması prosesinin tərkib hissəsidir və nəticə etibarilə təhsilin keyfiyyətinin yaxşılaşmasına xidmət edir.

AMİ-nin ADPU-ya birləşdirilməsi ciddi struktur və məzmun islahatlarının aparılması zərurərtini yaratmışdır. Həmçinin 2015/2016-cı tədris ilində ADPU-da aparılmış akkreditasiyanın nəticələri və universitetdə kənar tədqiqatçıların apardıqları strateji planlaşdırma üzrə araşdırmaların nəticələrində də universitetdə ciddi islahatların aparılması qeyd olunmuşdur. 2016-cı ildə ADPU rəhbərliyində aparılan kadr dəyişikliklərindən sonra universitetdə köklü islahatlar və yeniliklər həyata keçirilmişdir.

Baş verən struktur dəyişiklikləri nəticəsində ADPU-nun fəaliyyət dairəsi genişlənib, professor-müəllim heyətinin və tələbə kontingentinin sayı xeyli artıb. Beləki 2022/2023-cü tədris ilinə filiallar və Pedaqoji Kolleclə birlikdə ADPU ailəsi 21566 nəfərlə başlamışdır. Universitetdə 67 elmlər doktoru, 61 professor, 273 dosent, 354 fəlsəfə doktoru çalışır. ADPU-da ali təhsilin bakalavriat səviyyəsində 22 ixtisas, magistratura səviyyəsində isə 21 və doktorantura səviyyəsində isə 10 elm sahəsi üzrə 35 ixtisaslaşma üzrə elmi-pedaqoji kadr hazırlanır.

ADPU beynəlxalq reytinq üzrə Webometrics platformasında (https://www.webometrics.info/en/europe/azerbaijan) dünya reytinqində 8039-cu, kontinental reytinqdə 2027-ci, ölkə reytinqində 10-cu, dünyada impakta görə 17748-ci, açıqlığa görə 7521-ci, mükəmməliyə görə isə 5538-ci yerdədir. Azərbaycan üzrə isə impakta görə 26-cı, açıqlığa görə 5-ci və müəkəmməliyə görə 7-ci yerdədir. 2022-ci ildə ADPU tələbə qəbulunun nəticələrinə görə qəbul planını tam doldurmuş, 6 ali təhsil müəssisəsindən biri olmuşdur.

Universitetin 1 professoru AMEA-nın müxbir üzvü, 4 professoru isə əməkdar elm xadimidir. ADPU-nun 100 illik yubileyi ilə bağlı ADPU-nun 1 əməkdaşı "Şöhrət" ordeni, 6 əməkdaşı 3-cü dərəcəli "Əmək" ordeni, 17 nəfər əməkdaşı "Tərəqqi" medalı, 1 əməkdaşı Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü, 4 əməkdaşı Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu, 24 əməkdaşı isə "Əməkdar müəllim" fəxri adı ilə təltif olunub. O cümlədən 87 əməkdaş "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı və 79 əməkdaşı isə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri Fərmanı ilə təltif olunub. Həmçinin Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2021-ci il tarixli Fərmanı ilə "Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921-2021)" Azərbaycan Respublikasının yubiley medalı təsis edilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə əhatə olunmuş ADPU 100 illik yubileyini keçirmiş ali təhsil müəssisəsi olaraq bu gün öz inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuşdur. Bizim qarşımızda böyük strateji hədəflərimiz, ali məqsədlərimiz var. Hazırda ADPU-da şəffaf və obyektiv təhsil mühitinin yaradılması, yeniliyin və müasirliyin təmin edilməsi, qabaqcıl beynəlxalq təcrübənin öyrənilərək tətbiq olunması, bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq rəqabətqabliyyətli mütəxəssislərin hazırlanması əsas vəzifələrdir. Müasir əmək bazarının tələbləri öyrənilməli və bu tələblərə cavab verə biləcək pedaqoji kadrların hazırlanması istiqamətində səmərəli və məqsədyönlü iş aparılması əsas fəaliyyət istiqamətlərindəndir.

Qarşıdakı dövrdə ADPU-nun institusional akkreditasiyadan uğurla keçərək, ancaq təhsil ixtisas qrupları üzrə deyil, digər ixtisas qrupları üzrə də kadr hazırlığı həyata keçirən universitet statusuna qovuşması və "2030 İnkişaf Strategiyası"nın formalaşdırılması nəzərdə tutulur.

## 1. Azərbaycan Dövlət Pedaqoji Universitetinə dair ümumi məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Azərbaycan Dövlət Pedaqoji Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | 7 iyun 2016-cı il və 5 il müddətinə |
| Azərbaycan Dövlət Pedaqoji Universitetinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | Publik hüquqi şəxs statusuna malik dövlət ali təhsil müəssisəsi |
| Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru | Cəfərov Cəfər Məmməd oğlu |
| Fakültələrin sayı | 8 (səkkiz) |
| Kafedraların sayı | 33 (otuz üç) |
| Bakalavriat pilləsi üzrə ixtisasların sayı | 22 (iyirmi iki) |
| Magistratura pilləsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 22 (iyirmi iki) (26 (iyirmi altı)) |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (elm sahələri üzrə) sayı | 35 (otuz beş) (10 (on)) |
| Azərbaycan Dövlət Pedaqoji Universitetinin təhsilalan kontingenti | **Təhsilalan sayı : 10.618**<br>Bakalavriat: 9851 (filiallarsız)<br>Magistratura: 708<br>Fəlsəfə doktorluğu: 59<br>Elmlər doktorluğu proqramı üzrə: 10 |
| Ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı | 787 (yeddi yüz səksən yeddi) |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 119 (yüz on doqquz) nəfər əvəzçiliklə və<br>180 (yüz səksən) nəfər saathesabı |
| ADPU-nun elektron ünvanı və əlaqə telefonu | E-poçt: *office@adpu.edu.az*<br>Tel. (+994 12) 493 00 32 |
| ADPU-nun hüquqi ünvanı | Azərbaycan, Bakı, AZ1000, Ü.Hacıbəyli küç., 68 |
| ADPU-nun faktiki ünvanı | Azərbaycan, Bakı, AZ1000, Ü.Hacıbəyli küç., 68 |

## 2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki

Təşkilat komissiyasının tərkibi

| № | Pedaqoji adı (elmi dərəcə), ad, soyad | Vəzifə | Komissiyada funksiyası | E-mail ünvanı |
|---|---|---|---|---|
| 1. | Dos. Eldar Aslanov | Tədris işləri üzrə prorektor | Sədr | eldar.aslanov@adpu.edu.az |
| 2. | Prof. Asəf Zamanov | Elm və innovasiyalar üzrə prorektor | üzv | prorektor_science@adpu.edu.az; a_zamanov@mail.ru |
| 3. | Prof. Mahirə Hüseynova | Beynəlxalq əlaqələr üzrə prorektor | üzv | mahire.huseynova@adpu.edu.az |
| 4. | Prof. Fikrət Rzayev | Sosial və humanitar məsələlər üzrə prorektor | üzv | prorektor_sosial_ve_humanitar@adpu.edu.az |
| 5. | Tural Cəlilov | Ümumi işlər üzrə prorektor | üzv | tural.celilov@adpu.edu.az |
| 6. | Könül Pirverdiyeva | Strateji məsələlər üzrə prorektor | üzv | konul.pirverdiyeva@adpu.edu.az |
| 7. | Ümid Mehdiyev | Rektorun müşaviri | üzv | umid.mehdiyev@adpu.edu.az |
| 8. | Dos. Sənan Əliyev | Tədris Departamentinin direktoru | üzv | senan.aliyev@adpu.edu.az |
| 9. | Dos. Vaqif Əliyev | Həmkarlar İttifaqı Komitəsinin sədri | üzv | vaqif.aliyev@adpu.edu.az |
| 10. | P.e.d., Qızxanım Qəhrəmanova | İbtidai təhsil fakültəsinin dekanı | üzv | qizxanim.qehremanova@adpu.edu.az |
| 11. | Dos. Asif Axundov | Tarix və coğrafiya fakültəsinin dekanı | üzv | asif.axundov@adpu.edu.az |
| 12. | Dos. Nailə Hüseynova | Məktəbəqədər təhsil fakültəsinin dekanı | üzv | naile.huseynova@adpu.edu.az |
| 13. | Dos. Reyhan Ağayeva | Kimya və biologiya fakültəsinin dekanı | üzv | reyhan.agayeva@adpu.edu.az |
| 14. | Sos.ü.f.d. Anar Fərmayılov | İncəsənət və fiziki tərbiyə fakültəsinin dekanı | üzv | anar.farmayilov@adpu.edu.az |
| 15. | Dos. Arzu Daşdəmirov | Fizika fakültəsinin dekanı | üzv | arzu.dashdamirov@adpu.edu.az |
| 16. | Dos. Araz Fərəcov | Riyaziyyat fakültəsinin dekanı | üzv | araz.faracov@adpu.edu.az |
| 17. | Fil.ü.f.d. Könül Həsənova | Filologiya fakültəsinin dekan müavini | üzv | konul.hesenova@adpu.edu.az |
| 18. | R.ü.f.d. Nərminə Abdullayeva | Elmi katib | üzv | narmina.abdullayeva@adpu.edu.az |
| 19. | Siy.e.ü.f.d. Rəşad Sadıqov | Magistratura və doktorantura şöbəsinin müdiri | üzv | Rashad.Sadiqov@adpu.edu.az |

| | | | | |
|---|---|---|---|---|
| 20. | Prof. İbrahim Bayramov | Elmi-təşkilati şöbənin müdiri | üzv | ibrahim.bayramov@adpu.edu.az |
| 21. | Dos. Ərəstun Mehdiyev | Elmi-tədqiqat mərkəzinin müdiri | üzv | arastun.mehdiyev2@adpu.edu.az |
| 22. | Dos. Qalib Şərifov | Keyfiyyətin təminatı şöbəsinin müdiri | sədr müavini | qalib.sharifov@adpu.edu.az |
| 23. | P.ü.f.d. Leyla Əliyeva | Tədris Departamentinin Tədris texnologiyaları şöbəsinin müdiri | katib | leyla.aliyeva3@adpu.edu.az |
| 24. | Vüsal Xəlilov | Tədris Departamentinin Tələbələrin qeydiyyatı və dövlət nümunəli sənədlərlə iş şöbəsinin müdiri | üzv | vusal.khalilov@adpu.edu.az |
| 25. | Dos. Rəhman Səfərov | Tədris Departamentinin planlaşdırma və proqnozlaşdırma şöbəsinin müdiri | üzv | rahman.safarov@adpu.edu.az |
| 26. | Asəf Kazımov | Tədris Departamentinin Monitorinq və qiymətləndirmə şöbəsinin müdiri | üzv | asaf.kazimov@adpu.edu.az |
| 27. | Könül Əsgərova | Tədris Departamentinin Məzun koordinasiya və karyera şöbəsinin müdiri | üzv | konul.asgarova2@adpu.edu.az |
| 28. | Taleh Talıbov | Tədris Departamentinin Tədrisin informasiya təminatı şöbəsinin müdiri | üzv | tale.talibov@adpu.edu.az |
| 29. | Zakir Nağıyev | Baş hüquqşünas | üzv | nagiyev.zakir@adpu.edu.az |
| 30. | Mətanət Quliyeva | Maliyyə şöbəsinin müdiri | üzv | matanat.quliyeva@azpedagogy.onmicrosoft.com |
| 31. | Qumral Qədimova | İnsan resursları şöbəsinin müdiri | üzv | qumral.qadimova@adpu.edu.az |
| 32. | Zinharə Həsənova | Kitabxana İnformasiya Mərkəzinin müdiri | üzv | zinhare.hasanova@adpu.edu.az |
| 33. | Günay Məhərrəmova | Beynəlxalq əlaqələr şöbəsinin müdiri | üzv | gunay.maharramova@adpu.edu.az |
| 34. | Xuraman Əliyeva | Ümumi şöbənin müdiri | üzv | xuraman.aliyeva3@adpu.edu.az |
| 35. | Fərhad Mirəliyev | İnformasiya və kommunikasiya texnologiyları şöbəsinin müdiri | üzv | farhad.miraliyev@adpu.edu.az |
| 36. | Mehparə Əhmədova | Beynəlxalq layihələr və qrantlar şöbəsinin müdiri | üzv | mehpare.ahmedova@adpu.edu.az |

| | | | | |
|---|---|---|---|---|
| 37. | Aynurə Əsgərova | Əcnəbi tələbələrlə iş şöbəsinin müdiri | üzv | aynure.asgarova@adpu.edu.az |
| 38. | P.ü.f.d. Xalidə Həmidova | Təlim-tədris mərkəzinin müdiri | üzv | xalida.hamidova@adpu.edu.az |
| 39. | Tahir Süleymanov | Heydər Əliyev mərkəzinin müdiri | üzv | tahir.suleymanov@adpu.edu.az |
| 40. | Ləman Seyidova | Strateji inkişaf mərkəzinin müdiri | üzv | laman.seyidova@adpu.edu.az |
| 41. | Turan Kərimli | Tədbirlərin təşkili və tələbələrlə iş şöbəsinin müdiri | üzv | turan.karimli@adpu.edu.az |
| 42. | Cavid Hüseynov | İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin müdiri | üzv | cavid.huseynov@adpu.edu.az |
| 43. | F.ü.f.d. Tofiq Əhmədov | İkili diplom Proqram direktoru | üzv | tofiq.ahmadov@adpu.edu.az |
| 44. | Dos. Lalə Mürsəlbəyova | SABAH Mərkəzinin rəhbəri | üzv | lala.mursalbayova@sabah.edu.az |
| 45. | Natavan Həsənova | Elmi-təşkilati şöbənin Əqli mülkiyyətinin qorunması bölməsinin müdiri | üzv | natavan.hesenova@adpu.edu.az |
| 46. | Almara Abbasova | Elmi-təşkilati şöbənin baş mütəxəssisi | üzv | almara.abbasova@adpu.edu.az |
| 47. | Dos. Vurğun Məmmədov | Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri | üzv | memmedov.vurgun@adpu.edu.az |
| 48. | Prof. Əli Zalov | Tələbə Elmi Cəmiyyətinin sədri | üzv | eli.zalov@adpu.edu.az |
| 49. | Fil.ü. f.d. İlkin Əsgərov | Gənc Alimlər və Tədqiqatçılar Şurasının sədri | üzv | ilkin.esgerov@adpu.edu.az |
| 50. | Təhmasib İmaməliyev | Tələbə Gənclər Təşkilatının sədri | üzv | tahmasib.imamaliyev.tar2006b@adpu.edu.az |

**Təşkilat komissiyasının fəaliyyət qrafiki**

| № | Adı və soyadı | Fəaliyyəti istiqaməti | Fəaliyyət qrafiki |
|---|---|---|---|
| 1. | Dos. Eldar Aslanov | Komissiyanın işinə rəhbərlik, təlim və tədris istiqamətinə rəhbərlik, strateji inkişaf və keyfiyyət istiqamətləri üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 2. | Prof. Asəf Zamanov | Elm-tədqiqat istiqaməti üzrə özünütəhlil qrupunun rəhbəri | 15.11.2022-15.02.2023 |
| 3. | Prof. Mahirə Hüseynova | Beynəlmiləlləşmə istiqaməti üzrə özünütəhlil qrupunun rəhbəri | 15.11.2022-15.02.2023 |
| 4. | Prof. Fikrət Rzayev | Təlim və tədris, strateji inkişaf və keyfiyyət istiqamətləri üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 5. | Tural Cəlilov | İdarəetmə istiqaməti üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 6. | Könül Pirverdiyeva | Strateji inkişaf istiqamətləri üzrə özünütəhlil qrupunun rəhbəri | 15.11.2022-15.02.2023 |
| 7. | Ümid Mehdiyev | İnfrastruktur istiqamətinin rəhbəri və idarəetmə istiqaməti üzrə özünütəhlil qrupunun rəhbəri | 15.11.2022-15.02.2023 |
| 8. | Dos. Sənan Əliyev | Təlim və tədris istiqaməti və İdarəetmə istiqaməti üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 9. | Dos. Vaqif Əliyev | İdarəetmə istiqaməti üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 10. | P.e.d. Qızxanım Qəhrəmanova | İbtidai təhsil fakültəsi üzrə özünütəhlil qrupunun rəhbəri | 15.11.2022-15.02.2023 |
| 11. | Dos. Asif Axundov | Tarix və coğrafiya fakültəsi üzrə özünütəhlil qrupunun rəhbəri | 15.11.2022-15.02.2023 |
| 12. | Dos. Nailə Hüseynova | Məktəbəqədər təhsil fakültəsi üzrə özünütəhlil qrupunun rəhbəri | 15.11.2022-15.02.2023 |
| 13. | Dos. Reyhan Ağayeva | Kimya və biologiya fakültəsi üzrə özünütəhlil qrupunun rəhbəri | 15.11.2022-15.02.2023 |
| 14. | Sos.ü.f.d. Anar Fərmayılov | İncəsənət və fiziki tərbiyə fakültəsi üzrə özünütəhlil qrupunun rəhbəri | 15.11.2022-15.02.2023 |
| 15. | Dos. Arzu Daşdəmirov | Fizika fakültəsinin fakültəsi üzrə özünütəhlil qrupunun rəhbəri | 15.11.2022-15.02.2023 |
| 16. | Dos. Araz Fərəcov | Riyaziyyat fakültəsi üzrə özünütəhlil qrupunun rəhbəri | 15.11.2022-15.02.2023 |

| | | | |
|---|---|---|---|
| 17. | Fil.ü.f.d. Könül Həsənova | Filologiya fakültəsi üzrə özünütəhlil qrupunun rəhbəri | 15.11.2022-15.02.2023 |
| 18. | R.ü.f.d. Nərminə Abdullayeva | Elmi-tədqiqat, idarəetmə istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü | 15.11.2022-15.02.2023 |
| 19. | S.e.ü.f.d. Rəşad Sadıqov | Təlim və tədris, elmi-tədqiqat istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü | 15.11.2022-15.02.2023 |
| 20. | Prof. İbrahim Bayramov | Elmi-tədqiqat istiqaməti üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 21. | Dos.Ərəstun Mehdiyev | Elmi-tədqiqat istiqaməti üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 22. | Dos.Qalib Şərifov | Keyfiyyətin təminatı istiqaməti üzrə özünütəhlil qrupunun rəhbəri, təlim və tədris özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 23. | P.ü.f.d.Leyla Əliyeva | Təlim və tədris istiqamətləri üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 24. | Vüsal Xəlilov | Təlim və tədris istiqamətləri üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 25. | Dos. Rəhman Səfərov | Təlim və tədris istiqamətləri üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 26. | Asəf Kazımov | Təlim və tədris istiqamətləri üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 27. | Könül Əsgərova | Təlim və tədris istiqamətləri üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 28. | Taleh Talıbov | Təlim və tədris istiqamətləri üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 29. | Zakir Nağıyev | İdarəetmə istiqaməti üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 30. | Mətanət Quliyeva | İdarəetmə, insfrastruktur istiqamətləri üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 31. | Qumral Qədimova | İdarəetmə istiqamətləri üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 32. | Zinharə Həsənova | Təlim və tədris, elmi-tədqiqat istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü | 15.11.2022-15.02.2023 |
| 33. | Günay Məhərrəmova | Beynəlmiləlləşmə istiqaməti üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 34. | Xuraman Əliyeva | İdarəetmə istiqaməti üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |

| | | | |
|---|---|---|---|
| 35. | Fərhad Mirəliyev | İdarəetmə, insfrastruktur istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü | 15.11.2022-15.02.2023 |
| 36. | Mehparə Əhmədova | Beynəlmiləlləşmə istiqaməti üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 37. | Aynurə Əsgərova | Beynəlmiləlləşmə istiqaməti üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 38. | P.ü.f.d. Xalidə Həmidova | Beynəlmiləlləşmə, təlim və tədris istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü | 15.11.2022-15.02.2023 |
| 39. | Tahir Süleymanov | İdarəetmə istiqaməti üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 40. | Ləman Seyidova | Strateji inkişaf istiqaməti üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 41. | Turan Kərimli | İdarəetmə, keyfiyyət təminatı istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü | 15.11.2022-15.02.2023 |
| 42. | Cavid Hüseynov | İdarəetmə, keyfiyyət təminatı istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü | 15.11.2022-15.02.2023 |
| 43. | F.ü.f.d. Tofiq Əhmədov | Beynəlmiləlləşmə istiqaməti üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 44. | Dos. Lalə Mürsəlbəyova | Təlim və tədris istiqaməti üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 45. | Natavan Həsənova | Elmi-tədqiqat istiqaməti üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 46. | Almara Abbasova | Elmi-tədqiqat istiqaməti üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 47. | Dos. Vurğun Məmmədov | İdarəetmə istiqaməti üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 48. | Prof. Əli Zalov | Elmi-tədqiqat istiqaməti üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 49. | Fil.ü. f.d.İlkin Əsgərov | Elmi-tədqiqat istiqaməti üzrə özünütəhlil qrupunun üzvü | 15.11.2022-15.02.2023 |
| 50. | Təhmasib İmaməliyev | Təlim və tədris, strateji inkişaf və keyfiyyət istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü | 15.11.2022-15.02.2023 |

**3. ADPU-nun öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyəti.**

ADPU-nun son akkreditasiya 2015/2016-ci tədris ilində keçirilmiş və onun nəticəsi barədə Azərbaycan Respublikası Təhsil Nazirliyinin 20.05.2016-cı il tarixli 327 nömrəli əmri verilmişdir. Əmrdə universitet rəhbərliyinə akkreditasiya zamanı aşkar olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün müvafiq tədbirlərin həyata keçirilməsi tapşırılmışdır.

Qeyd edək ki, ADPU-nun akkreditasiyadan keçirilməsi ilə bağlı qeyd edilən əmrə əsasən 2015/2016-ci ildə keçirilən akkreditasiyanın nəticələri ADPU-nun Elmi Şurasının 11 iyul 2016-cı il tarixli iclasında (protokol №16) geniş müzakirə olunmuş, ayrı-ayrı struktur bölmələrdə aşkar edilmiş nöqsan və çatışmazlıqlar struktur rəhbərlərinin nəzərinə çatdırılmışdır. Eyni zamanada ümumilikdə bu nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün Elmi Şura görüləcək işlərin istiqamətləri ilə bağlı qərar qəbul etmişdir. Qeyd edək ki, akkreditasiyanın nəticələri ilə bağlı Akkreditasiya Komissiyası tərəfindən təqdim edilmiş 361 səhifəlik hesabatda göstərilən nöqsan və çatışmazlıqların, iradların bir qismi akkreditasiya aparılan dövrdə və bu müzakirəyə qədər aradan qaldırılmışdır.

Bütün bunlarla yanaşı, Elmi Şurada ADPU-da akkreditasiya zamanı aşkarlanan, aradan qaldırılması tövsiyə olunan və aparılan kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi üçün universitetin idarəetmə fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə struktur bölmələrin sayının optimallaşdırılması, struktur bölmələrin maddi-texniki bazasının gücləndirilməsi, onlar arasında koordinasiya işinin və daxili əlaqələrin operativliyinin yüksəldilməsi üçün elektron əlaqələrin və sənəd dövriyyəsinin yaradılması, kafedraların elmi-pedaqoji kadr potensialının gücləndirilməsi və tədris prosesinə gənc alimlərin cəlb edilməsi, kargüzarlıq işinin kargüzalığın aparılmasına dair təlimatlara uyğun təşkil edilməsi və s. kimi məsələlərə xüsusi diqqət yetirilməsi, o cümlədən müvafiq islahatların aparılması tövsiyə edilmişdir. Bununla əlaqədar universitet üzrə 20.07.2016-cı il tarixli 3/314 nömrəli əmr verilmişdir.

Həmin dövrdən akkreditasiya ilə bağlı nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə əlaqədar ADPU-nun Təşkilat Komissiyasının hesabatını təhlil etmək, yerində müvafiq araşdırmalar aparmaq və nəticələri Akkreditasiya Şurasının müzakirəsinə təqdim etmək məqsədilə Təhsil Nazirinin 01.04.2015 tarixli, 345 saylı əmri ilə yaradılmış akkreditasiya komissiyasının iradları üzrə görülmüş işlər barədə məlumat aşağıdakı kimidir:

| № | İRADLAR | GÖRÜLMÜŞ İŞLƏR VƏ YA CAVABLAR |
|---|---|---|
| 1. | ADPU-nun idarəetmə sistemi, tədris sənədləri, struktur bölmələrinin qarşılıqlı fəaliyyətinin təşkili qanunvericiliyə və ADPU-nun Nizamnaməsinin tələblərinə uyğundur. Lakin Universitetin 04.12.2007-ci il tarixli Nizamnaməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21.01.2011-ci il tarixli “Ali təhsil müəssisələrinin Nümunəvi Nizamnaməsi”-nin əsas müddəalarını özündə əks etdirmir. Fakültə və kafedralarda onların fəaliyyətini tənzimləyən əsasnamə yoxdur. | ADPU-nun Universitet Elmi Şurasının 04.12.2007-ci il tarixli iclasında, qəbul edilərək 2008-ci ildə Təhsil Nazirliyində və Azərbaycan Respublikası Ədliyyə Nazirliyində təsdiq olunan Nizamnaməsi Nazirlər Kabinetinin 21.01.2011-ci ildə 9 nömrəli qərarı ilə təsdiq olunan Nümunəvi Nizamnamədən əvvəl hazırlandığına görə qeyd edilən nizamnamə Nümunəvi Nizamnamənin müddəalarını özündə tam əks etdirməyib. ADPU-nun Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21.01.2011-ci il tarixli 9 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin Nümunəvi Nizamnaməsi”nin tələblərinə uyğun hazırlanmış yeni Nizamnaməsi Universitet Elmi Şurasının iclasında müzakirə edilərək bəyənilmiş və təsdiq üçün 2016-cı ildə Təhsil Nazirliyinə təqdim edilmişdir. ADPU-nun publik hüquqi şəxsə çevriləcəyi nəzərə alınaraq 2016-cı ildə təqdim edilmiş |

| | | |
|---|---|---|
| | | nizamnaməyə baxılması o dövrdə məqsədə uyğun hesab edilməmişdir. Son nəticədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Dövlət Pedaqoji Univesitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi barədə" 12.08.2022-ci il tarixli 302 №-li Qərarına əsasən Azərbaycan Dövlət Pedaqoji Universiteti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Dövlət Pedaqoji Universitetinə çevrilmə yolu ilə yenidən təşkil edilmiş və Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olaraq yeni nizamnaməsi təsdiq edilmişdir. Qısa müddətdə bütün lazımi rəsmiləşdirmələr həyata keçirilmiş və universitetin publik hüquqi şəxs olaraq fəaliyyəti təmin edilmişdir.<br>ADPU-da fakültə və kafedralar öz fəaliyyətini Azərbaycan Respublikası Təhsil Nazirinin 10 noyabr 1997-ci il tarixli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisəsinin fakültəsi haqqında Əsasnamə" və 11 oktyabr 1994-cü il tarixli 595 nömrəli əmrinə əlavə 1 ilə təsdiq edilmiş "Ali məktəblərin kafedraları haqqında müvəqqəti Əsasnamə" əsasında təşkil etmişdir. Bu müddət ərzində qeyd olunmuş iradlar aradan qaldırılmış, bütün fakültə və kafedraların pasportu, onların fəaliyyətini tənzimləyən əsasnamələr hazırlanıb universitet EŞ-də təsdiq edilmişdir. |
| 2. | ADPU-da elmi tədqiqat işlərinin vəziyyəti, maddi-texniki baza mövcud tələblərə cavab vermir. | ADPU-da fəaliyyət göstərən elmi-tədqiqat laboratoriyalarının işinin yenidən qurulması məqsədilə ADPU-nun Elmi Şurasının 6 mart 2019-cu il tarixli 6 nömrəli qərarı ilə üç bölmədən ibarət Elmi-Tədqiqat Mərkəzi yaradılmışdır.<br>2016-2022-ci illərdə ADPU-nun 33 kafedra və elmi-tədqiqat mərkəzi (ETM) Universitet Elmi Şurasının 2016-2022-ci illər üçün təsdiq etdiyi mövzu planlarına uyğun olaraq, 541 problem, 2966 elmi-tədqiqat mövzularını yerinə yetirilmişdir. 318 sayda elmi-tədqiqat işləri tamamlanmışdır.<br>Universitetin kafedra və ETM-də yerinə yetirilən ETİ-lərin planları hər 3 ildən bir qəbul edilmiş elmi istiqamətlərə uyğunlaşdırılıb, kafedra iclaslarında, müvafiq fakültə Elmi Şuralarında müzakirə və təsdiq edilir. ADPU-nun Elmi təşkilati şöbəsi tərəfindən hazırlanmış elmi-tədqiqat işlərinin mövzu planı universitetin Elmi Şurasının qərarı ilə təsdiq edilir.<br>Hər il mütəmadi olaraq universitetin əksər kafedralarında professor-müəllim heyətinin, magistr, doktorant və gənc tədqiqatçılarının, uyğun kafedraların, müəssisə və təşkilatların |

| | | |
|---|---|---|
| | | nümayəndələrinin iştirakı ilə ETİ-nin nəticələrinin geniş müzakirəsi keçirilir.<br>ADPU-nun təsisçiliyi ilə 7 dövri elmi jurnal (2021-ci ildən “Linqvistika problemləri” Beynəlxalq elmi jurnalı və “Magistrant” dövri elmi jurnalı) nəşr edilir. |
| 3. | Azərbaycan Dövlət Pedaqoji Universiteti üzrə koordinasiyanın ümumi vəziyyəti zəifdir və daxili əlaqələr sistemsiz vəziyyətdədir. Bu sistemsizlik universitet daxili bütün işlərə öz mənfi təsirini göstərmişdir. | Akkreditasiya Komissiyasının işi dövründə universitetin 2 tədris binasının boşaldılması və yeni binalara köçürülməsi yəqin ki, Komissiyanın bu fikrə gəlməsinə səbəb olmuşdur. Hazırda bütün tədris korpusları arasında telefon və internet əlaqəsi yaradılmış, ADPU-nun yeni təşkilati strukturu formalaşdırılmış və bütün struktur bölmələri arasında üfüqi və şaqüli kommunikasiyaya nail olunmuş və bütün struktur bölmələri arasında koordinasiya təmin edilmişdir |
| 4. | Təhsil Nazirliyi tərəfindən universitetə göndərilən bütün hüquqi (qaydalar, tövsiyələr və s.) sənədlərlə tanışlıq, onlardan irəli gələn məsələlərlə bağlı məlumatlandırma işləri və bu işlərin aidiyyəti üzrə tətbiqi qeyri-rasional şəkildə həyata keçirilir. | Nazirlik, həmçinin digər qurumlar tərəfindən Universitetə göndərilən bütün hüquqi sənədlər, xüsusilə əsasnamələr, təlimatlar, qaydalar və s. rektorun əmri ilə bütün struktur bölmələrinə və onların vasitəsilə kollektivə çatdırılır. Son ildə bu istiqamətdə də işlər əsaslı şəkildə yaxşılaşdırılmış və ADPU-nun struktur bölmələrində qovluq indeksi sistemi tətbiq olunmuşdur. |
| 5. | İKT – tətbiqi ilə aparılan imtahanlar şəffaflığın və obyektivliyin təmin edilməsində səmərəli olsa da, tələbələrin yaradıcılıq qabiliyyətinin inkişafında istənilən effekti vermir. Bir çox hallarda tələbələr mövzunu ətraflı öyrənməkdənsə, əzbərçiliyə meyil edirlər. Universitetdə tədrisin keyfiyyəti aşağı düşmüşdür. Bunun əsas səbəbi qeyri- peşəkar, çoxlu redaktə səhvləri olan, sistemsiz şəkildə hazırlanmış “tapmaca” testlərdən istifadədir. Bunun aradan qaldırılması üçün fənn üzrə testlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində işlər aparılmalıdır. | Qeyd olunan nöqsanın aradan qaldırılması məqsədi ilə 2016-cı ildə tətbiq olunan bütün testlərin monitorinqi aparılmış və bu testlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində məqsədəyönlü işlər həyata keçirilmişdir.<br>Uzun illərdir ki, universitetdə tətbiq olunan VTS-Test imtahanları tələbələrin oxuma və öyrənmə vərdişlərini itirmələri, lazım olan biliyi öyrənmək əvəzinə testlərin cavablarını əzbərləmə kimi lazımsız vərdişin formalaşması, həqiqi biliyin əldə edilməməsi və s. öz mənfi təsirlərini göstərmişdir. Bundan başqa imtahan nəticələrinin real bilikləri əks etdirməməsi, məzunlarda öz fikir və düşüncəsini ifadə edə biləcək bacarığı formalaşdırmaması, Yekun Dövlət Attestasiyasında yüksək nəticə göstərmələrinə baxmayaraq, məzunların işə qəbul ilə bağlı keçirilən imtahanlarda çox aşağı nəticə göstərmələri və s. bu imtahan qaydalarının təkrar gözdən keçirilməsi zərurətini yaratmışdır. Tətbiq olunmuş bu imtahan forması müasir məktəblərin tələbi olan müasir, uğurlu məzunun əldə olunması üçün bir sıra kompetensiyaları ölçmür və yaxud ölçmək imkanına malik deyildir. Nitq, yazı vərdişləri, hər hansı seçim variantları ilə məhdudlaşmayan sərbəst və habelə tənqidi düşünmə bacarıq və vərdişlərini özündə əks |

| | | |
|---|---|---|
| | | etdirən yeni imtahan modelinin tətbiqi yüksəkixtisaslı kadrların hazırlanması üçün daha yaxşı nəticələr verəcəkdir. Bu məqsədlə də 2016/2017-ci tədrs ilindən etibarən ADPU-nun Elmi Şurasının qərarına uyğun olaraq bütün birinci tədris ili tələbələrinin, sonrakı illərdə isə digər tədris ili tələbələrinin semestr imtahanlarının yazılı və fənnin xüsusiyyətinə uyğun olaraq şifahi formada təşkilinə nail olunmuşdur<br>Hazırkı dövrdə ADPU-da fənnin xüsusiyyətinə uyğun olaraq semestr imtahanları, yazılı və şifahi formada təşkil olunur. |
| 6. | Test imtahanları 2 mərhələyə bölünmüşdür. I mərhələdə 51-70 bal toplayanlar kafi qiymətlə qiymətləndirilir. II mərhələdə 71-100 bal toplayanlar öz ballarını təsdiqləmək üçün yazılı imtahan verirlər. Beləliklə, Universitetdə 150 ballıq sistem tətbiq olunur. Bu da normativ sənədlərə zidddir. | 2016/2017-ci tədris ilindən etibarən test imtahan formasının iki mərhələli təşkili ləğv edilmişdir. Bakalavriat səviyyəsinin I tədris ilində təhsil alan tələbələr üçün imtahan yazılı formada, II-IV tədris ilinin tələbələri üçün isə spesifik fənlər istisna olmaqla, imtahanlar kompüter vasitəsilə test üsulu ilə, magistratura səviyyəsində isə imtahanlar yazılı şəkildə aparılmışdır. Qeyd edək ki, əvvəlki illərin qəbulu olan tələbələr öz arzularına əsasən test imtahanından imtina edərək, birbaşa yazılı imtahanlarda iştirak etmələri təmin edilmişdir. Hazırkı dövrdə ADPU-da bütün semestr və Yekun Dövlət Attestasiya imtahanları mövcud qaydaların tələblərinə uyğun olaraq 100 ballıq sistem üzrə təşkil edilir. |
| 7. | Azərbaycan Dövlət Pedaqoji Universitetinin son buraxılış məzunları, Təhsil Nazirliyi tərəfindən aparılan orta məktəblər üzrə işə qəbul imtahanlarında çox aşağı nəticə əldə etmişlər. Nəzərə almaq lazımdır ki, pedaqoji universitetin məzunları təhsil müəssisələri üçün hazırlanan müəllimlərdir. Bu müəllimlər müasir təhsilin prioritet istiqamətini təşkil edən “Təhsil proqramı (kurikulum)” dövlət islahat proqramından irəli gələn tələblərə cavab verəcək səviyyədə hazırlanmalıdırlar. | Həmin məsələ ilə bağlı Təhsil Nazirliyinin müvafiq arayışı Universitetin 18.06.2015-ci il tarixli (protokol № 11) Elmi Şurasında geniş müzakirə olunmuş, onun aradan qaldırılması istiqamətində görüləcək işlər müəyyənləşdirilmişdir. İlk növbədə, universitetdə təlimin keyfiyyətinin yüksəldilməsi üçün müvafiq fənn proqramlarının məzmununun yenilənməsinə, müəllim hazırlığı aparılan bütün ixtisaslarda “Ümumi təhsil kurikulumunun əsasları” kursu tədris edilməyə başlanılmışdır. Bundan əlavə fənlərin tədrisinin keyfiyyətinin yüksəldilməsi, təlim prosesində yeni təlim texnologiyalarının, o cümlədən İKT-dən istifadənin gücləndirilməsi üçün auditoriya və kafedralar müvafiq müasir texniki avadanlıqlarla təchiz edilmişdir. Bunun nəticəsində ADPU məzunlarının MİQ-də illər üzrə keçid balını topalayanların və işlə təmin olunanların dəyişən dinamikası müşahidə olunur. Xüsusilə son illərdə keçid balını toplayaraq təyinat alınanların sayında əhəmiyyətli dərəcədə artıma nail olunmuşdur. Belə ki, 2020/2021-ci tədris ilinin sonunda MİQ imtahanlarında iştirak edən məzunların 73%-i, 2021/2022-ci tədris ilində isə MİQ imtahanlarında |

| | | |
|---|---|---|
| | | iştirak edən məzunlarının isə 81%-i müvafiq keçid balını toplamışdır. |
| 8. | Bakalavriat səviyyəsinin 23 ixtisasından 8-də tədris planları ali təhsil pilləsinin dövlət standartı bakalavriat səviyyəsinin ixtisas üzrə təhsil proqramına uyğun gəlmir. Seçmə adlandırılan fənlərin alternativi yoxdur. | ARTN-i tərəfindən 2009-cu ildə təsdiq edilmiş Təhsil proqramları əsasında tərtib edilmiş tədris planları 5 bölmədən (humanitar fənlər bölümü, peşə hazırlığı fənləri bölümü, ixtisas fənləri bölümü, peşə hazırlığının seçmə fənləri bölümü, ixtisas fənləri bölümünün seçmə fənləri və xüsusi fənlər bölümü) ibarətdir. Tədris planlarında 720 saat həcmində nəzərdə tutulan seçmə fənlər 2 hissədən ibarət olurdu. Bu saatlardan təqribən 400 saatı ixtisasa uyğun fənlərin seçilərək alternativsiz (magistraturaya qəbulla bağlı hazırlıq məqsədilə), qalan 320 saat isə peşə hazırlığına istiqamətlənmiş seçmə fənlər kimi alternativli müəyyən olunması qəbul edilmişdir. Sonuncu təhsil proqramına uyğun hazırlanmış tədris planlarında seçmə fənlər peşə hazırlığına xidmət edən fənlər olmaqla alternativ fənlərlə qeyd olunmuşdur. 23 ixtisasdan 15-də bu tələb tam yerinə yetirilmiş, lakin bəzi ixtisaslarda, xüsusilə fundamental elmi ixtisaslarda elə fənlər var ki, bu fənlərin tələbələr tərəfindən öyrənilməsi gələcək peşə fəaliyyəti üçün zəruri olduğu üçün alternativsiz olaraq saxlanılmışdır. Xüsusəndə bu Riyaziyyat müəllimliyi, Riyazaiyyat və informatika müəllimliyi, İnformatika müəllimliyi, Fizika müəllimliyi, Kimya və biologiya müəllimliyi, Kimya müəllimliyi və s. ixtisasların tədris planlarında öz əksini tapmışdır. Qeyd edək ki, həmin tədris planları akkreditasiya dövründə yalnız I tədris ilində tətbiq olunduğundan seçmə fənlər üzrə seçim aparılmamışdır. Sonradan qeyd olunan ixtisasların tədris planında müvafiq dəyişikliklər aparılmış seçmə fənlər alternativlə verilmişdir. Sonunda qeyd edək ki, bütün bunlar yalnız 2009-cu ildə qəbul edilmiş tədris planlarına aiddir. Hazırda 2020-ci ildə qəbul edilmiş təhsil proqramları əsasında hazırlanmış tədris planları tətbiq edilir və bu tədris planlarında qeyd edilən nöqsana yol verilməmişdir. |
| 9. | Bütün ixtisaslarda tədris planlarından kənara çıxmalar var. Universitet üzrə fənn, müəllim, akademik məsləhətçi seçimi anlayışı yoxdur. | 2009-cu ildə qəbul edilmiş tədris planlarının tətbiqi 2014-cü ildə başa çatdırılmış və 2014-2019-cü illərdə 2014-cü ildə qəbul edilmiş tədris planları tətbiq edilmişdir. 2017/2018-ci tədris ilində və həmçinin 2018/2019-cu tədris illərində mövcud tədris planlarının monitorinqi aparılmış və müəyyən təkmilləşdirmələr həyata keçirilmişdir.<br>Hazırda 2020-ci ildə qəbul edilmiş təhsil proqramları əsasında hazırlanmış tədris planları tətbiq edilir və bu tədris planlarının tətbiqində özünütəhlil komissiyası tərəfindən kənara çıxma halı aşkarlanmamışdır. |

| | | |
|---|---|---|
| | | Universitetin müvafiq fakültələrində seçmə fənlərin tələbələr tərəfindən seçilməsinə əsasən nail olunmuşdur. Akademik məsləhətçilərin tələbələr tərəfindən seçilməsi üçün hər hansı bir təlimat və ya qayda mövcud olmadığı üçün akademik məsləhətçilərin tələbələr tərəfindən seçilməsinin həyata keçirilməsi mümkün olmamışdır. |
| 10. | Tədris prosesinin normal gedişini təmin etmək üçün informasiya-kommunikasiya texnologiyaları (İKT) vasitələrindən səmərəli istifadə etmək, auditoriya və laboratoriyaları kompüter texnikası ilə təmin etmək, ixtisas fənlərinin tədrisini müasir tələblər səviyyəsinə yüksəltmək, tədris prosesinin yeni formalarının tətbiqini təmin etmək, İKT vasitələri və kompüter otaqlarının daha müasir texniki avadanlıqlarla təmin edilməsi istiqamətində işlər gücləndirilməlidir. | ADPU-da Tədris İdarəetmə Sisteminin (LMS) qurulması və alınması əsas vəzifələrdən biridir. Hazırda ADPU-da informasiya idarəetmə sisteminin yaradılması üzrə fərqli platformalar üzərində işlər davam etdirilir və universitetin LMS-nin qurulması üçün imkanları gücləndirilir. Buna Elm və təhsil Nazirliyinin ATİS, DİM-in Tələbə və Məzun Məlumat Sistemi, o cümlədən Microsorf 365, Moodle və s. əlavə etmək olar.<br>Auditoriyaların təchizatına gəldikdə isə bütün tədris auditoriyalarının interaktiv lövhə, proyektor və kompüter ilə təmin olunması hədəf olaraq müəyyən edilmişdir. Qısa müddət ərzində bu istiqamətdə ciddi nəticələr əldə edilmişdir. Belə ki, bir sıra auditoriyalar artıq elektron lövhə dəsti ilə təchiz edilmiş, bir hissəsi isə proyektor ilə təmin olunmuşdur. Qısa müddət ərzində kompüter laboratoriyalarının sayı 2 dəfədən çox artmışdır. |
| 11. | Tədris korpuslarının müxtəlif ünvanlarda yerləşməsi, digər tədris korpuslarında internet əlaqəsinin olmaması informasiya təminatının səmərəliliyini zəiflədir. ADPU üçün korpusun tikilməsi bu problemin aradan qaldırılmasına imkan verə bilər. | ADPU-da inzibati və akademik heyətin internet şəbəkəsinə əlçatanlığını təmin etmək məqsədi ilə bütün tədris binalarında şəbəkə xətlərinin örtük ərazisi əhəməiyyətli dərəcədə artırılmışdır. Tədris binaları üzrə internet bağlantısının yekun sürəti 300 Mbit/s qədər artırılmışdır.<br>2019/2020-ci tədris ilində internetə çıxışı olan kompüterlərin (stolüstü, notbuk və monoblok) sayı 269 olduğu halda, bu say 2020/2021-ci tədris ilində 376 olmuş və bu sayın 2022/2023-cü tədris ilində isə 573-ə çatdırılması nəzərdə tutulmuşdur. |
| 12. | Universitetdə fəaliyyət göstərən 7 ETL-də aparılan tədqiqat işləri universitetin hesabına maliyyələşdirilir. Laboratoriyalarda aparılan elmi-tədqiqat işləri vasitəsilə universitetə əlavə vəsaitin cəlb edilməsi istiqamətində işlər gücləndirilməlidir. | 2019-cu ilə kimi universitetdə fəaliyyət göstərən 7 ETL universitetin daxili imkanları hesabına maliyyələşirdi. (“Yeni bioloji aktiv birləşmələr” ETL, “Koordinasiya birləşmələri” ETL, “Nadir torpaq elementləri” ETL, “Dədə Qorqud” ETL, “Türk araşdırmaları” ETL, “Pedaqoji təhsilin problemləri” ETL, “Bioinformatika” ETL-də ümumilikdə 61 nəfər əməkdaş fəaliyyət göstərirdi.) ADPU-da fəaliyyət göstərən elmi tədqiqat laboratoriyalarının işinin yenidən qurulması məqsədilə ADPU-nun Elmi Şurasının 6 mart 2019-cu il tarixli 6 nömrəli qərarı ilə üç bölmədən ibarət Elmi-tədqiqat mərkəzi yaradılmışdır. |

| | | |
|---|---|---|
| 13. | Elm sektorunun ayrıca maliyyələşməməsi səbəbindən təhsil haqqı vasitəsilə formalaşan xüsusi vəsaitin müəyyən bir hissəsinin bu sektora yönəldilməsi (məvacib, laboratoriya avadanlıqlarının alınması) universitetin tədrisə cəlb olunan maliyyə imkanlarını zəiflədir. Məsələn, professor-müəllim heyətinin elmi, tədris-metodiki ezamiyyətlərə göndərilməsi üçün ciddi vəsait ayırmaq olmur. | Qeyd olunan nöqsanın müəyyən qədər ortadan qaldırılması üçün bu sahədən əldə edilən vəsait (antiplagiat xidməti, təlimlər və s.) əvvəlki illərlə müqayisədə nisbətən daha az xüsusi vəsaitin cəlb olunmasına imkan vermişdir. Bundan başqa ADPU-da 2016-2022-ci illərdə müxtəlif qrant layihəsi hesabına maliyyələşən elmi-tədqiqat işləri yerinə yetirilmişdir. |
| 14. | Professor-müəllim heyətinin böyük əksəriyyətinin yaş həddi 65-dən yuxarıdır. | 2015-ci ildə ADPU-da akkreditasiya keçirilən zaman yaşı 65-dən yuxarı olan professor-müəllimlərin sayı ümumi heyətin 33%-ni təşkil etmişdir. Hələ 2016-cı ildə aparılmış təhlillər göstərmişdir ki, ADPU-nun professor-müəllim heyətinin əsas hissəsini yaşlı nəsil təşkil etmişdir.<br>Universitetdə kadrların gəncləşdirilməsi məqsədi ilə ADPU-nu fərqlənmə ilə bitirən magistr, doktorant, dissertantlar və eyni zamanda xaricdə təhsil almış peşəkar gənclərin işə cəlb olunması istiqamətində əməli işlər görülmüş və bunun nəticəsində yaşı 40-dan az olan professor-müəllim heyətinin ümumi heyətdə nisbəti 16%-dən 23%-ə qədər artmış, yaşı 70-dən çox olan professor-müəllim heyətinin ümumi heyətdə nisbəti 18%-dən 12%-ə qədər azalmışdır. Həyata keçirilən struktur islahatları nəticəsində ADPU-nun mövcud strukturu daha da sadələşmiş və ştat cədvəli əvvəlki illərlə müqayisədə daha da optimallaşmışdır. |
| 15. | ADPU-nun yataqxanalarında məcburi köçkünlərin yerləşməsi tələbələrin yataqxana ilə təmin olunmasına, tələbə mübadiləsinə imkan vermir. | ADPU-nun tabeliyində Bakı şəhərinin müxtəlif ərazilərində yerləşən 5 yataqxana fəaliyyət göstərir. ADPU-nun 4 yataqxanasında 626 məcburi köçkün ailəsi (2315 nəfər) məskunlaşıb. Bu da əksəriyyəti regionlardan olan tələbələrin sosiallaşmasına, tələbə və müəllimlərin mobilliyinə, xarici ölkə tələbələrinin ADPU-ya cəlb edilməsinə doğurdan da ciddi təsir edir. Gənclik kampusunda yerləşən tələbə yataqxanasında 2017-2018-ci ildə yaşayan tələbələrin sayı 172 nəfər, 2018-2019-cu ildə 162 nəfər, 2019-2020-ci ildə 162 nəfər, 2020-2021-ci ilə pandemiya ilə əlaqədar olaraq 13 nəfər, 2021-2022-ci ildə 141 nəfər hazırda (2022-2023-cü il) isə 124 nəfərdir. Tələbə yataqxanasında ümumi yer sayı 244 nəfərlikdir. |
| 16. | Universitetin nəzdində məktəbəqədər tərbiyə müəssisəsi | Azərbaycan Respublikası təhsil nazirinin 20 iyul 2016-cı il tarixli əmri ilə Bakı şəhərindəki Məmməd |

| | | |
|---|---|---|
| | və orta ümumtəhsil məktəbinin yaradılması pedaqoji kadr hazırlığının keyfiyyətinin yüksəldilməsinə əhəmiyyətli dərəcədə kömək edə bilər. | Rahim adına 7 nömrəli tam orta məktəb 2016-2017-ci tədris ilindən etibarən ADPU-nun baza məktəbi kimi müəyyən olunub. Bu əmrin verilməsi ölkəmizdə ardıcıl şəkildə həyata keçirilən təhsil islahatlarının, eləcə də yüksəkixtisaslı pedaqoji kadrların hazırlanması prosesinin tərkib hissəsidir və nəticə etibarilə təhsilin keyfiyyətinin yaxşılaşmasına xidmət edir.<br>2022-ci ildə ADPU-nun publik hüquqi şəxsə çevrilməsi univeristetə imkan vermişdir ki, ADPU-nun bazasında məktəbəqədər təhsil müəssisəsi və uşaq inkişaf mərkəzinin yaradılmasına da nail olunsun. Hazırda bu istiqamətdə zəruri işlərin icrasına başlanılıb. |
| 17. | Auditoriya fondunun azlığı tələbələrin sərbəst işlərinin yerinə yetirilməsində çətinliklər törədir. | Bu ilk növbədə Universitetin 2 tədris binasının boşaldılması və yeni qismən kiçik binalara köçürülməsi ilə əlaqədar olmuşdur. AMİ-nin ADPU-ya qoşulması ilə bu problem (auditoriya fondunun azlığı) qismən öz həllini tapmışdır. AMİ-nin ADPU-ya qoşulması ilə əlaqədar yeni tədris korpusunda və Təhsil İnstitutunun Təhsil Texnologiyalar Mərkəzinin müəyyən mərtəbələrində tədris təşkil edildiyindən bu problemi aradan qaldırmışdır. Hal-hazırda ADPU Səbail, Gənclik, Nərimanov, Nəsimi tədris korpuslarında tədris təşkil olunur. |
| 18. | Bakalavr pilləsində bir çox hallarda peşə hazırlığının və peşə hazırlığının seçmə fənlərinin müvafiq profilə uyğunluğu yoxdur. | Əvvəlki akkreditasiya komissiyasının hesabatında bu faktın yalnız kimya fakültəsində müşahidə olunduğu qeyd edilmişdir. Onu da qeyd edək ki, peşə hazırlığı bölümünün fənləri Nazirlik tərəfindən təsdiq edilmiş müvafiq təhsil proqramı ilə müəyyənləşdirilmiş və onlarda dəyişiklik aparmaq universitetin səlahiyyətində olmamışdır. Seçmə fənlər ilə bağlı odövrkü kimya kafedraları bu fənlərə magistratura səviyyəsində ehtiyac yaranacağını qeyd etmişlər. Bildiririk ki, dərs saatları azaldığından 2014-cü ildə təsdiq edilmiş təhsil proqramları əsasında hazırlanmış yeni tədris planlarında bu fənlər tədris planlarından çıxarılmışdır.<br>Bundan əlavə qeyd etmək istərdik ki, 2014-cü ildə qəbul edilmiş tədris planlarının 2017/2018-ci tədris ilində və həmçinin 2018/2019-cu tədris illərində monitorinqi aparılmış və müəyyən təkmilləşdirmələr həyata keçirilmişdir.<br>Hazırda 2020-ci ildə qəbul edilmiş təhsil proqramları əsasında hazırlanmış tədris planları tətbiq edilir və bu tədris planlarına daxil edilmiş fənlər müasir dövrün və əmək bazarının tələblərinə cavab verir. |

| | | |
|---|---|---|
| 19. | Magistratura və bakalavriat səviyyələrində təkrar olunan fənlər çoxdur. | Bu fakt yalnız Kimya fakültəsində 2009-cu ildə təsdiq edilmiş tədris planında müəyyən edilmişdir. Doğrudur, bakalavriat səviyyəsində tədris olunan “Kimyanın tədrisi metodikası” və magistratura təhsil səviyyəsində tədris olunan “Kimyanın tədrisi metodikası” fənlərinin eyni adla verilmişdir. Qeyd etmək istərdik ki, bu fənlər eyni adla verilsə də, fənlərin məzmunu müxtəlif olmuşdur. Belə ki, bakalavriatura səviyyəsində “Kimyanın tədrisi metodikası” orta məktəbdə kimyanın tədrisi məsələlərindən, magistratura təhsil səviyyəsində tədris olunan “Kimyanın tədrisi metodikası” ali məktəblərdə kimyanın tədrisi məsələlərindən bəhs edir. Bakalavriatura səviyyəsində tədris olunan “Üzvi reagentlərin analitik kimyada tətbiqi” və magistr səviyyəsində tədris olunan “Analitik kimyada üzvi reagentlər” fənlərini də Akkreditasiya Komissiyası hesabatında təkrarlanan fənn kimi qeyd edilmişdir. Bildiririk ki, magistratura səviyyəsində tədris olunan “Analitik kimyada üzvi reagentlər” fənni bakalvriatura səviyyəsində “Üzvi reagentlərin analitik kimyada tətbiqi” fənni üzrə öyrənilən biliklərin dərinləşməsi, genişlənməsi və inkişafına xidmət etmişdir. Qeyd edək ki, 2014-cü və həmçinin 2020-ci ildə təsdiq edilmiş təhsil proqramları əsasında hazırlanmış yeni tədris planında bu nöqsan aradan qaldırılmışdır. |
| 20. | Kafedra və ETL-də elmi-tədqiqat işlərinin və tədrisin təşkili üçün cihaz və avadanlıqlarla, reaktivlərlə təminat qeyri-qənaətbəxşdir. | ADPU-da fəaliyyət göstərən elmi-tədqiqat laboratoriyalarının işinin yenidən qurulması məqsədilə ADPU-nun Elmi Şurasının 6 mart 2019-cu il tarixli 6 nömrəli qərarı ilə mövcud olan ETL-lər ləğv edilərək onların bazasında üç bölmədən ibarət Elmi-tədqiqat mərkəzi yaradılmışdır.<br>Universitetin tədris laboratoriyalarının müasir tələblər səviyyəsində qurulması ilə əlaqədar müəyyən işlər görülmüşdür. 2015-ci ildə Azərbaycan Respublikasının təhsil nazirinin təşəbbüsü ilə universitetdə müasir Kimya, Fizika və Biologiya laboratoriyaları qurulmuşdur. Sonrakı dövrlərdə tədris laboratoriyalarının daha da inkişaf etdirilməsi istiqamətinə müəyyən işlər davam etdirilmişdir. |
| 21. | Pedaqoji yönümlü olmayan magistratura ixtisaslarının bəzilərinin maddi-texniki bazası yoxdur. | 2016/2017-ci tədrisilindən etibarən ADPU-da pedaqoji yönümlü olmayan bütün ixtisaslar üzrə qəbul dayandırılmışdır. |
| 22. | Azərbaycan Dövlət Pedaqoji Universitetində professor-müəllim heyətinə saathesabı qaydada dərs saatlarının verilməsi (Təsviri incəsənət, rəsmxət kafedrasında | ADPU-da Nazirlər Kabinetinin qeyd edilən qərarına tam əməl edilir. Qeyd etmək istərdik ki, istinad edilən qaydalar, yalnız ştatda olan müəllimlərin auditoriya və auditoriyadankənar dərs saatlarının nisbətinə aiddir və bu qərarın saathesabı dərslərin miqdarına aidiyyəti |

| | | |
|---|---|---|
| | ümumi dərs yükünün 58,9 faizi saathesabı qaydada verilib) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.11.2010-cu il tarixli “Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında” qərarına və Azərbaycan Respublikası Təhsil Nazirinin əmrinə ziddir. | yoxdur. Universitet kafedraların ştatlı müəllimlərlə təmin edilməsinə ciddi əhəmiyyət verir. Lakin Təsviri incəsənət müəllimliyi ixtisası üzrə qeyd olunan illərdə qəbul planının artması müəllimlərə olan tələbatı artırmışdır və bu ixtisaslı müəllimlərlin ştata gətirilməsi ilə bağlı müəyyən çətinliklər yaratmışdır.<br>Hazırda tədris prosesində iştirak edən və əsas iş yeri ADPU olan akademik heyətin ümumi akademik heyətdə payı (faizlə) 2016-ci ildən 2022-ci ilədək artmışdır. Hazırda əsas iş yeri ADPU olmayan akademik heyət ümumi akademik heyətin 12%-i təşkil edir. |
| 23. | Eyni zamanda kafedranın digər kafedradan dərs yükü alması və başqa kafedraya dərs yükü verməsi praktikası tədris prosesinin keyfiyyətinin aşağı düşməsinə səbəb olur. | Belə halların qarşısını almaq məqsədilə kafedraların sayının optimallaşdırılması aparılmış, eyni profilli, dərs yükü az olan kafedralar birləşdirilmiş və 2016-cı ildə kafedraların sayı 46-dan 39-a endirilmişdir. Daha sonrakı illərdə ADPU-nun mövcud strukturu daha da sadələşmiş, ştat cədvəli əvvəlki illərlə müqayisədə daha da optimallaşmış kafedraların sayı 33-ə endirilmişdir.<br>Hazırda kafedranın digər kafedradan dərs yükü alması və başqa kafedraya dərs yükü verməsi praktikası böyük ölçüdə aradan qldırılmış və bunun növbəti illərdə tamamən ortadan qaldırılması nəzərdə tutulmuşdur. |
| 24. | Dərs yükü kafedralarda normativlərə uyğun bölünməlidir, bəzən bir müəllimin dərs yükü bir semestrdə, ancaq kurs işindən ibarət olur. | Universitetdə hazırda mövcud olan 33 kafedranın hər birinin tədris yükünün müvafiq normalara uyğun bölünməsi daima ciddi nəzarətdə saxlanılır. Tədris yüklərinin bir semestrdə yığılmasının qarşısını almaq məqsədi ilə həm 2017/2018-ci tədris ilində və həmçinin 2018/2019-cu tədris illərində mövcud tədris planlarının monitorinqi aparılmış və bu halın aradan qaldırılmasına çalışılmışdır. Bundan başqa 2020-ci ildə qəbul edilmiş tədris planlarında bu halın tamamən ortadan qaldırılması üçün müxtəlif ixtisaslarda tədris olunan eyni fənlərin müxtəlif semestrlər üzrə bölgüsünə xüsusi diqqət yetirilmişdir. |
| 25. | Dərs yükləri professor-müəllim heyəti arasında tədris ili başlamamışdan bölünməli olduğu halda 2013/2014-cü tədris ilinin noyabr-dekabr aylarında 5770 saat dərs yükü 15 professor-müəllimə saathesabı qaydada verilmişdir. | Hər tədris ilinin birinci yarsının sonlarına doğru (əsasən aprel, may aylarında) ADPU-da hər ilin növbəti tədris ilinə hazırlıqla əlaqədar müvafiq əmr verilir. Əmrə əsasən yeni tədris ili üçün tədris yükləri hesablanır və əsasən professor-müəllim heyəti əmək məzuniyyətinə çıxmadan bölünür, sentyabr ayında isə DİM-in keçirdiyi qəbul imtahanlarının yekunlarına əsasən tədris yükündə müvafiq dəqiqləşmələr aparılır. Göstərilən qeydlə əlaqədar isə onu bildirmək istərdik ki, bu saatlar əsasən semestrlər ərzində analıq məzuniyyətinə çıxan, dünyasını dəyişən və ya |

| | | |
|---|---|---|
| | | gözlənilmədən səhhətində problem yaranan professor-müəlllim heyətinin tədris yüklərinin saathesabı qaydada digər müəllimlərə həvalə edilməsi ilə bağlı olmuşdur. |
| 26. | Azərbaycan Dövlət Pedaqoji Universiteti tədris metodiki şöbəsindən saathesabı qaydada verilən dərslərin miqdarı ilə bağlı arayış və Azərbaycan Dövlət Pedaqoji Universiteti mühasibatlığından saathesabı qaydada tədris olunan dərs saatlarına görə ödənilən vəsaitlə bağlı arayışdakı məlumatlar arasında fərqlər var. | Qeyd olunan nöqsanın baş verməməsi üçün hər tədris yarımilinin əvvəlində Tədris departamentinin müvafiq şöbəsi ADPU-nun maliyyə şöbəsinə proqnozlaşdırılan tədris yükləri barədə müvafiq məlumat verir. Bunun davamında yarımilin və həm də tədris ilinin yekununda icra edilmiş tədris yükləri barədə də əlavə məlumat göndərilir. Nəticədə Tədris departamentinin müvafiq şöbəsinin fəaliyyəti ilə universitetin maliyyə şöbəsinin tədris yükləri, bu yüklərin icra vəziyyəti və saathesabı qaydada yerinə yetirilmiş yüklərin əməkhaqqının ödənilməsi barədəki fəaliyyətləri sinxronlaşdırılır. |
| 27. | Tələbə qəbulu üzrə Dövlət Komissiyasından göndərilən I kursların əmrləri Universitetdə tədris qrupları şəklində yenidən əmrləşdirilmir. Bu da sonradan bəzi çətinliklər törədir. | 2016/2017-ci tədris ilindən etibarən DİM-in keçirdiyi qəbul imtahanlarının yekununa əsasən ADPU-ya qəbul olunmuş bütün tələbələrin fakültələr üzrə müvafiq tədris qruplarına bölünməsi barədə əmr verilir. |
| 28. | Professor-müəllim heyətinin və texniki işçilərin əmək intizamını pozması halları çoxdur. | Əmək intizamının möhkəmləndirilməsi məqsədilə 2016/2017-ci tədris ilindən başlayaraq bütün struktur bölmələrin əməkdaşlarının və professor-müəllim, tədris-köməkçi heyətinin işə davamiyyəti müvafiq qeydiyyat kitabı ilə aparılır. Xüsusilə, 2016/2017-ci tədris ilindən etibarən tədris-yardımçı, professor-müəllim, adminstrativ və digər işçi heyətin əmək intizamının qorunub saxlanılması məqsədiylə bir sıra tədbirlər həyata keçirilmişdir. Bu məqsədlə də universitetdə intizamı daha da yaxşılaşdırmaq üçün ADPU rektorunun 18 iyul 2016-cı il tarixli 40-k nömrəli əmri ilə “Azərbaycan Dövlət Pedaqoji Universitetinin İntizam komissiyası haqqında əsasnamə” təsdiq edilmiş, əmək intizamı qaydalarına əməl olunmasına nəzarət məqsədilə universitetin əməkdaşlarından ibarət gündəlik fəaliyyət göstərən işçi qrupu yaradılmışdır. Bundan başqa ADPU əməkdaşlarının elmi və təşkilatı fəaliyyətindən səmərəli istifadə edilməsi, tədris prosesinin yüksək səviyyədə təşkil edilməsi və universitetdə əmək intizamının daha da yaxşılaşdırılması məqsədi ilə ADPU rektorunun əmri ilə “Azərbaycan Dövlət Pedaqoji Universitetinin daxili fəaliyyət qaydaları” təsdiq edilmişdir.<br>ADPU-nun çoxminlik kollektivə malik olmasını, şəffaflığı və kollegiallığı təmin etmək üçün Ağsaqqallar Şurası, Daxili fəaliyyət qaydalarına riayət |

| | | |
|---|---|---|
| | | olunmasını təmin etmək üçün intizam işlərinə baxan İntizam Komissiyası, tədris prosesində və o cümlədən imtahan sessiyası zamanı universitetdənkənar ictimai nəzarəti həyata keçirən İctimai Şura və s. bu kimi ictimai qurumlar fəaliyyət göstərir.<br>ADPU-da çalışan əməkdaşların əmək hüquqlarının qoruması, əmək intizamının qorunması istiqamətində işlər mütəmadi davam etdirilməkdədir. |
| 29. | Tələbələrin müəllim rəhbərliyi ilə auditoriyadankənar sərbəst işləri semestrin axırında və dərs vaxtı qəbul edilir. | Tələbələrin müəllimin rəhbərliyi ilə auditoriyadankənar sərbəst işlərinin dərs saatlarında qəbul edilməməsinə nəzarət olunur, həmçinin tələbələrin sərbəst işlərinin semestr boyu qəbulu dərs saatlarından kənar saatlarda həyata keçirilir. |
| 30. | Müəllimlik ixtisaslarında mülki müdafiə və tibbi biliklərin əsasları fənləri 45:105 nisbətində keçilmir. | Qeyd olunan məsələ 2009 və 2014-cü ildə qəbul edilmiş tədris planlarını ehtiva etmişdir. Buna cavab olaraq qeyd etmək istrdik ki, Azərbaycan Respublikasının səhiyyə nazirinin, Azərbaycan Respublikasının təhsil nazirinin və Azərbaycan Respublikasının müdafiə nazirinin 1999-cu ildə birgə təsdiq etdiyi “Azərbaycan Respublikasında pedaqoji və digər humanitar dövlət və qeyri-dövlət ali məktəblərində Mülki müdafiə üzrə tibb bacılarının sanitar təlimatçıların hazırlanması haqqında Əsasnamə”yə uyğun olaraq müəllimlik ixtisaslarının hamısında “Mülki müdafiə və tibbi biliklərin əsasları” fənləri 45:105 saat nisbətində tədris edilir. Buna o dövrlərdə tətbiq olunmuş fənn proqramları və müəllimlərin fənn sillabusunu nəzərdən keçirməklə əmin olmaq olar. O dövrdə bu ümumiləşməyə Akkreditasiya Komissiyasının üzvləri ixtisaslar üzrə tədris planında bu fənnin semestrlər üzrə bölgüsünə əsasən gəliblər. Belə ki, bir sıra ixtisasların tədris planında bu fənnin tədrisi 2 semestrdə bərabər şəkildə nəzərdə tutulmuşdu. Bu iki fənn üzrə nəzərdə tutulan 150 saatın birinci semestrdəki 75 saatının 45 saatında Mülki müdafiə, qalan 30 saat və II semestrdəki 75 saatında (cəmi 105 saat) Tibbi biliklərin əsasları tədris olunmuşdur. Onu da qeyd etmək lazımdır ki, sonda bu fənnin tədrisi hər iki kursu əhatə etməklə bir dövlət imtahanı ilə yekunlaşmışdır. Bəzi ixtisaslar üzrə tədris planlarında bölgünün belə aparılması o dövrdə tədris planının tərtibinə verilən tələblərdən (həftəlik tədris yükünün orta hesabla 24 saat və semestr ərzində kreditlərin sayına (30 kredit) qoyulan məhdudiyyətdən) və 105 saatlıq dərsin bir semestrdə keçilməsinin ağırlığı, həmçinin birinci tədris ilində Xarici dil fənninin tədrisinin də nəzərdə tutulması ixtisas fənlərinin məntiqi ardıcıllığının |

| | | |
|---|---|---|
| | | qurulmasında yaranan problemlərin aradan qaldırılması zərurətindən yaranmışdır.<br>Hazırda bu məsələ aktuallığını tamamillə itirmiş və 2020-ci ildə qəbul edilmiş təhsil proqramlarında pedaqoji yönümlü ixtisaslarda Mülki müdafiə və ilkin tibbi yardım fənni üçün 6 kredit və 60 auditoriya saatının bir semestrdə tədrisi nəzərdə tutulmuşdur. |
| 31. | Azərbaycan Dövlət Pedaqoji Universitetinin əlavə təhsil fakültəsinə qəbul edilən bəzi tələbələrin baza ali təhsil almalarının hüquqiliyi ilə əlaqədar həmin şəxslərin TQDK xətti ilə ali təhsil müəssisələrininə daxil olmaları barədə və diplomlarının dövlət standartlarına uyğunluğu barədə Azərbaycan Respublikası Təhsil Nazirliyinin məktubları təqdim edilmədi. | 2016-cı ilə qədər olan dövrdə ADPU-da əlavə təhsil fakültəsinə sənəd vermiş bütün tələbələrin baza təhsillərinə dair sənədləri Təhsil Nazirliyinə təqdim edilmiş, Təhsil Nazirliyi onların ekspertizası əsasında qəbulu məqbul hesab edilən tələbələrin siyahısını müəyyənləşdirmişdir. Yalnız bundan sonra həmin şəxslərin universitetə qəbulu həyata keçirilmişdir.<br>2016/2017-ci tədris ilində qeyd edilən fakültə ləğv edilərək onun bazasında Davamlı təhsil və təlim şöbəsi və 2019-ci ildə bu şöbə də ləğv edilərək onun bazasında Davamlı təhsil və innovasiyalar şöbəsi yaradılmışdır. Hazırda bu şöbə də ləğv edilmiş və eyni adla müvafiq bölmə yaradılmışdır.<br>Məlumat üçün qeyd etmək istərdik ki, 2021-ci ildən etibarən bütün pedaqoji ixtisaslar üzrə əlavə təhsilə tələbə qəbulu təhsil nazirinin müvafiq əmri ilə ləğv edildiyi üçün 2021-ci ildən etibarən ADPU-ya əlavə təhsil üçün tələbə qəbulu həyata keçirilmir. |
| 32. | Azərbaycan Dövlət Pedaqoji Universitetinə son 5 ildə ödənişli əsaslarla qəbul edilən tələbələrin sayı (60%), dövlət sifarişi ilə qəbul olanların (40%) sayından çoxdur. | Son illər ölkəmizdə həyata keçirilən təhsil islahatları cəmiyyətdə müəllim peşəsinin nüfuzunun əhəmiyyətli şəkildə artdığını göstərməkdədir. Gənclərin ixtisas seçərkən müəllimlik peşəsinə üstünlük verdikləri, ali təhsil müəssisələrində pedaqoji ixtisaslara qəbul olunanların göstəricilərinin kifayət qədər artdığı müşahidə olunur. Bunun nəticəsidir ki, ADPU-ya dövlət sifarişi ilə qəbul olan tələbələrlə ödənişli əsaslarla qəbul olunan tələbələrin nisbətində müsbət dinamika müşahidə edilir. Belə ki, 2015/2016-cı tədris ilində Universitetə dövlət sifarişi ilə qəbul olanların nisbəti 66%, ödənişli əsaslarla qəbul olanların nisbəti 34%, 2016/2017-ci tədris 57% və 43%, o cümlədən 2017/2018-ci tədris ilində dövlət sifarişi ilə qəbul olanların nisbəti ilə ödənişli əsaslarla qəbul olanların nisbəti 50% - 50% arasında bərabər, 2018/2019-cu tədris ilində müvafiq olaraq 43% və 57%, 2019/2020-ci tədris ilində 63% və 37%, 2020/2021-ci tədris ilində 69% və 31%, 2021/2022-ci tədris ilində 66% və 34%, 2022/2023-cü tədris ilində isə 64% və 36% olmuşdur.<br>Nəticə etibarilə son 4 il üzrə dövlət sifarişli tələbələrin nisbəti artım göstərərək 63-69 faiz arasında dəyişmişdir. |

| | | |
|---|---|---|
| 33. | Azərbaycan Dövlət Pedaqoji Universitetində tərtib edilən sənədlərin əksəriyyəti Azərbaycan Respublikası Prezidentinin 27.09.2003-cü il tarixli Fərmanı ilə təstiq edilmiş "Dövlət idarə, müəssisə və təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimata" uyğun tərtib edilməmişdir. Azərbaycan Dövlət Pedaqoji Universitetinin müxtəlif bölmələrində tərtib edilən əmrlərin tarixləri, nömrələri və məzmunu pozularaq yenisi ilə əvəzlənmiş, bəzi əmrlərdə məzmun yazılması əvəzinə işarələr qoyulmuşdur. | ADPU-da kargüzalıq işi Azərbaycan Respublikası Prezidentinin 27.09.2003-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimata" və sonrakı illərdə ona edilmiş müvafiq dəyişiklik və əlavələrə əsasən təşkil edilmiş və struktur bölmələrində illər üzrə qovluqlar formalaşdırılmışdır. Struktur bölmələrində hazırlanan bütün sənədlər, o cümlədən məktublar, əmrlər və s. kargüzarlığın tələblərinə uyğun hazırlanır. Bununla əlaqədar universitet üzrə 08.10.2015-ci il tarixli 3/277 nömrəli xüsusi əmr verilmiş və bütün struktur bölmələrə təlimat çatdırılmışdır. Təlimata əməl olunması ciddi nəzarətdə saxlanılır. |
| 34. | Azərbaycan Dövlət Pedaqoji Universitetində dosent V.K.Əliyevin 18 illik rəhbərliyi ilə Həmkarlar İttifaqı Komitəsi fəaliyyət göstərir. Həmkarlar komitəsinin sədri komitənin fəaliyyəti barədə məlumat verməkdən imtina etdi. | ADPU Azad Həmkarlar Komitəsi öz fəaliyyətini "Həmkarlar ittifaqları haqqında Azərbaycan Respublikasının Qanunu"na (24.02 1994-cü il № 792) uyğun təşkil edir. Qeyd olunan qanunun 5-ci maddəsinin (Həmkarlar ittifaqlarının müstəqilliyi) tələblərinə uyğun olaraq ADPU Azad Həmkarlar Komitəsi dövlət orqanlarından, müəssisələrdən, siyasi partiyalardan və ictimai birliklərdən asılı olmayıb, onlara hesabat vermirlər. Buna baxmayaraq məlumat üçün qeyd etmək istərdik ki, ADPU Azad Həmkarlar Komitəsi öz fəaliyyətləri barədə mütəmadi olaraq yuxarı təşkilat qarşısında və universitet Elmi Şurasında hesabat verir. |

## II. Azərbaycan Dövlət Pedaqoji Universitetinin özünütəhlili

### 4. Özünütəhlil qiymətləndirməsinin icmalı

Azərbaycan Dövlət Pedaqoji Universiteti Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (bundan sonra – Agentlik) F-181 nömrəli 14 noyabr 2022-ci il tarixli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq qiymətləndirilmişdir. Özünütəhlilin məqsədi təhsil müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. Təhsil müəssisəsinin özünütəhlili Elmi Şuranın 22 noyabr 2022-ci il tarxli (Protokol №2) qərarı ilə təsdiqlənmiş Təşkilat Komissiyası tərəfindən aparılmışdır. Təşkilat Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir:

### 1. STRATEJİ İNKİŞAF

#### 1.1. Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri

Ölkəmiz müstəqillik əldə etdikdən sonra təhsil sistemində baş verən dəyişikliklər və ortaya çıxan bəzi çətinliklərlə, həmçinin həyata keçirilən islahatlarla ayaqlaşmaqda, müasir çağırışları cavablandırmaqda ADPU daha mühafizəkar davranmışdır. Cəmiyyətdə müəllim nüfuzunun aşağı düşməsi, təhsilin bəzi hallarda ikinci plana keçməsi, habelə müəllimlik ixtisaslarının abituriyentlər tərəfindən cəlbedici olmaması bu problemləri daha da dərinləşdirmişdir. İqtisadi çətinliklər istedadlı gənclərin daha az gəlir vəd edən elm və təhsil sahəsindən özəl sektora yönəlməsinə, elmi-pedaqoji kadrların daha da yaşlanmasına, gənc alimlərin sayının azalmasına səbəb olmuşdur. Pedaqoji kadrların müasir tələblər səviyyəsində hazırlanmasını təmin etmək, ali təhsil müəssisələrinin sayını optimallaşdırmaq, mövcud maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyini artırmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 26 noyabr 2015-ci il Sərəncamına əsasən Azərbaycan Müəllimlər İnstitutunun ADPU-ya qoşulması, onun filiallarından bəzilərinin bağlanması, mövcud olan filialların işinin gücləndirilməsi zərurəti ADPU-nun ali məktəb olaraq qayğılarını bir qədər də artırmışdır (https://e-qanun.az/framework/31421).

Dövlətin uğurlu təhsil siyasəti, habelə son bir neçə ildə universitetdə kadr dəyişiklikləri nəticəsində ADPU-da yeniləşmənin, təhsilin keyfiyyətinin daha da yaxşılaşmasının, işçi heyətin daha da optimallaşmasının, akademik strukturun və infrastrukturun daha da təkmilləşməsinin şahidi oluruq. Amma daha uzunmüddətli, dinamik davamlı inkişafa nail olmaq üçün təkmil strateji inkişaf üzrə fəaliyyət planının olması zəruri olmuşdur.

ADPU-nun Elmi Şurasının 12 fevral 2015-ci il tarixli iclasının (protokol № 9) qərarı ilə 2015-2020-ci illər üçün Strateji İnkişaf Planı qəbul edilmişdir. 07 iyun 2016-cı il Təhsil Nazirliyinin Akkreditasiya Şurasının qərarı ilə ADPU 5 il müddətinə akkreditasiya edilmiş və bir çox qeydlər bildirilmişdir. Həmçinin 2016-cı ilin ikinci yarısında Təhsil Nazirliyinin tapşırığı ilə ADPU üçün Tofiq Əhmədov tərəfindən “Transformasiya üçün Yol Xəritəsi” və Nəzrin Bağırova tərəfindən isə ADPU-da “Tədrisin Keyfiyyətinin Yüksəldilməsinə dair 10 illik Strateji İnkişaf Planı” adlı iki fərqli sənəd layihələri də hazırlanmış, lakin bu sənədlər rəsmiləşdirilməmişdir. Sənədlərin hazırlanması zamanı bütün maraqlı tərəflər araşdırmaya cəlb edilmiş, onlarla sorğular keçirilmiş və GZİT (SWOT) analizi edilmişdir. ADPU-nun rəhbərliyi Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyasını, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nı,

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" adlı Fərmanı və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"ni, o cümlədən Miniliyin İnkişaf Məqsədlərini, Davamlı İnkişaf üzrə Təhsil Məqsədlərini əsas götürmüş, yerli və beynəlxalq ekspertlərin ADPU-da apardığı tədqiqatların nəticələrində verdiyi təklifləri nəzərə almış və ADPU-nun 2018-2021-ci illər üzrə Strateji İnkişaf Planını hazırlamışdır (https://adpu.edu.az/images/adpu_files/universitet/haqqimizda/strateji-plan.pdf). Bu, əsas sənəd olaraq icra edilmişdir. SİP-də müəyyən edilən məqsəd və hədəflər ADPU-nun "Milli şüura malik tədqiqatçı, məhsuldar, dərin düşüncəli, elmə, insan hüquqlarına hörmət edən, yaradıcı və innovativ, fərdlər - pedaqoqlar yetişdirmək və təhsil, tərbiyə, araşdırma və s. digər elmi tədbirlər vasitəsilə cəmiyyətin texnoloji, sosial-iqtisadi və mədəni səviyyəsinin yüksəldilməsinə töhfə vermək" missiyasına uyğun müəyyən edilmişdir.

Bu SİP yuxarıda qeyd olunanlar işığında 2021-ci ilədək olan dövrdə müəyyənləşmiş inkişaf istiqamətləri üzrə əsas hədəflərə yönəlməyə, nəticəyə istiqamətlənmiş idarəetmənin daha da gücləndirilməsinə xidmət etmişdir.

ADPU-nun son 6 ildə təhsilin keyfiyyətinin yaxşılaşdırılması, məzmunun yenilənməsi professor-müəllim heyətinin səriştələrinin daha da gücləndirilməsi, müasirləşdirilməsi, tələbə məmunluğunun artırılması, MİQ nəticələrinin yüksəldilməsi, yeni magistr proqramlarının açılması, SABAH qruplarının artırılması, SABAH magistratura proqramının, eksperimental qrupların yaradılması, Azərbaycan bölməsi ilə yanaşı, Rus və İngilis bölmələrinin genişləndirilməsi, universitet müəllimlərinin elmi nəticələrinin keyfiyyətinin artması, beynəlxalq tədqiqatlara cəlb olunması, yeni innovativ layihələr həyata keçirməsi, beynəlxalq əlaqələrin, ikili diplom proqramlarının yaradılması və s. sahələrdə görülmüş işlər missiya və gələcəyə baxışdan irəli gələn, əmək bazarının və təhsil sisteminin ehtiyaclarından doğan reallıqlar olmuşdur.

Həmçinin professor-müəllim heyətinin reytinq qiymətləndirmə sisteminin, daxili institusional qiymətləndirmənin tətbiqi, Elm və Təhsil Nazirliyi ilə birgə illik iş planı, əqli mülkiyyətin qorunması sisteminin (antiplagiat) qurulması, təhsilin inklüzivləşdirilməsi siyasətinə dəstəyi (YUNİSEF və RİİB ilə layihələr), qısamüddətli təlim proqramları, mobillik imkanları bu yeniləşmə prosesində istifadə edilmiş əsas alətlərdən olmuşdur.

Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayevin 25 iyun 2021-ci ildə imzaladığı müvafiq əmrlə Azərbaycan Dövlət Pedaqoji Universitetində strateji inkişaf məsələləri üzrə prorektorluq yaradılmışdır. 07 oktyabr 2021-ci il tarixli Elmi Şuranın qərarı ilə Strateji inkişaf məsələləri üzrə prorektorluğun nəzdində Strateji İnkişaf Mərkəzi təsis edilmişdir.

Qeyd edək ki, ADPU-nun 2018-2021-ci illər üzrə Strateji İnkişaf Planının icrası 29.12.2022-ci il Elmi Şuranın qərarı ilə 2023-cü ilin sonuna qədər uzadılmışdır. Elmi Şuranın 14.09.2022-ci il tarixli qərarı ilə "ADPU 2023-2030" Strateji İnkişaf Planının hazırlanması üzrə işçi qrup yaradılmışdır.

## 1.2. Strateji inkişaf proqramının icrası və monitorinqi

"ADPU-2021" Strateji İnkişaf Planında 5 əsas istiqamət üzrə tədris və ümumi idarəçilik işləri üzrə 102, elm və innovasiyalar üzrə 65, beynəlxalq əlaqələr və inkişaf sahəsi üzrə 34, inzibati və iqtisadi işlər üzrə 32, sosial və humanitar işlər üzrə 31 olmaqla, cəmi 264 işin görülməsi nəzərə tutulmuşdur. Bu işlərindən 238 iş tam icra edilmiş (90%), 21-i qismən icra edilmiş (8%) və 5 iş isə icra (2%) edilməmişdir. Universitetin bütün struktur bölmələri bu işlərin icrasına birbaşa məsul və köməkçi qurumlar olmaqla cəlb

edilmişdir. Strukturların illik iş planları, onun əsasında isə ADPU-nun illik iş planları ilə Strateji İş Planı detallandırılmış və icra edilmişdir. Ayrı-ayrı strukturların illik hesabatları ilə sahə prorektorluqları vasitəsilə nəzarətdə saxlanılmış, monitorinq edilmiş, hesabatlar dinlənilmişdir. Hesabatlar müvafiq olaraq Elmi Şurada, fakültə Elmi Şuralarında, Universitet Tədris-Metodiki Şurasında, Fakültə Metodiki Şuralarında, Keyfiyyət, Elm, Maliyyə komissiyalarında dinlənilmişdir. Bu hesabatlarla bağlı müntəzəm olaraq KİV-də pres- relizlər yayılmış, ADPU-nun "Gənc müəllim" qəzetində işıqlandırılmış, rəsmi sosial media hesablarında və universitetin internet səhifəsində yayılmışdır.

Həmçinin ADPU-nun ayrı-ayrı sahələrlə bağlı fəaliyyəti barədə Elm və Təhsil Nazirliyinə müntəzəm illik hesabatlar təqdim edilmiş, bir çox ictimai tədbirlərdə (Müəllimlər Qurultayında, Təhsillə bağlı keçirilən konfrans və forumlarda) universitet rəhbərliyi hesabat xarakterli təqdimatlar və çıxışlar etmişdir. ADPU-nun Elmi Şurası universitetin 2030 Strateji İnkişaf Planının hazırlanması üzrə İşçi Qrupun yaradılması haqqında 14 sentyabr 2022-ci il tarixində qərar vermiş və hazırlıqlar üzrə müvafiq araşdırmalara başlanmışdır. ADPU-nun Elmi Şurası 2020/2021-ci tədris ilinin pandemiya şəraitində davam etməsini, 2020-ci ildə Zəfərlə yekunlaşmış Vətən müharibəsini və onun nəticələrini, Böyük Qayıdış-I Dövlət Proqramını və universitetin 2023-cü ilin aprelində institusional akkreditasiya olunmasını və onun hədəflənən nəticəsini nəzərə alaraq, 29 dekabr 2022- ci il tarixli iclasının qərarı ilə "ADPU-2021" Strateji İnkişaf Planının icrasını 2023-cü ilin sonunadək uzatmışdır.

Beləliklə, ADPU müvafiq akkreditasiya prosesini gələcək SİP-in hazırlanmasında tədqiqat kimi nəzərdə tutmaqla bərabər, onun nəticələri əsasında 2023-cü ilin ikinci yarısında yeni SİP sənədini hazırlamağı planlaşdırır.

## 2. KEYFİYYƏT TƏMİNATI

### 2.1. Keyfiyyət təminatı siyasəti

Universitet 2018-ci ildə Avropa komissiyasının Erasmus+ proqramı çərçivəsində "Azərbaycan Universitetlərində Keyfiyyətin Təminatı (KT) Mərkəzlərinin Yaradılması və İnkişaf Etdirilməsi (EQAC)" adlı üç illik layihəsinə qoşulmuşdur. Bu layihə çərçivəsində həmin ildə universitetdə daxili keyfiyyət sistemi institusional səviyyədə qurulmuşdur. Belə ki, ilk növbədə maraqlı tərəflər arasında sorğular aparılıb və hədəf qrupunun ehtiyacları universitet tərəfindən SWOT təhlilə əsasən müəyyənləşdirilmişdir. (https://eqac.az/uploads/files/WP1/ASPU%20needs%20assessment%20report.pdf). Layihə çərçivəsində Universitetin Elmi Şurasının 14 sentyabr 2018-ci il tarixli iclasının qərarı ilə (protokol № 1) ADPU-da Keyfiyyət Siyasəti sənədi təsdiq edilmişdir (*https://eqac.az/uploads/files/ASPU%20Keyfiyyet%20siyaseti.pdf* ). ESG standartlarına əsasən layihənin xarici tərəfdaşları Avropa universitetlərinin əməkdaşları tərəfindən dəyərləndirilmiş və onlar tərəfindən müəyyən tövsiyələr paketi hazırlanmışdır (*https://eqac.az/uploads/files/SER%20EvaluationASPU%20rev%2013%20Feb%202019.pdf*). Keyfiyyət Sənədinin təkmilləşdirilməsində ADPU-da professor-müəllim heyətinin, tələbələrin və EQAC layihəsinin xarici və ölkə daxili tərəfdaşları tərəfindən rəy və təklifləri nəzərə alınmışdır. Sənədin hazırlanmasında Ankara Universitetinin, Qars Universitetinin, Qlazqo Universitetinin və s. inkişaf etmiş ölkələrin, habelə Türkiyənin YÖKAK təşkilatının sənədləri əsasında hazırlanmışdır (24 aprel 2019, protokol №7). Bu sənəd A3 formatında nəşr edilərək ADPU-nun bütün tədris binalarında elanlar lövhəsində yerləşdirilmişdir. Keyfiyyət siyasəti sənədində Strateji inkişaf planından və bəyannamədən qaynaqlanan aşağıdakı hədəflər öz əksini tapmışdır:

• ADPU-nun missiyası, vizyonu və əsas dəyərlərinə uyğun universitetdə pedaqoji, tədqiqat, sosial və beynəlmiləlləşmə sahəsində müəllim-tələbə heyətinin potensialının inkişafını təmin etmək məqsədilə effektiv liderliyi və komanda ruhunu dərk etməklə keyfiyyət siyasəti kimi bütün struktur vahidlərində davamlı, keyfiyyətli idarəetmə prosesləri tətbiq edilir.

• ADPU-da bütün proseslərin monitorinqini və davamlı təkmilləşdirilməsini onun strateji məqsəd və vəzifələrinə, milli və beynəlxalq inteqrasiya öhdəliklərinə, habelə dövrün tələblərinə uyğun keyfiyyət siyasəti tətbiq edilir.

• ADPU-nun missiyasına, vizyonuna və əsas dəyərlərinə uyğun şəkildə məzunlara öz sahələrində yüksək kompetensiyaların əldə edilməsi üçün keyfiyyət siyasəti qəbul edilir.

• ADPU keyfiyyət siyasəti olaraq missiyasına, vizyonuna və əsas dəyərlərinə əsasən maraqlı tərəflərin ixtisaslı kadr hazırlığı proseslərində yüksək səviyyədə iştirakını və məmnunluğunu təmin edir.

ADPU-da keyfiyyətin təminatını müəyyən edən missiyası, vizyonu və prinsipləri vardır. Belə ki, missiyası universitetdə keyfiyyətin artırılması və davamlı təkmilləşdirilməsi yolu ilə keyfiyyətli tədris, tədris planları, idarəetmə və tədqiqat işlərinin aparılması, habelə buna nail olmaq üçün ən yüksək keyfiyyətli sistem və prosedurların təmin edilməsi kimi fəaliyyətlərin həyata keçirilməsini əhatə edir. Bu fəaliyyətlər bilavasitə universitetin üstün bir təhsil müəssisəsinə çevrilməsi, habelə yerli və qlobal əmək bazarının tələblərinə cavab verən vətənpərvər, savadlı, yüksək peşə kompetensiyasına malik məzunların hazırlanmasına xidmət edir. ADPU-nun keyfiyyət təminatı sahəsində vizyonu belədir: "Keyfiyyətli təhsil və keyfiyyətli idarəetmə universitetin uğurunun qarantıdır". Universitetin bu sahədə prinsipləri aşağıdakılardır:

- Keyfiyyətin təminatı yüksək keyfiyyətli təlim, tədris, tədqiqat və akademik əməliyyatları və universitetin normativ aktları əsasında təmin edilir;
- Keyfiyyətin təminatı və inkişaf etdirilməsi daxili və xarici maraqlı tərəflər arasında əməkdaşlıq çərçivəsində həyata keçirilir;

- Keyfiyyətin təminatı və inkişaf etdirilməsi ilə universitetin bütün sahələri gücləndirilir və bu sahələrə maraqlı olan tərəflər cəlb edilir;
- Keyfiyyətin təminatı və inkişafı daxili və xarici sənədləşmələrlə akkreditasiya və tanınma tələblərinə cavab vermək üçün hazırlanır;
- Universitetdə keyfiyyətin təminatı və inkişafı davamlı inkişaf strategiyası baxımından izlənilir;
- Universitetin bütün sahələrində keyfiyyətin təminatı və inkişaf mərhələləri sənədləşdirilir, izlənilir, təhlil olunur və qiymətləndirilir;
- Keyfiyyətin təminatı və inkişafı üçün universitetin qayda və standartlarına institusional və ictimai etimad artırılır;
- Keyfiyyətin təminatı universiteti şəffaf, sistemli, ciddi və hamı üçün əlçatan edir;
- Keyfiyyətin təminatı və inkişafı universitet üçün tətbiq edilən yeni modellərin və onların tətbiqindən çıxan təsirlərin nəticələrinə fokuslanır;
- Keyfiyyətin təminatı və inkişafı universitetdə dəstəklənən və asanlaşdırılan bir prosesdir.

Keyfiyyətin təmin olunması sahəsində universitetin bütün struktur vahidlərinin əsas vəzifələri keyfiyyətin zəmanətinə əsaslı dəstək vermək, institusional və proqram akkreditasiya proseslərini və məzmununu dəstəkləməkdir. Bu vəzifələr aşağıdakılardır:

- universitetin akademik keyfiyyət zəmanətinin yüksəldilməsi üçün strategiya, siyasət, sistem, prosedur və standartlar hazırlamaq;
- universitetin "görmə qabiliyyəti"nə, strateji planlaşdırmaya uyğun olaraq davamlı keyfiyyət təminatı və həyata keçirilən prosedurlar çərçivəsində keyfiyyətlə əlaqəli strateji inkişafı təşviq etmək və həyata keçirmək;
- universitetdə akademik keyfiyyət mədəniyyətini təbliğ etmək;
- tədrisin qiymətləndirilməsi, tədris proqramlarının nəzərdən keçirilməsi və akademik heyətin təliminin qiymətləndirilməsi ilə bağlı siyasət həyata keçirmək və müvafiq qaydalar hazırlamaq;
- öyrənmə, tədris və tədqiqat işlərində akademik mükəmməlliyin təşviqi üçün təhsilin bütün səviyyələrində keyfiyyətin təminatı, inkişaf strategiyaları və prosedurlarla birlikdə universitetin keyfiyyətini izləmək, audit etmək, qiymətləndirmək və davamlı inkişaf etdirmək;
- universitetdə keyfiyyətin təminatı və inkişafı üçün inzibati və əsaslı dəstək vermək, xarici təşkilatlar və agentliklər üçün institusional və proqram akkreditasiya proseslərini dəstəkləmək;
- institusional və proqram akkreditasiyasını izləmək, yoxlamaq, qiymətləndirmək və daim inkişaf etdirmək;
- proqramın təsdiqlənməsi və inkişafı barədə tövsiyələr vermək;
- təhsilin inkişafını təmin edən qrantların ayrılmasına nəzarət etmək və tədrisin keyfiyyətinin yüksəldilməsi fəaliyyətini təşkil etmək;
- təlim və tədrisin inkişafı ilə bağlı nəşrlər hazırlamaq.

2018-2019-cu illərdə fakültələrdə ADPU-da Keyfiyyət siyasətinə dair məlumatlandırma sessiyaları keçirilmişdir.

## 2.2. Daxili keyfiyyət təminatı mexanizmləri

ADPU-da keyfiyyət təminatı sisteminin qurulmasında "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunları, təhsil sahəsində Elm və Təhsil Nazirliyinin normativ sənədləri, Avropanın ESG standartları, universitetin Keyfiyyət siyasəti sənədi, universitetin Strateji inkişaf planı, universitetin Nizamnaməsi (*https://e-qanun.az/framework/51178*), EQAC layihəsinin ölkədaxili və ölkəxarici tərəfdaşlarının,

habelə daxili və xarici maraqlı tərəflərin rəy və təklifləri əsas götürülmüşdür. Universitetdə ESG standartlarının reallaşdırılması istiqamətində keyfiyyətin artırılması və struktur vahidləri arasında səmərəli kommunikasiyanın qurulması məqsədilə 14 sentyabr 2018-ci il tarixində Keyfiyyətin təminatı şöbəsi yaradılmış və 6 mart 2019-cu il tarixində isə universitetin rektoru tərəfindən şöbənin əsasnaməsi təsdiq edilib (*https://eqac.az/uploads/files/ASPU%20Statute%20of%20QA%20Department.pdf*). Şöbə əməkdaşlarının vəzifə təlimatları hazırlanıb. (*https://eqac.az/uploads/files/Job%20descriptions.pdf*)

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 avqust 2022-ci il tarixli 302 nömrəli "Azərbaycan Dövlət Pedaqoji Universitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında" Qərarı ilə universitet Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxsə çevrilməsi səbəbindən şöbənin əsasnaməsi təkmilləşdirilmiş və fəaliyyət planı təsdiqlənmişdir. Şöbə universitetdə təhsil, tədris, professor-müəllim heyətinin dünya ilə müqayisədə rəqabətliliyinin artırılması, tələbələrin sosiallaşması və beynəlxalq aləmə inteqrasiya olunması, habelə universitetin mükəmməl idarəetmə sisteminin təşkili istiqamətlərində nəzarət və təhlillər həyata keçirir və bunun əsasında məqsədyönlü təkliflər hazırlayır.

EQAC layihəsi çərçivəsində ADPU-nun keyfiyyətin təminatı sahəsidə davamlı inkişaf planı hazırlanmışdır (*https://eqac.az/uploads/files/Sustainability%20plan%20-%20ASPU(1).pdf)*. Plana görə görüləcək işlərin arasında prioritet olaraq universitetin keyfiyyət təminatı sisteminin ISO 9001 standartları əsasında yaxşılaşdırılması nəzərədə tutulur. Lakin qlobal pandemiya səbəbindən bu prosesin icrasında müəyyən ləngimələr yaranmışdır.

3 dekabr 2018-ci il tarixindən ADPU-da mərkəzləşdirilmiş daxili keyfiyyət təminatı sistemini təmin edən kollegial qurum kimi Elmi Şuranın qərarı ilə rektorun rəhbərlik etdiyi Keyfiyyətin Təminatı Komissiyası fəaliyyət göstərir. Ümumilikdə bu komissiyaya ADPU-nun müxtəlif struktur vahidlərinin rəhbərləri, filialların və kollecin nümayəndələri və hər fakültə üzrə 2 nəfər professor-müəllim heyəti daxil olmaqla, ümumilikdə 27 nəfər cəlb olunub. Bu komissiya ildə bir-neçə dəfə görüşərək ADPU-da aparılan işlərin keyfiyyət göstəricilərini müzakirə edir.

19 noyabr 2021-ci il tarixindən başlayaraq, ADPU-nun beş filialında da Keyfiyyətin təminatı şöbələri fəaliyyətə başlamışdır. Həmin ildən universitetin bütün filiallarını və kollecini əhatə edə bilən, Keyfiyyətin Təminatı Komissiyanın nəzdində 26 nəfərdən ibarət Keyfiyyətin təminatı üzrə işçi qrupu yaradılmışdır. (Əmr 3/134)

ADPU-da keyfiyyətin təminatı sistemi PDCA dövriyyə modeli əsasında qurulmuşdur:

1. Keyfiyyətin təminatı şöbəsi tərəfindən ESG-nin müəyyən standartları üzrə ölkə daxili və xarici universitetlər arasında müqayisəli təhlil olunaraq problemlər müəyyən olunur. Onların aradan qaldırılması ilə bağlı təkmilləşdirmə planı hazırlanır.
2. Təkmilləşdirmə işləri fonunda yeniliklər tətbiq edilir.
3. Yeniliklərin səmərəliliyinin keyfiyyətə təsiri yoxlanılır və nəticələr təhlil olunur.
4. Nəticələr və meydana çıxan problemlər əsasında daxili keyfiyyət təminatı sistemi təkmilləşdirilir.

Bu model əsasında “Xarici dil (İngilis) müəllimliyi” ixtisası üzrə akademik heyətin reytinq qiymətləndirilməsi, STEAM fənninin tədrisi metodikası və s., yeniliklər həyata keçirilmişdir.

ADPU-da keyfiyyət təminatı ilə bağlı universitet üzrə sorğular, akademik-heyətin reytinq qiymətləndirilməsinə dair sənədlərin toplanması və emalı prosesi Sxem 1-ə əsasən aparılır.




*ADPU-da Keyfiyyətin təminatı sistemi*

Bu sxem PDCA modeli əsasında innovativ ideyaların və təkliflərin həyata keçirilməsi ADPU-da istənilən struktur vahidində (filiallar, fakültə, ADPK və s.) sistemli şəkildə keyfiyyətin təmin olunması prosesini həyata keçirməyə imkan verir. Bununla yanaşı, Keyfiyyətin təminatı şöbəsinin əməkdaşları semestr ərzində istənilən struktur vahidində onlayn monitorinqlər həyata keçirərək təhlillər aparmışlar. EQAC layihəsi çərçivəsində 2021-ci il 12 mayda ADPU-nun Keyfiyyət təminatı sisteminin özünü qiymətləndirmə hesabatı Azərbaycan və ingilis dilində hazırlanaraq xarici tərəfdaşlara göndərilmişdir.

Universitetdə keyfiyyət təminatı sisteminin əsas koordinatoru olan Keyfiyyətin təminatı şöbəsi də daxil olmaqla bütün struktur vahidlərinin tədris ilinin sentyabr ayında Strateji Plandan qaynaqlanan fəaliyyət planları rektor trəfindən təsdiq edilir və əsasnaməyə uyğun olaraq hər ilin iyun ayında rektora yazılı hesabat təqdim edilir. Universitetin keyfiyyətin təminatı sahəsində təhlilləri KİV-də (*https://www.muallim.edu.az/news.php?id=22635*) və dövri nəşr olunan jurnallarda (*https://as-journal.edu.az/uploads/files/2022/10/s-11-20-qalib-sharifov.pdf*) dərc edilmişdir. Keyfiyətin təminatı şöbəsi nəzdində İşçi Qrup üzvlərinin fəaliyyətinin motivasiya edilməsi məqsədilə onlara tədris ilinin sonunda birdəfəlik pul mükafatı verilir.

## 2.3. Keyfiyyət təminatı mədəniyyəti

Universitetin keyfiyyət təminatı mədəniyyəti təlim və tədris prosesinin keyfiyyətinə təsir edən təşkilati vərdişlərə, normalara, dəyərlərə və standartlara aiddir. Universitet rəhbərliyi keyfiyyət təminatı mədəniyyətini birbaşa idarə edə bilməz, çünki bu, akademik-inzibati heyətin ümumi təcrübəsindən irəli gəlir. Bununla yanaşı, universitetdə tələbələr arasında sorğuda iştirak etmə mədəniyyəti formalaşır. ADPU-da Tələbələrlə iş şöbəsi tərəfindən birinci tədris ilinin tələbələr arasında motivasiya sorğusu aparılır. EQAC layihəsi çərçivəsində ADPU-da pilot ixtisas olaraq "Xarici (İngilis dili) dil müəllimliyi" ixtisası üzrə 52 akademik heyət və 250 tələbə arasında sorğu keçirilmiş və sorğunun nəticəsinə uyğun olaraq onlara Universitetlər üçün ESG üzrə təlimlər keçilmişdir. Reytinq qiymətləndirməsi çərçivəsində tələbənin müəllimdən məmnunluq sorğusunda 3 il ərzində təqribən 27000 çox tələbə iştirak etmişdir.

Universitetdə akademik-inzibati heyətin fəaliyyətinin keyfiyyətini daim artıran rəqabət mühiti yaradılmışdır. Professor-müəllim heyəti ilə tələbələr arasında qarşılıqlı mehriban

münasibət mədəniyyəti formalaşmaqdadır. Bunun ən bariz nümunəsi kimi 2 ildir tələbələr arasında aparlan meqasorğunu göstərmək olar. Belə ki, Keyfiyyətin təminatı şöbəsi tərəfindən 2021-ci ildən başlayaraq 30 mart - 19 aprel tarixinədək ADPU-da tədris, öyrənmə mühiti, təchizat və gözləntilərlə bağlı 60 sualdan ibarət *Tələbə Məmuniyyəti* ilə əlaqədar meqa sorğu keçirilmiş, nəticələr təhlil olunaraq rektora təqdim edilmiş və Elmi Şurada geniş müzakirə edilmişdir. Sorğuda 2021-ci ildə 2976 nəfər, 2022-ci ildə isə 7260 (bütün kollec və filiallar da daxil olmaqla 8964) tələbə iştirak etmişdir. 2 ilə görə nəticələr təqribən 1-2% fərq ilə üst-üstə düşür. Meqasorğunun nəticələrinə əsasən tələbələrin:

- 70 %-i müəllimlərin fənnə aid biliyindən, fənni tədris etməyindən razıdırlar və onlara tədris olunan fənlərin ixtisasa uyğun olduğunu düşünürlər
- 75 %-i müəllimlərin öyrətmə bacarığının və onların tələbələrlə davranışının müsbət olduğunu düşünür.
- 65 %-i Universitetin əmək bazarına tam hazırladığını düşünür.
- 70 %-i Karyera mərkəzinin təklif etdiyi xidmətlərdən razıdır.
- 88 %-i tyutorlardan razıdır.
- 70 %-i şikayətlərin araşdırılması və fakültə tərəfindən onlara olan dəstəkdən razıdır.
- 90 %-i universitetdə heç bir etnik, dini, cinsi, mədəni ayrıseçkiliyə məruz qalmadığını qeyd edir.
- 48 %-i Universitet tədbirlərində iştirak edir.
- 60 %-i müəllimlərin dərsdə İKT və fəqli metodlardan istifadəsindən və dərs zamanı onların qiymətləndirməsindən razıdır.
- 60 %-i ADPU-nu digərlərinə məmuniyyətlə tövsiyə edəcəyini və növbəti təhsil pilləsi üçün ADPU-nu seçəcəyini qeyd edir.
- 63 %-i İmtahan və qiymətləndirmə prosesindən razıdır.
- 58 %-i fakültədə onlara qarşı daim ədalətli davrandığını düşünürlər.
- 68 %-i onlayn tədrisdən tamamilə narazıdır.
- 55 %-i Universitetin kitabxanasından lazımi vəsaitləri əldə etməyin mümkün olduğunu düşünür.
- 57 %-i Universitetin avadanlıqlarından və hazırki dövrün elm və texnoloji tələbatlarına cavab verməsindən razıdır.
- 92 %-i müəllimlərin seminar dərslərində mühazirə materiallarını soruşaraq fərdi şəkildə qiymətləndirdiklərini düşünür (Təklif: Seminar dərslərində dünya təcrübəsinə əsasən qrup, cütlərlə iş və Case metodu əsasında hazırlanan tapşırıqlardan istifadə edilsin).
- 93 %-i onlayn dərslərə mobil telefonla qoşulur (Təklif: tələbələrin kompüter vasitəsilə dərslərə qoşulması təşviq edilsin).
- 76 %-i fənnə aid məlumatları yalnız müəllimin mühazirələrindən əldə edir, kitabdan isə yalnız 9 % tələbə istifadə edir (Təklif: müəllimlər tərəfindən tələbələr müstəqil araşdırmalara sövq edilsin və tələbələrin yalnız mühazirə materiallarından istifadəsi qismən aradan qaldırılsın).

Universitetdə aparılan müsahibə və yuxarıdakı sorğulardan təsdiqlənir ki, tələbələr onlara tədris edilən fənlərin real əmək bazarının tələblərinə uyğunluq səviyyəsindən məlumatlıdırlar. Akademik heyət arasında da tələbələrin real dünyada nə qədər uyğun olub-olmadığını göstərən məlumatların ötürülməsi mədəniyyəti aşılanır. Universitetə tələbələri cəlb etmək və məzunlara xidmətləri yaxşılaşdırmağı təşviq etmək məqsədilə açıq qapı günləri, tələbə-şagird əlaqələrini inkişaf etdirən layihələr və s. bu kimi fəaliyyətlər təşkil edilir.

ADPU-da monitorinq və sorğuların aparılması və təhlili mədəniyyəti formalaşmışdır. 2018 və 2019-cu illərdə bu tip proseslərin təşkili mədəniyyəti akademik heyət və tələbələr arasında müəyyən problemlərlə müşayiət olunsa da, son iki ildə bu problemlər öz həllini tapmaqdadır. Universitetdə keyfiyyətlə bağlı uğursuzluqların və çatışmazlıqların açıq şəkildə müzakirə olunduğu düşüncə mədəniyyəti formalaşmışdır. Buna nümunə kimi ADPU-da professor-müəllim heyətinin reytinq qiymətləndirməsinin nəticələri Elmi Şurada geniş

müzakirə edilir. Belə ki, ADPU-da professor-müəllim heyətinin reytinq qiymətləndirilməsində 2018 (761 müəllim) və 2019-cu (744 müəllim) illərdə ADPU-da tədqiqatlarda 8 fakültənin akademik heyəti iştirak etmişdir. Sonra 2021-ci ildə ADPU-da tədqiqatlarda 8 fakültə ilə yanaşı 5 filial və kollec (ADPK) də daxil olmaqla, ümumilikdə 1212 nəfər professor-müəllim heyəti iştirak etmişdir. Onlardan 699 nəfəri ADPU-nun Bakıdakı fakültələrində elmi-pedaqoji fəaliyyətlə məşğul olur. ADPU-da Keyfiyyətin təminatı şöbəsi fəaliyyətə başladığı ildən akademik heyətin reytinq qiymətləndirilməsini həyata keçirmişdir. Belə ki, hər ilin noyabr ayında cari il üçün müəlllimin elmi, pedaqoji və sosial fəaliyyətlərini əks etdirən 72 meyar üzrə sənədləri elektron link vasitəsilə toplanmışdır. Qiymətləndirilmə həm illər üzrə, həm də reytinq illəri üzrə aparılır. Bu zaman reytinq ili üzrə hesablama cari ilin 75%-i ilə keçən ilin 25%-nin cəmi şəklində aparılmışdır. Əldə edilən statistik məlumatlar Excel və SPSS proqramında müqayisəli təhlil olunaraq cədvəllər şəklində universitetin Elmi Şurasında təqdimatla şura üzvlərinə, o cümlədən filiallara çatdırılmışdır.

Şəkil 1-dəki diaqramda 2018 və 2019-cu illər üzrə professor-müəllim heyətinin ballarının dəyişməsi ilə bağlı statistik diaqram verilmişdir (*https://as-journal.edu.az/uploads/files/2022/10/s-11-20-qalib-sharifov.pdf*). İki ilin müqayisəsindən göründüyü kimi professor-müəllim heyətinin 72%-nin nəticələri artmışdır, 25,4%-də gerilələmələr müşahidə olunmuşdur. Ən pis hal kimi 2.55% müəllimin nəticələri 0-dır. Bu şəxslərlə bağlı araşdırmadan məlum oldu ki, onların əksəriyyəti işə yeni qəbul olunanlardır.




*Şəkil 1. 2018 və 2019-cu il üzrə toplanılan balların yerdəyişməsi*

2021-ci ildə isə ADPU-nun kollec və filialları da bu tədqiqatlarda iştirak etmiş və nəticələr emal olunmuşdur (Şəkil 2). Şəkil 2-dən göründüyü kimi 2018-dən 2021-ci ilə qədər reytinq qiymətləndirilməsində müvafiq ballar üzrə müəyyən irəliləyiş və gerilələmələr müşahidə olunmuşdur. Qeyd etmək lazımdır ki, 2020-ci ildə pandemiya səbəbindən reytinq qiymətləndirmə aparılmamışdır, amma 2021-ci ildə reytinq qiymətləndirmədə pandemiya ili nəzərə alınmışdır. Aşağıdakı diaqrama əsasən 10-100 bal aralığında azalma, 100-300 arasında artma, 300-dən böyük balların statistiksında artımlar müşahidə olunmuşdur.




*Şəkil 2. ADPU -da professor-müəllim heyətinin topladığı reytinq balların müqayisəli statistikası*

Reytinq qiymətləndirməsində 0 bal alan akademik heyətin illər üzrə dinamikası Şəkil 3-də göstərilmişdir. Şəklə əsasən pandemiya dövründə 0 bal alanların faizi yüksək olmuşdur. Ümumilikdə azalma tendensiyasının olmasını göstərmək olar. Bu da akademik heyətin fəallığı və reytinq qiymətləndirilməsinə motivasiyası ilə əlaqələndirilə bilər. Bu digər tərəfdən akademik heyətdə keyfiyyət mədəniyyətinin formalaşmasının sübutu kimi dəyərləndirilə bilər.




*Şəkil 3. ADPU -da professor-müəllim heyətin arasında "0" bal toplayanların statistikası*

Şəkil 1 və şəkil 2-də alınan nəticələrə tam aydınlıq gətirmək üçün ADPU-da professor-müəllim heyətinin 2018-2021 illər üzrə topladığı balların nəticələri təhlil edilmişdir (şəkil 3). Şəkil 4-dən göründüyü kimi son iki ilin müqayisəsi göstərir ki, akademik heyətin 39,93 %-nin 2021-ci ildə balı artıb, 16,25 %-i isə azaldıb. Bununla yanaşı, həm 2021, həm də 2020-ci

illərdə balını artıranlar 5,78 %, azaldanlar isə 8,5 % olmuşdur. Dörd ilin nəticələri ilə müqayisədə son üç ildə 2.89 % balını artırıb, 0,98 % azaltmışdır. Bundan başqa son üç ilin müqayisəsində yalnız pandemiya ilində balı az olan (2020) 32.51 % olmuşdur.




***Şəkil 4.*** *ADPU üzrə professor-müəllim heyətinin 2018-2021-ci illər üzrə topladığı balların yerdəyişmə statistikası*

ADPU üzrə professor-müəllim heyətinə tələbələr tərəfindən verilən ballara əsasən statistik məlumatlar 4-cü şəkildə göstərilmişdir. Şəkildən göründüyü kimi 2021-ci ilin reytinq qiymətləndirməsində ballar aşağı düşmüş, lakin maksimum 30 bal alan müəllimlərin sayı artmışdır. Qeyd olunan aşağı enmələr qiymətləndirmədə ilk dəfə filial və kollecin akademik heyətin qoşulmasından və ya tələbələrin sorğunu səmimi olaraq doldurulması ilə izah oluna bilər (şəkil 5).




*Şəkil 5. ADPU üzrə professor-müəllim heyətinin tələbələrdən topladığı balların statistikası*

Reytinq qiymətləndirilməsinin nəticəsi olaraq 2018, 2019, 2021-ci illərdə uyğun olaraq 100, 156 və 160 müəllimə bir il ərzində əlavə 100 AZN məbləğində pul mükafatı verilir. 100 baldan aşağı toplayan müəllimlərin nəticələrinin kafedralarda müzakirə olunması tövsiyə olunur.

Universitetdə elmi əsərlərin plagiatlığının yoxlanılması ilə bağlı akademik heyət və tələbələr arasında məlumatlanmalar aparılır.

Universitetdə struktur vahidlərinin fəaliyyətinin təhlili və Elmi Şurada müzakirəsi mədəniyyəti formalaşmışdır. Belə ki, akademik heyətin fəaliyyətinə dair universitetdə aparılan reytinq qiymətləndirilməsi ilə yanaşı, ADPU-nun İnstitusional qiymətləndirilməsi də aparılır. İlk dəfə olaraq 2022-ci ildə ADPU-da Keyfiyyətin Təminatı şöbəsi tərəfindən 38 keyfiyyət göstərici üzrə vahid sistem əsasında fakültələr, filial və kollecin institusional qiymətləndirilməsi aparılmışdır. Qeyd edək ki, həm reytinq qiymətləndirilməsində, həm də institusional qiymətləndirmədə əməkdaşların elmi-tədqiqat, pedaqoji fəaliyyəti, tələbə məmnunluğu və sosial aktivlik üzrə parametrləri nəzərə alınır.

İnstitusional qiymətləndirilmənin aparılması prosesində qəbul olan tələbələrin sayının qəbul planında nəzərdə tutulmuş tələbələrin sayına fakültə, filial və kollecdə faiz nisbəti araşdırılararaq 98-100% olduğu müəyyənləşdirilmiş, 2021-ci ildə bakalavr dərəcəsi alan tələbələrin sayının qəbul olan tələbələrin 2017-ci ildə sayına nisbəti təhlil olunaraq 71-75% müəyyənləşdirilmiş, həmçinin müəssisədə elmi seminarların müəllimlərin sayına nisbəti 91-95% olduğu aşkar edilmişdir. Bununla yanaşı, təhlil prosesində MİQ imtahanının test mərhələsindən keçən bakalavrların sayının ümumi məzun olan bakalavrlara nisbətinin 66-70% olduğu müəyyənləşdirilmiş, özəl təhsil müəssisəsində işləyən magistrların sayının ümumi məzun olan magistrlara nisbəti fakültələr üzrə 66-70 % müəyyənləşdirilmiş, dərsi dinlənilmiş müəllimlərin sayının müəssisənin müəllimlərinə nisbəti ən çox (96-100 %) olduğu aşkar edilmişdir. Həmçinin doktorantların sayının müəllimlərin sayına nisbəti ən çox 31-35 % müəyyənləşdirilmiş, işlə təmin olunmuş məzunların sayının ümumi məzunlara nisbəti ən çox 71-75% nisbətində qiymətləndirilmişdir (*https://www.muallim.edu.az/news.php?id=22635*).

İnstitusional qiymətləndirilmənin aparılması prosesində, həmçinin indeksli jurnallarda illik nəşrlərin sayının (WOS, SCOPUS) ümumi nəşrlərin sayına nisbəti fakültələr üzrə araşdırılaraq 21-25%, WOS jurnallarında nəşr olunmuş əsərlərin istinad balının həmin əsərlərin sayına nisbəti araşdırılaraq ən çox təqribən 96-100% olduğu müəyyənləşdirilmişdir. Ümumilikdə kafedra əməkdaşları ilə birgə elmi əsərlərin sayının müəssisədə ümumi əsərlərin sayına nisbəti araşdırılaraq ən çox 61-65%, müəssisədə kafedralar arası əməkdaşlıq çərçivəsində birlikdə olan elmi əsərlərin sayının müəssisədə ümumi əsərlərin sayına nisbəti ən çox 11-15 % olduğu müəyyənləşdirilmişdir. Ölkədaxili və ölkəxarici universitetlərlə əməkdaşlıq çərçivəsində birlikdə olan elmi əsərlərin sayının müəssisədə ümumi əsərlərin sayına nisbəti isə ən çox müvafiq olaraq 11-15 % və 6-10 % olduğu, beynəlxalq konfranslarda nəşr edilən əsərlərin (məqalə, tezis) sayının ümumi nəşrlərin sayına nisbəti ən çox 76-80 % olduğu qiymətləndirmələr nəticəsində bəlli olmuşdur.

İnstitusional qiymətləndirilmə zamanı xarici dəstəklə alınmış və tamamlanmış layihələrin sayının ümumi layihələrin sayına nisbəti müəyyənləşdirilərək, patentlərin sayının müəllimlərin sayına ən çox 1-5 % nisbətində dəyərləndirilmişdir. İnstitusional qiymətləndirmədə nailiyyətlərin əldə olunmasını universitetdə artıq 4 ildir tətbiq olunan professor-müəllim heyətinin fəaliyyətinin qiymətləndirilməsinin nəticələri də təsdiq edir.

## 3.TƏLİM VƏ TƏDRİS

### 3.1. Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması

**3.1.1. Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeydolunan tələblərin ödənilməsi vəziyyəti.**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin (NK) 2007-ci il 25 iyun tarixli 102 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyasına müvafiq olaraq ADPU-da bu sahədə yüksək ixtisaslı kadrlar hazırlanır.

Universitetdə tədrisi təşkil edilən ixtisas və ixtisaslaşmaların təhsilalanların say həddi üzrə sifarişlər verilərkən cəmiyyətin, əmək bazarının, təhsil proqram və standartlarında qeyd olunan tələblər nəzərə alınır. Elm və Təhsil Nazirliyinin (ETN) müvafiq məktubu əsasında fakültələr əvvəlki illərin faktiki qəbulu, elmi-pedaqoji potensial, tədris resursları, infrastruktur imkanları və s. nəzərə alınaraq təhsilalanların say həddini müəyyən etmək üçün fakültə Elmi Şurasında, Tədris-Metodiki Şurada, universitet Elmi Şurasında aparılan müzakirələrdən sonra universitet və onun filialları üzrə optimal say həddinin proqnoz layihəsi ETN-ə məktubla göndərilir. Təhsilalanların qəbulunun say həddi universitetin tələbə qəbulu planının proqnoz layihəsi əsasında NK-nın təsdiq etdiyi plan üzrə Dövlət İmtahan Mərkəzi tərəfindən aparılır. ADPU-da təhsilalanların qəbul nəticələrini əks etdirən EXCEL 3 cədvəli hesabata əlavə olunub.

**Təhsil səviyyələri üzrə təhsilalanların qəbulunun illər üzrə artım dinamikası**




| | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|---|---|---|
| Qəbul planı | 2315 | 2200 | 2225 | 2440 | 2500 | 2475 | 2470 |
| Faktiki qəbul | 2167 | 2066 | 2167 | 2308 | 2381 | 2356 | 2437 |




| | 2016/17 | 2017/18 | 2018/19 | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 |
|---|---|---|---|---|---|---|---|
| Qəbul planı | 501 | 415 | 330 | 339 | 361 | 372 | 399 |
| Faktiki qəbul | 408 | 385 | 289 | 313 | 351 | 330 | 373 |




| | 2016/17 | 2017/18 | 2018/19 | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 |
|---|---|---|---|---|---|---|---|
| Qəbul planı | 64 | 39 | 34 | 26 | 36 | 26 | 39 |
| Faktiki qəbul | 27 | 19 | 16 | 12 | 13 | 5 | 13 |

**2016/2017 – 2022/2023-ci tədris illərində ADPU-ya bakalavriat və magistratura səviyyələri üzrə qəbul olan təhsilalanların sayı (təkrar ali təhsil alanlar və əcnəbilər daxil olmaqla)**




**3.1.2. ADPU-da əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti**

Tədris illərinə görə əmək bazarının tələblərinə uyğun sifarişlərin hazırlanması və təkliflərin verilməsi zamanı ilk olaraq son illərdəki məzunların işlə təmin olunma statisitikaları nəzərə alınır. Pedaqoji ixisasların məzunları əmək bazarında aşağıda qeyd olunan istiqamətlərdə fəaliyyətinə başlayırlar:

- ✓ MİQ imtahanında iştirak edərək ixtisas yönümlü əmək fəaliyyəti ilə
- ✓ Müxtəlif təhsil müəssisələri tərəfindən elan olunmuş müsabiqələrdə iştirak yolu ilə
- ✓ Ali təhsil pilləsinin digər səviyyələrinə (magistratura, doktorantura) elmi və pedaqoji fəaliyyətlə
- ✓ Dövlət və özəl sektorda fəaliyyət göstərən digər təşkilatlarda

Müvafiq dövlət orqanları tərəfindən daxil olmuş proqnoz məlumatları əsasında gələcəkdə ehtiyac duyulacaq pedaqoji ixtisaslar üzrə (tədris dilləri də nəzərə alınmaqla), həmçinin ölkə üzrə məşğulluq imkanları da nəzərə alınaraq optimal tələbə qəbulu sifarişləri müəyyən edilir.

**3.1.3. Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işə götürənlərin iştirak vəziyyəti.**

ADPU-nun fəaliyyətinin əsas istiqaməti pedaqoji kadr hazırlığı olduğu üçün sifarişçi qismində çıxış edən ETN-dir. Hər il universitet üzrə qəbul planı proqnozlaşdırılarkən ETN-nin müvafiq strukturları ilə qarşılıqlı müzakirələr aparılır və sonunda proqnoz layihəsini təsdiq edilməsi üçün ETN-nə göndərilir. ETN də öz növbəsində bu proqnoz layihəsini Nazirlər Kabineti ilə razılaşdırmaqla tədris ili üzrə təsdiq edilmiş qəbul planını ADPU-ya göndərir.

**3.1.4. Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması**

ADPU-da tələbələrin mobilliyini təmin edən və təhsil proqramlarının dövlətlərarası müqayisəsi və tanınması prosedurlarını asanlaşdıran AKTS sistemi tətbiq edilir. Bu məqsədlə yerli və xarici universitetlərin təhsil proqramları əsasında tərtib edilmiş tədris planlarının müqayisəli təhlili aparılır. Tələbə mübadiləsinin əhatə dairəsinin genişləndirilməsi məqsədi ilə daxili və xarici dövlətlərin universitetləri ilə əlaqələr yaradılaraq müqavilələr bağlanır. Universitetlərarası müqavilə standartlarının hazırlanması, daxili və xarici mübadilə qaydalarının müəyyənləşirilməsi və müqayisəli təhlilinin aparılması yolu ilə tələbə mobilliyini təmin edilir. Digər ali təhsil müəssisələrində qazanılmış kreditlərin sayı ixtisas (ixtisaslaşma) üzrə nəzərdə tutulmuş kreditlərin 30%-dən çox olmamasına diqqət yeririlir. Təhsil alan əvvəl aldığı ixtisasın təhsil proqramında öyrənilmiş fənlərin məzmunu yeni almaq istədiyi əlavə və ya köçürüldüyü ixtisasın təhsil proqramına daxil olan hər hansı fənnin məzmununa uyğun olduqda, həmçinin fərdi tədris planında seçmə fənn bloku üzrə nəzərdə tutulan fənlərə aid məşğələlərdən və attestasiyadan azad olunur.

Subbakalavrın kreditlərinin tanınması prosedurunda ilkin təhsil proqramı ilə yenidən əldə ediləcək ixtisas üzrə bakalavriat təhsili proqramı arasındakı fərqin 1 tədris ilinə hesablanmış saatdan az və 2 tədris ilinə hesablanmış saatdan çox olmamasına diqqət yetirilir. Təhsil müddəti subbakalavrın ilkin təhsil proqramı ilə onun təhsil almaq istədiyi müvafiq ixtisas üzrə bakalavriat təhsili proqramı arasındakı fərqə əsasən müəyyən edilir. İlkin təhsil proqramı ilə yenidən əldə ediləcək ixtisas üzrə bakalavriat təhsil proqramı arasındakı fərqdən asılı olmayaraq, subbakalavrlar bakalavr dərəcəsi üzrə ali təhsil almaq üçün yalnız dövlət tərəfindən müəyyən olunmuş ümumi qaydada ali məktəblərin birinci tədris ilinə qəbul olunurlar.

Kreditlərin tanınması və ekvalentliyinin müəyyən edilməsi üçün tədris müqaviləsi (Learning agrument student mobility for studies), tələbənin transkripti, universitet rəhbərliyi tərəfindən təsdiq edilmiş təhsil proqramının və fənlərin təlim nəticələri, fənlərin sillabusları zəruri sənədlər kimi təhlil olunur.

ADPU-ya xarici və respublika daxilindəki ATM-dən, universitet daxilində bir ixtisasdan digərinə köçürülən, xaric edilmiş sabiq tələbələrin universitetə bərpası və əvvəlki qazanılmış kreditlərin tanınması universitet EŞ-nın 2022-ci il tarixli iclasının (protokol № 3) qərarı ilə təsdiq edilmiş "Azərbaycan Dövlət Pedaqoji Universitetində tədrisin təşkili, kreditlərin tanınması və tələbələrin attestasiyasına dair Qaydalar"ın tələblərinə uyğun olaraq həyata keçirilir.

## 3.2. Təhsil proqramları

**3.2.1.ADPU-da kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliyi**

ADPU-da ali təhsil pilləsinin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə ETN-nin təsdiq etdiyi Təhsil Proqramlarına, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanuna, "Elm haqqında" Azərbaycan Respublikası Qanuna, Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də mövcud ixtisas təsnifatlarına, "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nin VI, VII və VIII səviyyəsinə uyğun 5 ixtisas qrupu (1, 2, 3, 4 və 5) üzrə mütəxəssis və elmi-pedaqoji kadr hazırlığı aparılır.

Universitetdə bakalavriat və magistratura səviyyələrində əyani, doktorantura səviyyəsində isə əyani və qiyabi təhsilalma formalarında və dissertanturada kadr hazırlığı aparılır.

Nazirlər Kabinetinin 2019-cu il 11 fevral tarixli 45 nömrəli Qərarı ilə ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) təsnifatına uyğun olaraq universitetdə bakalavriat səviyyəsində aşağıdakı 22 ixtisas üzrə mütəxəssis hazırlığı aparılır:

| №-si | İxtisasın şrifti | İxtisasın adı |
|---|---|---|
| 1 | 050101 | Azərbaycan dili və ədəbiyyat müəllimliyi |
| 2 | 050102 | Biologiya müəllimliyi |
| 3 | 050103 | Coğrafiya müəllimliyi |
| 4 | 050105 | Fizika müəllimliyi |
| 5 | 050106 | Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi |
| 6 | 050107 | İbtidai sinif müəllimliyi |
| 7 | 050108 | İnformatika müəllimliyi |
| 8 | 050109 | Kimya müəllimliyi |
| 9 | 050110 | Kimya və biologiya müəllimliyi |
| 10 | 050111 | Korreksiyaedici təlim |
| 11 | 050112 | Məktəbəqədər təhsil |
| 12 | 050113 | Musiqi müəllimliyi |
| 13 | 050114 | Riyaziyyat müəllimliyi |
| 14 | 050115 | Riyaziyyat və informatika müəllimliyi |
| 15 | 050116 | Tarix müəllimliyi |
| 16 | 050117 | Tarix və coğrafiya müəllimliyi |
| 17 | 050118 | Təhsildə sosial-psixoloji xidmət |
| 18 | 050119 | Təsviri incəsənət müəllimliyi |
| 19 | 050120 | Texnologiya müəllimliyi |
| 20 | 050121 | Xarici dil müəllimliyi (ingilis dili) |
| 21 | 050121 | Xarici dil müəllimliyi (fransız dili) |
| 22 | 050807 | Sosial iş |

Nazirlər Kabinetinin 2011-ci il 14 iyun tarixli 95 nömrəli Qərarı ilə ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"na uyğun olaraq Universitetdə magistratura səviyyəsində aşağıdakı 22 ixtisas (28 ixtisaslaşma) üzrə magistr hazırlığı aparılır:

| №-si | İxtisasın şrifti | İxtisaslaşma və ixtisasın adı |
|---|---|---|
| 1. | 120301 | **Azərbaycan dili və ədəbiyyatı müəllimliyi**<br>Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası və metodologiyası |
| 2. | 060103 | **Xarici dil müəllimliyi (ingilis dili)**<br>Xarici dilin (ingilis dili) tədrisi metodikası və metodologiyası |
| 3. | 060104 | **Fizika müəllimliyi**<br>Fizika fənninin tədrisi metodikası və metodologiyası |
| 4. | 060105 | **Riyaziyyat müəllimliyi**<br>Riyaziyyatın tədrisi metodikası və metodologiyası |
| 5. | 060106 | **Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi (qızlar üçün fiziki tərbiyə)**<br>Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq fənninin tədrisi metodikası və metodologiyası |
| 6. | 060107 | **Texnologiya müəllimliyi**<br>Texnologiya fənninin tədrisi metodikası və metodologiyası |
| 7. | 060108 | **Musiqi müəllimliyi**<br>Musiqi fənninin tədrisi metodikası və metodologiyası |
| 8. | 060109 | **Biologiya müəllimliyi**<br>Biologiya fənninin tədrisi metodikası və metodologiyası |
| 9. | 060110 | **Kimya müəllimliyi**<br>Kimya fənninin tədrisi metodikası və metodologiyası |
| 10. | 060111 | **Tarix müəllimliyi** |

| | | |
|---|---|---|
| | | Tarix fənninin tədrisi metodikası və metodologiyası |
| 11. | 060112 | **Coğrafiya müəllimliyi**<br>Coğrafiya fənninin tədrisi metodikası və metodologiyası |
| 12. | 060113 | **İnformatika müəllimliyi**<br>İnformatika fənninin tədrisi metodikası və metodologiyası |
| 13. | 060114 | **Təsviri incəsənət müəllimliyi**<br>Təsviri incəsənət fənninin tədrisi metodikası və metodologiyası |
| 14. | 060115 | **İbtidai sinif müəllimliyi**<br>İbtidai sinifdə tədrisin metodikası və metodologiyası |
| 15. | 060116 | **Korreksiyaedici təlim**<br>Korreksiyaedici təlimin metodikası və metodologiyası |
| 16. | 060117 | **Məktəbəqədər təlim və tərbiyə**<br>Məktəbəqədər təlim və tərbiyənin metodikası və metodologiyası |
| 17. | 060118 | **Təhsildə sosial-psixoloji xidmət**<br>Təhsildə sosial-psixoloji xidmət |
| 18. | 060119 | **Pedaqogika**<br>Pedaqogika nəzəriyyəsi və tarixi<br>Sosial pedaqogika<br>Təhsildə qiymətləndirmə və monitorinq<br>Təlim və tədrisin təşkili və metodikası (SABAH) * |
| 19. | 060407 | **Menecment**<br>Menecment (təhsilin təşkili və idarə olunması)<br>Menecment (Ali təhsilin təşkili və idarə olunması)**<br>Menecment (təhsilin təşkili və idarə olunması)*** |
| 20. | 060805 | **Sosial iş**<br>Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş<br>Gənclərlə iş |
| | | **MBA proqramı üzrə** |
| 21. | 060409 | **Biznesin idarə edilməsi**<br>Biznesin təşkili və idarə edilməsi (Təhsilin təşkili və idarə olunması) |
| 22. | 060408 | **Marketinq**<br>Marketinq (Təhsil üzrə marketinqin təşkili və idarə olunması) |

"Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 mart 2012-ci il tarixli, 65 nömrəli qərarına əsasən doktorantura səviyyəsində 33 ixtisas üzrə elmi dərəcəli kadrlar hazırlanır:

| №-si | İxtisasın şrifti | İxtisasın adı |
|---|---|---|
| 1. | 1203.01 | Kompüter elmləri |
| 2. | 1211.01 | Diferensial tənliklər |
| 3. | 2220.01 | Yarımkeçiricilər fizikası |
| 4. | 2301.01 | Analitik kimya |
| 5 | 2306.01 | Üzvi kimya |
| 6 | 2401.01 | Zoologiya |
| 7 | 2411.01 | İnsan və heyvan zoologiyası |
| 8 | 5401.01 | İqtisadi coğrafiya |
| 9 | 5502.01 | Ümumi tarix |
| 10 | 5503.02 | Vətən tarixi |

| | | |
|---|---|---|
| 11 | 5505.02 | Arxeologiya |
| 12 | 5706.01 | Azərbaycan dili |
| 13 | 5710.01 | Türk dilləri |
| 14 | 5716.01 | Azərbaycan ədəbiyyatı |
| 15 | 5718.01 | Dünya ədəbiyyatı |
| 16 | 5719.01 | Folklorşünaslıq |
| 17 | 5801.01 | Rus dilinin tədrisi metodikası |
| 18 | 5801.01 | Biologiyanın tədrisi metodikası |
| 19 | 5801.01 | İnformatikanın tədrisi metodikası |
| 20 | 5801.01 | Fizikanın tədrisi metodikası |
| 21 | 5801.01 | İngilis tədrisi metodikası |
| 22 | 5801.01 | Riyaziyyatın tədrisi metodikası |
| 23 | 5801.01 | Tarixin tədrisi metodikası |
| 24 | 5801.01 | Azərbaycan tədrisi metodikası |
| 25 | 5801.01 | Ədəbiyyatın tədrisi metodikası |
| 26 | 5801.01 | Kimyanın tədrisi metodikası |
| 27 | 5801.01 | Coğrafiyanın tədrisi metodikası |
| 28 | 5802.01 | Təhsilin təşkili və planlaşdırılması |
| 29 | 5803.01 | Müəllim hazırlığı və fəaliyyəti |
| 30 | 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi |
| 31 | 5805.01 | Korreksiya pedaqogikası |
| 32 | 6104.01 | Pedaqoji psixologiya |
| 33 | 6107.01 | Ümumi psixologiya |

**3.2.2. ADPU-da tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti**

Nazirlər Kabinetinin 12.01.2009-cu il tarixli 08 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsilin bakalavr səviyyəsi ixtisalarının (proqramlarının) təsnifatı"na uyğun olaraq bakalavriat səviyyəsinin ixtisaslar üzrə məzunun bilik, bacarıq və vərdişlərinə qoyulan kompetensiyalarını özündə əks etdirən Təhsil Nazirliyinin 22.08.2014-cü il tarixli 913 nömrəli əmri ilə təsdiq edilmiş Təhsil Proqramları əsasında tərtib olunan tədris planları üzə tədrisin təşkili həyata keçirilir (son tədris ili).

**2014-cü ildə qəbul edilmiş tədris planlarının əhatə etdiyi tədris illəri**




ABŞ Dövlət Departamentinin maliyyələşdirdiyi Fulbrayt proqramı çərçivəsində ADPU-ya ezam olunmuş ingilis dili mütəxəssisinin rəhbərliyi altında maraqlı tərəflərin iştirakı ilə Xarici dil müəllimliyi (ingilis dili) ixtisası üzrə təhsil proqramının, tədris planın və sillabusların əmək bazarının ehtiyacları nəzərə alınmaqla və xarici dil (ingilis dili) müəllim hazırlığının keyfiyyətinin artırılması məqsədi ilə yenidən işlənmiş, ADPU EŞ-nın 10 iyul 2018-ci il tarixli 7 nömrəli protokolu ilə təsdiq edilmişdir.

ADPU-da tədrisi təşkili olunan ixtisas və ixtisaslaşmalarda tətbiq olunan tədris planlarının ekspertizası aparılmışdır. Əmək bazarının tələbləri nəzərə alınmaqla həm bakalavriat, həm də magistratura səviyyələri üzrə tədris planlarında seçmə fənlər blokunda mövcud olmuş fənlər yeniləri ilə əvəz edilmiş və universitet EŞ-da müzakirə olunaraq təsdiq edilmişdir.

ADPU-da NK-nin 2019-cu il 11 fevral tarixli 45 nömrəli Qərarı ilə Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) təsnifatına uyğun olaraq müasir tələblərə və əmək bazarının ehtiyaclarına cavab verən kompetensiya əsaslıq və tələbəyönümlük nəzərə alınmaqla işə götürənlərin iştirak ilə ARTN-nin 21.08.2020-ci il tarixli

381 nömrəli əmri ilə təsdiq edilmiş təhsil proqramları əsasında yeni tədris planları hazırlanmışdır. Tədris planları ADPU-nun EŞ-nin 18.09.2020-ci il tarixli 1 nömrəli əmri ilə təsdiq edilmişdir.

**2020-ci ildə qəbul edilmiş tədris planlarının əhatə etdiyi tədris illəri**




Magistratura səviyyəsi üzrə tədris planları ARTN 22 fevral 2012-ci il tarixli 258 nömrəli, 30.09.2016-cı il tarixli 640 nömrəli və 02.09.2022-ci il tarixli F534 nömrəli əmrləri ilə təsdiq edilmiş “Magistratura səviyyəsinin ixtisas (ixtisaslaşma) üzrə təhsil proqramı” əsasında tərtib olunmuşdur.

**Magistratura səviyyəsi üzrə 2012, 2016 və 2022-ci illərdə ci ildə qəbul edilmiş tədris planlarının əhatə etdiyi tədris illəri**




Ali təhsildə tədrisin keyfiyyətinin yüksəldilməsi, ali təhsil sistemində yeni və fərqli mühitin yaradılması, savadlı, bacarıqlı və hazırlıqlı tələbə yetişdirilməsi, əmək bazarının artan tələblərinə müvafiq olaraq kadr hazırlığının təmin edilməsi məqsədilə ARTN-nin 15.09.2014-ci tarixli 992 nömrəli əmri ilə SABAH qrupları layihəsi yaradılmışdır. SABAH qrupları layihəsi aşağıda qeyd olunan ixtisasları əhatə edir:

| №-si | İxtisasın şrifti | İxtisasın adı |
|---|---|---|
| 1 | 050101 | Azərbaycan dili və ədəbiyyat müəllimliyi |
| 2 | 050107 | İbtidai sinif müəllimliyi |
| 3 | 050112 | Məktəbəqədər təhsil |
| 4 | 050115 | Riyaziyyat və informatika müəllimliyi |

Əmək bazarı və cəmiyyətin tələblərinə uyğun, beynəlxalq rəqabətə davamlı peşəkar kadr hazırlığını təmin edəcək yeni məzmun, təlim infrastrukturunun yaradılmasını və dayanıqlığını stimullaşdırmaq məqsədilə universitetdə 2021/2022-ci tədris ilində 060409 “Biznesin idarə edilməsi” ixtisasının “Biznesin təşkili və idarə edilməsi (təhsilin təşkili və idarə olunması)” ixtisaslaşması üzrə, 2022/2023-cü tədris ilindən etibarən isə 060408 “Marketinq” ixtisasının “Marketinq (Təhsil üzrə marketinqin təşkili və idarə olunması)” ixtisaslaşması üzrə MBA proqramı açılmışdır.

ARTN-nin dəstəyi ilə 2021/2022-ci tədris ilindən ali təhsilin magistratura səviyyəsi üzrə 060119 Pedaqogika –“Təlim və tədrisin təşkili və metodkası” ixtisaslaşması üzrə SABAH magistratura layihəsi həyata keçirilir.

**Azərbaycan Respublikası Prezidentinin 16.11.2018-ci il tarixli 711 nömrəli Sərəncamı ilə təstiq edilmiş “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”na müvafiq olaraq** ADPU və Corc Vaşinqton Universitetinin Ali Təhsil və İnsan İnkişafı Məktəbi arasında 25 iyun 2019-cu il tarixində imzalanmış Bəyannaməyə əsasən ikili diplom proqramı

yaradılmışdır. 2019/2020-ci tədris ilində proqramın ilk qəbulu (25 magistr) həyata keçirilmişdir. Hal-hazırda proqrama son (2023-2024-cu illər) qəbul həyata keçirilir.

2021/2022-ci tədris ilində ADPU-CVU ikili diplom proqramının ilk məzunları olmuşdur. İkili diplom proqramı intensiv təhsil proqramı əsasında həyata keçirilir. Burada 10 fənn ADPU, 10 fənn isə Corc Vaşinqton Universiteti tərəfindən tədris olunur.

**3.2.3. ADPU-da tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti**

Əmək bazarının tələbləri nəzərə alınmaqla ixtisasların təhsil proqramlarının və ayrı-ayrı fənlərin təlim nəticələri təhsilalanlardan tələb olunan minimum səviyyəni əks etdirməklə təsvir edilmişdir. ADPU-da tədrisi təşkil olunan bəzi ixtisas və ixtisaslaşmaların peşə və kvalifikasiya standartları Milli Kvalifikasiyalar Reysterində (MKR) qeydə alınmış və onların milli və beynəlxalq səviyyədə tanınması təmin edilmişdir.

https://www.kvalifikasiya.edu.az/az/qualifications

| | |
|---|---|
| VI səviyyə | • İbtidai sinif müəllimliyi |
| VI səviyyə | • Tərbiyəçi müəllim (məktəbəqədər) |
| VI səviyyə | • Təhsil psixoloqu |
| VI səviyyə | • Korreksiyaedici pedaqoq |
| VII səviyyə | • Məktəb meneceri |

**3.2.4. Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin (AZMKÇ) tələblərinə uyğunluğu**

Təhsil proqramları AzMKÇ-in VI, VII, VIII səviyyələrinə müvafiq olaraq Avropa Kredit Transferi və Toplanması Sisteminə (AKTTS) uyğun olan kreditlərlə uzlaşdırılmışdır. Təlim nəticələri bilik, bacarıq və müstəqillik/məsuliyyət baxımından AzMKÇ-nin səviyyələri ilə əlaqələndirilərək təsvir edilmişdir.

**3.2.5. Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu**

ARTN-nin 13.08.2020-ci il tarixli F-226 nömrəli əmrlə təsdiq edilmiş “Bakalavriat səviyyəsini (əsas (baza) ali tibb təhsilinin) ixtisas üzrə təhsil proqramının çərçivə sənədi”nə əsasən ADPU-da tədrisi təşkil olunan ayrı-ayrı təhsil proqramlarının və hər fənn üzrə təlim nəticələri, onların əldə olunmasına dəstək verən matris məzmun standartlarına uyğun tərtib edilmişdir. Mütəmadi olaraq müvafiq strukturlar tərəfindən təlim nəticələrinin məzmunu müzakirə olunur və müvafiq yenilənmələr aparılır.

**3.2.6. Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTS) prinsiplərinə uyğunluğu**

Təhsil proqramları üzrə AKTS kreditləri ixtisasdan asılı olaraq ümumi fənlər 30 kredit, ixtisas fənlərinə (o cümlədən Mülkü müdafiə və ilkin tibbi yardım) 120 kredit, universitet tərəfindən müəyyən edilən fənlərə 60 kredit, pedaqoji internaturaya 30 kredit ayrılmışdır. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saat olmaqla, həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox deyildir.

Dərs saatlarının bölgüsü AKTS prinsiplərinə uyğunluğu və həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu tam təmin edilmişdir.

Universitet tərəfindən müəyyən edilən fənlər (60 kredit) tədris planına daxil edilərkən Avropa və Türkiyənin aparıcı universitetlərində tədris olunan fənlərə unifikasiyası nəzərə alınmışdır.

Universitetdə tələbələrin təhsili ixtisas (ixtisaslaşma) üzrə təhsil proqramı əsasında həyata keçirlir.

**3.2.7. Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu**

Bütün ixtisaslar üzrə tədris planlarında humanitar fənlər və ixtisasın peşə hazırlığı fənlər bölmələri nəzərdə tutulmuşdur:

Humanitar fənn bölümü, sosial fəaliyyətin müxtəlif sahələrində mövcud problemləri və prosesləri araşdırmağı, ixtisasın peşə hazırlığı fənləri ixtisasa dair standart və qeyri-standart məsələləri həll etmək üçün zəruri bilik, bacarıq və vərdişlərin öyrənilməsini təmin edir.

Bakalavriat səviyyəsində ARTN-i 22.08.2014-cü il tarixli 913 nömrəli əmri ilə təsdiq edilmiş Təhsil Proqramlarında humanitar fənn bölümünə məcburi fənlər kimi "Azərbaycan tarixi", "Azərbaycan dili və nitq mədəniyyəti" və "Xarici dil" fənləri daxil edilmişdir. ARTN-nin 21.08.2020-ci il tarixli 381 nömrəli əmri ilə təsdiq edilmiş ixtisas fənn bölümünə məcburi fənlər kimi "Azərbaycan tarixi", "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya", "Xarici dildə işgüzar və akademik kommunikasiya" fənləri daxil edilmişdir.

Magistratura səviyyəsində ARTN-nin 31.08.2012-ci il tarixli 1463 nömrəli əmri ilə təsdiq edilmiş təhsil proqramlarında humanitar fənlər bölümünə məcburi fənlər kimi "Xarici dil", "Ali məktəb pedaqogikası" və "Psixologiya" fənləri daxil edilmişdir. ARTN-nin 30.09.2016-cı il tarixli 640 nömrəli və 02.09.2022-ci il tarixli F534 nömrəli əmri ilə təsdiq edilmiş təhsil proqramlarında humanitar fənlər bölümü öz əksini tapmamışdır.

Bütün bunlardan başqa ARTN-nin müvafiq məktublarına əsasən tədris planlarına 2015-ci ildə bakalavriat səviyyəsinin ixtisaslarına "Multikulturalizmə giriş", magistratura səviyyəsinə "Azərbaycan multikulturalizmi", 2016-cı ildə isə "Tədqiqat üsulları"adlı fənlər daxil edilmişdir.

**3.2.8. Həftəlik auditoriya və auditoriyadankənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu**

Təhsil proqramlarına müvafiq olaraq bakalavriat səviyyəsində auditoriya və auditoriyadankənar saatlar nəzərə alınmaqla həftəlik tədris yükü 45 saatdır. Bakalavriat səviyyəsində həftəlik auditoriya saatların həcmi ümumi həftəlik yükün 50 faizdən çox deyildir. Magistratura təhsil səviyyəsində həftəlik auditoriya saatları 16 saatdan çox deyil.

Tədris planlarında məcburi auditoriya dərslərinin maksimal həcmi ayrı-ayrı ixtisaslar üzrə təhsil proqramlarına uyğun öz əksini tapmışdır.

Seçmə fənlərə ayrılan saatların həcmi ümumi saat həcminin 25-30 faizini təşkil edir. Həmin fənlər universitetin müvafiq kafedraları tərəfindən təklif olunub.

**3.2.9. Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı**

İxtisaslar üzrə ARTN-nin 22.08.2014-cü il tarixli 913 nömrəli əmri ilə təsdiq edilmiş təhsil proqramlarında fənn bölümləri üzrə mənimsəmə nəticələri bilik, bacarıq vərdişlər baxımından qeyd edilmişdir.

ARTN-nin 21.08.2020-ci il tarixli 381 nömrəli əmri ilə təsdiq edilmiş təhsil proqramlarına əsasən ixtisasların spesifikliyinə nəzərə alınmaqla proqramın və hər fənn üzrə gözlənilən təlim nəticələri müəyyən edilmişdir. Təhsil proqramının və hər fənn üzrə təlim nəticələrinin əldə olunmasına necə dəstək verdiyini əks etdirən matris tərtib edilmişdir. Fənni tədris edən müəllim fənn üzrə təlim nəticələrinin (bir fənn üzrə ən azı 6 təlim nəticəsi) və hər təlim nəticəsi

üzrə təlim və öyrənmə metodlarını, eləcə də qiymətləndirmə üsullarını müəyyən edən cədvəllər tərtib edilmişdir.

Universitetin rəsmi saytında tədrisi təşkil olunan təhsil proqramlarının icrası nəticəsində əldə olunan təlim nəticələri yerləşdirilərək ictimaiyyətə əlçatanlığı təmin edilmişdir.

**3.2.10. Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti**

İxtisaslar üzrə tədris planları hazırlanıb və təsdiq edilərkən ARETN-nin birbaşa tabeliyində və o cümlədən regional təhsil idarələrinin tabeliyində olan ümumtəhsil müəssisələrinin rəhbər və müəllim heyətinin iştirakı ilə müzakirələr aparılmış, əmək bazarının tələblərinə uyğun kadr hazırlığı barədə rəylər alınmışdır.

## 3.3. Tədrisin təşkili

ADPU-da tədrisin təşkili "Təhsil haqqında" AR Qanunun, NK-nın 2010-cu il 23 aprel tarixli 75 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın, 2010-cu il 24 iyun tarixli 117 nömrəli qərarı ilə təsdiq edilmiş "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"nın və 2010-cu il 12 may tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"nın tələblərinə uyğun olaraq həyata keçirilir.

**3.3.1. Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti.**

ADPU-da tədris ARNK-nın 24 dekabr 2013-cü il tarixli 348 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın tələblərinə uyğun olaraq kredit sistemi əsasında təşkil olunur.

ADPU-da ixtisas və ixtisaslaşmalar üzrə tədris ali ixtisas təhsilinin dövlət standartlarına, ali baza təhsil proqramlarına və 2010-cu il 24 iyun tarixli, 117 nömrəli qərarı ilə təsdiq edilmiş "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili" Qaydalarının və 2010-cu il 12 may tarixli, 88 nömrəli qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu və təşkili" Qaydalarının tələbləri gözlənilməklə, tərtib edilmiş tədris planları əsasında həyata keçirilir.

Hazırda qüvvədə olan tədris planları ali ixtisas təhsilinin dövlət standartlarının tələbləri nəzərə alınmaqla, tədris işinin həcmi kredit vahidləri ilə müəyyən edilmişdir. Tədris planlarında fənlərin vacibliyi, məzmunun mənimsənilməsi ardıcıllığı, prekvezitlik və korekvizitlik gözlənilmişdir. Universitet tərəfindən müəyyən edilən fənlər müasirlik və əmək bazarının tələbləri nəzərə alınmaqla mütəmadi olaraq təkmilləşdirilir.

**3.3.2. İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti.**

ADPU-da ixtisas və ixtisaslaşmaların tədris planında göstərilmiş fənlərin şirifti, tədris illəri, kreditlərin sayı, prekvizit, korrekvizit, tədrisi nəzərdə tutulan semestri əks etdirən tədris qrafiki tərtib edilmişdir. Tədris qrafikində müvafiq tədris ilində nəzərdə tutulan istehsalat və pedaqoji təcrübə, YDA-sı, son tədris planlarında nəzərdə tutulan pedaqoji internatura öz əksini tapmışdır. Hər tədris ili üçün ixtisasın tədris qrafiki əsasında tələbənin fərdi tədris planı hazırlanır. İxtisas və ixtisaslaşmaların tədris qrafiki universitetin rəsmi saytında yerləşdirilmişdir.

**3.3.3. Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti**

ADPU-da tədrisi təşkil edilən ixtisas və ixtisaslaşmaların tədris planlarında məcburi və seçmə fənlərin bölgüsü aparılmış, ümumi və ixtisas fənləri arasında balans saxlanılmışdır. Tədris planında seçmə fənlərə ayrılan saatın həcmi ümumi saatın miqdarının 25-30%-ni təşkil edir.

Bakalavriat səviyyəsinin ixtisaslarının tədris planlarında məcburi və seçmə fənlərinə ayrılan kreditlərin bölgüsü:

| Təhsil ixtisasları illik təhsil üzrə | Humanitar fənlər | | İxtisas fənləri | |
|---|---|---|---|---|
| | Məcburi | Seçmə | Məcburi | Seçmə |
| **2014-cü ildə təsdiq edilmiş tədris planı** | | | | |
| 4 illik təhsil | 24 kredit | 6 kredit | 124 kredit | 38 kredit |
| 5 illik təhsil | 24 kredit | 6 kredit | 188 kredit | 52 kredit |
| **2019-cu ildə təsdiq edilmiş tədris planı** | | | | |
| 4 illik təhsil | 26 kredit | 4 kredit | 124 kredit | 38 kredit |
| 5 illik təhsil | 26 kredit | 4 kredit | 188 kredit | 52 kredit |

ARTN-nin 22.04.2019-cu il tarixli F-205 nömrəli əmrinə müvafiq olaraq bakalavriat səviyyəsi üzrə ixtisasların təhsil proqramlarının humanitar fənlər blokuna “Multikulturalizmə giriş” fənni (2 kredit) əlavə edilərək seçmə fənlər 4 kredit müəyyənləşdirilmişdir.

ARTN-nin 21.08.2020-ci il tarixli 381 nömrəli əmri ilə təsdiq edilmiş təhsil proqramları əsasında tərtib olunan tədris planlarında seçmə fənlərə ümumi fənlər bölməsində 30 kreditdən 6 kredit, universitet tərəfindən müəyyən edilən fənlərə isə 60 kredit müəyyənləşdirilmişdir.

Magistratura səviyyəsinin ixtisaslarının tədris planlarında məcburi və seçmə fənlərinə ayrılan kreditlərin bölgüsü:

| Təhsil ixtisasları illik təhsil üzrə | Humanitar fənlər | | İxtisas (ixtisaslaşma) fənləri | |
|---|---|---|---|---|
| | Məcburi | Seçmə | Məcburi | Seçmə |
| **2019-ci ildə təsdiq edilmiş tədris planı** | | | | |
| 2 illik təhsil | 12 kredit | 2 kredit | 52 kredit | 24 kredit |

ARTN-nin 30.09.2016-cı il tarixli 640 nömrəli ilə təsdiq edilmiş təhsil proqramları əsasında tərtib olunan tədris planlarında ixtisas fənlərinə 12 kredit, ali məktəb tərəfindən müəyyən edilən fənlərə 48 kredit müəyyənləşdirilmişdir.

**3.3.4. Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti.**

2019-cu ildə yenilənmiş tədris planlarında ümumi auditoriya saatlarının 15-20 faizi humanitar fənlərə 30 kredit, 80-85 faizi isə ixtisas peşə hazırlığını təmin edən fənlərə 180 kredit, istehsalat təcrübəsinə 21 kredit, Yekun Dövlət Attestasiyasına (YDA) 9 kredit müəyyən edilmişdir.

Universitetdə Riyaziyyat və informatika müəllimliyi, Tarix və coğrafiya müəllimliyi, Biologiya və kimya müəllimliyi ixtisaslarının tədris müddəti beş il nəzərdə tutulmuşdur. Bu ixtisaslarda ixtisas peşə hazırlığını təmin edən fənlərə 240 kredit müəyyən edilmişdir.

2020-ci ildə təsdiq edilmiş tədris planlarında ümumi fənlər, ixtisas fənləri və universitet tərəfindən müəyyən edilən fənlər arasında balans aşağıdakı kimi bölünmüşdür:

| Təhsil ixtisasları illik təhsil üzrə | Ümumi fənlər | İxtisas fənləri | Universitet tərəfindən müəyyən edilən fənlər | Pedaqoji internatura | Ümumi AKTS |
|---|---|---|---|---|---|
| 4 illik təhsil | 30 kredit | 120 kredit | 60 kredit | 30 kredit | 240 kredit |
| 5 illik təhsil | 30 kredit | 180 kredit | 60 kredit | 30 kredit | 300 kredit |

Magistratura təhsil səviyyəsində 2019-cu ildə təsdiq edilmiş tədris planlarında ümumi fənlər, ixtisas fənləri və universitet tərəfindən müəyyən edilən fənlər arasında balans aşağıdakı kimi bölünmüşdür:

| Təhsil ixtisasları illik təhsil üzrə | Humanitar fənlər | İxtisas (ixtisaslaşmalar) fənləri | Seçmə fənlər | Elmi-tədqiqat təcrübəsi | Elmi-pedaqoji təcrübə | Magistr dissertasiyasına hazırlıq və müdafiəsi | Ümumi AKTS |
|---|---|---|---|---|---|---|---|
| 2 illik təhsil | 14 kredit | 42 kredit | 24 kredit | 6 kredit | 6 kredit | 18 kredit | 120 kredit |

**3.3.5. Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti.**

Təlim nəticələri kvalifikasiyaların qiymətləndirilməsində iştirak edən maraqlı tərəflərə daha aydın anlaşıqlı olması üçün mütəmadi olaraq ayrı-ayrı fənlərin təlim nəticələri ekspertiza edilir. Təlim nəticələrinin real və müşahidə olunan, ölçülə və qiymətləndirilə bilinməsinə diqqət yetirilir. Uyğun tərtib olunmayan təlim nəticələri müvafiq kafedralara yönəldilir, yenidən işlənməsi təmin olunur. Hər bir ixtisas üzrə fənnin təlim nəticələrinin ixtisasın təlim nəticələri ilə əlaqələndirilməsini əks etdirən matris tərtib edilmişdir.

**3.3.6. Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti.**

ADPU-da bakalavriat və magistratura səviyyələrində fənləri tədris edən müəllimlərin sillabuslarında təlim nəticələri öz əksini tapmışdır. Tədris illəri üzrə məzmununda dəyişikliklər olan mövzularla bağlı professor-müəllim heyəti təlim nəticələrini yeniləyirlər. Təlim nəticələrinin düzgün yazılması və yenilənməsi barədə universitet TMŞ-da müzakirələr aparlır. Fənnin təlim nəticələri fənn sillabuslarında öz əksini tapmasını dekanlıqlar, kafedralar və Tədris departamenti tərəfindən nəzarət olunur. Təlim nəticələri fənnin məzmunu ilə uyğun gəlmədiyi halda yenidən tərtib edilməsi tədris edilən müəllimə tapşırılır.

**3.3.7. Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayrılmasına imkan verməsi vəziyyəti.**

Bakalavriat səviyyəsində tələbənin beş günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdan, magistratura səviyyəsində dörd günlük iş rejimində həftəlik auditoriya 16 saatdan çox deyildir. Qeyd edək ki, ixtisaslar üzrə təhsil proqramına müvafiq olaraq məcburi auditoriya dərslərinin maksimal həcmi dəyişir.

Bakalavriat və magistratura səviyyələrində mövcud tədris planlarında semestrlər üzrə nəzərdə tutulmuş fənlərin sayı yeddini keçmir. Semestr üzrə bakalavriat səviyyəsində auditoriya saatı 330 saat, həftəlik auditoriya saatı 22 saatdır. Magistratura səviyyəsində 225 saat, həftəlik auditoriya saatı 15 saatdır. Bu da tələbə və magistrantlara dərsdənkənar məşğələlərə vaxt ayırmasına şərait yaradır.

**3.3.8. Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdrən fərdi tədris planının mövcudluğu vəziyyəti**

Fakultələrdə hər tədris ili üçün ixtisasın və ixtisaslaşmaların tədris qrafikinə əsasında fənlərin prerekvizitliyi gözlənilməklə fərdi tədris planı tyutorların köməyi ilə tələbənin özü tərəfindən tərtib edilir. Tələbə tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditləri, fənlər üzrə müəllimlərin siyahısını fərdi tədris planında əks etdirir.

Növbəti tədris ili üçün tələbənin fərdi tədris planı tərtib edilərkən ilk növbədə əvvəlki ildən akademik borcu qalan fənlər daxil edilir. Akademik borcu qalan tələbələrə həmin fəndən krediti qazanması üçün şərait yaradılır.

Birinci tədris ilinə qəbul olunmuş tələbə və magistrantlara fakültə və şöbə tərəfindən fərdi tədris planı hazırlanır.

Tələbənin fərdi tədris planında sonradan dəyişiklik edilməsinə icazə verilmir. Payız semestrində akademik borcu qalan tələbələr qış tətilinin ilk həftəsində yaz semestri üçün fərdi tədris planında düzəliş edə bilirlər.

Fakültə dekanı tədris ilinin başlanğıcına qədər fərdi tədris planlarını təsdiq edir və bir nüsxə tələbədə, bir nüsxə isə fakültədə saxlanılır.

**3.3.9. İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti.**

Fakültələrdə, Magistrantura və doktorantura şöbəsində hər bir ixtisas və ixtisaslaşmaların tədris planına, tədris qrafiki və tələbələrin fərdi tədris planları əsasında illik işçi tədris planı hazırlanmışdır. İşçi tədris planlarında ixtisas və ixtisaslaşmalar üzrə cari tədris ilində tədris olunacaq fənlərin adları, dərsin növlərinə görə saat bölgüsü, həftəlik auditoriya saatı, fənlərin kreditləri və tələbələrin sayı qeyd olunub və tədris işləri üzrə prorektor tərəfindən təsdiq edilmişdir.

**3.3.10. Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti.**

Fakültələrdən kafedralara yönəldilmiş ixtisas və ixtisaslaşmaların illik işçi tədris planı əsasında müəllimlər illik işçi tədris planlarını tərtib ediblər. Müəllimlər işçi tədris planlarında tədris etdikləri fənləri (fakültənin, fənnin adı və şirifti), mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini və semestrini, qrupunu, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən məlumatlar əlavə edilib və müvafiq qaydada kafedra müdiri tərəfindən təsdiq olunmuşdur. Professor-müəllim heyətinin dərs yükünün bölünməsində auditoriya və auditoriyadankənar saatlarının uyğun olaraq 60/40 nisbəti gözlənilib.

**3.3.11. Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti.**

İxtisas və ixtisaslaşmaların, fənlərin spesifikliyi nəzərə alınmaqla tədris planlarında auditoriya saatları tədris növlərinə bölünmüşdür. Mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyətini monitorinq etmək üçün fakültə dekanı və kafedra müdirləri, fakültə TMŞ-nın üzvləri ayrı-ayrı professor-müəllim heyətinin dərslərini dinləyir, müvafiq qaydada müzakirə olunur və istiqamətverici tədbirlər həyata keçirilir.

**3.3.12. Məsləhət xidmətinin təşkili vəziyyəti.**

Kafedralarda fənlərin mənimsənilməsi, sərbəst iş mövzularının yazılması ilə bağlı, tələbə elmi-tədqiqat işlərinə istiqamət vermək məqsədilə kafedralarda məsləhət saatları təşkil edilir və müəllimlərin sillabuslarında gün və tarix göstərilməklə əks olunur. Tələbə və magistrantlar kredit sistemi ilə tədrisin təşkili, AKTS sisteminin tətbiq edilməsi və digər məsələlərdə kömək almaq üçün tyutor məsləhət xidmətindən də yararlanırlar.

**3.3.13. Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti.**

Tələbənin müstəqil işi olan sərbəst iş müəllimin rəhbərliyi altında auditoriya və auditoriyadankənar şəkildə təşkil olunur. Fənnin spesifikasından asılı olaraq müəllimlər tələbə və magistrantlara fərdi, komanda, qrup formasında tapşırıqlar verirlər. Sərbəst işlərin mövzuları və iş forması fənnin sillabusunda göstərilir, işlərin yerinə yetirilməsi üçün zəruri məsləhətlər verilir, işin gedişatına nəzarət edirlər.

**3.3.14. Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti.**

Qüvvədə olan tədris planlarına müvafiq olaraq bakalavriat səviyyəsində pedaqoji təcrübəyə 21 kredit olmaqla, 14 həftə ərzində normativ-hüquqi tələblərə uyğun rəsmiləşdirilir. İxtisasların spesifikasına uyğun olaraq ARETN-nin birbaşa və Regional Təhsil İdarələrinin tabeliyində olan ümumtəhsil və məktəbəqədər müəssisələrində, özəl təhsil müəssisələrində, Əmək və əhalinin sosial müdafiə nazirliyində, Gənclər və idman nazirliyində, Sosial Xidmət Agentliyində, Qeyri hökümət təşkilatlarında ikitərəfli bağlanmış müqaviləyə əsasən istehsalat təcrübələri təşkil olunur.

Coğrafiya müəllimliyi, Tarix və və coğrafiya müəllimliyi, Kimya və biologiya müəllimliyi, Biologiya müəllimliyi ixtisaslarında istehsalat təcrübəsi ilə yanaşı, çöl təcrübələri Abşeron, Xızı və Şirvan Milli parklarında, Xıllı nərə balıq artırma zavodunda, Neftçala Yod – Bron və Sənaye məhəlləsinin zavodlarında, o cümlədən Avtomibil zavodunda təşkil edilmişdir.

Magistratura səviyyəsində təhsil alanlar isə pedaqoji və elmi-tədqiqat təcrübələrini universitetin müvafiq kafedralarında və struktur bölmələrində keçirirlər.

Təcrübə keçən bütün tələbələr təcrübə gündəliyində və hər qrup üçün davamiyyət jurnallarında qeydiyyatlar aparılır. Yekunda hər bir tələbə təcrübə zamanı gördüyü işlər haqqında hesabat hazırlayır. Təcrübə planının yerinə yetirilməsi səviyyəsi, davamiyyət, pedaqoq, psixoloq, ixtisas metodistinin qiymətləndirilməsi və hesabat nəzərə alınmaqla tələbənin təcrübəsinin nəticəsi sonuncu gün attestasiya olunur. Ümumilikdə, təhsilalanlar 150-dən çox müəssisələrdə təcrübə keçirlər.

**3.3.15. Stajkeçmənin təşkili vəziyyəti**

Universitetdə stajkeçmə professor-müəllim heyətinin təkmilləşdirilməsi peşəkarlıq səviyyəsinin və əməyin keyfiyyətinin yüksəldilməsi, peşə bacarıqlarının formalaşdırılması, inkişaf etdirilməsi, nəzəri biliklərinin təcrübə ilə əlaqələndirilməsi, daha müasir peşə bacarıq və vərdişlərinin qazanılması, yeni texnologiyalar və innovasiyalar sisteminin tətbiqi üzrə təcrübə əldə etməsi məqsədilə müxtəlif problemlər üzrə Təlim-tədris mərkəzi, Davamlı təhsil və innovasiyalar bölməsi tərəfindən mütəamadi təlimlər təşkil edilmişdir.

Universitetdə ingilis dili müəllimlərinin təkmilləşdirilməsi, dil bilik səviyyələrinin yüksəldilməsi, sinfin idarəolunması, sillabusların hazırlanması ilə bağlı 2018/2019-cu tədris illərində ABŞ Dövlət Departamentinin maliyyələşdirdiyi Fulbrayt proqramı çərçivəsində ingilis dili mütəxəssisinin rəhbərliyi ilə təlimlər təşkil etmişdir.

Azərbaycan Respublikası Təhsil İnistitunun təşkilatçılığı ilə universitetin 30 nəfər əməkdaşa 17-27 may 2021-ci il tarixində “STEAM Azərbaycan” layihəsi çərçivəsində təlimə cəlb edilmişlər. Təlimin əsas məzmununu STEAM və onun pedaqoji əsasları, layihə

əsaslı öyrənmə, STEAM təhsilində qiymətləndirmə, 3D modelləşdirmə və 3D çap, ümumtəhsil orta məktəblərində STEAM fənninin proqramının müzakirəsi, STEAM fənni üzrə standartların seçilməsi, STEAM layihələrinin qurulması mövzuları təşkil edib. Təlim müddətində iştirakçılar STEAM metodologiyaları, 5E və 7E modeli əsasında dərslərin qurulması, layihənin təşkili və planlaşdırılması, 3D modelləşdirmə, 3D çapın tətbiq sahələri, təhsildə Snapmakerin rolu, CNC qurğunun quruluşu və iş prinsipi, mikrobitin quruluşu və funksiyaları, VI, VII,VIII siniflərdə STEAM fənninin tədrisi haqqında geniş məlumat əldə ediblər.

Universitet professor-müəllim heyətinin müasir peşə bacarıq və vərdişlərinin artırılması, yeni texnologiyalar və innovasiyalar sisteminin tətbiqi üzrə təcrübə əldə etməsi məqsədilə milli və beynəlxalq səviyyədə stajkeçmənin təşkilini lazımi səviyəyə çatmasına nail olmamışdır. Bu sahənin prioritet sahə kimi yeni hazırlanacaq Strateji planda öz əksini tapması nəzərdə tutulur.

**3.3.16. Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti.**

Akkreditasiya olunan dövrlərdə 2016/2017, 2017/2018, 2018/2019-cu tədris illərində ixtisasların tədris planına (15.10.2014-cü ildə təsdiq olunmuş) müvafiq olaraq kurs layihəsi (işi) hazırlanması və müdafiəsi müvafiq kafedralarda təşkil olunurdu. Kafedralarda tapşırıqlar üzrə mövzular müəyyən edilmiş, məsləhət saatları təşkil olunmuş və fənn müəllimlərinin rəyi əsasında tələbələr müdafiəyə təqdim edilmişlər. Müdafiə olunmuş kurs işləri qeydiyyata alınaraq, kafedralarda normativ müddətdə saxlanılması üçün qəbul olunmuşdur.

2019/2020-ci tədris ilində tədris planlarının məzmununda təkmilləşdirmə aparılması, əvvəlki illərdə yerinə yetirilmiş kurs işlərinin ekspertizası nəticəsində aşkar olunan kobud nöqsanlar, o cümlədən kurs işlərinin yerinə yetirilməsinə ciddi yanaşılmaması, habelə kurs işlərinə ayrılan saatlar hesabına kafedralarda yaranan tədris yüklərinin onların mövcud imkanlarından daha çox artırmasına səbəb olması və s. əlaqədar olaraq hazırda ADPU-da kurs layihəsinin (işi) hazırlanması məqsədəuyğun hesab edilməmişdir.

**3.3.17. Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti.**

Yekun Dövlət Attestasiyanın (YDA) təşkili NK-nin 2010-cu il 23 aprel tarixli, 75 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın və ARTN-nin 27.01.1997-ci il tarixli 54 saylı əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə"nin, universitet EŞ-nın 30.10.2019-cu il tarixli iclasının Qərarı ilə (protokol № 2) təsdiq edilmiş "Azərbaycan Dövlət Pedaqoji Universitetinin bakalavriat səviyyəsində dövlət attestasiyası haqqında Qaydalar"ın tələbləri çərçivəsində həyata keçirilir. Buraxılış işlərinin hazırlanması və müdafiəsinin təşkili müvafiq təlimata uyğun normativ tələbləri gözlənilməklə aparılır.

Tələbələrin dövlət attestasiyası istiqamət (ixtisas) üzrə fənlərin buraxılış (yazılı qaydada) yekun dövlət imtahanı və buraxılış işinin müdafiəsi formada təşkil ounur.

Buraxılış işi müvafiq olaraq kafedralar tərəfindən müəyyənləşdirilmiş və müvafiq fakültə EŞ-da təsdiq edilmiş mövzular əsasında yerinə yetirilir. Tələbəyə mövzu seçmək, eləcə də işlənməsinin məqsədəuyğunluğu və əhəmiyyəti əsaslandırılmış mövzular təklif etmək hüququ verilir. Buraxılış işinin yerinə yetirilməsi üçün hər bir tələbəyə rəhbər və zəruri hallarda əlavə məsləhətçi təyin edilir. Buraxılış işlərində antiplagiat proqramının tətbiqi həyata keçirilir.

Magistratura təhsil səviyyəsində NK-nin 20.04.1998-ci il tarixli 202 nömrəli əmri ilə təsdiq edilmiş "Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi

qaydaları haqqında Əsasnamə"nin tələbləri nəzərə alınmaqla magistrlik dissertasiyasının müdafiəsi təşkil edilir.

Pandemiya dövrünün tələblərinə uyğun olaraq 2021-ci ildə YDA-sı "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə" NK-nın 05 iyun 2021-ci il tarixli 158 №-li Qərarına və "2020/2021-ci tədris ilinin yaz semestrində ADPU-da imtahan sessiyasının və yekun dövlət attestasiyasının təşkilinə dair müvəqqəti Qaydalar"a əsasən bakalavriat səviyyəsində tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalardan) müvəffəqiyyətlə keçmiş tələbələr təhsil müddətində əldə etdikləri nəticələrə (ÜOMG) uyğun olaraq yekun attestasiyadan keçmiş hesab olunublar. Təhsil müddətində əldə etdikləri nəticələrə (ÜOMG) uyğun olaraq çıxarılmış yekun attestasiyanın nəticələri ilə razılaşmayan tələbə ixtisas üzrə buraxılış yekun dövlət imtahanında (fənlərarası) onlayn formada ADPU EŞ-nin 30 oktyabr 2019-cu il tarixli iclasının qərarı ilə (protokol № 2) təsdiq edilmiş "Azərbaycan Dövlət Pedaqoji Universitetinin bakalavriat səviyyəsində tələbələrin dövlət attestasiyası haqqında Qaydalar"a əsasən iştirak ediblər. Buraxılış işi yazmaq hüququ əldə etmiş tələbələr, arzu edərsə, buraxılış işini yazmaqdan buraxılış işinin müdafəsi keçirilənədək yazılı müraciət əsasında imtina edərək ÜOMG-yə əsasən məzun ola biliblər.

**3.3.18. İmtahan sessiyasının təşkili vəziyyəti.**

İmtahanların keçirilmə qaydaları və formaları normativ hüquqi aktların tələblərinə uyğun (ARTN-nin 11.09.2008-ci il tarixli 1060 saylı əmri təsdiq edilmiş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi" haqqında Əsasnamə) və 25.12.2018-ci il tarixində təsdiq edilmiş "ADPU-da imtahan sessiyasının təşkili və keçirilməsi Qadaları"nın tələblərinə əsasən təşkil olunur. Ayrı-ayrı ixtisaslar üzrə təhsil proqramlarının təhsilalanlar tərəfindən mənimsənilmə səviyyəsi və keyfiyyəti müvafiq qaydalar əsasında cari, aralıq və dövlət attestasiyası zamanı müəyyənləşdirilir. Təhsilalanların cari, aralıq və dövlət attestasiyası zamanı biliyinin qiymətləndirilməsi AKTTS-nə uyğun olaraq 100 ballı sistemlə həyata keçirilir. İmtahanlar əsasən test üsulu, yazılı və şifahi formada aparılır.

Sessiyanın gedişi zamanı imtahanların nəticəsindən yarana biləcək narazılıqların mövcud qaydada araşdırılması və həll edilməsi ADPU Apellyasiya Komissiyası tərəfindən həyata keçirilir. İmtahanların keçirilməsinin təşkili və imtahan prosesində yarana biləcək narazılıqların mövcud qaydada araşdırılması və həll edilməsi ADPU-nun rektorunun əmri ilə yaradılan İmtahan Qərargahı tərəfindən yerinə yetirilir.

İmtahan prosesində şəfafflığı və ictimai etimadı gücləndirilməsi məqsədilə rektorun əmri əsasında ictimaiyyət nümayəndələrindən ibarət İctimai Şura yaradılıb.

**3.3.19. Yay semestrinin təşkili vəziyyəti.**

ARNK-nin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili" qaydalarının "3.4. Yay semestrinin təşkili" bölməsinin tələblərinə uyğun olaraq hər tədris ilinin sonunda (bir qayda olaraq, iyul-avqust aylarında) 6 həftədən ibarət yay semestri təşkil edilir. Yay semestrində cari və əvvəlki semestrlərdən akademik kredit borcu olan və müvəffəqiyyət qazanılan fəndən qiymətini yüksəldilməsi məqsədilə tələbələr üçün könüllülük prinsipi və ödənişli əsaslarla müstəqil qruplar yaradılır. Qeyd edək ki, yay semestrində tələbələrin akademik mobilliyi təmin olunaraq digər ali təhsil müəssisələrinin tələbələri də iştirak edirlər.

### 3.3.20. Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası

Bakalavriat və magistratura təhsil səviyyələrində 2016/2017 - 2021/2022-ci tədris illəri üzrə kredit borcu yaranmış təhsil alanların sayında azalma müşahidə olunur. (Hesabata əlavə edilmiş Excel cədvəli 5)







### 3.3.21. Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası

Bakalvriat və magistratura təhsil səviyyələrində kredit borcu yaranmış fənlərin həcminin tədris illəri üzrə azalan-artan dinamika müşahidə olunur. Xüsusi karantin dövründə onlayn tədrisin təşkili nəticəsində semestr imtahan sessiyası dövründə imtahanlar şifahi onlayn formada təşkil edildiyindən həmin dövrlərdə azalma müşahidə edilmişdir (Hesabat əlavə olunmuş Excel cədvəli 5).







**3.3.22. Tədris prosesi ilə bağlı tətbiq edilən normaların izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti**

Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyi izlənməsi məqsədilə monitorinqlər aparılır, problem və çatışmazlıqlar aşkar edildikdə, prosesə bağlı yeni qaydalar işlənilib hazırlanır. Nümunə üçün imtahanların təşkili qaydaları, müəllimlərin işə qəbulu qaydalarını və s. göstərmək olar. Tədris departamenti, müvafiq fakültələr və kafedralar tərəfindən tədris prosesi mütəamadi izlənilir və təkmilləşdirilməsi ilə bağlı tədbirlər görülür.

### 3.4. Tədris metodları və üsulları

**3.4.1.Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti**

Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalar təlimin səmərəliliyini artırır, biliyin mexaniki şəkildə deyil, təfəkkür vasitəsilə əldə edilməsinə nail olunur. Mühazirə və seminarlarda tapşırıqlar, müstəqil iş, araşdırma, video və audio mühazirələrin köməyi ilə əldə olunan təlim nəticələrini reallaşdırmaq üçün ağıllı lövhələr, monobloklardan, kompüter və proyektorlardan istifadə edilir. Məşğələlərdə yazılı tapşırıqlar, sorğular, frontal sorğu, açıq mühazirə metodları tətbiq eilir.

Mühazirə zamanı müəllimlər Microsoft PowerPoint proqram təminatından istifadə edərək müxtəlif slayd və animasiyalar vasitəsi ilə mövzunu şərh edir. Blum taksonomiyasının mərhələlərindən istifadə etməklə təlim nəticələrinin səmərəli əldə olunmasına imkan yaradılır.

**3.4.2. Tədris metodlarında tələbəyönümlü, problemyönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti.**

Təlim prosesində tətbiqi nəzərdə tutulan metodlar tələbəyönümlüyü təmin edir. Tədris prosesində müxtəlif metodlardan istifadəyə imkan yaradılır, seçilən metodlar təhsilalanların təhsil ehtiyaclarına xidmət edir. Şəraitdən asılı olaraq tədrisin müxtəlif yollarla həyata keçirilməsi layihələşdirilir. Pedaqoji metodlardan kompleks və səmərəli şəkildə istifadə edilir. Tətbiq edilən metodların səmərəlilik səviyyəsi mütəmadi olaraq qiymətləndirilir, fərqli qruplarda, fərqli fənlərdə fərqli metodlardan istifadə təşviq edilir. Metodların seçimindəki müstəqillik təhsilalanlarda müstəqillik hissini stimullaşdırır, müəllim və tələbə əməkdaşlığını inkişaf etdirir, tələbələrin tədris prosesinin qurulmasında fəal iştirakını təşviq edir. Tələbəyönümlü öyrənmə tələbələrə səlahiyyətlərini inkişaf etdirməyə kömək edir.

Tələbəyönümlü təhsil sistemində problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəri materialların tətbiqnin təmin edilməsi üçün tələbələrdə motivasiya yaradılır, tədrisin tələbəyönümlülüyü bu və ya digər şəkildə problem yönümlü və səriştə əsaslı tədrisi, nəzəri materialların tətbiqini təmin edir. Tədrisin belə təşkili əmək bazarında səriştəliliyi, rəqabətə davamlılığı, aktivliyi, vətəndaş məsuliyyətli ilə seçilən gələcək kadr hazırlığını təmin edir. MİQ imtahanlarında müəllimlik ixtisasının məzunlarının yüksək bal toplaması tələb edilən tədris yanaşmalarından səmərəli istifadə olunmasını təsdiq edir. Sərbəst iş mövzularının seçimində tələblərə müstəqilliyin verilməsi onlara mövzu ətrafinda geniş düşünməyə imkan verir, tələbələr müstəqil təqdimatlar edir ki, bu da onlarda praktik vərdişlər yaradır, proses isə bütövlükdə tələbəyönümlülüyü, problemyönümlülüyü seçilir. Tələbələrin şikayətlərinə baxılması üçün müvafiq prosedurlar yaradılır.

**3.4.3. Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti**.

Tədris metodlarından təhsil formalarıının (formal, qeyri-formal, informal) hər birindən eyni intensivliklə istifadə etmək səmərəli deyil. Tədris metodlarının tətbiqi təhsil prosesinin səmərəliyinin yüksəldilməsinə, təhsil alanların yüksək nailiyyətlər əldə etməsinə, onların bilik və peşə hazırlığı səviyyəsinin artırılmasına imkan yaradır. Mühazirə və seminar məşğələlərində beyin həmləsi, akvarium, debat, dəyirmi masa, konkret halların təhlili (“case study”), diskussiya, disput, mövzuların qabaqcadan sərbəst öyrənilməsi, problemin öyrənilməsi, qərarlar ağacı, sual-cavab və s. tədris metodları tətbiq olunur. Müəllim tərəfindən interaktiv təlim metodları seçilərkən tədris proqramının və mövzunun didaktik məqsədinə uyğunluğu, təhsilalanın intellektual səviyyəsinin və s. uyğunluğu gözlənilir. Buna baxmayaraq, ənənəvi təlim metodları ilə dərs keçən müəllimlərə də rast gəlinir.

**3.4.4. Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti.**

Müasir təhsilin əsas məqsədi tələbələrin zehnini hazır biliklərlə doldurmağa yox, gələcək müəllimlərin davamlı özünüidarəetmə və özünüifadəetmə, analitik təhlil etmə qabiliyyətini, sərbəst düşünmə və qərar vermə bacarığını, verilən fakt, hadisə və proseslər arasında əlaqə yaratmaq və mənimsədiyi nəzəri bilik və bacarığı gələcək peşə fəaliyyətlərində tətbiq etmək bacarığını inkişaf etdirməkdir. Təlim prosesində müəllimlərin seçdiyi metodlar tələbələri dərindən öyrənməyə, maraq göstərdikləri sahəyə motivasiya olunmağa sövq edir. Bunun da nəticəsində tələbə müvafiq fəaliyyət və metodları təklif edir, planlaşdırır, onların cari və perspektiv nəticələrini təhlil edir. Təlim prosesində Zəka oyunu (Brain Rinq) metodundan səmərəli istifadə olunur. Bu metod tələbələri həm motivasiya edir, həm də komandanın qalib gəlməsi üçün müəyyən öhdəliklərin

götürülməsini təmin edir. Qalib gələn komandanın mükafatlandırılması onların fəaliyyətini stimullaşdırır. Bütün bunlara baxmayaraq, bunun universitet üzrə tədris olunan bütün fənlərdə əldə edilməsinə hələ də tam nail olmaq mümkün olmamışdır.

**3.4.5. Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti.**

Təlim prosesinə qrupun ümumi öyrənmə səviyyəsinin, tələbələrin fərdi xüsusiyyətlərinin nəzərə alınmasına çalışılır. Həmin vəziyyətə adekvat olaraq metodlar seçilir. Tədqiqatçılıq metodu zamanı tələbələrdən biri müşahidə edir, digəri müşahidənin nəticələrini qeyd edir, bir başqası elmi ədəbiyyat toplayır, biri materiallrı analiz-sintez edir, digəri isə ümumiləşdirir. Müəllimlər metodları seçərkən diqqət yetirdikləri məsələlərdən biri tələbəlrin verilən məzmunu sərbəst mənimsəməsi və ya müəllimin köməyindən istifadə etməsidir. Məşğələlərdə metod seçilərkən tələbənin həddindən çox vaxt və enerji sərf etməməsinə çalışılır.

**3.4.6. Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti.**

Təlim prosesində tədqiqatçılıq, axtarış aparmaq üçün əsasən kompüterlərdən, bəzi hallarda isə tələbələrin şəxsi telefonlarından istifadə olunur. Gələcəkdə bütün tədris auditoriyalarının interaktiv lövhə, proyektor və kompüter ilə təmin olunması hədəf olaraq müəyyən edilmişdir. Qısa müddət ərzində bu istiqamətdə ciddi nəticələr əldə edilmişdir. Belə ki, bir sıra auditoriyalar artıq elektron lövhə dəsti ilə təchiz edilmiş, bir hissəsi isə proyektor ilə təmin olunmuşdur.

**3.4.7. Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti.**

Yeni təlim metodları və texnologiyalar auditoriya və auditoriyadankənar məşğələlərdə, dəyirmi masalarda, elmi seminar və konfranslarda təşviq edilir. Yeni metodlar interaktiv öyrənməni asanlaşdırmaqla yanaşı, təlim məqsədlərinin həllində (öyrədici funksiyası), təhsil alanların formalaşmasının müxtəlif səviyyələrini və tempinin təmin edilməsində (inkişafetdirici funksiya), şəxsiyyətin inkişafının istiqamətinin müəyyənləşdirilməsində (tərbiyəedici funksiya), təlim-idrak motivlərinin inkişaf etdirilməsində (təhrikedici funksiya), nəzarət və korreksiya işinin təmin edilməsində (diaqnostik funksiya) əhəmiyyətli rol oynayır. Yeni texnologiyaları mənimsəyən tələbə fəaliyyət zamanı metodları seçir və onlardan səmərəli istifadə edir. Tələbələrə mühazirədən əvvəl materialların göndərilməsi öyrənmədə müsbət nəticə verir, interaktivlik təmin olunur. Mühazirədə slaydlar göstərilir, məzmunla bağlı suallara cavab tələbələrdən alınır, birlikdə təhlil edilir, nəticə çıxarılır, yeni məlumatlar ötürülür.

**3.4.8. Tədris metod və üsullarının dövrü monitorinqi və preventiv tədbirlərin sistematik qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti**

Tədris metodlarının keyfiyyəti və səmərəliliyi təlim nəticələrinin səviyyəsi ilə müəyyənləşir. Nəticədən asılı olaraq, tətbiq edilən metodun uyğun olub-olmadığı aşkar edilir, ona müvafiq preventiv tədbirlər görülərək fənnə və mövzuya daha innovativ metodlar seçilir.

Tədris metod və üsullarının tətbiqinin monitorinqini, fakültə və kafedralar tərəfindən aparılır. Preventiv tədbirlər sistematik qiymətləndirilir, universitet və fakültə TMŞ müzakirələr aparılır və təkmilləşdirilməsi ilə bağlı işlər görülür. Bunun üçün sorğular keçirilir və sorğuların nəticələri təhlil olunur.

### 3.5. Təlim və tədris resursları

**3.5.1. ADPU-da öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti.**

ADPU-da Tədris İdarəetmə Sisteminin (LMS) qurulması və alınması üzərində davamlı işlər aparılsa da, təssüflər olsun ki, NEYRON şirkəti ilə əvvəlki illərdə edilmiş əməkdaşlıq uğurlu nəticə verməmiş və ona görə də əməkdaşlıq dayandırılmışdır. Buna baxmayaraq, ADPU olaraq informasiya idarəetmə sisteminin yaradılması üzrə fərqli platformalar üzərində işlər davam etdirilir və universitetin LMS-nin qurulması üçün imkanları gücləndirilir. Buna ARETN-nin ATİS, DİM-in Tələbə və Məzun Məlumat Sistemi, o cümlədən Microsoft 365, Moodle və s., əlavə etmək olar.

ADPU Microsoft Office proqramlarını gündəlik iş həyatında geniş istifadə edir. Əvvəllər Office 365 olaraq Microsoft bütün proqramlarını bir paket altında toplayıb, bir hesab vasitəsilə daha asan giriş və idarəetmə təklif edirdi. 2020-ci ildə verilən qərara əsasən bu proqramların hamısını Microsoft 365 adı altında toplanır və eyni imkanları təqdim etməyə davam edir.

ADPU Microsoft 365-in ən mühüm üstünlüklərindən biri inzibati və akademik heyət bulud saxlama qabiliyyətinə və təhlükəsizlik tədbirlərinə, eləcə də bir istifadəçi hesabı ilə Office proqramlarına sahib ola bilməsidir. İstiadəçilər təqvimin təşkili, xatırlatmalar və görüləcək işlərin siyahıları ilə daha planlı fəaliyyət həyata keçirə bilir.

Bundan əlavə Office proqramlarında ediləcək bütün yeniləmələri pulsuz əldə edir və tətbiqlərdə edilən təkmilləşdirmələrə anında sahib ola bilir.

Universitetdə hər bir inzibati və akademik, o cümlədən tələbələr üçün Microsoft 365 hesab yaradılıb. Bu hesab vasitəsilə univeristet tələbələri müxtəlif onlayn xidmətlərdən yararlana bilir. Belə ki, elektron kitabxana portalı, Moodle tədris platforması və s. xidmətlər yalnız Microsoft 365 hesabları vasitəsilə əlçatan olur.

Universitetdə distant təhsilin təşkili, əyani təhsilalma formasının daha da təkmilləşdirilməsi məqsədilə Moodle TİS (Tədrisin İdarəolunması Sistem) platforması tətbiq edilmişdir.

Moodle platformasından istifadə akademik heyətə tədris zamanı kurs materiallarının, tapşırıqların əl çatan olmasına, tədris mühitinin asanlıqla təşkilinə, tədrisdə vaxt itksinin qarşısının alınmasına, məsafədən səmərəli bir tədris mühitinin formalaşmasına imkan verir.

Universitetdə 2019/2020-ci tədris ilində qısa müddət ərzində Moodle platformasının qurulması və tətbiqi üçün təsdiq edilmiş fəaliyyət planına əsasən platforma texniki olaraq quraşdırılmış, sazlanmış, internet üzərindən istifadəyə açıq elan olunmuşdu. https://e-learning.adpu.edu.az/

2020/2021-ci tədris ilindən etibarən Moodle platforması üzərindən müəllimlərin kabinetləri yaradılmışdır. Tədris kabinetləri tədris materialları ilə zənginləşməklə, tələbələrin fəaliyyətini aktivləşdirilməsində, müxtəlif təyinatlı tapşırıqların yaradılmasında və tələbənin göstərdiyi nəticələrin təhlil edilməsinə, ənənəvi tədris mühiti ilə paralel olaraq, tədris prosesinin elektron platforma üzərində davam etməsinə imkan yaradır. Hər bir univerisitet müəllimi və tələbəsi Microsoft 365 tətbiqi ilə avtomatik rejimdə Moodle tədris platformasına giriş əldə edir və sistemin verdiyi üstünlüklərdən yararlanır. Buna baxmayaraq hələ də bu və digər platformadan istifadə edə bilməyən müəllim heyəti də vardır ki, universitet tərəfindən onlara bu sahədə təlimlər təşkil edilir.




**3.5.2. ADPU-da müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s.) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti.**

ADPU-da müasir təlim prosesini aparmaq məqsədi ilə elektron lövhələrdən istifadə edilir. Təlim prosesində elektron lövhədən istifadə müəllimləri mövzuları animasiya effekti, hərəkətli şəkillər, obyektlərlə zənginləşdirməklə keçirilməsinə imkan yaradır. Universitetdə qısa müddət ərizində tədris korpuslarında bütün auditoriyaların elektron lövhələrlə təmin edilməsi üzərində iş aparır.




Auditoriyaların təchizatına gəldikdə isə, bütün tədris auditoriyalarının interaktiv lövhə, proyektor və kompüter ilə təmin olunması hədəf olaraq müəyyən edilmişdir. Qısa müddət ərzində bu istiqamətdə ciddi nəticələr əldə edilmişdir. Belə ki, bir sıra auditoriyalar artıq elektron lövhə dəsti ilə təchiz edilmiş, bir hissəsi isə proyektor ilə təmin olunmuşdur. Əsas məqsəd dərslərdə əyaniliyi və interaktivliyi təmin etmək olmuşdur.

**3.5.3. Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti.**

ADPU-da tələbələrin təlim prosesində iştirakını və aktivliyini qeydə alan tam funksional elektron tədris platforması və elektron jurnal mövcud deyildir.

Keçirilən dərsləri daha maraqlı, əyləncəli və öyrədici formada təşkil etmək məqsədi ilə müxtəlif interaktiv alətlər, tədris məzmunlu resurslar platformaya rahatlıqla inteqrasiya olunur. Platformada tədris nəticələrini yoxlamaq üçün ev tapşırığı və qiymətləndirmə modulları mövcuddur. "MS Teams" məlumat paylaşımına imkan verən vahid mühitin təmin olunması ilə yanaşı, geniş kontent bazası kimi də istifadə olunur. Belə ki, bu gün "Microsoft Stream" vasitəsilə qeydə alınan mühazirələr bulud yaddaşda saxlanılır və daha sonra o dərsləri müəyyən zaman ərzində təkrar izləmək imkanı vardır. Platforma onlayn dərs iştirakçılarına olduqları yerdən asılı olmayaraq vahid virtual məkanda görüşmək imkanı verir. Həmçinin onlayn dərslərdə tələbələri komanda şəklində hiss etməyə və virtual fon effektləri ilə maraqlı mühitlərə səyahət etməyə imkan yaradır.

Platforma milli təhsil sisteminə uyğun dəyişikliklərin edilməsi üçün uyğun hesab edilir.




**3.5.4. Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu.**

Tədrisin təşkili prosesində elektron dərs resurslarından daha çox istifadə olunur. Müəllimlər tərəfindən hazırlanmış elektron təhsil (e-Learning) resursları bazasının tədris prosesinə inteqrasiyası məqsədilə tədris otaqlarının informasiya-kommunikasiya üzrə maddi-texniki bazasının təkmilləşdirilməsi, kompüter avadanlığı və digər zəruri rəqəmsal avadanlıqla təminatının yaxşılaşdırılması istiqamətində əsaslı işlər görülür.

**3.5.5. İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti.**

Universitetdə akademik, inzibati və tədris otaqları da daxil olmaqla, ümumilikdə internetə çıxışı olan 573-dən artıq kompüter vardır, onlardan 200-dən çoxu auditoriya və tədris lobaratoriyalarıdır. Tələbələrin İKT üzrə savadlılığının artırılmasını təmin etmək məqsdilə Microsoft Office paket proqramları ilə işləmək, ixtisasları üzrə təlim prosesində tətbiq etmək bacarıqlarını formalaşdırmaq məqsədilə 120 internetə qoşulmuş kompüterdən ibarət 10 kompüter laboratoriyası fəaliyyət göstərir. İstifadə olunan internet şəbəkəsinin sürəti 300 mbit/san-dir.




Təhsilalanların tədris fənlərini daha yaxşı mənimsəmələri məqsədi ilə kompüter laboratoriyalarından geniş istifadə olunur. Təhsilalanların praktiki biliklərə malik olması burada əsas şərt olaraq qəbul edilir. Qısa müddət ərzində kompüter laboratoriyalarının sayı 2 dəfədən çox artmışdır.




ADPU EŞ-nin 07.10.2021-ci il tarixli 1 nömrəli iclasının qərarına əsasən kompüterlərlə təchiz edilmiş üç tədris laboratoriyasından ibarət STEAM mərkəzi yaradılmışdır. Qeyd edək ki, STEAM müstəqil fənn kimi Fizika müəllimliyi, Texnologiya müəllimliyi, Kimya müəllimliyi, Kimya-biologiya müəllimliyi, Biologiya müəllimliyi, Riyaziyyat müəllimliyi, Riyaziyyat-informatika müəllimliyi və İnformatika müəllimliyi ixtisaslarının tədris planlarına daxil edilmiş və tədrisi təşkil olunur.

**3.5.6. ADPU-nun auditoriya fondunun (kv.m.) onun tələbə sayına uyğunluğu.**

ADPU-nun beş tədris korpusunda 87 mühazirə, 131 məşğələ, 50 tədris laboratoriyaları olmaqla, cəmi 268 auditoriya mövcuddur. Auditoriyalar tədris istiqamətinə görə 55-75 nəfərlik (mühazirə auditoriyaları), 25-30 nəfərlik (məşğələ auditoriyaları) 13-15 nəfərlik (laboratoriya otaqları) auditoriyalar mövcuddur. Universitetin ümumi auditoriya fondu 13647.9 kv.m., ümumi tələbə sayı 11049 nəfərdir. Bir tələbəyə 1,2 kv.m. faydalı sahə düşür.

**3.5.7. Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası.**

Universitetdə akademik heyətin fəaliyyəti üçün 1.733,45 kv.m sahəsi olan 48 otaq, inzibati heyətin fəaliyyətini üçün 5580.12 kv.m sahəsi olan 148 otaqla təmin edilmişdir.

**3.5.8. Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisəsinin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası.**

Universitetdə Kitabxana-İnformasiya Mərkəzinin beş tədris korpusunda kitabxanası, altı xidmət bölməsi və elektron kitabxana fəaliyyət göstərir. Kitabxanalarda dəqiq və humanitar elmlər üzrə, ədədbiyyatların növünə görə abonoment xidmətləri təşkil edilir. Beş tədris korpusdan dördündə ixtisaslaşmış xidmət bölməsi, oxu zalı və məlumat-biblioqrafiya xidməti fəaliyyət göstərirr. Əsas tədris binasında Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi (AKİS) elektron kitabxana fəaliyyət göstərir. https://e-library.adpu.edu.az/.

| İllər | Ümumi fond | Kitab fondu | Elelktron resurslar | Dərs vəsaiti | Nisbət |
|---|---|---|---|---|---|
| **2016** | 673504 | 673504 | 0 | 1635 | 0,002 |
| **2017** | 676981 | 676856 | 125 | 790 | 0,001 |
| **2018** | 679902 | 679622 | 280 | 1703 | 0,002 |
| **2019** | 667166 | 666566 | 600 | 2264 | 0,004 |
| **2020** | 668120 | 667520 | 600 | 443 | 0,001 |
| **2021** | 673166 | 672566 | 600 | 3400 | 0,005 |
| **2022** | 673270 | 670640 | 2630 | 2099 | 0,007 |




Universitetin kitabxanalarında elektron və digər xidmət sahələrində tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanları tədris illəri üzrə artmışdır. Diaqramdan göründüyü kimi, azalma dinamikası xüsusi karantin rejimində tədris prosesnin onlayn formada təşkili təsir etmişdir.

**3.5.9. ADPU-nun kitabxana fonduna daxil olan son yeddi ildə nəşr olunmuş dərslik və vəsaitinin (elektron və çap şəklində) artım dinamikası.**

Akkreditasiya olunan 2016/2017-2022/2023-ci tədris illəri üzrə kitabxana fonduna daxil olan nəşr olunmuş dərslik və dərs vəsaitlərinin (elektron və çap şəklində) sayı artmışdır.

**Dərslik və dərs vəsaitlərinin  artan dinamikası (elektron və çap şəklində)**



| | 2016/17 | 2017/18 | 2018/19 | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 |
|---|---|---|---|---|---|---|---|
| Çap şəklində | 1635 | 790 | 1703 | 2264 | 443 | 3400 | 2099 |
| Elektron şəklində | 0 | 125 | 280 | 600 | 600 | 600 | 2630 |
| Dinamika | 0 | 125 | 280 | 600 | 600 | 600 | 2630 |

**3.5.10.Tədris dillərinə uyğun kitab fondunun  mövcudluğu və artım dinamikası**

Kitabxana-İnformasiya Mərkəzinin ümumi fondunda Azərbaycan dilində 19257 nüsxə, rus dilində 1350 nüsxə, ingilis dilində 3348,  türk dilində 221 nüsxə, digər dillərdə 227 nüsxə dərs vəsaiti mövcuddur. Xarici dildə dərs vəsaitlərinin artım dinamikasına səbəb rus və ingilis dildə tədrisi təşkil olunan ixtisas və qrupların hesabınadır.

**Tədris dillərinə uyğun  kitab fondunun  artım dinamikası**



| | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|
| Azərbaycan dili | 3235 | 4243 | 2234 | 3380 | 932 | 2111 | 3122 |
| Rus dili | 79 | 52 | 397 | 518 | 13 | 107 | 184 |
| İngilis dili | 20 | 16 | 90 | 435 | 5 | 2759 | 23 |
| Türk dili | 11 | 19 | 1 | 46 | 0 | 4 | 140 |
| Digər xarici dillər | 7 | 86 | 44 | 18 | 4 | 65 | 3 |

**3.5.11. ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayrılan vəsaitin  həcmində  artım dinamikası**

Universitet təhsil və elmi-tədqiqat  sahəsində dünyanın  ən nüfuzlu  elmi jurnal və konfrans materialları ilə tanış olmaq məqsədi ilə "Tomson Reuters", "Clarivate Analytics" şirkətləri ilə əməkdaşlıq edir. Kitabxana-İnformasiya Mərkəzinin dərsliklərin, elmi ədəbiyyatların əldə edilməsi və elmi bazalardan istifadə üçün ayrılan vəsait haqqında məlumat diaqram və cədvəldə verilmişdir.




| | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|
| Dərslik | 1204 | 1610 | 1610 | 645 | 105 | 800 | 300 |
| Elmi ədəbiyyat | 1071 | 20 | 319 | 555 | 40 | 0 | 0 |
| Elmi baza | 61785 | 160000 | 60000 | 200000 | 0 | 150000 | 0 |

**3.5.12. Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti.**

Universitetdə mövcud tədris planlarında nəzərdə tutulmuş fənlər üzrə proqram, işçi-tədris proqramları (sillabus), metodik və dərs vəsaiti, dərsliklərlə təminatının zənginləşdirilməsi və müasirləşdirilməsi məqsədilə mütəmadi olaraq işlər aparılır. Belə ki, tərtib edilmiş tədris vəsaitləri kafedra iclaslarında, fakültə TMŞ-da, fakültə EŞ-da, universitet TMŞ-da və EŞ-da müzakirə edilir. Təhsil proqramlarında müəyyən edimiş fənlərin proqramlarına və dərsliklərinə nəşr hüquqi (qrift) əldə etmək üçün ARETN-ə məktubla müraciət olunur. Fənn proqramlarının və fənn sillabuslarının təsviri, təlim nətcələri müasir dövrün tələblərinə, təhsilalanların ümumi və peşə kompetensiyaların yiyələnmələrinə imkan yaradır. Universitet TMŞ və fakültə TMŞ-larının iclaslarında təlim və tədris resurslarının mövcudluğu və yenilənməsi ilə bağlı məsələlər mütəmadi olaraq müzakirə olunur.

**3.5.13. Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti.**

Universitetdə fənn proqramı, dərslik, dərs vəsaiti, metodik vəsait, metodiki rəhbərlik və göstərişlər (təhsilin bakalavriat səviyyəsi üzrə ixtisas istehsalat təcrübəsinin keçirlməsinə dair qaydalar, təhsilin magistratura səviyyəsi üzrə elmi-tədqiqat və elmi-pedaqoji təcrübələrin keçirilməsinə dair qaydalar və s.) hazırlanması, təsdiqlənməsi və nəşrini təmin etmək məqsədilə universitet EŞ-nin qərarına əsasən təsdiq edilmiş” ADPU-da Tədris-Metodiki Şurada dərslik, dərs vəsaiti, metodki rəhbərlik və göstərişlərə, proqramlara çap üçün qrif verilməsi Qaydaları” əsasında tənzimlənir. Universitet TMŞ-yə təqdim olunan təlim-tədris resursları ekspertiza olunur, uyğun olmayan vəsaitlər yenidən işlənməsi və ya təkmilləşməsi üçün kafedraya geri qaytarılır. İxtisaslar üzrə təlim və tədris resursları təhsilalanlar əlçatanlığı təmin etmək üçün kitabxanalarda həm nəşr, həm də elektron formada yerləşdirilmişdir. Əlçatanlığın təminatında fənn müəllimləri, müvafiq kafedralar da yaxından iştirak edirlər. Təhsilalanlar elektron resursları əldə etmək üçün universitetin veb səhifəsinə daxil olub e-kitabxanın xidmətlərindən istifadə edərək dərsliklər, metodik nəşrlər, tezis və dissertasiyalar, elmi jurnallardan məqalələr, konfrans materialları, universitetin tarixinə dair məruzələr və digər materiallar əldə edə bilirlər. https://e-library.adpu.edu.az/

**3.5.14. Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti.**

Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının əldə edilməsi üzərində işlər aparılır. Qeyd edək ki, universitetdə "Korreksiyaedici təlim" təhsil proqramına uyğun kadr hazırlığı həyata keçirilir. İxtisas xüsusi tərtib edilmiş tədris planı və proqramlarla təchiz edilmişdir. Tədris planında defektologiya, surdopedaqogika, oliqofrenopedaqogika, tiflopedaqogika, surdopsixologiya və loqopediya ilə bağlı fənlər daxil edilmişdir və peşəkar müəllimlər tədris edirlər. Bakalavriat təhsil səviyyəsinin bütün ixtisaslarında İnklüziv təhsil və fərdiləşdirilmiş təlim fənni daxil edilmişdir. Universitetin Gənclik korpusunda Regional İnkişaf İctimai Birliyinin maliyyələşdirdiyi İnklüziv təhsil mərkəzi fəaliyyət göstərir.

**3.5.15. Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti**.

Davamlı olaraq təlim və tədris resurslarının məzmun baxımından müasir tələblərə və əmək bazarının ehtiyaclarına cavab verməsi üçün kafedralarla müzakirələr aparılır, məzmununda əsaslı dəyişiklik tələb olunan təlim və tədris resurslarının yenidən işlənib hazırlanır, universitet TMŞ-də müzakirə olunur. Bu baxımdan hesabat dövründə müasir tələblərə cavab verən kompüterlər, ağıllı lövhələr, proyektorlar və s. alınmış, auditoriya fondu optimallaşdırılmış, təmir edilmiş və müvafiq avadanlıqlarla təmin edilmişdir.

**3.5.16. Tələbə klublarının, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resursları), dəstək planlarının mövcudluğu.**

ADPU-də tələbələrin asudə vaxtının səmərəli təşkili, tələbələr arasında maarifləndirmə işinin aparılması, təhsilə marağın artırılması, tələbələrin hüquqlarının təmin edilməsi, respublikanın daxilində və xaricində keçirilən müsabiqələrdə, olimpiadalarda, sərgilərdə, festivallarda istedadlı və yaradıcı tələbələrin iştirakının təmin edilməsi, universitet daxilində tələbələrin könüllülük fəaliyyətini genişləndirmək məqsədilə Tələbə Gənclər Təşkilatı (TGT), Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK), Təhsil Könüllüləri Tələbə Birliyi (TKTB), ADPU Könüllüləri Təşkilatı (ADPU KT), Meh Ədəbi Dərnəyi (MƏD), ADPU Türk Öğrenci Yönetim Konseyi və idman klubları mövcuddur. Universitetdə bu qurumların fəaliyyəti üçün bütün zəruri avadanlıqlarla təchiz edilmiş otaqlar ayrılmışdır.

Universitetdə həm tələbə təşkilatlarının nəzdində, həm də müstəqil olaraq tələbə klubları fəaliyyət göstərir. TGT-nin nəzdində Tarix, Xarici dillər, Psixologiya, Kitab, Vətənpərvərlik, Sinema, İdman və sağlamlıq, ART, Elm və təhsil, Layihələr klubları; THİK-nin nəzdində (THİK) Gənc yazarlar, Gənc intelleklər, Tarix, Qızıl əllər, Əyləncə və məntiq, Bio klublar; TKTB-nin nəzdində Musiqi, Rəsm, Qiraət, İntellekt, Media, Dil dərnəkləri; ADPU KT-nin nəzdində Kitab, Conversation, Vətənpərvərlik, Sinema, İdman, Elm və təhsil, Mədəniyyət, İntellelktual Oyunlar klubları; MEH ədəbi dərnəyinin nəzdində Şairlər, Qiraətçilər, Musiqi, Rəssamlıq və əl bacarıqları, Motivasiya, Nasirlər bölmələri, YAP GB-nin nəzdində Tarix və vətənpərvərlik, İdman, Eko, İntellektual oyunlar, Kitab, ART, Dizayn, Jurnalistika, Psixologiya, Kino, Əlaçılar, Gənclərin maarifləndirilməsi klublar daxildir.

Universitet tərəfinfən bu klubların müxtəlif sosial layihələrinin, mədəni-kütləvi tədbirlərinin, eləcə də idman yarışlarının keçirilməsi üçün lazımi inzibati və təşkilati dəstək göstərilir, onların müsabiqələrdə iştirakı təmin edilir. Tələbə klublarının mədəni-kütləvi tədbirlərinin hazırlanması və həyata keçirilməsi üçün akt zalları, məşq otaqları, müxtəlif geyim, musiqi alət və avadanlıqları, idman fəaliyyətləri üçün stadion, geyim, geyinmə otaqları, müxtəlif idman qurğuları mövcuddur. Universitetdə tələbə klublarının, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planları mövcuddur.

**3.5.17. Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti.**

Universitetin dörd tədris korpusunda təhsilalanların psixoloji vəziyyətini, təhsil fəaliyyətini, sosial-mənəvi problemlərini öyrənmək və onlara psixoloji dəstəyin göstərilməsi, onların proqressiv psixi inkişafını, meyil, maraq və potensialını reallaşdırılması, habelə mümkün psixi pozuntuların profilaktikasını təmin etmək məqsədilə psixoloji məsləhət xidmətləri təşkil edilmişdir. Psixoloji məsləhətçilər iş qrafikinə görə fəaliyyət göstərirlər. Psixoloji məsləhətçilər təhsilalanların akademik nailiyyətlərinin artırılması, müsbət davranış modelinin formalaşdırılması, mənəvi-psixoloji sağlamlığının dəstəklənməsi, universitetdə təhlükəsiz və sağlam mühitin yaradılması, şəxsiyyətlərarası münasibətlərinin tənzimlənməsi ilə bağlı işlər aparırlar.

## 3.6. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi

**3.6.1. Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti.**

Universitetdə təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi ARTN-nin 11.09.2008-ci il tarixli 1060 nömrəli əmrlə təsdiq edilmiş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında əsasnamə"nin tələblərinə, "ADPU-da bakalavriat səviyyəsində tələbələrin dövlət attestasiyası haqqında Qaydaları"na uyğun prosedur qaydalarla tənzimlənir. ADPU-ya qəbul olunan I tədris ili tələbələrinə semestr ərzində və imtahan sessiyası dövründə biliyin qiymətləndirilməsi meyarları ilə və fənnin öyrənilməsi tələbləri ilə tanış edilir.

**3.6.2. Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti.**

ADPU-da tətbiq olunan qiymətləndirmə meyarları əsasında təhsilalanların gözlənilən təlim nəticələrinin əldə etmələri üçün onların irəliləyişləri monitorinq edilir, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunması ilə bağlı təhsilalanlarla fikir mübadiləsi aparılır. Ayrı-ayrı ixtisaslarda tədrisi təşkil olunan fənlərin proqramında, sillabuslarda qiymətləndirmə proseduru əksini tapmaqla təhsilalanlar üçün əlçatan olur. Müəllimlər innovativ tədris təcrübələri nəzərə alaraq qiymətləndirmə üsullarını davamlı şəkildə nəzərdən keçirir və təkmilləşdirirlər. Fənlərin təlim nəticələrinə nail olmaq məqsədilə istifadə olunan təlim və öyrənmə metodları və qiymətləndirmə üsulları aydın müəyyənləşdirmiş və əsaslandırmışdır. Bu da təhsil müddətində təhsilalanın əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə qiymətləndirməyə imkan verir. ADPU rektorunun müvafiq əmri ilə hər semestr imtahan sessiyası dövründə Apellyasiya komissiyası yaradılmışdır. Təhsilalanlarda akademik dürüstlüyə riayət etmək keyfiyyəti aşılayaraq buraxılış işləri və magistr dissertasiyaları plagiat proqramından keçirilir. Bu da ADPU-da qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olmasına imkanı yaradır.

**3.6.3. Qiymətləndirmənin müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunma vəziyyəti.**

İxtisas və ixtisaslaşmaların spesifikasından asılı olaraq tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilir. Müəllimlər tələbəyönümlü yanaşmanı əsas tutaraq tələbələrin təlim prosesindəki fəal rol oynamasına şərait yaradırlar. Əsasən məşğələlərdə yazılı tapşırıq, test, kompüter əsaslı test, şifahi təqdimat, sorğu, açıq müzakirə, layihə işlərinə dair hesabat, portfolionun qiymətləndirilməsi, frontal sorğu, qrup şəkilində və özünüqiymətləndirmə üsullarından istifadə edirlər.

Əsasən təhsilalanların qiymətləndirilməsi üz-üzə, qarışıq, açıq və xüsusi qarantin dövründə məsafədən həyata keçirilmişdir.

**3.6.4.Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəfaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti.**

Təhsil prosesində akademik etika gözlənilməklə müəllimlər təhsilalanların qiymətləndirilməsi zamanı şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörməti və humanistlik prinsiplərini əldə rəhbər tuturlar. Semestr dövründə tələbələrin biliyi təsdiq edilmiş meyarlarla əsaslandırılmış şəkildə qiymətləndirilərək operativ elan edilir.

**3.6.5. Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti.**

Təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşdırılması üçün tədris prosesində innovativ, yaradıcı, interaktiv metod və texnologiyalardan istifadə etməklə təlimin keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsinə nail olunur. Bu məqsədlə Blum taksonomiyasının mərhələlərini (xatırlamaq, anlamaq, tətbiq etmək, təhlil etmək, dəyərləndirmək, yaratmaq) təlim prosesində tətbiq etməklə sərbəst öyrənmə mühiti yaradır. Təlim prosesində sərbəst öyrənmə mühiti təhsilalanlarda daha çox layihə işlərinin icrası və təqdimatı prosesində motivasiya yaradır. Bu da tələbələrin layihə üzərində müstəqil işləməsini və onların məntiqi, tənqidi və yaradıcı təfəkkürününün inkişaf etməsinə təkan verir. Xüsusəndə STEAM fənnin tədrisi prosesində bunun aydın təzahürünü görə bilərik. Bu fənnin tədrisində tələbələr daha çox layihə işləri hazırlayır, sərbəst düşünür, özünü qiymətləndirir.

Təəssüf hissi ilə deyə bilərik ki, tədris prosesində bütün müəllimlər təhsilalanlarda özünüqiymətləndirmə bacarığı, sərbəst öyrənmə mühiti yarada bilmirlər. Bununla bağlı mütəmadi olaraq müəllim heyəti üçün təlimlər təşkil edilir. Tələbələrlə aparılan təlim prosesi ilə bağlı məmnunluq sorğuların nəticələri barədə kafedra və fakültə iclaslarında müzakirələr aparılır.

**3.6.6. Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti.**

Universitetdə təhsilin təşkilinin təkmilləşdirilməsi məqsədilə Moodle TİS (Tədrisin İdarəolunması Sistem) platformasından istifadə edilir. Akademik heyətin Moodle platformasından istifadəsi, tədris zamanı kurs materialları, tapşırıqları istənilən vaxt əl çatan olması, tədris mühitinin asanlıqla təşkili, tədrisdə vaxt itkisinin qarşısının alınması, məsafədən səmərəli bir tədris mühitinin formalaşması və s. kimi üstünlüklər qazandırır. https://e-learning.adpu.edu.az/

Hər bir univerisitet müəllimi və tələbəsi Microsoft 365 tətbiqi ilə avtomatik rejimdə Moodle tədris platformasına giriş əldə edir və sistemin verdiyi üstünlüklərdən yararlanır.

**3.6.7. Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti.**

Sağlamlıq imkanları məhdud şəxslərin əlillik forma və dərəcəsi nəzərə alınmaqla tədris prosesində və imtahan sessiyasında əsasən yazılı və şifahi qiymətləndirmə üsullarından istifadə edilir.

**3.6.8. Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəfafflıq, ədalətlilik və rəqabətlilik prinsiplər əsasında təşkil olunması vəziyyəti.**

Cari və aralıq qiymətləndirmə seminar (məşğələ) dərslərində müxtəlif formalı yoxlamalar (frontal sorğular kollokviumlar, praktiki məsələlərin həlli və s.) əsasında bilik səviyyəsinin, laboratoriya işlərin yerinə yetirilməsinin qiymətləndirilməsinə görə həyata

keçirilir. Müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq cari və aralıq qiymətləndirmə də şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri gözlənilməklə aparılır.

**3.6.9. Yekun Dövlət Qiymətləndirilməsinin təşkinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili.**

ADPU-da Yekun Dövlət Qiymətləndirilməsi (yekun dövlət imtahanı və/ və ya buraxılış işi) ARNK-nın 2010-cu il tarixli 23 aprel tarixli, 75 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın və ARTN-nin 27.01.1997-ci il tarixli 54 saylı əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə"nin, "ADPU-da bakalavriat səviyyəsində tələbələrin dövlət attestasiyası haqqında Qaydalar"ına uyğun prosedurlar əsasında tənzimlənir.

Bakalavriat səviyyəsində 2019/2020 və 2020/2021-ci tədris illərini əhatə edən dövrlərdə ADPU-da YDA-sı ARNK-nın 05 iyun 2021-ci il tarixli 158 №-li Qərarına əsasən "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə" və universitet qaydalarına müvafiq olaraq ÜOMG-nə əsasən keçirilmişdir. Tələbələrin öz istəyi ilə ÜOMG-si 81 baldan yüksək olanlar buraxılış işləri hazırlamış və müdafiə etmişlər.




| | 2016/17 | 2017/18 | 2018/19 | 2019/20 | 2020/21 | 2021/2022 |
|---|---|---|---|---|---|---|
| YDA-da iştirak edənlərin sayı | 1814 | 1846 | 2281 | 2099 | 2110 | 2117 |
| Müvəffəqiyyət faizi | 95% | 96% | 95% | 100% | 100% | 93% |

**3.6.10. Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti.**

Universitet və fakültə EŞ-da hər semestrin imtahan sessiyasının sonunda bilik və bacarıqların qiymətləndirilməsi sistemi mütəmadi olaraq təhlillər aparılır, müzakirə olunur, proseslərin izlənilməsi və təkmilləşdirilməsi üzrə qərarlar qəbul olunur. Tədris illəri üzrə keyfiyyət və müvəffəqiyyət göstəricisi aşağıda göstərilmişdir:







**3.6.11.Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması**

ADPU-da fakültələr birinci tədris ilinə qəbul olan tələbə və onların valideynləri üçün tədrisin təşkil, fərdi iş planlarının hazırlanması, akademik kredit borcu yaranmasına səbəb olan amillər, biliyin qiymətləndirilməsi, imtahan sessiyası gedişatı, daxili intizam qaydaları, tələbə hüquq və vəzifələri barədə oriyentasiya görüşləri keçirilir. Ali təhsilin müxtəlif səviyyələri üzrə təhsilin məzmunu, təşkili və bitirilmə şərtlərinin təsbit olunduğu normativ-hüquqi sənədlər ADPU-nun saytında yerləşdirilmiş, həmin sənədlərdə müəyyən olunmuş qaydaların təhsilalanlara sadə, aydın və başa düşülən formada izah edilməsi barədə aidiyyəti əməkdaşlara təlimat verilmişdir və bu işin mütəmadi monitorinqi həyata keçirilir. https://adpu.edu.az/index.php/az/universitet/normativ-aktlar

**3.6.12. Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini müvəffəqiyyətlə bitirməyən şəxslərə müvafiq arayışın verilməsi qanunvericiliyin tələblərinə uyğunluğu.**

ADPU-da təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədlərinin verilməsi işi ARNK-nın 29.04.2010-cu il tarixli 82 nömrəli qərarı ilə təsdiq edilmiş *“Ali təhsil pilləsinin bakalavr və magistr səviyyələrində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası”*na əsasən həyata keçirilir. Buraxılış yekun dövlət attestasiyası və magistrlik işinin müdafiəsi keçirildikdən sonra dövlət attestasiya komissiyaları və ixtisaslaşmış elmi şuraların qərarları əsasında məzunlar barədə zəruri məlumatlar ARETN-nin dövlət təhsil sənədləri elektron sisteminə (www.dts.edu.az portalı) daxil edilir.

Nazirlikdən təhvil alınan diplom və əlavələri müvafiq qaydalara uyğun hazırlanır və məzunlara təqdim edilir.

Təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə arayışların verilməsi ARNK-nın 21.01.2010-cu il tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş “Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası”na uyğun həyata keçirilir. Arayışda hər bir semestr üzrə tələbənin dinlədiyi fənlər (kreditin qazanılıb-qazanılmadığından asılı olmayaraq) barədə məlumatlar verilir.

**Normativ təhsil müddətində artıq müddətdə məzun olan tələbələrin sayı və dəyişmə dinamikası**




## 3.7. Professor-müəllim heyəti və inzibati-texniki işçilər

**3.7.1.Akademik heyətin işə qəbulu və digər vəzifəyə təyinat mexanizminin şəffaf və ictimaiyyət üçün əlçatan vəziyyəti.**

ADPU-da akademik və inzibati heyətlə əmək müqavilələrinin bağlanılması və xitam verilməsi mövcud qanunvericiliyə, AR Əmək Məcəlləsinin tələblərinə, ARTN-nin Kollegiyasının 2017-ci il 15 noyabr tarixli 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”na, 1996-cı il 7 avqust tarixli 401 nömrəli əmrinə Əlavə 1 – “Ali təhsil müəssisələrində professor-müəlim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə”yə və ADPU-nun Nizamnaməsinə uyğun olaraq həyata keçirilir.

ADPU-da yüksək ixtisaslı kadr potensialının təmin edilməsi, ixtisaslı mütəxəssislərin cəlb edilməsi, o cümlədən vakant vəzifələr üzrə müsabiqələrin təşkili və keçirilməsində şəffaflığı və obyektivliyi təmin etmək məqsədilə komissiya fəaliyyət göstərir. (ADPU rektorunun 16.05.2022-ci il tarixində 05/97-k nömrəli əmri ilə “ADPU-da idarəetmə strukturunun optimallaşdırılması və insan resurslarının idarə olunmasında obyektivliyin və şəffaflığın təmin edilməsi üçün komissiyanın yaradılması” barədə müvafiq əmri).

Komissiya ADPU-da idarəetmənin daha da yaxşılaşdırılması, tədrisin təşkili sahəsində qabaqcıl təcrübənin tətbiq edilməsi və tədris prosesinin keyfiyyətinin yüksəldilməsi, bütün struktur vahidlərində insan resurslarının idarə olunmasının təkmilləşdirilməsi, yüksək ixtisaslı kadr potensialının təmin edilməsi, habelə universitetin idarəedilməsi strukturunun optimallaşdırılması məqsədilə mövcud və gələcəkdə ehtiyac duyulacaq ixtisaslı mütəxəssislərin cəlb edilməsi, o cümlədən vakant vəzifələr üzrə müsabiqələr təşkil edib, keçirir.

Hər tədris ilinin sonunda növbəti tədris ili üçün ADPU-nun bütün struktur vahidləri üzrə idarəetmənin daha da yaxşılaşdırılması və mövcud strukturlarda ştat vahidlərinin optimallaşdırılması məqsədilə rektora təqdim etmək üçün təkliflər hazırlanır. Ayrı-ayrı struktur vahidlərindən daxil olmuş müraciətlər, mövcud struktur vahidlərində işçilərin başqa işə və ya vəzifəyə keçirilməsi məqsədiylə təkliflər nəzərə alınır. Vakant vəzifələr

üzrə keçirilmiş müsabiqələrdə şəffaflıq və obyektivlik təmin edilir, bütün namizədlərin iştiraklarına bərabər şərait yaradılır, vəzifələr üzrə uyğunluq qiymətləndirilir və seçkisi təşkil edilir. Akademik heyətin sayı təhsil səviyyələri üzrə təhsil proqramlarının effektiv həyata keçirilməsi məqsədilə ümumi dərs yükünə əsasən formalaşdırılır. Tətbiq edilən yanaşma şəffaf və ictimaiyyət üçün əlçatandır. Fakültə dekanı, kafedra müdiri, professor, dosent, baş müəllim və müəllim vəzifələrinin tutulması haqqında müvafiq elanlar dövri mətbuat orqanlarında və universitetin rəsmi saytında dərc olunur, seçkilərin nəticələri ictimaiyyətə açıqlanır.

**3.7.2. Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarların mövcudluğu vəziyyəti**

ADPU-da akademik heyətin fəaliyyətini stimullaşdırmaq üçün aparılan işlərdən biri reytinq qiymətləndirilməsidir. Hər tədris ili təşkil edilən reytinq qiymətləndirilməsi müvafiq meyarlar əsasında hər kafedranın üst 20%-i rəğbətləndirməyə layiq görülür. Onlara il ərzində hər ay 100 azn pul mükafatı verilir.

Reytinq qiymətləndirilməsində aşağı qiymət toplayan akademik heyət müəyyənləşir, səbəbləri araşdırılır və müvafiq kafedralar da müzakirələr aparılır. Bu tip müəllimlərlə söhbətlər aparılır, pedaqoji və texnoloji səriştələrini artırmaq üçün tövsiyələr verilir, universitetdə təşkil olunan təlimlərə cəlb olunurlar.

İllər üzrə reytinq qiymətləndirilməsinin nəticələri təhlil olunduqda aydın olur ki, aşağı bal toplayan akademik heyətin əsas hissəsi sosial məzuniyyətdə olan və işə yeni qəbul olan heyətdir.

**3.7.3. Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi barədə**

Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris prosesinə tətbiqinə yönəlmiş müxtəlif adda təlimlər təşkil edilmişdir. Akademik heyətin texnoloji səriştələrinin artırılması məqsədilə keçirilmiş tədbirlərə (seminar, təlim və s.) cəlb olunmuşların ümumi payı 30% və 40% faiz arasında dəyişidiyini müşahidə edilir. Bu da son illərdə İKT bacarıqlarına olan tələblərin artması səbəbindəndir. Universitetdə “İnnovativ pedaqoji texnologiyalar: nəzəri və təcrübi aspektlər”, “Müasir təhsil sistemində İKT və informasiya savadlılığı” adlı internet imkanlarının onlayn tədrisə tətbiqi, “VEB 2 alətlərindən istifadə”, “Mobil tətbiqlərin tədrisə inteqrasiyası”, “Onlayn dərslərin keçirilməsi”, “Teams tətbiqetməsi”, “STEAM fənninin tədrisi”, “STEAM layihələri və texnologiyaları”, “Moodle LMS” və s. kimi təlimlər, seminarlar təşkil edilmişdir.



Pedaqoji səriştələrin artırılması üçün tədbirlərə (interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlər) cəlb olunmuş akademik heyətin ümumi akademik heyətdə payını (faizlə) ölçdükdə bu 15-19% arasında dəyişir. Bu təlimlərə "Səriştə əsaslı tədris və təlimin təşkili", "Dərsin effektiv təşkili və auditoriyanın idarə edilməsi", "İnklüziv təhsil", "Məktəbəqədər təhsilə müasir yanaşma", "Təlim prosesində standartların reallaşdırılması", "Müasir qiymətləndirmə mexanizmləri (Macarıstan təcrübəsi əsasında)", "Auditoriyanın idarə olunması", "Mühazirənin effektiv hazırlanması üçün metodiki alətlər", "Tələbələrin motivasiyası ilə iş", " Fənn münasibətləri-Yeni bilik istehsalı", "Pedaqoji Kouçinq modeli", "İnklüziv siniflərdə təlim strategiyaları", "Münaqişələrin idarə olunmasında vasitəçilik" təlim, seminar və məlumatlandırıcı sesiyalar daxildir. Ümumi son iki ildə universitet tərəfindən pedaqoji səriştələrin artırılması üçün 20-dən artıq təlim təşkil edilmişdir.

Azərbaycanda ali təhsil sisteminin gücləndirilməsinə dəstək məqsədilə TVİNNİNG layihəsi çərçivəsində 2016-cı ildə 2020-ci ilədək Finlandiya, Fransa Estoniya, Latviya, Litviya təhsil ekspertləri mütəmadi olaraq universitetin müəllim heyəti üçün "Ali təhsildə tələbə yönümlü yanaşma", "İnnovativ təlim və tədris metodları üzrə Ustad təlimi", "İnnovativ təlim və qiymətləndirmə metodları üzrə Ustad təlimi", "Əmək bazarı məlumatlarının təhsil ixtisasları qrupundan seçilmiş konkret ixtisaslar üzrə təhsil proqramlarında nəzərə alınması" mövzularında təlimlər təşkil edilmişdir.




Universitetdə müəllimlərinə beynəlxalq səviyyəli təlimlərdə təşkil edilmişdir. Bu tip təlimləri Avstriya, Danimarka, Ukraina, Belarusiya, Honkonq, Almaniya və Amerikadan mütəxəssisələrinin iştirakı ilə təşkil olunmuşdur.

**3.7.4. Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirak vəziyyəti**

Ümumilikdə ixtisasartırma kurslarına, təlimlərə və ya digər kurslara cəlb edilmiş akademik heyətin ümumi akademik heyətdə payını ölçdükdə 2016-ci ildə bu faiz göstəricilərin artığını müşahidə edilmişdir. Son 2021-2022-ci tədris ilində bu 35%-ə çatdırılmışdır.




**3.7.5. Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirak vəziyyəti**

ADPU-nun akademik heyəti beynəlxalq səviyyəli mübadilə proqramlarında iştirak etmişlər. Bu mübadilə proqramları xarici ölkələrdə bir və ya iki həftə ərzində tədris prosesində iştirak etməklə ixtisaslarının artırılması üçün Erasmus+, DAAD (Müsəlman Dünyası ilə Ali Təhsil Dialoqu), dil kursları üzrə təcrübə proqramlarıdır. Hesabat dövründə akademik heyət beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirak dinamikasına nəzər saldıqda aydın olur ki, xüsusi karantin rejimində dinamika aşağı düşmüş, 2021/2022-ci tədris ilində dinamika artım üzrə inkişaf edir.




**3.7.6. Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti**

Universitetdə 2018/2019-cu tədris ilindən etibarən akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının Reytinq qiymətləndirilməsi sistemi mövcuddur. Bu sistem akademik heyətin mövcud pedaqoji, elmi-tədqiqat və ictimai fəaliyyətinin səviyyəsi vahid meyarlar əsasında obyektiv qiymətləndirilməsinə imkan verir. Kafedralarda akademik heyətin ən yüksək nəticə göstərən 20%-i əməkhaqqına bir il ərzində əlavə pul mükafatı verilir. Qeyd edək ki, xüsusi qarantin rejimi ilə əlaqədar 2020/2021-ci tədris ilində akademik heyətin reytinq qiymətləndirilməsi həyata keçirilməmişdir.




**3.7.7. Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti**

Universitetdə ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükü bölgüsü dürüst və şəffaf meyarlarla aparılaraq, elmi tədqiqatla aktiv məşğul olan professor müəllim heyətinin tam ştat vahidinin illik orta tədris yükü 550 saat müəyyən edilmişdir. Kafedralarda ştatda olan müəllimlərə dərs yükü bölündükdən sonra artıq qalan yük kafedranın ştatda olan əməkdalarına saathesabı qaydada (240 saata qədər) və ya digər müəssisələrdən tədrisə cəlb olunan yüksək ixtisaslı mütəxəssislərə verilir. Universitetdə pedaqoji işçilərin dərs yükü normaları ARNK-nın 24 noyabr 2010-cu il tarixli 215 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında" Qərarına əsasən icra edilir.

**3.7.8. Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)**

Fakültələrin nəzdində olan kafedralar spesifikasına uyğun olaraq fəaliyyət göstərən professor-müəllim heyətinin tədris yükü digər fakültələrdə yerinə yetirdikləri üçün, fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbətini müəyyən etmək real nəticəni əks etdirmir. Bu səbəbdən də universitetdə tədris illəri üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti müəyyən edilmişdir.

| Tədris illəri | Bakalavriat səviyyəsi | | Magistratura səviyyəsi | | Cəmi | Akademik heyət | Nisbət |
|---|---|---|---|---|---|---|---|
| | Əyani | Qiyabi | Əyani | Qiyabi | | | |
| 2016/2017 | 9117 | 689 | 794 | 20 | 10620 | 747 | 14 |
| 2017/2018 | 9344 | 430 | 859 | 3 | 10636 | 741 | 14 |
| 2018/2019 | 9612 | 224 | 707 | - | 10543 | 783 | 13 |
| 2019/2020 | 9534 | 57 | 637 | - | 10228 | 792 | 13 |
| 2020/2021 | 9746 | 18 | 695 | - | 10459 | 828 | 13 |
| 2021/2022 | 9869 | 6 | 700 | - | 10575 | 785 | 13 |
| 2022/2023 | 10077 | 4 | 708 | - | 10789 | 794 | 14 |

**3.7.9. Tədris prosesində iştirak eən professor-müəllim heyətinin 70%-dən çoxunun əsas iş yeri müvafiq ADPU olması vəziyyəti.**

ADPU-da Filologiya, Tarix və coğrafiya, Riyaziyyat, Kimya və biologiya, Fizika, Məktəbəqədər təhsil, İncəsənət və fiziki tərbiyə, İbtidai təhsil fakültələri olmaqla, 8 fakültə, Magistratura və doktorantura şöbəsi fəaliyyət göstərir. 2016-2017 akademik heyətlə

inzibati və tədris-köməkçi heyətinin nisbəti 721/258, bu nisbət 2017-2018-ci illərdə 724/212, 2018-2019-ci illərdə 752/219, 2019-2020-ci illərdə 779/215, 2020-2021-ci illərdə 739/229, 2021-2022-ci illərdə 742/223 nisbətə dəyişmişdir.

Mövcud təhlillər əsasında məlim olmuşdur ki, əsasən tədris prosesində iştirak edən və əsas iş yeri müəssisə olan akademik heyətin ümumi akademik heyətdə payı (faizlə) 2016-ci ildən 2022-ci ilədək çox az rəqəmlərlə dəyişmişdir. Bu illər ərzində əsas iş yeri universitet olmayan akademik heyət ümumi heyətin 13 %-i təşkil etmişdir.




### 3.7.10. Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi

Bakalavriat səviyyəsində ixtisasların spesifikası nəzərə alınmaqla, tədris dili ingilis dili olan qruplarda, magistratura təhsil səviyyəsinin bəzi ixtisaslarında digər ali təhsil müəssisələrinin professor-müəllim heyəti, maraqlı tərəflər (işə götürənlər) tədris prosesinə cəlb olunmasına ehtiyac vardır. Zərurətin yaranma səbəbi müasir dövrün tələblərinə və əmək bazarının ehtiyaclarına uyğun tədris prosesini praktik yönümlü təşkilidir.

### 3.7.11. Akademik heyətə qiymətləndirmə meyyarları əsasında diferensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti.

Diferensial əməkhaqqı sisteminin əhatə etdiyi akademik (daimi əsaslarla çalışan) heyətin ümumi akademik heyətdə payı (faizlə) nəzər salsaq, 2017-ci ildən reytinq qiymətləndirilməsi aparılır və həmin ildən hər il üzrə göstəricilər artmışdır. Son 2020-2021-ci il üçün bu 22% təşkil edir.




**3.7.12. Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti.**

Xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən, eləcə də Dövlət Proqramından məzun olmuş professor-müəllim heyətinin (əldə etdikləri sənədləri nostrifikasiya etmiş) ümumi akademik heyətdə payı (faizlə) ölçdükdə aşağı faizlər götünür. Bu rəqəmlər 1% təşkil edir.




## 3.8. Tələbəyönümlü tədris

**3.8.1. Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi.**

ARNK-nın 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na müvafiq olaraq hər tədris ili üçün ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki əsasında tələbənin fərdi tədris planı - tələbənin tədris ili ərzində təhsil alacağı

fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən sənəd hazırlanır. Fənlərin prerekvizitliyi gözlənilməklə, tələbənin fərdi tədris planı müəyyən olunmuş forma üzrə akademik məsləhətçinin (tyutor) köməyindən istifadə etməklə onun özü tərəfindən tərtib edilir. Tələbələr növbəti tədris ili üçün fərdi tədris planlarını tərtib edərkən ilk növbədə əvvəlki tədris ilindən qalmış akademik borcları olan fənləri qeyd edirlər. Birinci tədris ili üçün tələbənin fərdi tədris planını fakültə (tyutor) hazırlayıb tələbələrə təqdim edir. Növbəti tədris ilində isə tələbə öz fərdi tədris planını hazırlayır və iyulun 5-dən 15-dək fakültəyə təqdim edir. Tələbənin fərdi tədris planı tələbə tərəfindən imzalandıqdan sonra sentyabrın 15-nə kimi dekan tərəfindən təsdiq edilir, bir nüsxə tələbəyə verilir, bir nüsxə isə fakültədə saxlanılır. Təhsilalanlar yay semestrinin nəticələrinə və digər səbəblərə görə sentyabrın 10-a kimi fərdi iş planında düzəlişlər edə bilirlər.

**3.8.2. Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi.**

İxtisas və ixtisaslaşmaların tədris planlarında ixtisas kafedraları tərəfindən təklif olunmuş seçmə fənlər öz əksini tapır. Kafedralarda təklif edilən seçmə fənlərin tədris-metodiki vəsaitləri hazırlanır. Seçmə fənləri fərdi tədris planlarına daxil etməkdə tələbələr sərbəstdirlər. Fənləri seçmə zamanı tələbələr tyutorların məsləhətlərindən istifadə edə bilərlər. Yaz semestrinin son aylarında adətən tələbələr üçün ixtisas kafedraların müəllimləri tərəfindən təbliğat xarakterli söhbətlər aparılır. Fənlərin məzmunu, təlim nəticələri haqqında məlumat verirlər. Bu söhbətlər nəticəsində də tələbələr öz seçimlərini edə bilirlər. Qeyd edək ki, seçmə fənlərin seçimində fəallıq göstərən tələbələrin sayı azlıq təşkil edir.

**3.8.3. Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Boloniya prinsiplərinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi.**

ADPU-da Bolonya prosesinin təşviqi, kredit sistemi ilə tədrisin təşkili, AKTS sisteminin tətbiq edilməsi və tələbələrə köməklik göstərilməsi məqsədi ilə fakültələrdə akademik məsləhətçilər (tyutorlar) xidməti təşkil edilmişdir. Tyutorlar bu sahədə müəyyən təcrübəsi və səriştəsi olan ali təhsilli şəxslər arasından seçilir və rektorun əmri ilə təyin olunur. Akademik məsləhətçilərin tələbələr tərəfindən seçilməsi üçün hər hansı bir təlimat və ya qayda mövcud olmadığı üçün akademik məsləhətçilərin tələbələr tərəfindən seçilməsini həyata keçirilməsi mümkün olmamışdır. Təhsilverənləri seçimi universitetin müvafiq fakültələrində seçmə fənlərin tələbələr tərəfindən seçilməsinə əsasən nail olunmuşdur.

**3.8.4. Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası.**

Universitetdə tələbə və məzunlar arasında qırxdan çox sorğu anketi keçirilmişdir. Sorğular əsasən şifahi, anket vərəqi və onlayn (google form) formatda, respondentlərin anonimlik, konfidensiallıq şərtlərinin gözlənilməklə aparılmışdır. Sorğuların keçirilməsinin məqsədi dərs mühiti, kursun strukturu, məzmunu və müəllim heyəti və dərsdənkənar fəaliyyətləri əhatə edən suallar təqdim olunub. Məqsəd tələbələrin inkişafına dəstək olmaq və onların fikirlərini öyrənməkdir.

Təhsilalanlar arasında keçirilən sorğular:

- Universitetin ümumi fəaliyyətin qiymətləndirilməsi;
- Fənlər üzrə məmnunluq sorğuları aparılmışdır.

Məzunlar arasında keçirilən sorğular:

- Karyera xidmətlərindən məmnunluq;
- Təhsil müddəti ərzində qazanılmış səriştələrdən məmnunluq;
- Qazanılmış peşə kompetensiyalarının əmək bazarının tələblərinə uyğunluğu;

- Qazanılmış ümumi kompetensiyalarının əmək bazarının tələblərinə uyğunluğu.

Aparılan sorğulardan məlum olub ki, tələbələr tədris prosesinin aşağıdakı cəhətlərin olmasını **faydalı** hesab edirlər:

- Dərslərin interaktiv keçirilməsi və müəllimlərin peşəkarlığı;
- Dərslərin praktiki yöndə tətbiqi və araşdırmayönümlü dərs prosesi;
- Vizual vəsaitlərlə təminat, düşündürücü suallarla nəzəri biliklərin mahiyyətinin daha dərin öyrənilməsi (problem əsaslı təlim);
- Dərsin tədrisi zamanı təbii situasiyaların yaradılması;
- İxtisas fənlərində müəllimlərin daim kömək etməyə hazır olması;
- Tədrisin ənənəvi qaydada keçirilməməsi, fərdi və ya qrup işlərinin təşkil olunması;
- Elmi izaha, təcrübəyə əsaslanan məzmunun tədris olunması;
- Müəllimlərin dərslə bağlı öz şəxsi təcrübələrini bölüşməsi;
- Müəllim peşəkarlığı;
- Araşdırma üçün verilən mövzular və ya kitab müzakirələri.

Tələbələr tədris prosesinin aşağıdakı cəhətlərini **faydasız** hesab edirlər:

- Akademik İngilis dili dərsinin Azərbaycan dilində keçirilməsi;
- Ənənəvi kollokvium sisteminin olması;
- Nəzəri materialların çox olması;
- Dərslərdə əsas diqqətin mühazirələrə yetirilməsi;
- Bəzi fənlərin bakalavr tipli, heç bir praktik bacarıq qazandırmayacaq sərbəst iş tələb etmələri;
- Xarici dil olaraq yalnız ingilis dilinin keçirilməsi.

Ümumilikdə sorğular tələbə və məzun məmnunluq xarakteri daşıyır (80-89%) və keçirilən sorğuların nəticələri universitet EŞ-da, fakültə EŞ-da, kafedra iclaslarında müzakirə olunmuşdur. Sorğuların üstün cəhəti ondan ibarətdir ki, müəllimlərin tədris prosesini tələbəyönümlü qurmağa, tələbələrin tədris prosesinin idarəolunmasında iştirakına, məsuliyyətli olmağa, mühazirələrin, pedaqoji ustalığın daim diqqətdə saxlamağa, tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə istiqamətləndirir.

Universitet özünühesabat dövrünün təhlili zamanı tələbə və məzunlarla yetərli sayda rəy sorğular keçirilməməsi aşkar edilmişdir. Buna təsir edən səbəblərdən biri də xüsusi karantin rejimində məhdudiyyətlərin olması və sorğuların kütləvi şəkildə keçirilməsinin təxirə salınmasıdır. Universitet müvafiq struktur bölmələrin fəaliyyət planlarında bu istiqamətdə instensiv və səmərəli işlər görməyi proqnozlaşdırıbdır.

### 3.8.5. ADPU-da tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası.

Tələbə və məzunlarla keçirilən sorğuların nəticələrinin təhlili əsasında müəyyən olunmuş nöqsanların təhlili aparılmış, onların aradan qaldırılması istiqamətində işlər aparılır. Bu təhlillər universitetdə tələbələrin dərs vaxtı və dərsdən sonrakı aktiv fəaliyyətləri üçün, eyni zamanda təhsildə keyfiyyətin yüksəldilməsini imkan yaradır.

Tələbələr tərəfindən tədris prosesinin təkmilləşdirilməsi üçün verilən təkliflər:

- Müəyyən dərslərin praktik olaraq həyata keçirilməsi;
- İngilis dilində tədris olunan fənn sayının artırılması;
- Xarici təcrübənin detallı şəkildə nəzərdən keçirilməsi;
- Müəllimlərin tələbələrdə dərsə qarşı motivasiya yaratmağa çalışması;
- Dərs materiallarının vaxtında tələbəyə verilməsi.

Tələbə və məzunların təklifləri əsasında universitetdə “Elektron lövhədən isitifadə bacarıqları” adlı təlimlər təşkil edilmişdir. Xüsusən də bu təklif ayrı-ayrı regionlardan olan tələbələr tərəfindən verilmişdir.

**3.8.6. Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə prosesində istifadə edilməsi vəziyyəti.**

Tələbə rəyləri sistemli şəkildə toplanır, təhlil olunur, aidiyyəti sahələr üzrə qruplaşdırılır, universitet və fakültə EŞ-də müzakirə olunur. Rəylərin obyektivliyinə görə istiqamət sahələri üzrə müvafiq tədbirlər görülür. Tədris prosesinin səmərəli təşkili, yeməkxana xidmətlərinin qiymətlərinin aşağı endirilməsi, kitabxanaya yeni dərslik və dərs vəsaitlərinin alınması və s. buna nümunə ola bilər.

**3.8.7. Təhsilalanların şikayət və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluq vəziyyəti.**

ADPU-da təhsilalanlar öz şikayət və təkliflərini sərbəst şəkildə bildirə bilmələri üçün şərait yaradılmışdır. Təhsilalanlardan daxil olan müraciətlər xarakterindən asılı olaraq operativ şəkildə cavablandırılır. Tələbələr şikayət və təkliflərini universitetin rəhbər heyətinin elektron poçtuna, fakültə və müvafiq struktur bölmələrə birbaşa müraciət etməklə, tələbə təşkilatları vasitəsilə (TGT, THİK) universitetin rəsmi sosial media hesabları vasitəsilə, müraciətlər və şikayətlər qutusu vasitəsilə, rektor və prorektorların qəbuluna yazılmaqla bildirirlər. Təhsilalanların hər bir şikayət və təklifi təhlil olunur, müraciətlər operativ şəkildə müvafiq struktur bölməyə yönləndirilir, tələbə ilə əlaqə yaradılaraq müraciət cavablandırılır.

İmtahan sessiyası dövründə təhsilalanların fənlər üzrə almış olduğu qiymətlərdən narazılıqları olduğu halda, bunu ADPU Apellyasiya komisiyasına, imtahanları təşkili və keçirilməsi ilə bağlı olan narazılıqlarını isə imtahan gərargahına müraciət edərək bildirirlər. Həm elektron, həm yazılı formada ərizə ilə müraciət edə bilirlər.

İmtahan sessiyası dövründə ayrı-ayrı tələbə və magistrantlardan ibarət müşahidə heyəti imtahanların təşkili, apellyasiya prosesini, imtahan gərargahının fəaliyyətini müdaxilə etmədən müşahidələr edirlər. Qarşılaşdıqları problemləri universitet rəhbərliyinin nəzərinə çatdırırlar.

**3.8.8. Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutorlar) mövcudluğu vəziyyəti.**

Fakültələrdə təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilər tyutorlar cəlb olunmuşlar. Onlar müvafiq ixtisaslar üzrə magistratura səviyyəsində təhsil almış və ya təhsillərini davam etdirirlər. Tyutor xidmətinin səmərəliliyinin artırılması məqsədilə universitetdə tyutor kursları təşkil edilmişdir. Bu kursları müvəffəqiyyətlə bitirənlər içərisindən müsabiqə yolu ilə tyutorlar seçilərək işə qəbul olunurlar. Qeyd edək ki, tyutor kursları hazırda təşkili davam edir.

**3.8.9. Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti.**

Fakültə və kafedralarda tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında üzbəüz, onlayn (e-poçt, universitet və fakültə sosial şəbəkə profillərində və s.) vasitəsilə kommunikasiya təşkil olunmuşdur.

Təhsilverənlər həftənin müvafiq günü tələbələrlə məsləhət saatları təşkil edirlr. Bu barədə məlumat hər fənnin işçi planında (sillabusda) öz əksini tapmışdır.

Universitetdə tətbiq olunan “Moodle TİS” platforması tələbələr və təhsilverənlər arasında kommunikasiya yaratmaqda bir vasitədir. Təhsilalanlara kurs materiallarının, çalışma və tapşırıqların əlçatan olmasında, tədris mühitinin asanlıqla təşkilində, tədrisdə vaxt itkisinin qarşısının alınmasında, məsafədən səmərəli tədris mühitinin formalaşmasına kömək olur.

**3.8.10. Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti.**

Azərbaycan Respublikası Prezidentinin 14.12.2017-ci il tarixli Sərancamı ilə təsdiq edilmiş ”2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”na (e-qanun.az/frameWork/37269) əsasən sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınır. Sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququ təhsilin bütün səviyyələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin edilir və onların təhsili üçün tədris prosesində əlverişli mühit yaradılmışdır. Tədris prosesində və imtahan sessiyası dövründə zəruri hallarda elektron sistemin imkanlarından istifadə olunur.

**3.8.11. Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığın vəziyyəti.**

ADPU-da 03.09.1993-cü il tarixli 697 nömrəli Qanununa əlavə edilən “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Azərbaycan Respublikasının 12.09.2003-cü il tarixli 499 IIQD nömrəli Qanununa (Ali məktəblərda təhsil alan şəhid ailəsi üzvlərinin təhsil haqqını ödəməkdən azad olunması barədə) və ADPU Nizamnaməsinin 5.14-cü bəndinə əsasən ödənişli əsaslarla təhsil alan bu qrupa aid olan tələbələr normativ təhsil müddətində təhsil haqqını ödəməkdən azad edilərək, onların təhsil haqları ADPU-nun hesabına ödənilməsi təmin edilir. Bundan əlavə ADPU-nun EŞ-nın müvafiq qərarı əsasında Vətən müharibəsində iştirak etmiş ADPU tələbələri alt qrup ödənişlərindən azad edilmişlər. Həmçinin sosial həssas qrupa aid edilən tələbələrin bir qisminin gündəlik qida xərcləri, nəqliyyat xərcləri, xüsusi karantin rejimində internet paket xərcləri THİK-i tərəfindən qarşılanır, onların yataqxana xidmətindən istifadə zamanı yerləşdirilməsinə üstünlük verilir. THİK bu qismdən olan tələbələrə birdəfəlik yardım və təqaüd təyin edirlər.Tələbə təşkilatları, fakültə tyutorlar mütəmadi olaraq bu tələbələrlə ünsiyyətdə olur, onların problemləri həll olunur.

ADPU təhsilalanların təhsil xidmətlərinə əlçatanlığının təminatında, xüsusəndə təhsil xərclərinin qarşılanmasında Azərbaycan Gənclər Fondu, Maarifçi Tələbə Kredit Fondu, Tələbə Təhsil Kredit Fondu qarşılayır. Pandemiya dövründə bir çox təhsilalanlar Sosial Həssas qrupundanda yararlanmışlar.

**3.8.12. Təhsilalanlara ADPU tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti**.

ARNK-nın 2016-cı il 5 fevral tarixli 38 nömrəli qərarı ilə təsdiq edilmiş “Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası”na (e-qanun. az/framework/ 32086#_edn6) əsasən verilir. Dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq əyani təhsil alan tələbələrə təqaüd onların ümumi orta müvəffəqiyyət göstəricisinə (ÜOMG) görə təyin edilir.

Bundan əlavə Azərbaycan Respublikası Prezidentinin “Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə” 2019-cu il 14 fevral tarixli Sərəncamına əsasən ölkədə yüksəkixtisaslı, peşəkar kadrların hazırlanmasına dövlət qayğısının artırılması və təhsildə yüksək nəticələr əldə edən tələbələrin təqaüd almaları üçün əlavə imkanların yaradılması məqsədilə ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı 2019/2020-ci tədris ilindən etibarən artırılmağa başlanılmışdır. “Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası”nın təsdiq edilməsi haqqında ARNK-nın 5 fevral 2016-cı il tarixli 38

saylı qərarına əsasən həmin müddətdən fakültələrdə Təqaüd Komissiyası fəaliyyət göstərir. Təqaüd yerlərinin sayı tədris illəri üzrə ixtisas və ixtisaslaşmalarda dövlət sifarişi ilə təhsil alan tələbə sayı və hər semestr rəhbər orqanlar tərəfindən müəyyən edilən əlavə təqaüd yerlərinin cəmi miqdarında müəyyən edilir. İmtahan sessiyasından sonra fakültələrdə tələbələrin həmin semestr üçün ÜOMG-nə əsasən (ən yüksək nəticə göstərənlər) hesablanır, tələbələrə elan edilir və fakültə elanlar lövhəsində paylaşılır.

Bundan əlavə universitetdə ARTN-nin 01.06.2017-ci il tarixli 99 nömrəli əmrinə əsasən SABAH qruplarının tələbələrinə məqsədli təqaüd təyin olunmuşdur. ARTN-nin 17.09.2014-ci il tarixli 1002 nömrəli əmrinə müvafiq olaraq ali təhsil müəssisələrinə qəbul imtahanlarında 500-dən çox bal toplayanlar, ixtisas seçimində birinci və ya ikinci yerdə müəllimlik ixtisasını qeyd edənlər aylıq “Gələcəyin müəllimi təqaüdü” almaq hüququ qazanmış 300 nəfər tələbədən ADPU tələbələridə çoxluq təşkil edir. Təqaüdün məbləği 100 AZN-dir.

**ADPU-da təqaüdlərin sayı haqqında məlumat (keyfiyyət göstəricisinə görə)**

| Təqaüdlərin statusu | 2016/17 | | 2017/18 | | 2018/19 | | 2019/20 | | 2020/21 | | 2021/22 | | 2022/23 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Payız | Yaz | Payız | Yaz | Payız | Yaz | Payız | Yaz | Payız | Yaz | Payız | Yaz | Payız | Yaz |
| Adi təqaüd alanların sayı | 4090 | 3391 | 4280 | 3491 | 3896 | 3286 | 2893 | 2632 | 2740 | 975 | 3931 | 2656 | 813 | 1139 |
| Zərbəçi təqaüdü alanların sayı | 401 | 138 | 786 | 764 | 1892 | 1456 | 2685 | 2689 | 3116 | 3994 | 2694 | 2925 | 2929 | 3133 |
| Əlaçı təqaüdü alanların sayı | 51 | 4 | 80 | 52 | 207 | 218 | 765 | 453 | 1140 | 1609 | 628 | 813 | 2656 | 2736 |
| **CƏMİ** | **4542** | **3533** | **5146** | **4307** | **5995** | **4960** | **6343** | **5774** | **6996** | **5278** | **7313** | **6394** | **6398** | **7008** |

**ADPU-da mövcud bütün təqaüd yerləri haqqında məlumat**

| Təqaüdlərin statusu | 2016/17 | | 2017/18 | | 2018/19 | | 2019/20 | | 2020/21 | | 2021/22 | | 2022/23 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Payız | Yaz | Payız | Yaz | Payız | Yaz | Payız | Yaz | Payız | Yaz | Payız | Yaz | Payız | Yaz |
| Dövlət təqaüdlərinin sayı | 4542 | 3533 | 5146 | 4307 | 5995 | 4960 | 6343 | 5774 | 6996 | 5278 | 7313 | 6394 | 6398 | 7008 |
| Əlavə təqaüd yerlərinin sayı | - | - | - | - | 1021 | - | 899 | - | 1100 | - | 720 | - | 294 | - |
| “Gələcəyin müəllimi” təqaüdlərinin sayı | - | - | 15 | 53 | 87 | 80 | 87 | 119 | 119 | 96 | 96/ | 137 | 137 | 142 |
| Adlı təqaüdlərin sayı | - | - | 10 | 10 | 10 | 10 | 10 | 10 | 10 | 10 | 10 | 10 | 11 | 13 |
| THİK-nın təqaüdlərinin sayı | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 |

ADPU-nun EŞ-nın müvafiq qərarlarına əsasən imtahan sessiyaları dövründə ÜOMG-si yüksək olan tələbələr adlı təqaüdlə təyin olunur.

**ADPU-da təyin edilən adlı təqaüdlər haqqında məlumat**

| № | Adlı təqaüdün adı | Təsis olunma tarixi | Tələbələrin sayı | Təqaüdün məbləği (AZN) |
|---|---|---|---|---|
| 1. | Heydər Əliyev | 24.10.2018 | 1 | 250 |
| 2. | Nizami Gəncəvi | 24.10.2018 | 1 | 204 |
| 3. | Abbasqulu Ağa Bakıxanov | 24.10.2018 | 1 | 204 |
| 4. | Qafur Rəşad Mirzə-zadə | 24.10.2018 | 1 | 204 |
| 5. | Üzeyir Hacıbəyov | 24.10.2018 | 1 | 204 |
| 6. | Abdulla Şaiq | 24.10.2018 | 1 | 204 |
| 7. | Akademik Həsən Abdullayev | 24.10.2018 | 1 | 204 |
| 8. | Akademik Zahid Xəlilov | 24.10.2018 | 1 | 204 |
| 9. | Akademik Yusif Məmmədəliyev | 24.10.2018 | 1 | 204 |
| 10. | Mehdi Mehdizadə | 24.10.2018 | 1 | 204 |
| 11. | Firudin bəy Köçərli | 02.03.2022 | 1 | 225 |
| 12. | Bəxtiyar Vahabzadə | 29.12.2022 | 1 | 204 |
| 13. | Xəlil Rza Ulutürk | 29.12.2022 | 1 | 204 |

## 3.9. Təhsil proqramlarının monitorinqi və yenilənməsi

**3.9.1. Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planın mövcudluğu.**

ADPU-da ARETN-nin müvafiq əmrləri ilə təsdiq edilmiş standart və qaydalara uyğun olaraq təhsil proqramları ixtisasın (ixtisaslaşmaların) tədris planı, tədris qrafiki, illik işçi tədris planı tələbələrin fərdi tədris planı, müəllimlərin tədris planı əsasında tədrisi təşkil edir. Universitetdə təhsil proqramlarında ixtisas üzrə məzunun kompetensiyalarının, ixtisas çərçivəsinin, fənlər üzrə təlim və öyrənmə metodlarının, qiymətləndirmə üsullarının və təlim nəticələrinin effektivliyini artırmaq məqsədi ilə ixtisaslar üzrə qiymətləndirmə və monitorinq aparılır. Universitet EŞ-nın müvafiq əmrinə əsasən xüsusi yaradılmış komissiya fakültələrdə təhsil proqramlarının təşkili vəziyyətini monitorinq və qiymətləndirilməsi barədə hesabatlar EŞ-da müzakirə olunur.

Universitetdə bakalavriat və magistratura təhsil səviyyələri üzrə təhsil proqramlarını monitorinq və qiymətləndirmə apararkən professor-müəllim heyəti, təhsilalanlar, işəgötürənlər, AR Təhsil İnstitutunun müvafiq strukturları ilə görüşlər keçirilir, müzakirələr aparılır, məzunların işədüzəlmələri üzrə statistikası təhlil olunur, məzunlar və işəgötürənlərlə əks-əlaqə yaradılır.

Təhsil proqramlarının keyfiyyətinin qiymətləndirilməsi məqsədi ilə tədris planı, fənn sillabusları, seçmə fənlər kataloqunu, təhsilalanların fərdi iş planları, təhsilalanlarla, məzunlarla və işəgötürənlərlə anket sorğularının nəticələrinin təhlili əsasında aparılır.

ADPU-nu ali təhsil sisteminin Avropa Ali Təhsil Məkanının tələblərinə daha da uyğunlaşdırılması məqsədi ilə ARTN-nə dəstək göstərilməsi layihəsi çərçivəsində Finlandiya, Litva, Latviya, Estoniya, Fransa təhsil ekspertlərinin iştirakı ilə (TWİNNİNG) İnformatika müəllimliyi, İbtidai sinif müəllimliyi, Xarici dil müəllimliyi, Riyaziyyat müəllimliyi, Kimya müəllimliyi təhsil proqramlarının tədrisinin təşkili prosesini monitorinq edilmiş, problemlər üzə çıxarılmış, müzakirələr aparılmış və tövsiyələr verilmişdir.

**3.9.2. Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu.**

Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsində diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yönəldilmişdir. Təhsil proqramı tələbələrin müstəqilliyinin dəstəklənməsinə və ömürboyu təlim konsepsiyasının inkişaf etdirilməsinə diqqət yetirilir. Təhsil prosesinin sonunda tələbə ixtisas istiqamətində müstəqil işləyə bilməsi və təhsilini ömürboyu davam etdirməsi bacarıqlarının təlim nəticəsində yer almasına nəzarət olunur. İxtisaslar üzrə təlim nəticələrinin fənnin təsvirinə uyğun yazılması, hər bir təlim nəticəsi üçün istifadə olunan təlim və öyrənmə metodları, istifadə olunan qiymətləndirmə üsullarının düzgün seçilməsinə diqqət yetirilir, monitorinqlər aparılır, hesabatlar hazırlanıb TMŞ-da müzakirə və təhlil olunur. Fənnin təlim nəticələri fənn proqramlarında və sillabuslarda öz əksini tapmasına diqqət yetirilir.

Təhsil proqramlarında qeyd olunan təlimin nəticələri təhsilalanlarda əmək bazarında tələb olunan kompetensiyaları formalaşdırmağa, ixtisas fəaliyyəti, təhsil prosesinin psixoloji-pedaqoji istiqamətinin təmin edilməsinə, təhsilalanların sosiallaşmasına, şəxsi ixtisas və sosial inkişafa, ümumi mədəni kompetensiyaların formalaşmasına istiqamətlənibdir. Fakültələrdə akademik heyətin iştirakı ilə təhsil proqramlarının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələri müəyyənləşdirilir və hər bir fənnin sillabusu hazırlanır. Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət akademik heyətlə sorğu, sənədlərin öyrənilməsi və müşahidələrin aparılması yolu ilə aparılır. Uyğunsuzluq aşkar olunduqda korreksiya işləri aparılır.

**3.9.3. Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyəti təmainatı sisteminə töhfəsi.**

Tədrisin keyfiyyətinin artırılması məqsədi ilə təhsil proqramlarının monitorinqi nəticəsində daha üstün təlim metodlarının seçilməsi, ali təhsil müəssisəsi tərəfindən müəyyən ediliş fənlərin məzmun baxımından yenisi ilə əvəz olunması, qiymətləndirmə meyarlarına yenidən baxılması və s. kimi tədbirlər görülmüşdür. Yenilən seçmə fənlər əmək bazarının tələblərini və informasiya texnologiyalarının müasir imkanlarının tətbiqini nəzərə almaqla ixtisasların peşə hazırlığının əsaslarını təşkil edir və burada əsas məqsəd təlim nəticələrinin əldə olunmasını təmin etməkdən ibarətdir. Əmək bazarının tələblərinə uyğun olaraq tədris planlarına STEM, İnklüziv təhsil və fərdiləşdirilmiş təlim və s. fənlər əlavə edilmişdir.

Təhsil proqramlarının keyfiyyətinin qiymətləndirilməsi, tədris planlarının, seçmə fənlər kataloqunun, təhsilalanların fərdi tədris və iş planlarının, təhsilalanlar və işəgötürənlərlə anket sorğularının keçirilməsi nəticələrinin analizi əsasında aparılır.

**3.9.4. Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti.**

ADPU-da Tvinninq layihəsi çərçivəsində 2019-cu ildə Xarici dil müəllimliyi, Fizika müəllimliyi, İnformatika müəllimliyi təhsil proqramlarının pilot qiymətləndirmə akkreditasiyası keçirilmişdir. Proqram qiymətləndirilməsi prosesi həyata keçirilməmişdən əvvəl xarici ekspertlər tərəfindən təlimlər təşkil edilmişdir. Proqram akkreditasiyasında müvafiq fakültələrdə analitik təhlillər aparılmış, özünütəhlil hesabatı hazırlanmışdır. Təhsil proqramlarının qiymətləndirilməsində xarici və yerli təhsil ekspertləri, işə götürənlər və təhsilalanlar iştirak etmişdir.

Fakültələrdə ixtisas təhsil proqramlarının tədrisinin təşkili barədə illik özünüqiymətləndirmə hesabatları hazırlanır və fakültə Elmi Şuralarında müzakirə olunaraq təhlil edilir və müvafiq qaydada qiymətləndirilir.

**3.9.5.Təhsil müəssisəsində tədris olunan tədris proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti.**

Universitetdə tədris olunan təhsil proqramları əmək bazarının və cəmiyyətin tələblərinə, 2020-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 fevral 2019-cu il tarixli 45 saylı qərarına əsasən təsdiq edilmiş ixtisasların (proqramların) təsnifatına uyğun qaydada hazırlanaraq rəsmiləşdirilmişdir. Tədris olunan təhsil proqramları əmək bazarının və cəmiyyətin tələblərinə uyğun daim yenilənir.

## 3.10. Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi

**3.10 .1 Karyera mərkəzinin mövcudluğu vəziyyəti**

ADPU-da Məzun koordinasiya və karyera şöbəsi təhsilalanların intellektual və mədəni inkişafı, peşəkar hazırlıq səviyyəsinin yüksəldilməsi ilə yanaşı, onların məşğulluq problemlərinin həll edilməsi üzrə kompleks təşkilati, texniki, informasiya, konsaltinq xidmətlərini həyata keçirir, onları əmək bazarına hazırlanmasında yaxından iştirak edir. Universitet təhsil və əmək bazarı arasında körpü rolunu oynayır. Universitet məzunları ilə kommunikasiya yaradır. https://adpu.edu.az/index.php/az/məzun-koordinasiya-və-kariyera-şöbəsi

**3.10.2. Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti**

ADPU-da təhsilalanların təhsil ehtiyacları nəzərə alınmaqla karyera ilə bağlı məsləhətlərin və xidmətlərin göstərilməsi üç istiqamətdə həyata keçirilir:

- Birinci tədris ilinə qəbul olunmuş tələbələrin dil bacarıqlarının inkişafı sahəsində görülən tədbirlər
- Müəllimlərin İşə Qəbuluna (MİQ) hazırlıq məqsədi ilə görülən tədbirlər
- Universitetə dövlət və özəl təhsil müəssisələrindən daxil olan vakansiyalar əsasında işlə təminat

Təhsilalanlara yerli və xarici təhsil ekspertlərinin iştirakı ilə karyera yönünlü təlimlər, dəyirmi masalar təşkil edilmişdir.

**3.10.3. Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti**

Universitetdə Məzun koordinasiya və karyera şöbəsi mütəmadi olaraq məzunların əmək bazarında fəaliyyətləri, karyera yüksəlişlərin izləyir. Bu məqsədlə məzunlardan ibarət məlumata bazası yaradılmışdır. Vaxtaşırı universitetdə məzunlarla görüşlər təşkil edilir, onların tövsiyə və təklifləri dinlənilib, nəzərə alınır.

**3.10.4. Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrin və təhsil proqramının keyfiyyət səviyyəsinin məmnunluğunun ölçülməsi.**

Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrin və təhsil proqramının keyfiyyət səviyyəsinin məmnunluğunun ölçülməsi məqsədilə əyani və online formada sorğular keçirilmişdir. Əsasən sorğular məzun və işəgötürənlərlə aparılır, cavablar təhlil olunur, məzunların təhsil proqramı çərçivəsində əldə etdikləri səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğu müəyyən edilərək müvafiq fakültə və kafedralara istiqamətlənir. Bunun əsasında da müvafiq işlər planlaşdırılıb, monitorinq aparılır.

**3.10.5. Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti.**

Universitet əsasən məzunlarla görüşlər təşkil edir, universitetin rəsmi sosial media hesabları vasitəsilə əlaqə saxlayır.

## 4. ELMİ TƏDQİQAT
### 4.1. Elmi-tədqiqat strategiyası

ADPU elmi-tədqiqat işlərinin planlaşdırılması və reallaşdırılması Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "Elm haqqında Azərbaycan Respublikasının Qanunu"na uyğun olaraq həyata keçirilmişdir.

7 dövri elmi jurnal nəşr edilmiş (2016-cı ilə qədər cəmi 2 dövri elmi jurnal nəşr edilirdi), onlarla beynəlxalq və respublika səviyyəli konfranslar, konqreslər, simpoziumlar keçirilmiş, yeni kafedralar və Elmi Tədqiqat Mərkəzi yaradılmış, magistratura səviyyəsində yeni ixtisaslaşmalar üzrə kadr hazırlığına başlanmış, elm və təhsil sahəsində beynəlxalq əməkdaşlıq genişləndirilmiş, Gənc Alimlər və Tədqiqatçılar Şurası, Elm Komissiyası fəaliyyətə başlamış, kitabxana müasir elmi texniki tələblərə uyğun olaraq yenidən qurulmuşdur.

Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılmasına diqqət artırılmışdır. ADPU 2016-2018-ci illərdə elmi sahəsində uğurlarına görə "Web of Science" elmi bazasının "Ən mütərəqqi Universitet"i mükafatına layiq görülmüşdür:




Universitetdə çalışan professor-müəllim heyətinin Google Scholar bazasında şəxsi profilləri yaradılmış və ORCID identifikasiya nömrəsinin alınması təmin edilmiş, professor-müəllim heyəti üçün maarifləndirici təlimlər keçirilmişdir.

**Fakültələr üzrə fəaliyyət göstərən professor-müəllim heyətinin beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrinə istinad etmə və H indeksinin dinamikası**

| | Riyaziyyat | Fizika | Filologiya | Kimya və biologiya | İbtidai təhsil | Tarix və coğrafiya | Məktəbəqədər təhsil |
|---|---|---|---|---|---|---|---|
| **İ 10 indeks** | 45 | 31 | 1 | 10 | 0 | 6 | 0 |
| **H indeksi cəmi** | 65 | 41 | 7 | 23 | 5 | 21 | 5 |
| **Fakültələr üzrə cəmi istinad göstərici** | 1376 | 874 | 69 | 392 | 6 | 309 | 14 |
| **Fakültələr üzrə H indeksi olan əməkdaşların sayı** | 17 | 9 | 5 | 9 | 3 | 9 | 5 |

**ADPU-da fəaliyyət göstərən professor-müəllim heyətinin illər üzrə beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrinə istinad etmə və H indeksinin dinamikası**



| | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|
| Beynəlxalq nəşrlərdə istinadetmə | 238 | 350 | 292 | 276 | 203 | 105 | 102 |
| H indeksi olan alimlər | | | | | | | 63 |
| H indeksi 5- dən yuxarı olan say | | | | | | | 17 |
| İ 10 indeks | | | | | | | 24 |

ADPU-da 8 fakültə, 34 kafedra, Magistratura və doktorantura şöbəsi, Elmi-təşkilati şöbə, Elmi-Tədqiqat Mərkəzi (ETM), Kitabxana İnformasiya Mərkəzi, Nəşriyyat şöbəsi, Dissertasiya Şuraları, Tələbə Elmi Cəmiyyəti, Gənc Alimlər və Tədqiqatçılar Şurası fəaliyyət göstərir. Pedaqoji Universitetin Xəbərləri Riyaziyyat və təbiət elmləri seriyası, Pedaqoji Universitetin Xəbərləri Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, Linqvistika problemləri, Tarix, insan və cəmiyyət, Fizika, riyaziyyat və informatikanın tədrisi, Musiqi elmi, mədəniyyəti və təhsilin aktual problemləri, Magistrant dövri-elmi jurnalları nəşr edilir.

2016-2022-ci illərdə ADPU-da 750-yə qədər professor-müəllim heyəti, o cümlədən 70 elmlər doktoru, 55 professor, 340-a qədər fəlsəfə doktoru, 220-dən çox dosent elmi-tədqiqat fəaliyyətinə cəlb edilmişdir. 100 problem üzrə 500-ə qədər mövzuda elmi-tədqiqat işləri yerinə yetirilmiş, tətbiqi və innovasiya xarakterli ən əhəmiyyətli 50-dən çox iş tədris prosesində praktik tətbiq hüququ qazanmışdır. Yerinə yetirilən elmi-tədqiqat işləri mütəxəssis hazırlığının profilinə uyğun şəkildə təsdiq edildiyi üçün onların nəticələri tədris prosesinə tətbiq edilmişdir.

Yalnız 2022-ci ildə xarici ölkə dövri nəşrlərində 442 (17-i impakt faktor göstəricili jurnallarda) olmaqla, 852 elmi məqalə, 359 tezis (xaricdə - 209), 38 monoqrafiya, 33 dərslik, 59 dərs vəsaiti, 177 proqram və metodik vəsait və s. nəşr olunmuşdur. 209 əməkdaş beynəlxalq və 150 əməkdaş respublika elmi konfranslarında iştirak etmişdir. 14 nəfər fəlsəfə doktorluğu və 4 nəfər elmlər doktoru dissertasiya işini müdafiə etmiş, 3 nəfər professor və 15 nəfər dosent elmi adına layiq görülmüşdür.

ADPU-da 2016-2022-ci illərdə professor-müəllim heyəti və elmi işçilər tərəfindən 194 monoqrafiya, 180 dərslik, 534 dərs vəsaiti, 1485 proqram, metodik vəsaitlər, 4685 elmi məqalə (impakt faktorlu jurnallarda-213) nəşr olunmuş və 12 patent alınmışdır.

2016-2022-ci illərdə ADPU-nun 34 kafedra və ETM-də 541 problem üzrə, 2966 elmi-tədqiqat mövzu yerinə yetirilmişdir. 318 elmi-tədqiqat işi tamamlanmışdır.

2016-2022-ci illərdə universitet əməkdaşları respublikada keçirilmiş konfranslarda 1293 (2016-193; 2017-295; 2018- 220; 2019-237; 2020-85, 2021-113; 2022-150) məruzə ilə çıxış etmişlər.




2016-2022-ci illər üzrə ADPU-da müxtəlif mövzularda 20 beynəlxalq, 47 respublika, 100-ə yaxın universitetdaxili elmi və elmi-praktik konfranslar keçirilmişdir. 12 patent alınmışdır.

### 2016-2022-ci illərdə nəşr olunmuş elmi əsərlər haqqında məlumat, ixtiraçılıq və patent-lisenziya fəaliyyəti üzrə inkişaf dinamikası

| № | Monoqrafiya | Dərslik | Dərs vəsaiti | Proqramlar, metodik vəsaitlər | Nə qədər Respublikada | İmpakt faktoru olan jurnallarda | Tezislər Respublikada | Tezislər xaricdə | Beynəlxalq konfranslar və simpoziumlar | Respublikadakonfranslar və simpoziumlar | Tələbə konfransları | İxtiraçılıq və patentlisenziya fəaliyyəti | Kitabxana fondu (nüsxə) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2016 | 24 | 34 | 100 | 280 | 555 | 41 | 193 | 51 | 1 | 7 | 11 | 2 | 706.809 |
| 2017 | 18 | 28 | 83 | 181 | 668 | 37 | 295 | 50 | 4 | 7 | 9 | 2 | 685.248 |
| 2018 | 32 | 32 | 83 | 233 | 868 | 30 | 220 | 144 | 4 | 10 | 9 | 3 | 753.436 |
| 2019 | 37 | 17 | 94 | 256 | 1023 | 33 | 237 | 99 | 1 | 6 | 10 | 1 | 775.715 |
| 2020 | 12 | 16 | 45 | 178 | 514 | 23 | 85 | 122 | 1 | 2 | - | 2 | 743.080 |
| 2021 | 33 | 20 | 70 | 197 | 464 | 32 | 113 | 57 | 3 | 9 | 7 | 1 | 743.980 |
| 2022 | 38 | 33 | 59 | 177 | 593 | 17 | 150 | 209 | 6 | 6 | - | 1 | 746.221 |




**İnnovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin keyfiyyətinin yüksəldilməsi üzrə görülmüş işlər:**

Müəllimləri yeni texnologiyaları mənimsəməyə təşviq etmək, onlara dəstək olmaq məqsədilə professor-müəllim heyətinin beynəlxalq, həm də yerli təlim və seminarlarda iştirakının təmin edilməsi istiqamətində işlər həyata keçirilir;

Davamlı inkişafın təmin edilməsi üçün İKT-nin prioritet sahə kimi inkişafı məqsədilə layihələr hazırlanır;

ADPU-da fəaliyyət göstərən Gənc Alimlər və Tədqiqatçılar Şurası işlərini müasir tələblərə uyğun şəkildə qurur. 2021-ci ildəniki nominasiya üzrə gənc alimlərin müsabiqəsi keçirilmiş qaliblər mükafatlandırılmışdır;

Regional İnkişaf İctimai Birliyi İnklüziv təhsil mərkəzində “Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqların artırılması” layihəsi əsasında Azərbaycan Dövlət Pedaqoji Universitetinin 400 professor-müəllim heyəti və 300-dən artıq 4-cü kurs tələbələri üçün təlim təşkil olunmuşdur;

ADPU əməkdaşları Ümumdünya Psixi Sağlamlıq Günü ilə əlaqədar DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində təşkil olunan konfransda və sağlamlıq imkanları məhdud uşaqların yaradıcılığına həsr olunmuş sərgidə iştirak etmişlər;

Sağlamlıq imkanları məhdud cəmiyyətə, həyata inteqrasiyasında çətinliklərin öyrənilməsi ilə bağlı elmi-tədqiqat işləri aparılır. Korreksiyaedici təlimin təkmilləşdirilməsi üzrə “İbtidai təhsil səviyyəsi üzrə inklüziv siniflərdə oyunlardan istifadə şagirdlərin təlim

keyfiyyətinin yüksəldilməsi vasitəsi kimi", "Daun sindromlu məktəbəqədər yaşlı uşaqlarda nitq inkişafının diaqnostikası və korreksiyası", "Kəkələmənin korreksiyası zamanı kompleks loqopedik işin istiqamətləri" mövzularda tədqiqat işləri aparılmışdır.

Tələbələrin İKT bacarıqlarının qiymətləndirilməsi üçün "Startaplar", "Enactus Azərbaycan" və s. layihələr, müsabiqələr təşkil edilmişdir.

## 4.2. Tədqiqat resursları

Professor-müəllim heyəti büdcədən əlavə əmək haqqı almır. 2018-ci ilə kimi universitetdə fəaliyyət göstərmiş 7 ETL ("Yeni bioloji aktiv birləşmələr" ETL, "Koordinasiya birləşmələri" ETL, "Nadir torpaq elementləri" ETL, "Dədə Qorqud" ETL, "Türk araşdırmaları" ETL, "Pedaqoji təhsilin problemləri" ETL, "Bioinformatika" ETL-də ümumilikdə 61 nəfər əməkdaş fəaliyyət göstərirdi) dövlət büdcəsindən maliyyələşirdi.

ADPU-da fəaliyyət göstərən elmi tədqiqat laboratoriyalarının işinin yenidən qurulması məqsədilə Elmi Şurasının 6 mart 2019-cu il tarixli qərarı ilə üç bölmədən ibarət Elmi Tədqiqat Mərkəzi (ETM) yaradılmışdır. 2019-2022- ci ildən ETM-nin əməkdaşlarının əmək haqqı ADPU tərəfindən maliyyələşir. Elmi-tədqiqata ayrılan büdcə vəsaitinin ümumi büdcədə payı illər üzrə: 2016 - 107,7; 2017 - 109,5; 2018 - 97,4; 2019 - 80,7; 2020 - 125,1; 2021 - 142,8 və 2022 - 148,8 min manat olmuşdur.




ADPU-da elmi-pedaqoji kadrların hazırlığı doktorantura və dissertantura vasitəsi ilə həyata keçirilir.

***Son yeddi ildə ADPU-nun doktoranturasına qəbul:***

2016-cı ildə fəlsəfə doktoru proqramı üzrə 13 doktorant 9 dissertant, elmlər doktoru proqramı üzrə 5 dissertant;

2017-ci ildə fəlsəfə doktoru proqramı üzrə 11 doktorant 3 dissertant, elmlər doktoru proqramı üzrə 5 dissertant;

2018-ci ildə fəlsəfə doktoru proqramı üzrə 10 doktorant 5 dissertant, elmlər doktoru proqramı üzrə 1 dissertant;

2019-cu ildə fəlsəfə doktoru proqramı üzrə 8 doktorant, elmlər doktoru proqramı üzrə 3 dissertant;
2020-ci ildə fəlsəfə doktoru proqramı üzrə 10 doktorant, elmlər doktoru proqramı üzrə 5 dissertant;
2021-ci ildə fəlsəfə doktoru proqramı üzrə 4 doktorant 1 nəfər dissertant;
2022-ci ildə fəlsəfə doktoru proqramı üzrə 9 dissertant, elmlər doktoru proqramı üzrə 4 dissertant qəbul olunmuşdur.




**FD 02.061 Dissertasiya şurası 2016-ci il**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin
5804.01- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi
5801.01- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Azərbaycan dilinin tədrisi metodikası)
5801.01- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Riyaziyyatın tədrisi metodikası)
5801.01- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Biologiyanın tədrisi metodikası)

**BED 02.061 Dissertasiya şurası – 2016-cı il**

5804.01- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 3 nəfər
5801.01- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Riyaziyyatın tədrisi metodikası) – 1 nəfər.
5801.01- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Azərbaycan dilinin tədrisi metodikası) – 1 nəfər.
5801.01- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Fizikanın tədrisi metodikası) – 1 nəfər.
5801.01- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Kimyanın tədrisi metodikası) – 1 nəfər.

**FD 02.061 Dissertasiya şurası 2017-2018-ci illər**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 3 mart 2017-ci il 38 №li əmr ilə aşağıdakı ixtisaslar üzrə təsdiq edilmişdir.
5804.01- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi.
5801.01- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Azərbaycan dilinin tədrisi metodikası).
5805.01- Korreksiya pedaqogika.

**BED 02.061 Dissertasiya şurası – 2017-ci il**

5804.01- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 4 nəfər.

**BED 02.061 Dissertasiya şurası – 2018-ci il**

5804.01- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 1 nəfər.
5801.01- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Kimyanın tədrisi metodikası) – 1 nəfər.

**FD 2.15 Dissertasiya şurası 2019-2022-ci illər**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 18 noyabr 2019-cu il tarixli F-102 №li əmri ilə aşağıdakı ixtisaslar üzrə təsdiq edilmişdir.
5804.01- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi
5801.01- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Riyaziyyatın tədrisi metodikası)
5801.01- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Fizikanın tədrisi metodikası)
5801.01- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Kimyanın tədrisi metodikası)

**BFD2.15/1 Dissertasiya Şurası**

5801.01- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası
(İnformatikanın tədrisi metodikası) – 2 nəfər
5801.01- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası
(Azərbaycan dilinin tədrisi metodikası) – 3 nəfər

**BED 2.15 Dissertasiya Şurası**

5805.01- Korreksiya pedaqogikası

**BED 2.15/1 Dissertasiya Şurası**

5804.01- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 1 nəfər
5801.01- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Riyaziyyatın tədrisi metodikası) – 1 nəfər

**Son 7 ildə elmi dərəcə və elmi ad almış professor-müəllim heyəti**

| № | Ali təhsil müəssisəsinin əməkdaşları tərəfindən müdafiə edilmiş dissertasiyaların sayı | | Elmi adlar almış əməkdaşların sayı | |
|---|---|---|---|---|
| FD2.15 | Elmlər doktoru elmi dərəcəsi üzrə | Fəlsəfə doktoru elmi dərəcəsi üzrə | Professor | Dosent |
| 2016 | 4 | 11 | 1 | 3 |
| 2017 | 0 | 6 | 1 | 6 |
| 2018 | 2 | 5 | 4 | 8 |
| 2019 | 0 | 5 | 2 | 4 |
| 2020 | 0 | 5 | 2 | 2 |
| 2021 | 0 | 3 | 5 | 14 |
| 2022 | 4 | 14 | 4 | 15 |
| **CƏMİ** | 10 | 49 | 19 | 52 |




**Təhsil proqramları üzrə elmi-tədqiqat işlərinin vəziyyəti**

2016-2022-ci illərdə universitetin 34 kafedrasında, 541 problem üzrə, 2966 mövzuda yerinə yetirilən elmi-tədqiqat işləri bakalavr və magistr hazırlığı üzrə təhsil proqramları çərçivəsində aparılır və onların istiqamətlərinə uyğundur. Son yeddi il ərzində 379 elmi tədqiqat işi tədris prosesində tətbiq olunmuşdur.

2016-2022-ci illərdə professor-müəllim heyəti və elmi işçilər tərəfindən 194 monoqrafiya, 180 dərslik, 534 dərs vəsaiti, 1485 proqramlar, metodik vəsaitlər, 4685 elmi

məqalə (impakt faktor göstəricili jurnallarda 213 məqalə) nəşr olunmuş və 12 patent alınmışdır.




2016-2022-ci illərdə universitet əməkdaşları respublikada keçirilmiş, konfranslarda 1293 (2016-193; 2017-295; 2018- 220; 2019-237; 2020-85, 2021-113; 2022-150) məruzə ilə çıxış etmişlər.




2016-2022-ci illər üzrə ADPU-da müxtəlif mövzularda 18 beynəlxalq, 47 respublika, 100-ə yaxın universitetdaxili elmi-praktik konfranslar keçirilmiş və 12 patent alınmışdır.

ADPU-da fəaliyyət göstərən 62 professor-müəllim heyətinin Google Scholar bazasında Elmi məqalələrinə istinad etmə sayı (illər üzrə) cəmi 3045-dır. Onlardan 17 nəfərin məqaləsinə H indeksi 5 -dən yuxarı olan professor-müəllimdır. 24 nəfərin məqaləsinə istinad etmə isə İ10 indeksi-dir. (İ10 indeksi müəllifin ən azı 10 istinad almış məqalələrinin sayına bərabərdir).

**ADPU-nun daimi ştatda olan professor-müəllim heyətinin İ10 indeksi olan əməkdaşlarının artım dinamikası (İ10 indeksi müəllifin ən azı 10 istinad almış məqalələrinin sayına bərabərdir)**

| № | Ad və soyad | Struktur bölmələri | ATM-in daimi ştatda olan professor-müəllim heyətinin İ 10 indeksi olan əməkdaşları |
|---|---|---|---|
| 1. | Prof.Vəli Qurbanov | Riyazi analiz kafedrası | 15 |
| 2. | Dos.Sadəddin Haxıyev | Cəbr və həndəsə kafedrası | 10 |
| 3. | Prof.Namiq Niftiyev | Ümumi fizika kafedrası | 10 |
| 4. | Prof.Bəhram Əliyev | Riyazi analiz kafedrasının müdiri | 7 |
| 5. | Prof.Asəf Zamanov | Elm və innovasiyalar üzrə prorektor | 6 |
| 6. | Prof.Əli Zalov | Analitik və üzvi kimya kafedrasının müdiri | 5 |
| 7. | Dos.Sevinc Əliyeva | Ümumi tarix kafedrasının müdiri | 5 |
| 8. | Dos.Arzu Daşdəmirov | Fizika fakültəsinin dekanı | 5 |
| 9. | Prof.Hüseyn İbrahimov | Ümumi Fizika kafedrası | 5 |
| 10. | Prof.Rəhim Rzayev | Riyazi analiz kafedrası | 4 |
| 11. | Dos.Kərim Quliyev | Analitik və üzvi kimya kafedrası | 4 |
| 12. | Dos.Qalib Şərifov | Keyfiyyətin təminatı şöbəsinin müdiri | 3 |
| 13. | Dos.Mətanət Musayeva | Kompüter elmləri kafedeası | 2 |
| 14. | Prof.Vaqif Nəsirov | Ümumi fizika kafedrası | 2 |
| 15. | Dos.Məhəmməd Abduyev | Ümumi coğrafiya kafedrasının müdiri | 1 |
| 16. | Prof.Aydın Ələkbərov | Ümumi fizika kafedrası | 1 |
| 17. | Prof.Cahangir Hüseynov | Ümumi fizika kafedrasının müdiri | 1 |
| 18. | Prof.İbrahim Bayramov | Elmi-təşkilati şöbənin müdiri | 1 |

**Gənc Alimlər və Tədqiqatçılar Şurasının yalnız 2022-ci ildə gördüyü işlər:**

17 mart 2022-ci il tarixində ADPU-nun Gənc Alimlər və Tədqiqatçılar Şurasının təşkilatçılığı ilə gənc tədqiqatçıların akademik yazı bacarıqlarının inkişaf etdirilməsi məqsədi ilə "İmpakt faktor göstəricili beynəlxalq elmi jurnallara məqalə hazırlanması" mövzusunda seminar keçirilmişdir

- ✓ 31 mart 2022-ci il tarixində Şuranın üzvləri Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin birgə təşkilatçılığı ilə Bakıda keçirilmiş "Open Science Azərbaycan: gənc tədqiqatçılar arasında Open Science platformasının təbliği" layihəsi daxilində "Open Science Azərbaycan–gənc alimlər üçün yeni imkanlar" adlı elmi-praktik konfransda iştirak etmişdir.

✓ 21 iyun 2022-ci il tarixində ADPU-da Gənc Alimlər və Tədqiqatçılar Şurasının təşkilatçılığı ilə “Elm Günü” münasibətilə elan olunmuş “İlin gənc alimi və tədqiqatçısı” müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilmişdir.

✓ 9 oktyabr 2022-ci ildə Şuranın üzvləri Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində keçirilmiş və Şuşa ilinə həsr olunmuş VIII Bakı Beynəlxalq Kitab Sərgisində iştirak etmişdir.

✓ 15 noyabr 2022-ci il tarixində Gənc Alimlər və Tədqiqatçılar Şurasının təşkilatçılığı ilə ADPU-da İrəvan Müəllimlər Seminariyasının 140 illiyinə həsr olunmuş “Müəllim hazırlığında İrəvan Müəllimlər Seminariyasının rolu” Respublika elmi-praktik konfransı və professor Fərrux Rüstəmovun “İrəvan Müəllimlər Seminariyası və onun məzunları” kitabının təqdimat mərasimi keçirilmişdir.

✓ 15 oktyabr 2022-ci il tarixindən başlayaraq ADPU-nun 2 doktorantı “Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılması ilə əlaqədar 2022-ci il üzrə Yol Xəritəsi”nin 14-cü bəndinin icrasının yerinə yetirilməsi və tədqiqatçıların rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi məqsədilə Ekvita şirkətinin dəstəyi ilə İqtisadi Elmi Tədqiqat İnstitutunda “Tədqiqat üsulları” və “Beynəlxalq elmmetrik bazalarla tanışlıq və profillərin yaradılması” mövzularında təşkil edilmiş təlimlərdə iştirak etmişdir

Qeyd edək ki, 2022-ci təqvim ili ərzində ADPU-nun gənc alim və tədqiqatçıları respublika və beynəlxalq səviyyəli elmi konfrans, seminar, qurultay, forum, sərgi və digər tədbirlərdə iştiraka cəlb edilməsi istiqamətində də mühüm işlər görülmüşdür. Belə ki, 2022-ci təqvim ilində ADPU-nun 40 yaşa qədər olan gənc alim və tədqiqatçıları 87 respublika səviyyəli, 235 beynəlxalq səviyyəli elmi konfransda iştirak etmişdir. Gənc alim və tədqiqatçıların respublikada nəşr edilən və eləcə də beynəlxalq nüfuzlu jurnallarda ümumilikdə 145 məqaləsi çap olunmuşdur. Həmçinin Şura üzvlərindən 11 nəfər fəlsəfə doktoru proqramı üzrə dissertasiya müdafiə etmiş, 6 nəfər fəlsəfə doktoru alimlik dərəcəsi almışdır.



ADPU-da müxtəlif elm sahələrində elmi yeniliklərin və innovasiyaların tədris prosesinə tətbiqi, müvafiq ixtisas sahələri üzrə aparıcı mütəxəssislərin tədris prosesinə cəlb edilməsi və birgə elmi tədqiqatların aparılması məqsədi ilə AMEA-nın elmi təşkilatları və İnstitutları (Nizami adına Ədəbiyyat İnstitutu, Nəsimi adına Dilçilik İnstitutu, Folklor İnstitutu, A.Bakıxanov adına Tarix İnstitutu, Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu, Fəlsəfə və Sosiologiya İnstitutu, akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu), Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin elmi tədqiqat institutları ilə (Riyaziyyat və Mexanika İnstitutu, Akademik C.M.Abdullayev adına Fizika İnstitutu, Akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu, akademik Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutu, Kataliz və Qeyri-Üzvi Kimya İnstitutu, akademik H.Əliyev adına Coğrafiya İnstitutu, Topraqşünaslıq və Aqrokimya İnstitutu, İqtisadiyyat İnstitutu, Memarlıq və İncəsənət İnstitutu), РГГУ, Latviya Universiteti, Ukrayna MEA Mexanika İnstitutu, Ukraynanın Təhsil menecmenti Universiteti, Yıldız Texniki Universiteti, Ege Universiteti (Türkiyə), V.Q.Korolenko adına Qlazov Dövlət Pedaqoji İnstitutu (Rusiya), Bartın Universiteti (Türkiyə), Kayseri Universiteti (Türkiyə), Bolu Abant İzzət Baysal Universiteti (Türkiyə), TED Universiteti (Türkiyə),Yozqat Bozok Universiteti, Qazi Universiteti, Hacettepe Universiteti (Türkiyə), EYUDER, Ankara Universiteti (Türkiyə), Başkent Universiteti (Türkiyə), Burdur Mehmet Akif Ersoy Universiteti, Türkiyənin İqtisadi İnkişaf və Sosial Tədqiqatlar İnstitutu ilə əməkdaşlıq edilir.




Universitetin professor-müəllim heyəti və doktorantlar AMEA-nın təşkil etdiyi elmi konfrans və tədbirlərdə, AMEA mütəxəssisləri, həmçinin doktorant və magistrantları da ADPU-nun təşkilatçılığı ilə keçirilən beynəlxalq və respublika səviyyəli konfrans və simpoziumlarda iştirak etmişlər.

## 4.3. Elmi-tədqiqat fəaliyyəti

2016-2019-cu illərdə ADPU-da fəaliyyət göstərmiş 7 Elmi–Tədqiqat Laboratoriyasının (ETL) ( Pedaqoji təhsilin problemləri ETL, Türk araşdırmaları ETL, Dədə Qorqud ETL , Koordinasion birləşmələr ETL, Yeni bioloji aktiv birləşmələr ETL, Nadir torpaq

metal materialları fizikası ETL, Bioinformatika ETL) bazasında Elmi-Tədqiqat Mərkəzi yaradılmışdır.

ETL əməkdaşları 2016-2019-cu illərdə laboratoriyalarda təlimlər həyata keçirmiş, dərslik, proqramlar, məqalə və tezislər çap etdirmiş, respublika və beynəlxalq konfranslarda, beynəlxalq təlimlərdə iştirak etmiş, diplom və sertifikatlara layiq görülmüşlər.

Elmi-Tədqiqat Mərkəzi (ETM) ADPU Elmi Şurasının 6 mart 2019-cu il tarixli qərarı ilə yaradılmış və 18 sentyabr 2020-ci ildə onun əsasnaməsi və strukturu təsdiq edilmişdir. Mərkəzin fəaliyyətinin məqsədi təbiət və humanitar elmlərin müxtəlif istiqamətləri, o cümlədən bilavasitə universitetin fəaliyyət sahəsi ilə bağlı araşdırmaların aparılmasında iştirak etməklə ADPU-nun elmi-tədqiqat sahəsində nailiyyətlərinin yüksəldilməsi, elmi-pedaqoji potensialının daha da gücləndirilməsindən ibarətdir.

2019-cu ildə ETM-nin əməkdaşlarının 4 kitabı, 34 məqaləsi (o cümlədən Azərbaycanda-32, xaricdə-2), 17 tezisi (Azərbaycanda-12, xaricdə-5) çap olunmuşdur. Əməkdaşlar 18 beynəlxalq konfransda iştirak etmişlər.

2020-ci ildə əməkdaşların elmi araşdırmalarının nəticəsi kimi 3 kitab, 32 elmi və 4 elmi-publisistik məqalə, 16 tezis dərc edilmişdir. 32 elmi məqalədən 14-ü Azərbaycanda, 18-i xaricdə (Türkiyə, Macarıstan və Rusiya),16 tezisdən 5-i Azərbaycanda və 11-i xaricdə nəşr olunmuşdur.

Həmin dövrdə ETM-nin əməkdaşları 25 beynəlxalq və 15 respublika elmi konfransında (Macarıstan, Türkiyə, Qazaxıstan, Rusiya və Azərbaycanda) iştirak etmişlər.

2021-ci ildə ADPU-da pedaqoji kadr hazırlığında keyfiyyətin yüksəldilməsi ilə bağlı araşdırmanın aparılması Mərkəzin fəaliyyətində prioritet istiqamət olmuşdur. Bu məqsədlə ADPU-nun "Müasir təlim texnologiyalarının tətbiqinə əsaslanan yeni məzmunlu təhsil üzrə metodiki tədqiqatın aparılması, nəticələrə dair təkliflərin verilməsi və həyata keçirilməsi" adlı layihəsi Elm və Təhsil Nazirliyinin dəstəyi ilə icra olunmuşdur.

Layihə çərçivəsində beynəlxalq təcrübənin və yerli təcrübənin öyrənilməsi üçün Türkiyə universitetlərində (Hacəttəpə və İstanbul universitetlərində tarix, coğrafiya fənlərinə dair - onlayn) və ADPU-da Tarix və coğrafiya fakültəsində tədris üzrə mövcud vəziyyət təhlil edilmiş, ehtiyaclara dair nəticələr müəyyənləşdirilmiş, professor-müəllim heyəti üçün elmi-metodik seminar və təlimlər keçirilmişdir.

2021-ci il mayın 24-25-də Mərkəzin koordinatorluğu ilə Bakıda Türkiyənin İqtisadi İnkişaf və Sosial Araşdırmalar İnstitutu (İKSAD) ilə birgə ADPU-nun 100 illik yubileyinə həsr olunmuş "Elm və Təhsildə İnnovativ Texnologiyalar" III Beynəlxalq Simpoziumu keçirilmişdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2021-ci ilin oktyabr ayında elmi tədqiqatlar üçün elan etdiyi "Ali və orta ixtisas təhsilinin 2021-2022-ci illər üzrə inkişafı" qrant müsabiqəsinə ADPU tərəfindən təqdim olunmuş "Müasir təlim texnologiyalarına və beynəlxalq təcrübəyə əsaslanan yeni məzmunlu təhsilin Azərbaycan Dövlət Pedaqoji Universitetində tətbiqi" mövzusunda layihənin müstəqil bir istiqaməti ("Mentorluq fəaliyyətinin tətbiqi nəticəsində tədqiqata əsaslanan məzmunun həyata keçirilməsi") ETM tərəfindən hazırlanmışdır. 2021-ci ildə əməkdaşların 36 elmi və elmi-publisistik məqaləsi, 10 tezisi (müvafiq olaraq 23-ü və 7-si xaricdə - Türkiyə, Rusiya, Yaponiya, Fransa, ABŞ-da) nəşr edilmişdir.

Layihə çərçivəsində beynəlxalq təcrübənin və yerli praktikanın öyrənilməsi üçün Türkiyə universitetlərində (Hacəttəpə və Qazi universitetlərində filologiya ixtisasları üzrə pedaqoji kadr hazırlığına dair) və ADPU-da Filologiya fakültəsində tədris üzrə mövcud vəziyyət təhlil edilmiş, professor-müəllim heyəti üçün təlimlər keçirilmişdir. Layihənin yekunlarına əsasən metodik vəsait hazırlanmışdır.

2022-ci il mayın 24-də ETM-in koordinatorluğu ilə ADPU Şamaxı filialında Türkiyənin İqtisadi İnkişaf və Sosial Araşdırmalar İnstitutu (İKSAD) ilə birgə "Elm və Təhsildə İnnovativ Texnologiyalar" V Beynəlxalq Simpoziumu keçirilmişdir.

2022-ci ildə Mərkəz əməkdaşlarının apardıqları tədqiqatlara dair 5 kitab, 204 elmi, elmi-publisistik məqalə və 10 tezis Azərbaycan, Türkiyə, İspaniya, İtaliya, ABŞ, Kolumbiya, Qazaxıstan və Özbəkistanda nəşr edilmişdir. Həmçinin mərkəz əməkdaşları həmin ölkələrdə beynəlxalq 77 və respublika 19 elmi konfransında (cəmi 96) iştirak etmişlər.




**_2016_**

_Beynəlxalq səviyyəli:_

Humanist pedaqogika üzrə II beynəlxalq elmi konfrans

_Respublika səviyyəli:_

«31 Mart Azərbaycanlıların Soyqırımı Günü» mövzusunda elmi-nəzəri konfrans ;

"Sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası və adaptasiyası" mövzusunda elmi konfrans;

Dünya şöhrətli riyaziyyatçı, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi üzvü, Əməkdar elm xadimi, fizika-riyaziyyat elmləri doktoru, professor Məcid Rəsulovun 100 illik yubileyinə həsr olunmuş elmi konfrans (TN, AMEA, (BDU), ADPU) ;

İctimai xadim İsa Əli oğlu Məmmədovun 90 illik yubileyinə həsr olunmuş "Təhsildə psixoloji xidmət: reallıqlar,perspektivlər" elmi-praktik konfrans;

"I Türkoloji Qurultayın türk xalqlarının mədəni-mənəvi birliyinin yaradılmasında rolu" mövzusunda elmi konfrans;

_2017_

_Beynəlxalq səviyyəli:_

Azərbaycan-Türkiyə münasibətləri II Beynəlxalq elmi konfrans;

Şərqi və Qərbi Türk dünyasının ortaq tarixi dövrləri və münasibətləri beynəlxalq elmi konfrans;

Həmzə Nigari Türk Dünyası Mədəni İrsi III Beynəlxalq Simpozium;
Xarici dillərin tədrisinin müasir problemləri beynəlxalq elmi konfransı.

*Respublika səviyyəli:*

Heydər Əliyev və intellektual potensialın inkişaf dinamikası elmi-praktik konfrans;

Görkəmli ictimai xadim psixologiya elmləri doktoru İsa Əli oğlu Məmmədovun 90 illik yubileyinə həsr olunmuş "Təhsildə psixoloji xidmət: reallıqlar, perspektivlər" elmi-praktik konfrans;

"İslam həmrəyliyi elm və təhsildə:hədəflər və çağırışlar" elmi-praktik konfrans;

Ali məktəb müəllimlərinin I forumu;

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 94 illiyinə həsr olunmuş TEC– in 74-cü elmi konfrans;

Fənlərin tədrisi problemləri: reallıqlar və perspektivlər" elmi-praktik konfrans;

Molla Pənah Vaqif təsviri realizmin banisi kimi" elmi-praktik konfrans;

Əbdül Əlizadə: ənənəvi təhsildən təfəkkür məktəbinə" professor Əbdül Əlizadənin 85 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans;

"Kadr hazırlığına Sinergetik yanaşma" elmi konfrans.

*Universitet səviyyəli:*

"Mənəvi-əxlaqi dəyərlərin təhsilə tətbiqi" mövzusunda təlimlər;

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 94-cü ilinə həsr olunmuş "Dayanıqlı inkişaf və təhsil" mövzusunda seminar;

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ilə birlikdə: "İqtisadi islahatlar: nailiyyətlər və perspektivlər" mövzusunda seminar;

Professor Həsən Mirzəyevin 90 illik yubileyinə həsr olunmuş tədbir; və s.

*2018*

*Beynəlxalq səviyyəli:*

"Türkdilli ölkələrdə təhsil və sosial elmlər" IV Beynəlxalq Simpozium;

"Ailə insan mədəniyyətinin beşiyidir" mövzusunda Humanist Pedaqogika üzrə XVII Beynəlxalq oxu;

"Pedaqoji təhsilin ekolojiləşdirilməsi: dayanıqlı inkişaf mədəniyyətinin formalaşdırılması". Beynəlxalq elmi konfrans;

"İnnovasiya, təhsilin keyfiyyəti və inkişaf" IV Beynəlxalq elmi konfrans;

*Respublika səviyyəli:*

"Pedaqoji kadr hazırlığına sinergetik yanaşma" Respublika elmi-praktik konfrans;

"Yuxarı ellərdə səyyah bir dərviş: Yunis Əmrə" mövzusunda elmi konfrans;

"H.Əliyev və Azərbaycanda intellektual potensialın inkişaf dinamikası" Respublika elmi konfrans;

"Fənlərin tədrisi metodikası: müasir yanaşmalar" mövzusunda Magistrantların I Respublika elmi konfransı "Mir Cəlal-yazıçı, alim və müəllim" Respublika Elmi Konfrans;

"Mağjan Cumabay-125" elmi-praktik konfrans;

Doktorantların və gənc tədqiqatçıların XXII Respublika elmi konfrans;

"Müstəqilliyimiz daimidir, əbədidir və dönməzdir". Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100, ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileylərinə həsr olunmuş Tələbə Elmi Cəmiyyətinin 75-ci elmi konfransı.

*2019*

*Beynəlxalq səviyyəli:*

Afad Qurbanovun 90 illik yubileyinə həsr olunmuş "Müasir dilçiliyin aktual problemləri" Beynəlxalq elmi konfrans

*Respublika səviyyəli:*

Görkəmli dilçi-alim Əbdüləzəl Dəmirçizadənin anadan olmasının 110 illik yubileyinə həsr olunmuş "Azərbaycan dilçiliyi:reallıqlar,tələblər" Respublika elmi konfrans;
"Yeni texnologiyalar və tədris prosesinin idarə olunması" Magistrantların II Respublika elmi konfrans;
"H.Əliyev və Azərbaycanda intellektual potensialın davamlı inkişafı"Respublika elmi konfrans;
"Türkologiya: reallıqlar, problemlər,perspektivlər" Respublika elmi konfransı
Dahi Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyinə həsr olunmuş "Məndə siğar iki cahan..."Respublika elmi konfrans;

<u>2020</u>

*<u>Beynəlxalq səviyyəli:</u>*
"İnkluziv təhsil:reallıqlar, çağırışlar, perspektivlər" beynəlxalq elmi konfrans
*<u>Respublika səviyyəli:</u>*
"Yeni texnologiyalar və tədris prosesinin idarə olunması "Magistrantların III Respublika elmi konfransı. ( Konfrans materialları II cilddə cap edilib, I cild 433 s. II cild 390 s)
"Heydər Əliyev və Azərbaycanda intellektual potensialın inkişaf dinamikası" Respublika elmi konfrans.

<u>2021</u>

*<u>Beynəlxalq səviyyəli:</u>*
Elmdə və təhsildə innovativ texnologiyalar;
Nizami Gəncəvi: Dahilik zirvəsi;
Regionlarda ali təhsil: reallıqlar və perspektivlər- Quba filialı
*<u>Respublika səviyyəli:</u>*
Respublika Maarifçi-demokratik və realist ədəbiyyatın görkəmli nümayəndəsi - Əbdürrəhim bəy Haqverdiyev;
Magistrantların IV Respublika elmi konfransı Pedaqoji elmlərin nəzəriyyəsi və praktikasının aktual məsələləri: müasir yanaşma;
Müqəddəs amal fədaisi – Nəriman Nərimanov;
Qarabağ Azərbaycandır! Müharibədən Qələbəyə;
Heydər Əliyev: elm, təhsil və mədəniyyətin himayədarı;
COVİD-19 və təhsil: pedaqoji-psixoloji baxış;
Yaradıcılıq müasir pedaqoji fəaliyyətin əsas amili kimi;
Oktyabr Türkdilli xalqların elmi-mədəni əlaqələri müasir mərhələdə: tarixi ənənə və perspektivlər-Şamaxı filialı;
Fizika-riyaziyyat təhsili: reallıqlar, tələblər və perspektivlər;
Pedaqoji kadr hazırlığı: müasir yanaşmalar və trendlər.

<u>2022</u>

<u>Beynəlxalq *səviyyəli konfranslar:*</u>
Riyaziyyat və Mexanika İnstitutu, Azərbaycan Dövlət Pedaqoji Universitetinin təşkilatçılığı ilə Əməkdar elm xadimi, fizika-riyaziyyat elmləri doktoru, professor, akademik İbrahim İbrahimovun 110 illik yubileyinə həsr olunmuş "Riyaziyyat və mexanikanın müasir problemləri" mövzusunda beynəlxalq elmi konfrans;
ADPU və İKSAD-ın təşkilatçılığı ilə Burdur Mehmet Akif Ersoy Universitetində "Elm və təhsildə innovativ texnologiyalar" VI beynəlxalq elmi konfrans;
Taras Şevçenko adına Kiyev Milli Universitetinin və ADPU-nun təşkilatçılığı ilə Şəki filialında "XXXVII International Conference Problems of decision making under uncertainties" mövzusunda onlayn formatda beynəlxalq elmi konfrans;

ADPU və İKSAD-ın təşkilatçılığı ilə Əməkdar elm xadimi filologiya elmləri doktoru, professor Həsən Mirzəyevin 95 illiyi ilə əlaqədar "Müasir Azərbaycan dilinin aktual problemləri" beynəlxalq elmi konfrans;

Elm və Təhsildə İnnovativ Texnologiyalar. V Beynəlxalq konfrans
Regionlarda ali təhsil: reallıqlar, perspektivlər. II Beynəlxalq elmi konfrans

<u>Respublika *səviyyəli konfrans:*</u>
Təhsilin təşkili və idarə edilməsinin aktual məsələləri Magistrantların respublika elmi konfransı

"Heydər Əliyev: Elm və təhsilin himayədarı"

"Mirzə Ələkbər Sabir: tarixi yaddaş və müasirlik" - Şamaxı filialı
"Psixologiyanın aktual problemləri". Əməkdar elm xadimi, professor Əbdül Əlizadənin 90 illik yubileyinə həsr olunmuş

Müəllim hazırlığında İrəvan Müəllimlər Seminariyasının rolu İrəvan Müəllimlər Seminariyasının 140 illiyinə həsr olunmuş

"Hüseyn Cavid -Milli romantik poeziyanın banisi"




**ADPU-nun dövri-elmi nəşrləri**

ADPU-da nəşr edilən 6 adda dövri-elmi jurnal Azərbaycan Respublikasında məqalələrin dərc olunması tövsiyə edilən dövri-elmi nəşrlərin (müxtəlif elm sahələri üzrə) siyahısına daxildir. Həmçinin Azərbaycanda və xaricdə fəaliyyət göstərən ali təhsil müəssisələrində və elmi-tədqiqat institutlarında təhsil alan magistrantların fizika-riyaziyyat və texnika elmləri, təbiət elmləri, humanitar və ictimai elmlər, pedaqoji-psixoloji elmlər sahələrində aktual elmi tədqiqat işlərinin nəticələrini əks etdirən məqalələr isə "Magistrant" dövri-elmi jurnalında nəşr edilir. Dövri-elmi nəşrlər Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır. Dövri-elmi jurnallar ADPU-nun elmi

fəaliyyət istiqamətinə, yüksəkixtisaslı elmi kadr potensialına, mövcud elmi infrastrukturuna, elmi tədqiqat və mütəxəssis hazırlığı istiqamətinə uyğun olaraq hazırlanır. Jurnala təqdim olunan məqalələr rəyçilərin gizli rəyi əsasında (müsbət olduğu təqdirdə) redaksiya heyətinin qərarı ilə çapa tövsiyə olunur. Dövri-elmi jurnallarda məqalələrin tərtibi ilə bağlı Azərbaycan və ingilis dillərində yazı qaydaları verilir. Elmi məqalələrdə elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq müəllifin (yaxud müəlliflərin) elmi nəticəsi, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. öz əksini tapır.

**ADPU-nun dövri-elmi nəşrlərinin adları:**

- Pedaqoji Universitetin Xəbərləri. Riyaziyyat və təbiət elmləri seriyası
- Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmləri seriyası
- Linqvistika problemləri
- Tarix, insan və cəmiyyət
- Fizika, riyaziyyat və informatika tədrisi
- Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri
- MAGİSTRANT

Elmi-nəşrlərin illər üzrə göstəriciləri barədə EXCEL sənədi elektron formada hesabata əlavə olunur.

**QRANTLAR ƏSASINDA YERİNƏ YETİRİLƏN ELMİ-TƏDQİQAT İŞLƏRİ**

Beynəlxalq *qrantlar*

2017-2020 illər üzrə

✓Azərbaycan Universitetlərində öyrənmə və təlimin təkmilləşdirilməsi. Promoting Excellence in Teaching and Learning in Azerbaijani Universities (PETRA)

✓“Azərbaycan universitetlərində Keyfiyyət Təminatı mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi” Establishment and Development of Quality Assurance Centres in Azerbaijan*(EQAC)*

2021-2023 illər üzrə

✓“Rektorlar Konfransının yaradılması”Establishment of Rectors Conference in Azerbaijan (ECAR)

✓“Azərbaycan və Rusiya ali təhsil müəssisələrində tədris, təlim və qiymətləndirmə prosesinin daxili keyfiyyət təminatının təkmilləşdirilməsi.”Enhancement of internal quality assurance of education in teaching, learning and assessment in HEIs of Azerbaijan and Russia / IQAinAR

*Respublikadaxili qrantlar:*

2016-2017- ci illər üzrə

Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafi Fondunun 3-cü Şuşa Qrant müsabiqəsində “Ağdam rayonunun toponim və dialektlərinin toplanılması, elmi-linqvistik təhlili” adlı layihənin Qrant № EİF/MQM-3-Shusha-2014-7(22)-05/03/5.

2018- 2020-ci illər üzrə

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elan etdiyi “Elm-Təhsil İnteqrasiyası” məqsədli qrant müsabiqəsində 13 layihə ilə iştirak edən ADPU alimləri 5 qrant layihəsində qalib olmuşdur. Qalib qrant layihələrinin ümumi məbləği 235 min manat təşkil edir.

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun “Elm-təhsil İnteqrasiyası” məqsədli müsabiqəsinə (EİF/MQM/Elm-təhsil-1-2016-1(26)) 6 qrant layihəsi təqdim olunmuşdur:

13.01.2018-ci il tarixdə professor Mahirə Nağı qızı Hüseynovanın rəhbərliyi ilə "Türk dilləri dialektlərinin qarşılıqlı inteqrasiyası" mövzusunda №a20160111 layihəsi qalib olmuşdur

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun "Elm-təhsil İnteqrasiyası" məqsədli müsabiqəsinə (EİF/MQM/Elm-təhsil-1-2016-1(26)) 15 qrant layihəsi təqdim olunmuşdur və onlardan 5 layihə qalib olmuşdur:

2020- 2022-ci illər üzrə

Müasir təlim texnologiyalarına və beynəlxalq təcrübəyə əsaslanan yeni məzmunlu təhsilin Azərbaycan Dövlət Pedaqoji Universitetində tətbiqi" qrant layihəsi:

Layihənin ideyası :Tədqiqata əsaslanan İnformatika və STEAM fənlərinin yeni məzmunlu tədrisin və mentorluq fəaliyyətinin təşkili əsasında universitetin kadr potensialının inkişafını təkmilləşdirmək.

Layihənin təsviri:

Layihə üç bərabər əhəmiyyətli istiqamətdən ibarətdir:

- ✓ Təhsil müəssisələrində "İnformatikanın tədris metodikası" fənni üçün hibrid təhsil modellərinin və texnologiyalarının işlənməsi;
- ✓ Ümumi təhsil müəssisələrində STEAM fənninin tədrisinin təkmilləşdirilməsi;
- ✓ Mentorluq fəaliyyətinin tətbiqi nəticəsində tədqiqata əsaslanan məzmunun həyata keçirilməsi.

Layihə ERASMUS+ KA2:

Rektorlar Konfransının yaradılması (ECAR, 2021)

Layihənin məqsədi Azərbaycanda Rektorlar Konfransının yaradılması, 16 yerli ali təhsil müəssisəsinin tərəfdaş olduğu layihədir.

Azərbaycan və Rusiya universitetlərində tədris, öyrənmə və qiymətləndirmə sahəsində təhsilin daxili keyfiyyət təminatının gücləndirilməsi (İQAİNAR, 2021)

Layihənin məqsədi Azərbaycan və Rusiya universitetlərində yaradılmış daxili keyfiyyət təminatının gücləndirilməsidir.

Layihədə 4 yerli, 1 Niderland, 1 İspaniya, 1 Almaniya tərəfdaş universitetlər siyahısındadır. Layihənin koordinatoru Niderlandın Vittenborq Universitetidir.

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondundan maliyyələşmə**

ADPU-da Elmin İnkişaf Fondundan 2016-2022-ci illərdə ümumi məbləği 391.088 min manat olan 7 qrant layihəsi hesabına maliyyələşən elmi-tədqiqat işləri yerinə yetirilmişdir.

Universitetin Filologiya fakültəsinin hazırladığı "Pedaqoji kadr hazırlığında Avropa təhsil sisteminin araşdırılması və beynəlxalq təcrübəyə əsaslanan yeni məzmunlu təhsilin Azərbaycanda pedaqoji yönümlü universitet və kolleclərin filoloji fakültələrində tətbiqi" adlı layihə 2023-cü ilin fevral ayında Elmin İnkişaf Fondundan dəstəklənmişdir. İki il müddətinə icrası nəzərdə tutulan bu layihənin yaxın vaxtlarda icrası başalayacaqdır.

Universitetdə çalışan professor-müəllim heyətinin Google Scholar bazasında şəxsi profillərinin yaradılması məqsədilə maariflənmə aparılaraq, professor-müəllim heyətinin Google Scholar, Academia bazalarında şəxsi profillərin yaradılması, elmi məqalələrin müəlliflərinin identifikasiyası üçün beynəlxalq sistemdə, əməkdaşların daha öncə çap edilmiş, lakin internetdə olmayan məqalələrinin mövcud açıq akademik sistemlərdə yerləşdirilməsi üzrə işlər həyata keçirilmişdir. Qeyd edək ki, ADPU-da fəaliyyət göstərən 62 professor-müəllim heyətinin Google Scholar bazasında elmi məqalələrə istinad etmə sayı (illər üzrə) cəmi 3045-dır. Onlardan 17 nəfərin məqaləsinə istinad etmə H indeksi 5-dən yuxarı olan professor-müəllimdır. 23 nəfərin məqaləsinə

istinad etmə isə İ10 indeksi- dir. (İ10 indeksi müəllifin ən azı 10 istinad almış məqalələrinin sayına bərabərdir).




Universitetin əməkdaşları tərəfindən 2022-ci ildə xarici ölkə dövri nəşrlərində 442 (17-i impakt faktor göstəricili jurnallarda) olmaqla, 852 elmi məqalə, 359 tezis (xaricdə - 209), 38 monoqrafiya, 33 dərslik, 59 dərs vəsaiti, 177 proqram və metodik vəsait və s. Nəşr olunmuşdır.

ADPU-da 2022-ci ildə 6 Beynəlxalq və 6 Respublika səviyyəli elmi konfrans keçirilmişdir.



## Son 7 ildə elmi dərəcə və elmi ad almış professor-müəllim heyəti artım dinamikası




| | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|
| Müdafiə edilmiş dissertasiyaların sayı | 15 | 6 | 7 | 5 | 5 | 3 | 18 |
| Elmləri doktoru elmi dərəcəsi üzrə | 4 | 0 | 2 | 0 | 0 | 0 | 4 |
| Fəlsəfə doktoru elmi dərəcəsi üzrə | 11 | 6 | 5 | 5 | 5 | 3 | 14 |
| Elmi ad almış əməkdaşların sayı | 4 | 7 | 12 | 6 | 4 | 19 | 19 |
| Professor | 1 | 1 | 4 | 2 | 2 | 5 | 4 |
| Dosent | 3 | 6 | 8 | 4 | 2 | 14 | 15 |

## Son 7 ildə elmi dərəcə və elmi ad almış professor-müəllim heyəti

| **№** | **Ali təhsil müəssisəsinin əməkdaşları tərəfindən müdafiə edilmiş dissertasiyaların sayı** | | **Elmi adlar almış əməkdaşların sayı** | |
|---|---|---|---|---|
| FD2.15 | Elmlər doktoru elmi dərəcəsi üzrə | Fəlsəfə doktoru elmi dərəcəsi üzrə | Professor | Dosent |
| 2016 | 4 | 11 | 1 | 3 |
| 2017 | 0 | 6 | 1 | 6 |
| 2018 | 2 | 5 | 4 | 8 |
| 2019 | 0 | 5 | 2 | 4 |
| 2020 | 0 | 5 | 2 | 2 |
| 2021 | 0 | 3 | 5 | 14 |
| 2022 | 4 | 14 | 4 | 15 |
| **CƏMİ** | 10 | 49 | 19 | 52 |




| Akademik heyət üçün ümumi məlumat (2023) | | | | | | |
|---|---|---|---|---|---|---|
| № | Adı (sayı) | Professor-müəllim, elmi işçi | Elmlər doktoru | Fəlsəfə doktoru | Professor | Dosent |
| 1. | Kafedra (33) | 747 | 58 | 370 | 44 | 246 |
| 2. | ETM | 15 | 1 | 5 | 1 | 2 |
| | **CƏMİ** | **762** | **59** | **375** | **45** | **248** |



Son 7 il ərzində ADPU-nun müəllimləri tərəfindən 10 elmlər doktoru və 43 fəlsəfə doktoru dissertasiyası müdafiə edilmişdir. 19 professor, 45 dosent elmi adı alınmışdır.

| Elmi potensial haqqında ümumi məlumat (2022) | | | | | | |
|---|---|---|---|---|---|---|
| № | Adl (sayı) | Professor-müəllim, elmi işçi | Elmlər doktoru | Fəlsəfə doktoru | Professor | Dosent |
| 1. | Kafedra (33) | 747 | 53 | 348 | 43 | 223 |
| 2. | ETM | 15 | 1 | 5 | 1 | 2 |
| | **CƏMİ** | **762** | **54** | **353** | **44** | **225** |

## 4.4. Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti

Azərbaycan Respublikası Təhsil Nazirinin 26 dekabr 2016-cı il tarixli 852 nömrəli əmri ilə təsdiq edilmiş “Tədris vəsaitlərində plagiat hallarının qarşısının alınması sahəsində Tədbirlər Planı”nın icrası ilə əlaqədar 28.02.2017-ci il tarixində Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə “Plagiat.PL” MMC arasında bağlanmış müqavilə əsasında bütün magistr və doktorluq dissertasiyaları, ADPU-nun professor-müəllim heyətinin, həmçinin digər təhsil və elmi-tədqiqat müəssisələrinin də mütəxəssislərinin elmi-tədqiqat işlərinin orijinallığı Antiplagiat proqramı əsasında yoxlanır.

"PLAGİAT.PL MMC-nin Azərbaycan Respublikasındakı filialı Polşanın və Almaniyanın tərəfdaş universitetlərinin təcrübəsinə əsaslanan və dünyanın 20 ölkəsində, həmçinin Azərbaycanda, təhsilin keyfiyyətini daha da yaxşılaşdırmağa, elmi işlərdə akademik dürüstlüyün səviyyəsini artırmağa, plagiatı azaltmağa, müəllimlərin və tələbələrin plagiata görə məsuliyyətini artırmağa öz töhfəsini verən, akademik plagiata qarşı mübarizə aparan beynəlxalq Plagiat.PL MMC şirkətinin StrikePlagiarism.com antiplagiat sistemində elmi işlərin yoxlanılması həyata keçirilir. Beynəlxalq şirkət Azərbaycanda, Avropa İttifaqında və MDB ölkələrində liderdir və dünya üzrə 700-dən çox universitet bu şirkətin xidmətlərindən yararlanır.

**Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin tətbiqi vəziyyəti (yoxlanılmış işlərinin sayı)**

| № | Göstərici | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | CƏMİ |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Elmlər doktoru dissertasiyası | 10 | 32 | 7 | 20 | 55 | 74 | 2 | **200** |
| 2 | Fəlsəfə doktoru dissertasiyası | 5 | 18 | 26 | 116 | 387 | 301 | 12 | **865** |
| 3 | Dərslik, dərs vəsaiti, kitab | 0 | 5 | 28 | 48 | 75 | 109 | 8 | **273** |
| 4 | Magistr dissertasiyası | 395 | 364 | 421 | 523 | 735 | 776 | 2 | **3216** |
| 5 | Diplom işi | 0 | 6 | 0 | 1 | 0 | 646 | 0 | **653** |
| 6 | Məqalələr | 1 | 37 | 39 | 126 | 63 | 52 | 3 | **321** |
| 7 | Digərləri | 2 | 15 | 724 | 15 | 78 | 102 | 4 | **940** |
| | **CƏMİ** | **413** | **477** | **1245** | **849** | **1393** | **2060** | **31** | **6468** |




## Yoxlanmış işlərdə aşkarlanan Plagiatlıq göstəricisi illər üzrə

| № | Göstərici | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | CƏMİ |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Elmlər doktoru dissertasiyası | 1 | 14 | 2 | 6 | 28 | 36 | 1 | **88** |
| 2 | Fəlsəfə doktoru dissertasiyası | 3 | 6 | 7 | 40 | 164 | 129 | 7 | **356** |
| 3 | Dərslik, dərs vəsaiti, kitab | 0 | 3 | 14 | 32 | 41 | 57 | 1 | **148** |
| 4 | Magistr dissertasiyası | 126 | 247 | 7 | 155 | 315 | 303 | 1 | **1154** |
| 5 | Diplom işi | 0 | 3 | 0 | 0 | 0 | 207 | 0 | **210** |
| 6 | Məqalələr | 1 | 11 | 8 | 48 | 34 | 21 | 1 | **124** |
| 7 | Digərləri | 1 | 6 | 190 | 8 | 39 | 59 | 2 | **305** |
|  | **CƏMİ** | **132** | **290** | **228** | **289** | **621** | **812** | **13** | **2385** |




Belə ki, 2017-2023-cü illər ərzində 200 elmlər doktorluğu dissertasiyası, 865 fəlsəfə doktorluğu dissertasiyası, 273 kitab, dərslik və dərs vəsaitləri, 3216 magistr dissertasiyaları, 653 buraxılış işi, 321 məqalə və 940 fərqli adda elmi işlər olmaqla, ümumilikdə 6468 işin yoxlanılması həyata keçirilmişdir.

## 5. İDARƏETMƏ SİSTEMİ

### 5.1. İdarəetmə orqanları

1921-ci ildə yaranmış ADPU-nun 4 aprel 2008-ci ildə yenilənmiş nizamnaməsi ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində təhsil müəssisəsi kimi qeydiyyatdan (nömrəsi: 1108-A3-459) keçmişdir. Universitet sonuncu dəfə 2016-cı ildə akkreditasiyadan keçirilmiş və 7 iyun 2016-cı il tarixli 005 nömrəli sertifikatla 5 il müddətinə akkreditasiya olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 26 noyabr 2015-ci il tarixli Sərəncamı ilə Azərbaycan Müəllimlər İnstitutunun (AMİ) ADPU-ya qovuşması və onun filiallarının da ADPU-nun strukturuna çevrilməsi nəticəsində ADPU ölkədə pedaqoji kadr hazırlığı ilə məşğul olan vahid ixtisaslaşmış ali təhsil müəssisəsinə çevrilmişdir. Bununla yanaşı, Nazirlər Kabinetinin 3 fevral 2016-cı il tarixli qərarı ilə Bakı Sənaye-Pedaqoji Kolleci Azərbaycan Dövlət Pedaqoji Kollecinə (ADPK) birləşdirilməklə ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci kimi fəaliyyət göstərməyə başlayıb. Qeyd edək ki, dövlət başçımızın 2016-cı il 29 aprel tarixli Sərəncamı ilə ADPU-nun Qazax filialı Bakı Dövlət Universitetinə, Zaqatala filialı isə Azərbaycan Dövlət İqtisad Universitetinə verilib.

Azərbaycan Respublikası təhsil nazirinin 20 iyul 2016-cı il tarixli əmri ilə Bakı şəhərindəki Məmməd Rahim adına 7 nömrəli tam orta məktəb 2016-2017-ci tədris ilindən etibarən ADPU-nun baza məktəbi kimi müəyyən olunub. Bu əmrin verilməsi ölkəmizdə ardıcıl şəkildə həyata keçirilən təhsil islahatlarının, eləcə də yüksəkixtisaslı pedaqoji kadrların hazırlanması prosesinin tərkib hissəsidir və nəticə etibarilə təhsilin keyfiyyətinin yaxşılaşmasına xidmət etmişdir.

Azərbaycan Respunlikası Nazirlər Kabinetinin "Azərbaycan Dövlət Pedaqoji Univesitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi barədə" 12.08.2022 ci il tarixli 302 № li Qərarına əsasən çevrilmə yolu ilə yenidən təşkil olunmuş və Azərbaycan Dövlət Pedaqoji Universiteti Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olmuş və yeni nizamnaməsi (https://e-qanun.az/framework/51178 ) təsdiq edilmişdir. Qısa müddətdə bütün lazımi rəsmiləşdirmələr həyata keçirilmiş və universitetin publik hüquqi şəxs olaraq fəaliyyəti təmin edilmişdir. ADPU-nun strukturu üçün https://adpu.edu.az/index.php/az/universitet/i%CC%87dar%C9%99etm%C9%99 baxa bilərsiz.

Azərbaycan Respublikası Prezidentinin 23 iyun 2016-cı il tarixli Sərəncamı ilə Cəfər Cəfərov ADPU-ya rektor təyin edilmişdir.

Hazırda ADPU publik hüquqi şəxs olaraq Bakıda beş tədris binasında təhsil verməklə bərabər, ölkənin 5 müxtəlif regionunda universitetin Şəki, Quba, Ağcabədi, Cəlilabad və Şamaxı filialları fəaliyyət göstərir. Həmçinin Bakıda iki korpusda ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci subbakalavr təhsil xidməti göstərməkdədir.

ADPU-da ali idarəetmə orqanı Elmi Şuradır. Elmi Şuranın yaradılması, səlahiyyətləri və fəaliyyətinin təşkili qaydası Elm və Təhsil Nazirliyinin 1997-ci il 10 oktyabr tarixli 792 nömrəli əmri ilə təsdiqlənmiş "Ali təhsil müəssisələrinin Elmi Şuraları haqqında Əsasnamə"yə müvafiq olaraq müəyyən olunur. ADPU-nun Elmi Şurası Azərbaycan Respublikası Təhsil Nazirliyinin 28 fevral 2020-ci il tarixli F-143 nömrəli əmri ilə təsdiq edilmiş və qaydalara görə üç illik müddət cari ilin fevral ayının sonunda tamamlanacaqdır. Ona görə də müvafiq əsasnaməyə uyğun olaraq ADPU Elmi Şurasının yeni tərkibi formalaşdırılıb təsdiq üçün Elm və Təhsil Nazirliyinə təqdim olunacaqdır.

Hazırda qüvvədə olan Elmi Şuranın tərkibi tutduğu vəzifəyə görə 24, seçki yolu ilə 33 və rektorun təqdimatı ilə 5 nəfər olmaqla, cəmi 62 nəfərdən ibarətdir. Qaydalara görə tərkibdə universitetin müvafiq struktur rəhbərləri və professor-müəllim heyətinin təmsilçiləri ilə yanaşı, ictimai təşkilatların (Həmkarlar İttifaqları Komitəsinin, Tələbə Həmkarlar İttifaqı Komitəsinin və Tələbə-Gənclər Təşkilatının rəhbərləri) təmsilçiləri də yer

almaqdadır. Elmi Şura tədris ili üzrə təsdiq edilmiş illik iş planı əsasında ayda bir dəfə iclaslarını keçirir və müvafiq qərarlar verir. Elmi Şura öz işini əsasnaməsi əsasında qurur və onun qərarları rektorun əmri ilə icraya yönəldilir. Spesfik məsələlər öncə Tədris-Metodiki Şurada, Elm Komissiyasında və Maliyyə Komissiyasında kollegial qaydada müzakirə edilərək Elmi Şuraya çıxarılır. Müvafiq Şura və komissiyalara həmin sahəyə məsul prorektor rəhbərlik edir. Tədris-Metodiki Şura, Elmi Şura nəzdində Elm və Maliyyə komissiyaları zərurət olduqda toplanır və qərarları kollegial qəbul edir və protokollaşdırılır. Elmi Şuranın bütün iclas sənədləri müvafiq olaraq Elmi katiblikdə, şura və komissiya katibliklərində saxlanılır.

ADPU-nun yeni nizamnaməsinə görə strateji inkişaf məsələləri üzrə idarəetmə orqanı ictimai əsaslarla fəaliyyət göstərən Himayəçilər Şurasının yaradılması nəzərdə tutulub. Himayəçilər Şurasının tərkibini azı 3 (üç) nəfər olmaqla, Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq ediləcəkdir. Himayəçilər Şurasının yaradılması, səlahiyyətləri və fəaliyyətinin təşkili qaydası Nazirliyin təsdiq etdiyi nümunəvi əsasnamə və ADPU Nizamnaməsi ilə müəyyən olunur. Himayəçilər Şurasının yaradılması üzrə işlər davam etdirilir. Yaxın vaxtlarda Himayəçilər Şurasının üzvlərinin Elm və Təhsil Nazirliyi tərəfindən təyin olunması gözlənilir. Tərkibdə işəgötürənlərin və ictimaiyyət nümayənlərinin də olması nəzərdə tutulur.

ADPU-nun Tədris-Metodiki Şurası tədris-tərbiyə prosesinin keyfiyyətini və onun elmi-metodiki təminatını yüksəltməyə xidmət edən istiqamətverici-məsləhət orqanıdır. Tədris-Metodiki Şura ADPU rektorunun əmri ilə yaradılır. Onun tərkibinə kadr hazırlığı həyata keçirilən ixtisasların aparıcı mütəxəssisləri, bəzi kafedra müdirləri, elmi-metodiki strukturların rəhbərləri, müəyyən pedaqoji və elmi-metodiki iş təcrübəsinə malik olan yüksəkixtisaslı müəllim və mütəxəssislər daxildir. Tədris-Metodiki Şuraya bir qayda olaraq tədris işləri üzrə prorektor rəhbərlik edir. Tədris-Metodiki Şura öz işini əsasnaməsi və illik iş planı əsasında təşkil edir. Tədris-Metodiki Şuranın 53 üzvündən 13-ü elmlər doktoru, professor, qalanları isə fəlsəfə doktoru, dosentdir.

ADPU-da fakültələrdə də müvafiq olaraq Elmi Şuralar və Tədris-Metodiki Şuralar fəaliyyət göstərir. ADPU-nun çoxminlik kollektivə malik olmasını, şəffaflığı və kollegiallığı təmin etmək üçün Ağsaqqallar Şurası, Daxili fəaliyyət qaydalarına riayət olunmasını təmin etmək üçün intizam işlərinə baxan İntizam Komissiyası, tədris-yardımçı heyətin işə qəbulunu həyata keçirən Müsabiqə Komissiyası, tədris prosesində, o cümlədən imtahan sessiyası zamanı universitetdən kənar ictimai nəzarəti həyata keçən İctimai Nəzarət Şurası, elmi adların verilməsi, xarici elmi konfranslara ezam olunma və sair elmi məsələlərdə qərarlar verən Elm Komissiyası, işçilərin attestasiyasına məsul olan Attestasiya Komissiyası, satınalmalarla bağlı məsələləri müzakirə edən Tender Komissiyası və s. bu kimi ictimai qurumlar fəaliyyət göstərir.

Bütün bu qurumlar rektorun əmri ilə təsis edilmiş, kollegial fəaliyyət göstərən, iclasları protokollaşdırılan, qərarları rektor və Elmi Şura üçün tövsiyə xarakteri daşıyan qurumlardır. Bütün qurumların qərarları maraqlı tərəflərə göndərilir.

İdarəetmə orqanlarının səlahiyyət və vəzifə bölgüsü ADPU Nizamnaməsi, daxili əsasnamələr, struktur sxemi və iş öhdəlikləri ilə müəyyən olunub. Onların fəaliyyəti, gündəliyin təsdiqi, qərarların verilməsi reqlamenti və s., məsələlər daxili əsasnamələri ilə müəyyən edilmişdir.

## 5.2. İnsan resurslarının idarə edilməsi

2015-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun ADPU-ya qoşulması ilə əlaqədar iki pedaqoji ali təhsil müəssisəsinin birləşməsi insan resursları sahəsində ciddi addımların atılmasına səbəb olmuşdur. Xüsusilə yüz illik Pedaqoji Universitetin müasir dövrün tələblərinə uyğunlaşdırılması sözsüz ki, ciddi sual doğururdu. Professor-müəllim heyətinin yaş ortalaması çox yuxarı idi, birləşmə nəticəsində bəzi inzibati və akademik strukturlarda şişmələr vardı. Sosial ədalət prinsipinə görə birləşmə nəticəsində bütün şəxslər işlə təmin olunsa da, ciddi attestasiya prosesi aparılmış, qanunvericiliyin tələblərinə əsasən tələblərə uyğun olmayan şəxslərlə müqavilələrə xitam verilmişdir.

Belə ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Müəllimlər İnstitutunun Azərbaycan Dövlət Pedaqoji Universitetinə qoşulması barədə" 26 noyabr 2015-ci il tarixli 1582 №-li Sərəncamının icrası ilə əlaqədar universitetdə bir sıra tədbirlər həyata keçirilmişdir.

2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetində 11 fakültə, 45 kafedra olmaqla, 1800 ştat mövcud idi. Onlardan 694 nəfər professor-müəllim heyəti, 908 nəfər inzibati işçi, o cümlədən 69 nəfər kitabxanaçı, 207 nəfər laborant və böyük laborant idi.

ADPU-nun 11 iyul 2016-cı il tarixli Elmi Şurasının qərarı ilə universitetin yeni strukturu və ştat cədvəli təsdiq olunmuşdur. Qeyd olunan vaxta qədər ADPU-da mövcud olan ştat cədvəlinə müəyyən dəyişiklik edilsə də, keçən dövr ərzində əsaslı islahatlar, attestasiyalar və müsabiqələr həyata keçirilmişdir. Rasionallaşdırma və optimallaşdırma sayəsində universitetdəki 11 fakültə 8 fakültəyə, 45 kafedra isə 33 kafedraya endirilmişdir.

"ADPU-nun daxili fəaliyyət qaydaları"na əsasən idarəetmə və tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə bir sıra islahatlar həyata keçirilmişdir. Əvvəlki ştat cədvəlində 69 nəfər kitabxanaçı ştatı 30 ştata, kafedralarda fəaliyyət göstərən 207 laborant və böyük laborant ştatı isə 114 nəfərə endirilmişdir.

AMİ-nin ADPU-ya qoşulması ilə əlaqədar 96 nəfər professor-müəllim heyəti, 76 nəfər tədris-köməkçi heyət və 40 nəfər Xidmət şöbəsində, bütövlükdə 212 nəfər işçi mövcud qanunvericiliyə uyğun olaraq ADPU-da işlə təmin edilmişdir.

Hazırda ADPU-nun yeni strukturunda 1643 ştat mövcud və onlardan faktiki işləyənlərin sayı 1389 nəfərdir. Onlardan 115 nəfəri inzibati idarəetmə, 599 nəfəri tədris-köməkçi, 675 nəfəri professor-müəllim (73 nəfər daxili, 46 nəfər kənar əvəzçi) heyətidir.

**Əməkdaşlarının illər üzrə statistikası**



| Tədris illəri | Cəmi (professor-müəllim, inzibati və texniki yardımçı heyət) |
|---|---|
| 2016/2017 | 1502 |
| 2017/2018 | 1380 |
| 2018/2019 | 1525 |
| 2019/2020 | 1371 |
| 2020/2021 | 1349 |
| 2021/2022 | 1373 |
| 2022/2023 | 1389 |

2016/2022-ci illər ərzində ADPU-da ştatda olan professor-müəllim heyətinin tərkibi aşağıdakı sayda olmuşdur.




| Tədris illəri | Cəmi |
|---|---|
| 2016-2017 | 747 |
| 2017-2018 | 720 |
| 2018–2019 | 741 |
| 2019-2020 | 757 |
| 2020-2021 | 791 |
| 2021-2022 | 742 |
| 2022-2023 | 748 |

**Elmi ad və elmi dərəcəsi olan işçilərin sayı (əvəzçilər daxil)**




Görülən tədbirlər çərçivəsində universitet və filial əməkdaşlarının diplomlarının qanunverciliyə uyğun olması nəzərdən keçirilmişdir. Bununla əlaqədar olaraq, universitetin Şəki, Ağcabədi, Şamaxı, Cəlilabad və Quba filiallarının əməkdaşlarının ali təhsilli olmalarını təsdiq edən diplomlarının qanunvericiliyə uyğun olub-olmamasının yoxlanılması üçün universitet tərəfindən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə və Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasına müraciət edilmişdir. DİM-dən göndərilən məlumatda müəyyən olunmuşdur ki, 27 nəfər ümumiyyətlə imtahanda iştirak etmədən diplom əldə etmişdir. Həmin əməkdaşlar barəsində tədbir görülməsi üçün filiallara müvafiq xəbərdarlıq göndərilmiş və müvafiq tədbirlər görülmüşdür.

Tədrisin keyfiyyətinin yüksəldilməsi və müasir standartlara uyğunlaşdırlması üçün müəllimlərin işə qəbulu yeni prosedurla – müsabiqə yolu ilə həyata keçirilir. Yeni qaydalarda əsas məqsəd professor-müəllim heyətinin tədris və elmi fəaliyyətini gücləndirmək, ədalətli rəqabət mühiti yaratmaqdır. Müsabiqə barədə ilk elan 4 mart 2017-ci il tarixdə "Azərbaycan müəllimi" və "Xalq" qəzetlərində, eyni zamanda ADPU-nun saytında yerləşdirilmişdir.

2017-ci ildə keçirilmiş müsabiqədə sənəd qəbulu zamanı 114 yerə 500 nəfərin sənədi qəbul edilmişdir. Nəticədə müsabiqəyə çıxarılan 114 yerdən 112-də müsabiqə baş tutmuş və müvafiq əmrlər verilmişdir.

2018-ci ildə keçirilmiş müsabiqədə elan verilmiş 135 vəzifəyə 403 nəfərin sənədi qəbul edilmişdir. Qəbul edilən ümumi sənədlərdən 27 nəfərin sənədi kafedra müdirləri tərəfindən iddia etdikləri yerə uyğun hesab edilməmiş və geri qaytarılmışdır. Nəticədə 376 nəfər müsabiqəyə buraxılmışdır. Onlardan 114 nəfəri müsabiqədə qalib gələrək müvafiq vəzifələrə təyin olunmuşlar.

29 mart 2019-cu il tarixində "Azərbaycan müəllimi" qəzetində 200 vakant professor-müəllim yerinə elan verilmiş və eyni zamanda ADPU-nun saytında məlumat yerləşdirilmişdir. 251 namizəd öz sənədlərini İnsan resursları şöbəsinə təqdim etmişdir.

24 şəxsin sənədləri iddia etdikləri vəzifələrə uyğun olmadığı üçün qəbul edilməmişdir. Nəticədə 8 fakültə və 32 kafedrada 194 yer üzrə, ümumilikdə 361 nəfər namizədin sənədləri qəbul edilmişdir. 187 nəfər müsabiqədən keçərək müvafiq vəzifələrə təyin edilmişlər.

Azərbaycan Respublikası Təhsil Nazirinin 09 mart 2011-ci il tarixli 400 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması qaydaları"nı rəhbər tutaraq "Xalq" və "Azərbaycan müəllimi" qəzetlərində fakültə dekanı və kafedra müdiri vəzifələri üzrə müsabiqələr keçirilmişdir. 2017-ci ildə 4 fakültə dekanı, 14 kafedra müdiri müsabiqə yolu ilə müvafiq vəzifələrə seçilərək təyin olunmuşlar.

14 dekabr 2018-ci ildə verilən növbəti elana əsasən 6 kafedra üzrə 15 nəfər namizəd ərizə vermişdir. Onlardan 3 nəfər iddiaçı ərizələrini geri götürmüşlər. 12 nəfər

iddiaçı müsabiqəyə buraxılmışdır. Onlardan 6 nəfər müvafiq kafedralara seçilərək müdir təyin edilmişlər.

06 sentyabr 2019-cu il tarixdə "Azərbaycan müəllimi" qəzeti və universitetin rəsmi saytında ADPU-da vakant olan dekan və kafedra müdiri vəzifələrini tutmaq üçün müsabiqə elan edilmişdir. Həmin elana əsasən 06 sentyabr - 06 oktyabr 2019-cu il tarixlərdə İnsan resursları şöbəsi tərəfindən iddiaçıların sənədləri qəbul edilmişdir.

Müsabiqənin növbəti mərhələsində kafedralar üzrə iclaslar keçirilmiş, fakültə elmi şurasında rəylər verilmişdir. Bir nəfər müsabiqədə iştirak etməkdən imtina edərək sənədlərini geri götürmüşdür. Fakültə elmi şurasının qərarına əsasən dekanlar və kafedra müdirləri seçilmişdir.

Universitetdə kadrların gəncləşdirilməsi məqsədilə ADPU-nu fərqlənmə ilə bitirmiş magistr, doktorant, dissertantlar və eyni zamanda xaricdə təhsil almış peşəkar gənclərin işə cəlb olunması nəzərdə tutulmuşdur.

ADPU-da idarəetmə strukturunun optimallaşdırılması və insan resurslarının idarə olunmasında obyektivliyin və şəffaflığın təmin edilməsi üçün Müsabiqə Komissiyası yaradılmışdır.

Komissiya ADPU-da yüksək ixtisaslı kadr potensialının təmin edilməsi, mövcud və gələcəkdə ehtiyac duyulacaq ixtisaslı mütəxəssislərin cəlb edilməsi və o cümlədən vakant vəzifələr üzrə müsabiqələrin təşkilini təmin etmək məqsədilə müsabiqə elan edilmişdir. İnzibati vəzifələr üzrə müsabiqə barədə ilk elan 9 oktyabr 2017-ci il tarixdə ADPU-nun saytında məlumat yerləşdirilmişdir. Vakant vəzifələrin tutulması üçün verilmiş elanlara əsasən İnsan resursları tərəfindən ümumilikdə 281 nəfər namizədin sənədi qəbul edilmişdir. Onlardan 64 nəfəri müxtəlif vəzifələrə seçilərək işlə təmin edilmişlər. İşlə təmin olunan 64 nəfərin 44 nəfəri ADPU-nun məzunlarıdır. Məhz bu cür işçilərin sayəsində ADPU-nun kadr kontingentinin peşəkarlıq qabiliyyətini yaxşılaşdırmaq, idarəetmə sistemini təkmilləşdirmək, tədrisin keyfiyyətini yüksəltmək, müasirləşdirmək və bütövlükdə universitetin hərtərəfli inkişafına yönələn tədbirləri davam etdirmək nəzərdə tutulmuşdur.

2016/2022-ci illər üzrə ADPU-nun professor-müəllim və tədris köməkçi heyətinin (laborant, böyük laborant, tədris laboratoriya müdiri, tədris ustası, tyutor və fakültə operatorları) yaş tərkibi aşağıdakı şəkildə olmuşdur.

**Professor-müəllim heyətinin yaş tərkibi**

| İllər | 30 yaşa kimi | 31 – 40 yaş arası | 41-50 yaş arası | 51-60 yaş arası | 61-70 yaş arası | 70 yaşdan yuxarı | Professor – müəllim heyətinin sayı |
|---|---|---|---|---|---|---|---|
| **2016** | 17 | 107 | 135 | 175 | 173 | 140 | **747** |
| **2017** | 15 | 107 | 134 | 172 | 184 | 108 | **720** |
| **2018** | 23 | 111 | 129 | 177 | 191 | 110 | **741** |
| **2019** | 26 | 119 | 117 | 185 | 188 | 122 | **757** |
| **2020** | 30 | 119 | 132 | 192 | 196 | 122 | **791** |
| **2021** | 29 | 113 | 133 | 170 | 181 | 116 | **742** |
| **2022** | 31 | 138 | 146 | 158 | 184 | 91 | **748** |

**Tədris köməkçi heyətinin yaş tərkibi**

| İllər | 30 yaşa kimi | 31 – 40 yaş arası | 41-50 yaş arası | 51-60 yaş arası | 61-70 yaş arası | 70 yaşdan yuxarı | Tədris-köməkçi heyətinin sayı |
|---|---|---|---|---|---|---|---|
| **2016** | 55 | 96 | 50 | 42 | 34 | 19 | **296** |
| **2017** | 37 | 60 | 29 | 32 | 22 | 13 | **193** |
| **2018** | 53 | 82 | 22 | 23 | 17 | 11 | **208** |
| **2019** | 54 | 79 | 19 | 17 | 12 | 10 | **191** |
| **2020** | 56 | 80 | 32 | 20 | 17 | 7 | **212** |
| **2021** | 55 | 86 | 33 | 25 | 18 | 4 | **221** |
| **2022** | 60 | 103 | 21 | 22 | 15 | 3 | **224** |

Ali təhsil müəssisələrinin yeni maliyyələşdirmə mexanizminə, Elm və Təhsil Nazirliyinin elmi-tədqiqat laboratoriyalarının (ETL) maliyyələşdirilməsinin yeni formasına keçməsi ilə əlaqədar olaraq 37 nəfər əməkdaşın çalışdığı 7 ETL-nin bazasında, Elm və Təhsil Nazirliyinin 26 fevral 2019 cu il tarixli razılıq məktubuna, ADPU Elmi Şurasının 6 mart 2019-cu il tarixli qərarına uyğun olaraq 19 ştatdan ibarət olan ADPU-nun Elmi Tədqiqat Mərkəzi yaradılmışdır. İlk növbədə ETL əməkdaşları arasında bu mərkəzin komplektləşdirilməsi üzrə müsabiqə aparılmışdır.

Həmçinin Elmi Şuranın 09 iyul 2019-cu il tarixli qərarına əsasən bəzi fakültə və kafedraların adları dəyişdirilmişdir.

Universitetin professor-müəllim heyətinin müasir dövrün tələbinə uyğun motivasiya sisteminin qurulması üçün Reytinq qiymətləndirmə sistemi yaradılmış, hər il reytinq qiymətləndirməsi aparılmış və ən yaxşı nəticə toplamış 100 nəfər ADPU müəllimlərinin aylıq əməkhaqqına 100 manat əlavə hesablanmasına qərar verilmişdir.

Həmçinin ADPU-nun müəllimlərinin bacarıqlarının artırılması istiqamətində universitet bir çox layihələr həyata keçirmiş və bu iş hazırda da davam etməkdədir. Belə ki, Azərbaycan Dövlət Pedaqoji Universitetində və onun Şəki filialında tədris fəaliyyəti ilə məşğul olan ingilis dili müəllimlərinin Azərbyacan Müəllim İnkişafı Mərkəzi ilə razılaşdırılmış qaydada 2018-ci ilin əvvəllərindən etibarən əvvəlcə ingilis dilindən səviyyə müəyyən etmə testindən, sonra isə test nəticələrinə uyğun olaraq B2 və ya B1 səviyyələrindən yüksək nəticə toplamış 40 nəfər ADPU müəllimінə və 20 nəfər Şəki filialından olan müəllimlərə Kembric Müəllim Bilik Test (TKT) üzrə Modul 1 üzrə təlimlərin və sonda imtahanların keçirilməsi təmin olunmuşdur.

Xarici dillər mərkəzinin 55 müəllimi yaxşı nəticələr toplayaraq müxtəlif səviyyələr üzrə yeni TKT serifikatına layiq görülmüşlər.




ADPU-da çalışan əməkdaşların əmək hüquqlarının qorunması, əmək intizamına riayət etməsi istiqamətində də işlər davam etdirilməkdədir.

Azərbaycan Respublikası Prezidentinin 17 aprel 2021- ci il tarixli "ADPU-nun 100 illik yubileyinin keçirilməsi ilə bağlı" Sərəncamına əsasən (https://president.az/az/articles/view/54653 ) universitetdə bu istiqamətdə tədbirlər planı hazırlanmışdır. Prezidentin müvafiq Sərəncamına əsasən ADPU-nun rektoru, tarix elmləri doktoru professor Cəfər Məmməd oğlu Cəfərov "Şöhrət" ordeni ilə təltif edilmişdir. Rektorun müvafiq təqdimatına əsasən 53 nəfər (1 nəfər Prezidentin Fərdi təqaüdü, 6 nəfər 3-cü dərəcəli "Əmək" ordeni, 17 nəfər "Tərəqqi" medalı, 4 nəfər "Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu" və 24 nəfər "Əməkdar müəllim") Azərbaycan Respublikasının Prezidenti tərəfindən təltif edilmişdir.

Həmçinin təhsil nazirinin 29 dekabr 2021-ci il tarixli № K-1535 nömrəli əmrinə əsasən universitet əməkdaşlarından 166 nəfər (87 nəfər "Azərbaycan Respublikası Qabaqcıl təhsil işçisi" döş nişanı ilə, 79 nəfər "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Fəxri Fərmanı" ilə) təltif edilmişlər.

2020-2021-ci illər koronavirus (Covid-19) pandemiyasının qarşısının alınması ilə bağlı Azərbaycan Respublikası ərazisində xüsusi karantin dövründə Elm və Təhsil Nazirliyinin 03-11-1077/15 nömrəli 23 sentyabr 2020-ci il tarixli məktubuna əsasən seçki keçirilmədiyi üçün əmək müqaviləsi müddəti bitmiş professor-müəllim heyətinin müqaviləsi 1 illik uzadılmışdır.

2022-ci ildə vakant olan professor-müəllim heyəti və inzibati işçilərin müsabiqəsi elan olunmuşdur. Professor-müəllim heyətinin seçkisində ümumilikdə 440 nəfər iştirak etmişdir. Onlardan 85 nəfəri kənar, 355 nəfər isə universitetin əməkdaşlarıdır. 364 nəfər iddiaçı müsabiqədən keçmişdir. 175 nəfərlə 5 illik, 189 nəfərlə 1 illik müqavilələr imzalanmış, Əmək və Məşğulluq alt sisteminə daxil edilmişdir.

Bundan əlavə cari ildə inzibati vəzifələr üzrə də müsabiqə keçirilmişdir. 131 nəfər namizəd müsabiqədə iştirak etmiş, 48 nəfəri ADPU-da işlə təmin edilmişdir. Onlardan 35 nəfəri ADPU-nun məzunlarıdır. Ümumilikdə 2017-ci ildən hal-hazıradək ADPU-nun 166 nəfər məzunu universitetdə işlə təmin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Gender (kişi və qadınların) bərabərliyinin təminatları" ilə bağlı 7 may 2008-ci il tarixli Sərəncamı olmuşdur. Hal-hazırda ADPU-da ümumi işçilərin 75,5%-ni qadınlar təşkil edir. 2016-ci il ilə müqayisədə ADPU-da hal-hazırda struktur rəhbərlərindən 44 nəfəri qadındır (36 nəfəri 2016-cı ildən sonra təyin olunub).

İşə qəbul zamanı 44 günlük Vətən müharibəsində iştirak edib şəhid və qazi olan vətəndaşlarımızın ailə üzvlərindən müraciət edən 5 nəfər işlə təmin olunmuş və daim diqqət mərkəzində saxlanılır.

Universitetdə əməkdaşları maddi və mənəvi motivasiyasının yüksəldilməsi məqsədilə fəxri fərman və pul mükafatları ilə rəğbətləndirilir.

**2017/2022-ci illər üzrə pul mükafatı alan işçilərin sayı**




**2017/2022-ci illər üzrə fəxri fərman və təşəkkürnamə alan işçilərin sayı**



Həmçinin 2022-ci ildə dekan və kafedra müdirlərinin seçkisi keçirilmişdir. Hazırda kafedra müdiri seçkisi üzrə müsabiqə ("Xalq" qazetinin 19 yanvar və 1 fevral 2023 nömrələrində elan çap olunub) davam edir.

### 5.3. Maliyyə resurslarının idarə edilməsi

Müasir dövrdə hansı sahədə fəaliyyət göstərməsindən asılı olmayaraq, hər bir təşkilatın əsas vəzifələrindən biri dayanıqlı maliyyə tədbirlərinin həyata keçirilməsi ilə ölkənin indiki inkişaf şəraitində düzgün strategiyalarla inkişafa nail olunmasıdır.

ADPU-nun gəlirləri müxtəlif istiqamətlərdən formalaşır. ADPU-nun maliyyələşməsinin əsasını dövlət büdcəsi vəsaiti, ödənişli təhsildən gələn gəlirlər və büdcədənkənar daxilolmalar formalaşdırır. Dövlət sifarişli təhsil alan tələbələr üçün dövlət büdcəsindən ayrılan vəsaitlərə əmək haqqı, dövlət sosial ayırmaları və tələbələrə verilən təqaüdlər aiddir. Digər gəlirlərə, yəni büdcədənkənar daxilolmalara ödənişli təhsil, təlimlərdən daxil olan ödəmələr, plagiatdan ödənişlər, kredit borclarından daxilolmalar, ADPU-nun yeməkxanasından daxil olan icarə haqqı, yataqxana xidmətindən daxil olan vəsaitlər aiddir. ADPU-nun işçilərinin əməkhaqqının minimum miqdarı Azərbaycan Respublikasının qanunvericiliyi ilə təmin edilir. Büdcədənkənar mənbələrdən əldə edilən vəsait yalnız təhsilin inkişafına, müəssisənin maddi-texniki bazasının inkişafına, təhsilalan və təhsilverənlərin sosial müdafiəsinə yönəldilir.

Maliyyə resursları qısamüddətli dövr üçün planlaşdırılır. Hər il üçün yeni xərc maddələri üzrə smeta tərtib edilir və Nazirliyə təqdim olunur. Xərc maddələri üzrə məbləğlər əvvəlki illərlə müqayisə olunur, xərclər proqnozlaşdırılır. Cari il üçün hər hansı xərc maddəsi üzrə əlavə vəsaitə ehtiyac olarsa, çatışmayan məbləğ üçün dürüstləşmə verilir.




Göstərilən diaqramın nəticəsi olaraq qeyd etmək olar ki, universitetin maliyyə resurslarının rasional istifadəsinə xüsusi diqqət yetirilir. Gəlirin təxminən 15-20 % növbəti ilə keçir və bu da öz növbəsində müəyyən dövrlərdə (pandemiya və qapanma) universitetin maliyyə dayanıqlığını saxlamağa imkan verir.




Maliyyə resursları planlaşdırılarkən Strateji inkişaf planına (SİP) olan uyğunluq nəzərə alınır. SİP-da göstərildiyi kimi, ADPU-da əməkdaşların maddi motivasiyasının yaxşılaşdırılması məqsədilə səriştə və nəticə əsaslı diferensiallaşdırılmış rəqabətqabiliyyətli əməkhaqqı və müxtəlif stimullaşdırıcı paketlər sisteminin yaradılması üçün əməkdaşların və professor-müəllim heyətinin illik fəaliyyətinin Reytinq Qiymətləndirilməsi ilə bağlı qaydalara əsasən, əməkhaqqına əlavələrin, maddi yardım və mükafatların verilməsi mümkündür. ADPU-nun gəlirlərinin artırılması haqqında strategiyaya əsasən, ödənişli təhsil haqqı gəlirlərindən əlavə olaraq, təlim kurslarından və digər xidmətlərdən (plagiat, yataqxana, yeməkxana, mətbəə və s.) olan gəlirlərin artırılmasının mümkünlüyü qarşımızda duran vacib məsələlərdən biridir.




| | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| Gəlir | 3,930.00 ₼ | 6,986.00 ₼ | 11,804.00 ₼ | 7,957.00 ₼ | 19,404.00 ₼ | 58,824.00 ₼ |
| Xərc | 6,000.00 ₼ | 7,050.00 ₼ | 15,600.00 ₼ | - ₼ | 17,600.00 ₼ | 8,000.00 ₼ |

Gəlir Xərc




Hər təqvim ilinin sonunda inzibati və hər tədris ilinin sonunda akademik heyətin ştat cədvəlinin təkmilləşdirilməsi Elmi Şuranın qərarı və dərs yükünə əsasən ştat cədvəlində dəyişikliklər aparmaq yolu ilə həyata keçirilir. ADPU-da maliyyə imkanlarını nəzərə alıb daha münasib əmək haqqı siyasətini həyata keçirmək ştat vahidlərinin sayını azaltmaqla (daha çox iş tapşırmaqla) maaşların artırılması, yəni az işçi sayı ilə daha çox işlərin yerinə yetirilməsini təşkil etmək və daha yüksək əməkhaqqı təklif etməklə mümkün olar.




Qeyd olunan strategiyalardan hər hansı biri yerinə yetirildikdə smetada həmin xərc maddəsi üzrə dəyişikliklər nəzərə alınır.

ADPU-nun büdcəsinə daxil olan maliyyə resursları rektorun əmri və müqavilələr əsasında həyata keçilir.

Maliyyə resursları ADPU-nun Nizamnaməsinə uyğun olaraq Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş xərclər smetasına əsasən təyinatı üzrə istifadə olunur. Maliyyə şöbəsi ADPU-nun müstəqil struktur bölməsi olmaqla birbaşa rektora tabedir. Maliyyə şöbəsi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müvafiq rəhbər sənədlərinə, ADPU-nun rektorunun əmri və Elmi Şuranın qərarına əsasən yaradılır və ləğv edilir. Maliyyə şöbəsinə ADPU-nun rektorunun əmri ilə

təyin olunmuş baş mühasib rəhbərlik edir. Maliyyə şöbəsi fəaliyyətində Azərbaycan Respublikasının Vergi Məcəlləsini, Mühasibat Uçotu haqqında Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının Əmək Məcəlləsini, Sosial sığorta haqqında Azərbaycan Respublikasının Qanununu, Sosial Müavinətlər haqqında Azərbaycan Respublikasının Qanununu, mühasibat Uçotuna dair digər normativ sənədləri, ADPU-nun Nizamnaməsini, ADPU-nun rektorunun əmrlərini və Elmi Şuranın qərarlarını və öz əsasnaməsini rəhbər tutur.

"Dövlət Satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu Azərbaycan Respublikasında dövlət müəssisə və təşkilatları (idarələri), nizamnamə fondunda dövlətin payı 30 faiz və daha çox olan müəssisə və təşkilatlarda tətbiq edilir. Azərbaycan Dövlət Pedaqoji Universiteti tərəfindən tender komissiyası formalaşdırılmış və qanunun müvafiq maddəsinə əsasən cari ilin oktyabr ayının 15-dən gec olmayaraq növbəti il üçün ilkin satınalma planı hazırlanaraq dövlət satınalmalarının vahid internet portalına yerləşdirilmişdir.

2019-cu il ərzində 12 (10 kotirovka, 2 açıq tender) satınalma müsabiqə həyata keçirilmişdir.

2020-ci il ərzində 4 (3 kotirovka, açıq 1 tender) müsabiqə həyata keçirilmişdir. 2 müsabiqə isə "Dövlət Satınalmaları haqqında" Qanunun 11.1-ci maddəsinə əsasən müsabiqədə iştirak etmək üçün təklif vermiş iddiaçıların sayı üçdən az olduğu üçün ADPU (satınalan təşkilat) müsabiqənin davamından imtina etmişdir.

2021-ci il ərzində 12 (4 kotirovka, 5 açıq tender və 4 bir mənbə) satınalma müsabiqəsi həyata keçirilmişdir. Onu da qeyd etmək istərdik ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə yüksək ixtisaslı pedaqoji və elmi-pedaqoji kadr yetişdirilməsi sahəsində mühüm xidmətlərini nəzərə alaraq, ADPU-nun 100 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə 17 aprel 2021-ci il tarixli Sərəncam imzalamışdır. Sərəncamdan irəli gələn 100 illik yubileyin təşkili üzrə xidmətlərin göstərilməsinə və 100 illik yubiley ilə bağlı sənədli filmin çəkilişinə dair "Dövlət Satınalmaları haqqında" Qanunun 21.1.2-ci maddəsinə əsasən (mallara (işlərə və xidmətlərə) təcili tələbat yarandıqda və tender prosedurlarının keçirilməsi və ya satınalmanın hər hansı digər metodundan istifadə edilməsi məqsədəuyğun olmadıqda, tələbatın təcili olmasına gətirib çıxarmış halları qabaqcadan görmək qeyri-mümkün olduqda və ya bu hallar satınalan təşkilatın ləngiməsinin nəticəsi olmadıqda) bir mənbədən satınalma metodunu tətbiq etməklə 2 satınalma müqaviləsi imzalanmışdır.

2022-ci ildə ərzində 10 (3 kotirovka, 1 tender, 6 bir mənbə) satınalma müsabiqəsi həyata keçirilmişdir.

İllər ərzində keçirilmiş bütün satınalma müsabiqələrinin nəticələrinə dair yekun protokol hazırlanaraq 2 nüsxə olmaqla Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə göndərilmişdir. Xidmət tərəfindən keçirilmiş müsabiqələrin nəticələri qeydə alındıqdan sonra aidiyyəti üzrə qalib müəssisə ilə müqavilə bağlanmışdır.

2020-ci il mart ayından etibarən COVID-19 xəstəliyi Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya elan olunaraq virusun qarşısının alınması istiqamətində bir sıra təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir. Virusun geniş yayılmasının qarşısının alınması məqsədi ilə ölkə ərazisində çevik və sistemli preventiv tədbirlərin davamı olaraq 14 mart 2020-ci il tarixindən sosial izolyasiya qaydaları tətbiq olunmuş, 20 aprel 2020-ci il tarixədək isə xüsusi karantin rejimi elan edilmişdir.

2021-ci ildə ADPU-nun 100 illik yubileyinin keçirilməsi üzrə xərclərin nəzərdə tutulan məbləğdən qiymət artımı ilə əlaqədar olaraq daha yüksək olması məlum olmuşdur.

2022-ci il ADPU əməkdaşlarının vəzifə maaşlarının 10% artırılmışdır.

Yuxarıda qeyd olunan səbəblərdən dolayı 2020, 2021 və 2022-ci illərdə satınalma planlarında nəzərdə tutulan bəzi müsabiqələr həyata keçirilməmişdir.

Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara təqdim olunması rüblük və illik həyata keçirilir. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə maliyyə vəziyyəti haqqında hesabat, maliyyə fəaliyyəti haqqında hesabat, pul hərəkəti haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabat təqdim olunur. Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ADPU-nun məcburi köçkün statusu olan tələbələr haqqında illik hesabat, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə enerji məhsullarının hərəkəti haqqında illik hesabat, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Əmlak Məsələləri Dövlət Xidmətinə dövlət əmlakının qorunub saxlanılması və ondan istifadə vəziyyəti haqqında illik xüsusi hesabat forması təqdim edilir. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə muzdlu və qeyri-muzdlu işlə əlaqədar vahid bəyannamə (Vergi, MDSS və İS), ADPU ilə ABŞ-ın Corc Vaşinqton Universiteti arasında ikili diplom layihəsinin ödənişləri ilə əlaqədar olan 10% ödəmə mənbəyindən vergi, 18% əlavə dəyər vergisi hesabatları verilir.

Əməliyyatlar maliyyə və mühasibat uçotu hesabatları üçün nəzərdə tutulan “SİNAM” MMC-nin öz məhsulu olan SERP proqram təminatı vasitəsilə icra olunur. Sistem büdcə təşkilatları üçün müasir uçot və hesabatlılıq, yeni mərkəzləşdirilmiş və müştəriyə hesablanmış informasiya sisteminin tətbiqini, idarəetmə vərdişlərinin yüksəldilməsini təmin edir. Əməliyyatlara əməkhaqqı, əsas vəsaitlərin uçotu, kadrların uçotu, maliyyə hesabatları, təqaüdün hesablanması, tələbə kontingenti, ödənişli tələbələrin təhsil haqqı və s. aiddir. Ödənişlər isə Kapital Bank ASC-nin müştəri bank xidmətləri vasitəsilə həyata keçirilir. Müştəri bank xidmətlərinə online rejimdə hesablara nəzarət, konvertasiya (nağdsız mübadilə əməliyyatları), əmək haqqı, təqaüd, plastik kartların alınması və digər ödənişlər aiddir.

ADPU-da daxili audit bölməsi yeni yaradılmışdır. Məlumat ilin sonunda verildiyi üçün Elmi Şuranın qərarına əsasən yeni yaradılmış, bu səbəbdən də yaxın zamanda nəzarət tədbirləri görüləcəkdir.

Maliyyə resurslarının əldə olunması və istifadəsinə görə alınmış qrant layihə çərçivəsində xərclərin təyinatına görə istifadəsi ilə bağlı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə hesabat verilir.

Maliyyə resurslarının əldə olunması mənbələrinin və istiqamətlərinin təkmilləşdirilməsi azedu.com platforması ilə müqavilə bağlanmışdır. Müqaviləyə əsasən universitetin yalnız canlı və ya live-online yox, eyni zamanda videoçarx şəklində həmin platforma üzərindən təlim almaq istəyən şəxslər üçün nəzərdə tutulmuşdur. Bu isə öz növbəsində yalnız ənənəvi üsulla yox, zaman tələblərinə cavab verən bir xidmətin təşviqat və satış vasitəsidir.

## 5.4. İnformasiya idarəetmə sistemi

ADPU-da Tədris İdarəetmə Sisteminin (TİS və ya LMS) qurulması və alınması əsas vəzifələrdən biridir. Təəssüflər olsun ki, NEYRON Şirkəti ilə əvvəlki illərdə edilmiş əməkdaşlıq uğurlu nəticə verməmiş və ona görə də əməkdaşlıq dayandırılmışdır. Buna baxmayaraq ADPU olaraq informasiya idarəetmə sisteminin yaradılması üzrə fərqli platformalar üzərində işlər davam etdirilir və universitetin LMS-nin qurulması üçün imkanları gücləndirilir. Buna Elm və Təhsil Nazirliyinin ATİS, DİM-in Tələbə və Məzun Məlumat Sistemi, o cümlədən Microsoft 365, Moodle və s. əlavə etmək olar.

ADPU Microsoft Office proqramlarından gündəlik iş həyatında geniş istifadə edir. Microsoft Word tez-tez mətn və rəsmi mətnlər üçün istifadə edilsə də, Excel cədvəllər və hesablamalar üçün də ən böyük köməkçimizdir. Tədris prosesində təsirli təqdimatlar üçün

Power Point proqramından da böyük dəstək alırıq. Bunlardan başqa bir çox başqa tətbiqlər ilə Microsoft proqramlarından istifadə tədris prosesini çox asanlaşdırır. Bir çox proqramlar blog yazılarında, animasiya təqdimatlarının hazırlanmasında və ya veb-saytın hazırlanmasında istifadə edilə bilir. Əvvəllər Office 365 olaraq Microsoft bütün proqramlarını bir paket altında toplayır, eyni zamanda bir hesab vasitəsilə daha asan giriş və idarəetmə təklif edirdi. 2020-ci ildə verdiyi qərarla bu proqramların hamısını Microsoft 365 adı altında toplayır və eyni imkanları təqdim etməyə davam edir.

ADPU Microsoft 365-in ən mühüm üstünlüklərindən biri olan inzibati və akademik heyət bulud saxlama qabiliyyətinə və təhlükəsizlik tədbirlərinə, eləcə də bir istifadəçi hesabı ilə Office proqramlarına sahib ola bilir. İstifadəçilər həmçinin təqvimin təşkili, xatırlatmalar və görüləcək işlərin siyahıları ilə daha planlı fəaliyyət həyata keçirir. İstifadəçilər Office proqramlarında ediləcək bütün yeniləmələri pulsuz əldə edə və tətbiqlərinizdə ediləcək təkmilləşdirmələrə anında sahib ola bilir.

Universitetin hər bir inzibati və akademik, o cümlədən tələbələri üçün Microsoft 365 hesab yaradılır. Bu hesab vasitəsilə univeristet tələbələri müxtəlif onlayn xidmətlərdən yararlana bilir. Belə ki, elektron kitabxana portalı, Moodle tədris platforması və s. xidmətlər yalnız Microsoft 365 hesabları vasitəsilə əlçatan olur.

**Moodle vasitəsi ilə hər bir ADPU müəllimi üçün elektron kabinetlər**

Hazırda qlobal təhsil bazarında məsafədən tədrisin təşkilində böyük artım müşahidə olunur. Bu təhsilalma forması kimi distant təhsili tələbələr arasında daha da cəlbedici etməklə yanaşı, dünyanı öz təsiri altına alan pandemiya şəraitində və ondan sonra da distant təhsili əvəzedilməz edir. Təhsil müəssisələri üçün yaranan yeni tələb və çağırışlara cavab verəcək proqram həllərinin düzgün tətbiqi məsələsi aktuallığını saxlayır.

Universitetimizdə distant təhsilin təşkili, əyani tədrisalma formasının daha da təkmilləşdirilməsi məqsədilə Moodle TİS platforması tətbiq edilmişdir. Qeyd edək ki, hazırda dünyanın 243 ölkəsindən 250 milyondan çox istifadəçi Moodle platformasından istifadə edir.

Moodle platformasından istifadə, akademik heyətə tədris zamanı kurs materialları, çalışma və tapşırıqların istənilən vaxt əlçatan olması, tədris mühitinin asanlıqla təşkili, tədrisdə vaxt itksinin qarşısının alınması, məsafədən səmərəli bir tədris mühitinin formalaşması və s. kimi üstünlüklər qazandırır.

2019/2020-ci tədris ilindən başlayaraq, qısa müddət ərzində Moodle platformasının qurulması və tətbiqi üçün fəaliyyət planı təsdiq edildi. Fəaliyyət planına əsasən I mərhələdə platformanın texniki olaraq quraşdırılması və sazlanması prosesi həyata keçirildi. Tezliklə, platforma internet üzərindən (https://e-learning.adpu.edu.az/ ) istifadəyə açıq elan olundu.

Növbəti mərhələdə platformadan istifadə qaydaları və mövcud funksionallığın istifadəçilərə çatdırılması üçün silsilə təlimlər təşkil edilmişdir.

İKT Mərkəzi tərəfindən 09.01.2021 tarixindən etibarən Moodle LMS təlimləri keçirilməyə başlanmışdır. Təlimlər həftədə üç dəfə olmaqla bir saat müddətində keçirilmişdir. Müəllimlər üçün ümumilikdə filiallar daxil olmaqla, 239 kurs yaradılmışdır. 2020/2021-ci tədris ili üçün İbtidai təhsil fakültəsi üzrə 5, Fizika fakültəsi üzrə 2, İncəsənət və fiziki tərbiyə fakültəsi üzrə 3, Məktəbəqədər təhsil fakültəsi üzrə 11, Kimya və biologiya üzrə 17, Riyaziyyat fakültəsi üzrə 4, Tarix və coğrafiya fakültəsi üzrə 3, Filologiya fakültəsi üzrə 8 kurs olmaqla, cəmi 53 fənn üzrə kabinet yaradılmışdır.

2021/2022-ci tədris ili üçün Fizika fakültəsi üzrə 10, İncəsənət və fiziki tərbiyə fakültəsi üzrə 5, Məktəbəqədər təhsil fakültəsi üzrə 15, Kimya və biologiya üzrə 23, Riyaziyyat fakültəsi üzrə 10, Tarix və coğrafiya fakültəsi üzrə 12, Filologiya fakültəsi üzrə 29 kurs olmaqla, cəmi 104 fənn üzrə kabinet yaradılmışdır.

2022/2023-cü tədris ili üçün Məktəbəqədər təhsil fakültəsi üzrə 5, Kimya və biologiya üzrə 4, Riyaziyyat fakültəsi üzrə 8, Tarix və coğrafiya fakültəsi üzrə 3, Filologiya fakültəsi üzrə 8 kurs olmaqla cəmi, 28 fənn üzrə kabinet yaradılmışdır.

2022/2023-cü tədris ilində keçirilən təlimlərdə ADPU-nun filiallarından müəllimlər də iştirak etmiş, Şəki filialı üzrə 26, Şamaxı fiialı üzrə 8, Quba filialı üzrə 6, Cəlilabad filialı üzrə 6, Ağcəbədi filialı üzrə 1 kurs olmaqla, cəmi 47 kabinet yaradılmışdır.

O cümlədən təlim zamanı müəllimlər, şəxsi tədris kabinetlərinin yaradılması, onların tədris materialları ilə zənginləşdirilməsi, tələbəni çalışdırmaq üçün müxtəlif təyinatlı tapşırıqların yaradılması və tələbənin göstərdiyi nəticələrin təhlil edilməsi qaydaları ilə tanış ola bildilər. Ənənəvi tədris mühiti ilə paralel olaraq, tədris prosesi elektron platforma üzərində də davam etməyə başladı. Hər bir univerisitet müəllimi və tələbəsi Microsoft 365 tətbiqi ilə avtomatik rejimdə Moodle tədris platformasına giriş əldə edir və sistemin verdiyi üstünlüklərdən yararlanır.




Tədris prosesində dərsin əsas prinsiplərindən biri olan, onun əyaniliyini təmin etmək məqsədi ilə elektron lövhələrdən istifadə edilir. Elektron lövhənin üstün cəhətlərindən biri də onda  animasiya effektinin yaradılmasıdır; dərs nümunələri hərəkətli şəkillərlə, obyektlərlə zənginləşdirilir. Bu gün elektron lövhələr olmadan müasir təlim prosesini təsəvvür etmək mümkün deyil, buna görə də qısa müddət ərizndə auditoriyaların elektron lövhələrlə təmin edilməsi prioritet məsələ olaraq qəbul edilmişdir. Bir sıra aduditoriyalarda sistemin bütün elementləri artıq quraşdırılıb. Belə ki, elektron sensor lövhə, proyektor, lövhəni idarəetmə pultu və kompüter təminatı istiqamətində bir sıra işlər görülmüşdür.

**Müəyyən sahələr üzrə artım dinamikası**

| № | Məzmun | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 |
|---|---|---|---|---|---|
| 1 | İnternetə çıxışı olan kompüterlərin (Stolüstü, notbuk və monoblok) sayı | 269 | 376 | 457 | 573 |
| 2 | Korporativ antivirus proqram təminatının istifadəçi kompüterlərinə quraşdırılması üzrə | 0 | 223 | 326 | 341 |
| 3 | İctimai açıq simsiz internet bağlantı nöqtələrinin sayı | 0 | 5 | 7 | 77 |
| 4 | Elektron tədris platforması üzrə müəllim kabinetlərinin sayı | 53 | 157 | 185 | 189 |
| 5 | Universitetə məxsus veb-saytların sayı | 1 | 1 | 8 | 8 |
| 6 | İnteraktiv lövhə ilə təchiz edilmiş auditoriyaların sayı | 22 | 22 | 42 | 43 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 7 | Microsoft Azure-də istifadəçi hesablarının sayı | 16480 | 19223 | 21845 | 24694 |
| 8 | Sertifikatlaşıdırlmış telekommunikasiya qurğu və vasitələrinin sayı | 0 | 10 | 10 | 10 |
| 9 | Kompüter laboratoriyalarının sayı | 3 | 4 | 9 | 10 |
| 10 | Tədris prosesində istifadə olunan proyektorların sayı | 56 | 56 | 61 | 62 |
| 11 | Daxili və internet şəbəkəsinin uzunluğu | 7800 m | 9600 m | 12200 m | 51800 m |
| 14 | Tədris binalarında internetin yekun sürəti | 200 Mbit/s | 200 Mbit/s | 200 Mbit/s | 300 Mbit/s |






Bundan əlavə bir çox auditoriyalar dərsin əyaniliyinin təmin olunması məqsədi ilə proyektorlar ilə təchiz edilmişdir. Proyektorların HD görüntü keyfiyyəti isə tədris prosesinin daha interaktiv olmasını təmin etmişdir. Proyektor ilə keyfiyyətcə yeni səviyyəli dərs hazırlamaq və onu yüksək səmərə ilə təşkil etmək üçün müəllimlər öncədən təqdimat fayllarını hazırlayırlar. Proyektor vasitəsilə edilən təqdimatlar rəqəmsal məhsul yaratmağa imkan verir ki, bu da tələbənin dərketmə prosesinə və müstəqil işə tam qoşulmasına şərait yaradır.




Bundan başqa inzibati və akademik heyətin internet şəbəkəsinə əlçatanlığını təmin etmək məqsədi ilə bütün tədris binalarında şəbəkə xətlərinin örtük ərazisi əhəmiyyətli dərəcədə artırılmışdır. Sahil korpusunda simsiz şəbəkənin örtük ərazisi, inzibati binanın mövcud ərazisinin 100%-ni əhatə etmişdir. Tədris binaları üzrə internet bağlantısının yekun sürəti 300 Mbit/s qədər artırılmışdır.




## 5.5. İctimaiyyətlə əlaqələr

2022-ci ilin sentyabrında ADPU-nun Elmi Şurasının qərarı ilə universitetin fəaliyyətinin geniş işıqlandırılması və ictimaiyyətlə əlaqələrin təkmilləşdirilməsi məqsədi ilə İctimaiyyətlə əlaqələr və marketinq şöbəsi yaradılmışdır.

2006-ci ildə universitetin ölkənin kütləvi informasiya vasitələri ilə sıx əlaqələrinin qurulması və universitetin mədəni-kütləvi, elmi-pedaqoji həyatının işıqlandırılması məqsədi ilə *mətbuat və informasiya şöbəsi* yaradılmışdır. 2016-cı ildə şöbənin adı dəyişdirilərək *İctimaiyyətlə əlaqələr və marketinq* adlandırılmışdır. 2021-ci ilin mart ayında ictimaiyyətlə əlaqələr və marketinq şöbəsinin tədbirlərin təşkili və tələbələrlə iş şöbəsinə birləşdirilməsi nəticəsində daha geniş səlahiyyətlərə malik *Tələbələrlə iş və ictimaiyyətlə əlaqələr* şöbəsi yaradılmışdır. 2022-ci ilin sentyabrında təkmilləşdirmə işləri ilə əlaqədar müstəqil *İctimaiyyətlə əlaqələr və marketinq şöbəsi* yaradılmışdır.

Şöbə: 1) Universitetin gündəlik fəaliyyəti, təhsil və beynəlxalq əməkdaşlıq sahəsində qazanılan uğurların kütləvi informasiya vasitələrində işıqlandırılmasını təmin edir; 2) ADPU-nu yerli və beynəlxalq mədəni-kütləvi tədbir və layihələrdə təmsil edir; 3) universitetin rəsmi sosial media hesablarını (feysbuk, instaqram, tvitter, teleqram, yutub və s.) idarə edir; 4) universitetin fəaliyyətinin təbliğinə dair çap materialları hazırlayır; 5) Universitetin rəsmi *www.adpu.edu.az* saytının məzmununu idarə edir və məlumatların mütəmadi yenilənməsini təmin edir; 5) Universitet həyatını kütləvi informasiya vasitələrində təbliğ edir; 6) Universitetin orqanı olan “Gənc müəllim” qəzetini nəşr edir; 7) Media monitorinqini aparır və s.

Şöbə əməkdaşları tərəfindən ADPU-nun 100 illik yubileyi ilə bağlı 3 kitab (“Pedaqoji Universitetin Qəhrəmanları (ensiklopedik toplu)”. Bakı, ADPU, 2021, 304 s., “Pedaqoji Universitet. 100 ilin şahidləri. Fotoalbom”. Bakı, ADPU, 2021, 216 s., “Pedaqoji Universitet. 100 il 100 fakt”, Bakı, ADPU, 2021, 108 s.) hazırlanaraq çap olunmuş, universitet, filiallar, fakültələr və kollecin bukleti, ADPU haqqında məlumat jurnalı və broşürü və digər çap və reklam vasitələri hazırlanmışdır.

İctimaiyyətlə əlaqələri və effektiv əks-əlaqəni təmin etmək üçün bir neçə operativ və dövri alətlərdən istifadə olunur:

**5.5.1. ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti**

ADPU-nun rəsmi *www.adpu.edu.az* saytı **Azərbaycan və ingilis dilində** fəaliyyət göstərir. Saytın yenilənmiş versiyası 2022-ci ildə istifadəyə verilmişdir və saytda mütəmadi yenilənmə işləri davam etdirilir. Hazırda ADPU-nun əsas saytı ilə yanaşı, universitetin 8 fakültəsinin də saytları fəaliyyət göstərir (https://adpu.edu.az/index.php/az/t%C9%99dris/fakulteler).




**5.5.2. ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti**

Saytda universitetdə baş verən yeniliklər dəqiq və operativ şəkildə işıqlandırılır, əməkdaşlar, tələbələr və təhsil ictimaiyyətini maraqlandıran məlumatlar mütəmadi olaraq dərc olunur. Saytda həmçinin bütün strukturlar və əməkdaşlar haqqında aktual məlumatlar, əlaqə vasitələri yerləşdirilib.

**5.5.3. ATM-in ictimaiyyəti məlumatlandırılması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti**

ADPU-da ictimaiyyəti məlumatlandırmaq və effektiv əks-əlaqəni təmin etmək məqsədi ilə rəsmi saytla yanaşı digər əlaqə üsullarından da hərtərəfli istifadə olunur. Burada aparıcı KİV-lərlə mütəmadi əməkdaşlıq, sosial şəbəkələrdən aktiv və effektiv istifadə olunması, qəzet nəşri əsas yer tutur.

**“Gənc müəllim” qəzeti**

Fəaliyyətlərin işıqlandırılmasında və tarixiləşdirilməsində universitetin mətbu orqanı – “Gənc müəllim” qəzeti mühüm rol oynayır. 65 ildir nəşr olunan “Gənc Müəllim” qəzeti 2021-ci ilin yanvar ayından etibarən yeni üslub və dizaynda rəngli formada çap və elektron qaydada dərc edilməyə başlanılıb. Yenilənmiş “Gənc Müəllim” istedadlı tələbələrin yazıları, Vətən müharibəsi şəhidləri, ADPU-nun məşhur məzunları haqqında silsilə maraqlı rublikalar təqdim etməklə yanaşı, innovativ qəzetçiliyi də tətbiq və təbliğ edir. Belə ki, 2021-ci ilin fevral sayından başlayaraq xəbərlərdə QR kod texnologiyası ilə lazımi məlumatlara – mətn, foto və videofayllara hiperistinadın verilməsi təmin edilir. Qəzet A3 formatında dərc edilir. İndiyədək 1108 nömrəsi dərc olunan qəzetin son 7 ildə 46 nömrəsi dərc olunmuşdur ki, bunların da 17-si son təkcə iki ildə dərc edilmişdir. Başqa sözlə son 7 ildə dərc olunan sayların 40 %-i son iki ildə çap edilən yeni formatlı “Gənc müəllim”in payına düşür.




**Sosial media imkanları**

ADPU-da ictimaiyyətlə əlaqələrin daha çevik və səmərəli təşkili məqsədi ilə 2020-ci ildən etibarən bütün aparıcı sosial media platformalarında universitetin rəsmi sosial media hesabları istifadəyə verilmiş, 2018-ci ildən mövcud olan feysbuk səhifəsi isə yenidən qurulmuşdur. Səhifələrdə korporativ stil tətbiq edilərək paylaşılan məzmunların keyfiyyəti və baxış sayları xeyli yüksəldilmiş, ADPU-nun bütün tələbələri, əməkdaşları və maraqlı tərəfləri əhatə edən müasir operativ əlaqə vasitələrinə çevirilmişdir. Fərqli konseptdə və operativ fəaliyyət göstərən səhifələr tələbələr arasında böyük auditoriya toplamağa, feysbuk (https://www.facebook.com/adpu.eduaz), instaqram (https://www.instagram.com/adpu.eduaz/), teleqram (https://t.me/adpu_edu) və yutub-da (*https://www.youtube.com/adputv*) minlərlə real izləyici kütləsi toplamağa nail olub.

100 illik yubileylə əlaqədar olaraq yotub platformasında universitetin “ADPU TV” (https://www.youtube.com/adputv) adlı onlayn televiziyası istifadəyə verilib. Davamlı fəaliyyətə başlayan bu layihənin müəllifləri, kanalın yayım və texniki heyəti şöbənin əməkdaşları və könüllü tələbələrdən ibarətdir. Kanalda təhsilə dair müxtəlif verilişlər və rublikalar hazırlanıb yayımlanır. O cümlədən, 2021-ci ildə 30 dəqiqəlik “ADPU Tanıtım filmi” (https://www.youtube.com/watch?v=muAsMJVa-FI&ab_channel=ADPUTV) hazırlanıb, yubiley ili boyu universitetin tarixini əks etdirən arxiv videoları təqdim olunub.

Universitetin ictimaiyyətlə əlaqələrini inkişaf etdirmək məqsədi ilə *sosial media marketinq (SMM) komandası* yaradılmışdır. ADPU SMM komandasının rəsmi teleqram

kanalına əlavə etdiyi “ADPUbot” süni intellekt botu ilə tələbələr onları maraqlandıran suallara cavab alırlar. Komanda üzvləri hazırda mobil tətbiqin hazırlanması üzərində iş aparır. Bot hazırda 229 suala cavab verə bilir və 2804 nəfər abunəçisi var (https://t.me/aspubot).




Universitetin sosial media hesablarının izləyiciləri arasında xarici ölkələrdən olan istifadəçilər də yer alır. Ölkələr üzrə izləyici statistikası ölçülə bilən feysbuk şəbəkəsi üzrə statistika aşağıdakı kimidir:




Bunlarla yanaşı, universitet, şəhid tələbə və məzunlarımız, nəşrlərimiz və s. haqqında vikipediya açıq ensiklopediyasında mütəmadi yeniləmələr aparılır. Vaxtaşırı müvafiq məqalələrdə redaktələr aparılır və ya yeni məqalələr yaradılaraq, orijinal fotomateriallar yerləşdirilərək ADPU haqqında məlumatlar zənginləşdirilir.

O cümlədən yubiley nəşrlərimizin ictimai əlçatanlılığının təmini üçün "Internet Archive" platformasında (https://archive.org/details/@taleh_m_rzayev), Prezident Kitabxanası (https://www.ebooks.az/?q=Pedaqoji+Universitet) və Azərbaycan Milli Kitabxanasının (*http://ek.anl.az/*) elektron bazalarında yerləşdirilmişdir.

KİV-lə əlaqələr son illərdə daha intensiv xarakter alıb. Universitetin fəaliyyəti müxtəlif informasiya agentlikləri tərəfindən müntəzəm olaraq işıqlandırılır. Daha çox əməkdaşlıq etdiyimiz və mütəmadi olaraq ADPU haqqında məlumatların dərc olunduğu KİV-lərin top 20-lik siyahısı belədir:

1. Aztv
2. İTV
3. Mədəniyyət tv
4. Space tv
5. AZƏRTAG – Azərbaycan Dövlət İnformasiya Agentliyi
6. AR Elm və Təhsil Nazirliyinin "Azərbaycan müəllimi" qəzeti
7. "525-ci qəzet"
8. Trend İnformasiya Agentliyi
9. Report İnformasiya Agentliyi
10. APA İnformasiya Agentliyi
11. Qafqazinfo.az
12. Mektebgushesi.az
13. Tehsil.biz
14. AZpress İnformasiya Agentliyi
15. Təhsil-press İnformasiya Agentliyi
16. Modern.az
17. Moderator.az
18. Onnmedia.az
19. Innews.media
20. Vetenim.az

ADPU-da tələbələrlə operativ əlaqənin təmini, ictimaiyyətin müraciətlərinin cavablandırılması məqsədi ilə rəsmi sayt, bütün sosial media hesabları, əlaqə nömrələri, kütləvi onlayn və əyani görüşlər vasitəsilə mütəmadi fəaliyyət göstərilir. Şöbəyə müxtəlif mənbələrdən daxil olan minlərlə müraciət əlaqədar şəxslər tərəfindən ən qısa vaxtda cavablandırılır və ya aidiyyəti üzrə yönləndirilir, lazımi tövsiyələr verilir. İctimaiyyətdən və KİV-dən ünvanlanan mütəmadi sorğular operativ qaydada cavablandırılır.

**5.5.4. ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planın olması vəziyyəti**

ADPU-nun ictimaiyyətlə əlaqələr işi "İctimaiyyətlə əlaqələr və marketinq şöbəsi"nin vahid illik iş planı əsasında planlı şəkildə həyata keçirilir.

**5.5.5. ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanın verməsi vəziyyəti**

Rəsmi sayt və sosial media səhifələri vasitəsilə universitetin fəaliyyəti ilə bağlı maraqlı tərəflərə qiymətləndirmə və təhlil imkanı verən daimi aktual məlumat yayımı həyata keçirilir. Bütün mənbələrdən daxil olan sorğu və müraciətlər operativ qaydada cavablandırılır.

**5.5.6. ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti**

Şöbə tərəfindən universitet haqqında ADPU-nun öz resursları və KİV-də yayımlanan məlumatların daimi monitorinqi aparılır və alınan nəticələrə əsasən müvafiq təkmilləşdirmə işləri ilə bağlı qərarlar qəbul olunur.









Hesabat dövründə mediada xəbər və mənbə sayının müqayisəli təhlilinə əsasən, 2016-cı ilə nisbətdə 2021-ci ildə yayımlanan xəbər sayı 575 %, xəbərlərin yayımlandığı mənbə sayı isə 1255 %, 2022-ci ildə isə müvafiq olaraq yayımlanan xəbər sayı 982 %, xəbərlərin yayımlandığı mənbə sayı isə 1970 % artmışdır.

Sistemli fəaliyyətin nəticəsidir ki, son iki il ərzində tələbələr və ictimaiyyət tərəfindən universitetlə bağlı müxtəlif kənar platforma və qurumlara edilən müraciətlər sıfır səviyyəsinə enmişdir.

Yeni fəaliyyətə başlayan şöbənin iş planına əsasən, sosial şəbəkə hesabları üzərindən ictimai rəyi öyrənmək, səhifələrin işini təkmilləşdirmək məqsədi ilə ADPU-nun sosial media hesablarının fəaliyyətindən məmnunluq haqqında onlayn sorğu keçirilib (Rəsmi

Teleqram səhifəsi üzrərindən, 08-09 fevral 2023). Rəyi soruşulanların (787 respondent) 76 %-i (602 respondent) səhifələrin fəaliyyətindən razı olduqlarını bildirmişlər.



# 6. İNFRASTRUKTUR

## 6.1 Tədris infrastrukturu

ADPU-da İnzibati-təsərrüfat şöbəsi 1930-cu ildən fəaliyyət göstərir. ADPU-nun Elmi Şurasının qərarına əsasən 2022-ci ilin sentyabrında şöbənin bazasında İnzibati departament yaradılmışdır. Departamentin tərkibində Təsərrüfat şöbəsi, Təhcizat və satınalmalar bölməsi və SƏTƏM bölməsi fəaliyyət göstərir.

Departament ADPU-nun korpuslarında ("Səbail", "Gənclik", "Nəsimi", "Təbriz") təsərrüfat xidmətini həyata keçirir, liftlərin, işıqlandırma sisteminin, ventilyasiyanın (laboratoriyalarda) saz vəziyyətdə olmasını, əməkdaşların səmərəli işləməsi üçün zəruri şəraitin yaradılmasını təmin edir. Müvafiq olaraq "Sahil" və "Gənclik" tədris korpusları ADPU-nun balansında, "Nəsimi" və "Təbriz" korpusları isə Elm və Təhsil Nazirliyinin balansında (ADPU-nun istifadəsində) fəaliyyət göstərir. ADPU-nun Bakı şəhərinin müxtəlif rayonlarında yerləşən 4 tədris korpusu hər birinin təsərrüfat fəaliyyətini tənzimləyən komendantı vardır.

Korpuslar üzrə tədris binalarında aparılan təmir işlərinin keyfiyyətlə icra olunmasına, bütün otaqların normal işıqlandırma, istilik sistemləri, sanitar qovşaqlarının santexnika infrastrukturu ilə təmin edilməsinə, struktur bölmələrinin iş otaqlarının, auditoriyaların zəruri inventar və mebellə təchiz edilməsinə, onların mühafizəsinə və vaxtında təmir olunmasına nəzarət edir.

ADPU-nun maddi-texniki və tədris bazasına tədris laboratoriyaları, emalatxanalar, idman və akt zalları, tibb otağı, yeməkxana, təhsilalanlar və təhsilverənlər üçün mebel avadanlığı, informasiya-kommunikasiya texnologiyaları, audio-vizual avadanlıqlar, tədris-əyani vəsaitlər, təlimin texniki vəsaitləri, dərslik və elmi-bədii ədəbiyyat fondu və tədris-təcrübə sahəsi daxildir. Ümumi təhsilin infrastrukturuna təhlükəsiz təhsil şəraiti, pedaqoji kadrlarla təminat, təhsil fəaliyyəti üçün zəruri imkanlara malik binalar, yardımçı binalar və qurğular, sadə idman, təlim meydançaları və qurğuları, müvafiq kadrlarla təmin olunmuş tibb, iaşə obyektləri, kitabxana, rabitə, su, istilik, elektrik sistemləri və internet xidməti daxildir.

Xidməti işlər üzrə müqavilələrin bağlanılmasına, dəftərxana ləvazimatlarının, təsərrüfat materiallarının, avadanlığın, inventarların alınması və saxlanılmasına, sahələrin abadlığına, yaşıllaşdırılmasına, təmizlənməsinə, inventarizasiyanın aparılmasına rəhbərlik edir, yanğından mühafizə tədbirlərini yerinə yetirir, yanğından müdafiə avadanlıqlarının işlək vəziyyətdə saxlanılmasını təmin edir. Universitetin təsərrüfat, mədəni-məişət işlərinə bilavasitə rəhbərlik edir. İnzibati departament ADPU-nun auditoriyalarında, yataqxana və yeməkxanalarında sanitar-gigiyenik vəziyyətə nəzarət edir.

14 mərtəbəli tədris binasının fasad üzlüyü yanğına davamlı, kompozit keramik materialla üzlənmiş, bütün qapı və pəncərələr daha keyfiyyətlisi ilə əvəz edilmişdir. Binanın üzlüyünün dəyişdirilməsi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmişdir. ADPU-nun çoxminli kollektivi bu faktı ölkə rəhbərliyinin təhsilə, pedaqoji və elmi-pedaqoji kadr hazırlığına diqqət və qayğısının təzahürü kimi dəyərləndirir.

ADPU-nun tabeliyində olan korpusların hər birində kitabxanalar fəaliyyət göstərir. Kitabxanalarda ümumi kitabların sayı 746221 ədəddir və tələbələrin istifadəsindədir. Sahil korpusundakı Kitabxana-İnformasiya Mərkəzi "BP Azərbaycan" şirkətinin dəstəyi ilə ən müasir standartlara uyğun avadanlıq və proqram təminatı ilə təchiz olunmuşdur.

ADPU-da Fizika və Kimya fakültəsinin nəzdində laboratoriyalar fəaliyyət göstərir. Tələbələrin laboratoriya işlərinin aparılması üçün hər bir şərait qurulmuşdur. Kimya fakültəsində 24 və Fizika fakültəsində isə 22 tədris laboratoriya fəaliyyət göstərir. ADPU-

nun istehsalat təcrübə bazası Şamaxı rayonunun Çuxuryurd kəndində yeləşir. Lakin maliyyə çatışmamazlığı səbəbindən təmir işləri tam yekunlaşmayıb.

ADPU-da distant tədris sistem olaraq müasir informasiya və telekommunikasiya texnologiyasına əsaslanan qiyabi təhsil sisteminin yeni inkişaf forması kimi inkişaf etdirilir.

Universitet üçün burada əsas üstünlüklər ondan ibarətdir ki, distant tədrisin daha geniş istifadəçi auditoriyasına sahibdir, tədris materiallarının hazırlanması və digər xərc istiqamətləri üzrə minimum sərfiyyat tətbiq etməyə imkanı mövcuddur, müxtəlif məkanda olan istifadəçilərin (akademik heyət) istənilən zaman kəsiyində telekommunikasiya imkanları vəsitəsi ilə əlaqə yaratmaq və tədris prosesini formalaşdırmaq imkanı vardır.

Təyinatına görə distant tədris sisteminin genişmiqyaslı və seçim (fraqment) xarakterli olmasına baxmayaraq, bu sahədə hüquqi baza olmadığından, akademik heyət bu sahədə yalnız seçim xarakterli tədrisdən faydalana bilir.

Onu da qeyd edim ki, genişmiqyaslı tədris sistemi müəyyən ixtisas üzrə mütəxəssislərin, bakalavrların, magistrlərin hazırlanması üçün tədris planının tam yerinə yetirilməsini təmin edir. ADPU bu istiqaməti də özü üçün prioritet olaraq müəyyən edib.

Hal-hazırda ADPU-da seçim xarakterli tədris texnologiyası vasitəsilə akademik heyət arasında tədris-metodiki materialların mübadiləsi, həmçinin tələbələr arasında interaktiv mübadilə prosesi təmin edilir. Seçim xarakterli tədris texnologiyası olaraq təkmilləşdirmə kursları, II tədrisin alınması, istifadəçilərə ayrı-ayrı kurslar üzrə fərdi tədrisin təşkili kimi prosesləri nümunə gətirə bilərik.

ADPU-da distant tədris sisteminin asinxron və sinxron tədris metodları ayrı-ayrılıqda uğurla tətbiq edilir. Asinxron tədris metodu üzrə univeristetin tələbələri, tədris müəssəsindən uzaq məsafədə yerləşməsindən asılı olmayaraq tədris metodik materiallardan istifadə edərək fərdi plan üzrə hazırlaşmaq imkanı əldə edirlər.

Sinxron tədris metodu üzrə isə ADPU-da dərslər (mühazirələr, seminarlar, məsləhət saatları) müəllim və tələbə arasında real zaman kəsiyində təşkil edir. Bu zaman tələbələr eyni vaxtda məsğul olan qrupda və ya distant tədris qrupunda (müxtəlif auditoriyalarda, müxtəlif şəhər və ölkələrdə) ola bilərlər. Bu cür görüşlər zamanı müəllim və tələbələr arasında interaktiv təmaslar formalaşır və tədris prosesi birbaşa təmaslar nəticəsində əyanilik təmin olunmaqla davam edir.




ADPU-da tətbiq olunan modeldə yuxarıda göstərilən metodlardan hər biri xüsusi təhsil texnologiyası olmaqla – distant tədris texnologiyası kimi nəzərə alınır. Belə ki, hər iki metod qarşılıqlı əlaqəli olmaqla bir-birini tamamlayır. Bu cür distant tədris sistemində müəllim məsləhətçi-tyutor hesab olunur. Tyutor tədris prosesinin

tədris-metodik rəhbərliyini həyata keçirir, uyğun fənn üzrə tələbələrə məsləhətlər verir, tapşırıq və sorğuların nəticələrini yoxlayır.

Distant tədris platformasında ən çox istifadə edilən elementlərdən:

- Fayl mübadiləsi – müəllim tərəfindən tədris-metodiki materiallar platformada yerləşdirilir və tələbələrə əlçatanlığı təmin edilir. Məzmun olaraq burada ən çox təqdimat faylları, mühazirə materialları və s. məlumat xarakterli sənədlər ola bilər.
- Videomühazirələr – müəllim tərəfindən dərs mövzuları üzrə öncədən video formatda dərslər qeydə alınır və sonradan onlar platformada yerləşdirilir. Bu element tələbələrə eyni bir mövzunun təkrar mənimsənilməsi üçün əlavə imkanlar yaradır
- Test tapşırıqları və ya açıq suallar -müəllim tərəfindən mövzuların daha yaxşı mənimsənilməsi və tədrisin keyfiyyətinin artırılması məqsədi ilə müxtəlif təyinatlı çalışdırıcı tapşırıqlar yerləşdirilir. Hər bir mövzu, tapşırıq və ya sorğu üçün qiymətləndirmə təyin edilə bilir. Bu element vasitəsilə müəllim tərəfindən dərsin hansı səviyyədə mənimsənilməsi aşkar edilə bilir
- Forum və çat imkanı – müəllim tərəfindən müxtəlif mövzular üzrə fikir mübadiləsi təşkil etmək, o cümlədən daha proqresiv ideyaları qiymətləndirmək mümkün olur.
- Esse və ya sərbəst iş – müəllim tərəfindən bu element vasitəsilə tələbələrə uyğun mövzular üzrə müstəqil hazırlaşmaq (sərbəst iş, esse və ya kurs işi formatında tapşırıqları icra etmək) və nəticədə qiymətləndirmək imkanı yaranır.
- Hiperkeçidlər - müəllim tərəfindən bu element vasitəsilə mövzuya aid istinadlar paylaşıla bilər və s.




Distant tədris texnologiyasının təşkili üçün ADPU-da “Microsoft Teams” və “Moodle” platforması paralel olaraq tətbiq edilir. “Microsoft Teams" platforması “Microsoft" şirkəti tərəfindən müəssisə daxilində informasiya mübadiləsini həyata keçirmək üçün sifariş əsasında yaradılmışdır. Bu platforma Microsoft 365 paketinin bir hissəsi olmaqla təhsilalanlara təhsil proqramlarının mənimsənilməsi imkanlarının təmin edilməsi və təlim-

tədris prosesinin məsafədən təşkili məqsədini daşıyır. Xüsusən də pandemiya dövründə “Microsoft Teams” platforması ümumdünya bazarında informasiya mübadiləsini həyata keçirən nəhəng korporativ platformaya çevrilib. “Microsoft Teams” platforması ali təhsil müəssisələri üçün videobağlantı vasitəsilə məsafədən təhsilvermə, müəllim-tələbə müzakirəsini təşkil etmək üçün interaktiv alətlərdən istifadə, sillabus, mühazirə və digər dərs materiallarının ötürülməsi kimi imkanlar yaradır. Həmçinin böyük həcmli videomaterialların yerləşdirilməsi, təqvim aləti vasitəsilə dərslərin və onlayn mühazirələrin planlaşdırılması, qiymətləndirmənin aparılması alətlərindən istifadə, qrup işinin təşkili də bura daxildir. Hər bir təhsilalan, ADPU tələbəsi kimi təsdiqləndikdən sonra, qısa müddət ərzində Microsoft hesabı ilə təmin edilir ki, bu hesab vasitəsilə “Microsoft Teams” və “Moodle” platformalarına giriş əldə olunur.

“Microsoft Teams” platformasında məsafədən tədris prosesinin təşkili üçün lazım olan hər bir alət ilə təmin edilmişdir. Bu siyahıya daha geniş nəzər salsaq: video və audiodərslər, qrup işləri, məlumat paylaşımı, ev tapşırıqları, qiymətləndirmə, tədris cədvəlləri, monitorinq, nəzarət mexanizmləri, elektron poçt və virtual saxlanc xidmətləri kimi geniş imkanlar vahid platformada təqdim edilir. Platformada distant tədris prosesi tədrisin aparılma qaydalarına uyğunlaşdırılımış şəkildə və Azərbaycan dilinə tərcümə edilmiş interfeys vasitəsi ilə təşkil olunur. Platformada təkmilləşdirilmiş monitorinq imkanı vardır ki, bu da öyrənmə nəticələrinə çevik reaksiya verərək, vaxtında redaktələr etməyə və effektiv tədris strategiyaları qurmağa şərait yaradır. Təhsilalanların testləri necə yerinə yetirdiklərini, hansı fənləri daha yaxşı mənimsədiklərini təhlil etmək üçün "Power BI" aləti vasitəsilə təhlil olunub, boşluqları müəyyən edib, məzmunu lazım olan yerlərdə zənginləşdirməyə imkan vardır. Platformada universitet üzrə bütün qrupları görmək səlahiyyətinə malik olan tədris idarəçiləri qruplar üzrə dərslərə, davamiyyətə nəzarət edə bilirlər.




Keçirilən dərsləri daha maraqlı, əyləncəli və öyrədici formada təşkil etmək məqsədi ilə müxtəlif interaktiv alətlər, tədris məzmunlu resurslar platformaya rahatlıqla inteqrasiya olunur. Platformada tədris nəticələrini yoxlamaq üçün ev tapşırığı və qiymətləndirmə modulları mövcuddur. “MS Teams” məlumat paylaşımına imkan verən vahid mühitin təmin olunması ilə yanaşı, geniş kontent bazası kimi də istifadə olunur. Belə ki, bu gün "Microsoft Stream" vasitəsilə qeydə alınan mühazirələr bulud yaddaşda saxlanılır və daha sonra o dərsləri müəyyən zaman ərzində təkrar izləmək imkanı vardır. Platforma onlayn dərs iştirakçılarına olduqları yerdən asılı olmayaraq vahid virtual məkanda görüşmək imkanı

verir. Həmçinin onlayn dərslərdə tələbələri komanda şəklində hiss etməyə və virtual fon effektləri ilə maraqlı mühitlərə səyahət etməyə imkan yaradır.

Platforma milli təhsil sisteminə uyğun dəyişikliklərin edilməsi üçün uyğun hesab edilir.




Hal-hazırda qlobal təhsil bazarında distant tədrisinin təşkilində böyük artım müşahidə olunur. Bu təhsilalma forması kimi distant təhsili tələbələr arasında daha da cəlbedici etməklə yanaşı, dünyanı öz təsiri altına alan pandemiya şəraitində və ondan sonra da distant təhsili əvəzedilməz edir. Xüsusən asinxron tədris metodu üzrə təhsil müəssisələri üçün yaranan yeni tələb və çağırışlara cavab verəcək proqram həllərinin düzgün tətbiqi məsələsi aktuallığını saxlayır.

ADPU-da distant təhsiilin təşkili, həmçinin əyani tədrisalma formasının daha da təkmilləşdirilməsi məqsədilə Moodle TİS (Tədrisin İdarəolunması Sistem) platforması tətbiq edilmişdir. Qeyd edim ki, hal-hazırda dünyanın 243 ölkəsindən 250 milyondan çox istifadəçi Moodle platformasından istifadə edir. Moodle platformasından istifadə, akademik heyətə tədris zamanı kurs materialları, çalışma və tapşırıqların istənilən vaxt əl çatan olması, tədris mühitinin asanlıqla təşkili, tədrisdə vaxt itksinin qarşısının alınması, məsafədən səmərəli bir tədris mühitinin formalaşması və s. kimi üstünlüklər qazandırır.

2019/2020-ci tədris ilindən başlayaraq, qısa müddət ərzində Moodle platformasının qurulması və tətbiqi üçün fəaliyyət planı təsdiq edildi. Fəaliyyət planına əsasən I mərhələdə platformanın texniki olaraq quraşdırılması və sazlanması prosesi həyata keçirildi. Tezliklə elə həmin tədris ilində platforma internet üzərindən istifadəyə açıq elan olundu.

Növbəti mərhələdə platformadan istifadə qaydaları və mövcud funksionallığın istifadəçilərə çatdırılması üçün silsilə təlimlər təşkil edilmişdir. Təlim zamanı müəllimlər, şəxsi tədris kabinetlərinin yaradılması, onların tədris materialları ilə zənginləşdirilməsi, tələbəni çalışdırmaq üçün müxtəlif təyinatlı tapşırıqların yaradılması və tələbənin göstərdiyi nəticələrin təhlil edilməsi qaydaları ilə tanış ola bildilər. Ənənəvi tədris mühiti ilə paralel olaraq, tədris prosesi elektron platforma üzərində də davam etməyə başladı. Hər bir univerisitet müəllimi və tələbəsi Microsoft 365 tətbiqi ilə avtomatik rejimdə Moodle tədris platformasına giriş əldə edir və sistemin verdiyi üstünlüklərdən yararlanır.




Bundan əlavə universitetdə maddi təchizatla bağlı göstəricilər hər il yüksələn xətt üzrə inkişaf edir. Distant təhsilin aparılması üçün kompüter təminatı gücləndirilir və amortizasiya siyasətinə uyğun olaraq yenilənir. Son dövrlər ərzində kompüter avadanlığı alınarkən, mütləq şəkildə distant təhsil texnologiyaları ilə uyğunluğu (veb kamera, mikrofon və s.) nəzərdən keçirilir.




ADPU-nun balansında 12 nəqliyyat vasitəsi mövcuddur. Nəqliyyat vasitələrindən 7-si hazırda istifadədir, 5-i isə yararsız vəziyyətdədir. İstifadəyə yararlı nəqliyyat vasitələrinə mütəmadi olaraq texniki qulluq olunur. İstifadədə olan nəqliyyat vasitələri ADPU-nun fəaliyyətinin fasiləsiz təmin olunmasına cəlb olunur.

ADPU-da sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun yaradılması ilə bağlı müəyyən layihələrin həyata keçirilməsi müzakirə edilir.

ADPU-nun korpuslarında yeməkxanalar qanunvericiliyə uyğun fəaliyyət göstərir və 1-ci mərtəbədə yerləşir. Tələbələrin sağlam qidalanması üçün hər bir şərait yaradılmış və mütəmadi olaraq universitet tərəfindən yoxlamalar keçirilir. Yeməkxanalarda fəaliyyət göstərən işçilər müvafiq olaraq tibbi yoxlamalardan keçirilir və sağlamlıq arayışı əsasında fəaliyyətlərini davam etdirirlər. ADPU-nin Təbriz korpusunun yeməkxanasında Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Bakı Regional bölməsinin əməkdaşları tərəfindən yoxlama zamanı məhdulaşdırıcı tədbirlər həyata keçirilmişdir. AQTA tərəfindən qoyulan qadağaları aradan qaldırmaq üçün təmir işləri aparılır. Təmir işləri AQTA-nın norma və standart tələblərinə uyğun olaraq həyata keçirilir. ADPU-da iaşə xidməti sanitariya norma və qaydalarına uyğun təşkil olunmuşdur. Əlavə olaraq Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi tərəfindən mütəmadi olaraq yoxlamalar həyata keçirilir və yeməkxanaların standartlara uyğun fəaliyyət göstərməsi yoxlanılır.

ADPU-nun tabeliyində Bakı şəhərinin müxtəlif ərazilərində yerləşən 5 yataqxana fəaliyyət göstərir. ADPU-nun 4 yataqxanasında 626 məcburi köçkün ailəsi (2315 nəfər) məskunlaşıb. Bu da əksəriyyəti regionlardan olan tələbələrin sosiallaşmasına, keyfiyyətli təhsil almasına, tələbə və müəllimlərin mobilliyinə, xarici ölkə tələbələrinin ADPU-ya cəlb edilməsinə mənfi təsir edir.

Gənclik kampusunda yerləşən tələbə yataqxanasında 2017-2018-ci ildə yaşayan tələbələrin sayı 172 nəfər, 2018-2019-cu ildə 162 nəfər, 2019-2020-ci ildə 162 nəfər, 2020-2021-ci ilə pandemiya ilə əlaqədar olaraq 13 nəfər, 2021-2022-ci ildə 141 nəfər hazırda (2022-2023-cü il) isə 124 nəfərdir. Tələbə yataqxanasında ümumi yer sayı 244 nəfərlikdir.

ADPU-da işçi heyətə və təhsilalanlara ambulator tibb xidmətinin təşkili üçün hər korpus üzrə tibb xidməti məntəqəsi yaradılmışdır. Tibb ximəti məntəqəsinin iş qrafiki ADPU-nun iş qrafikinə uyğun şəkildə təşkil edilmişdir. ADPU-də tibb xidməti sanitariya norma və qaydalarına uyğun təşkil olunmuşdur.

ADPU-da çalışan və təhsil alan inzibati və akademik heyətə elmi, tədris və təsərrüfat fəaliyyətində avtomatlaşdırılmış iş masalarında və informasiya sistemlərinə xidmət göstərilməsi üçün “İnformasiya və Kommunikasiya Texnologiyaları” mərkəzi təsis edilmişdir. İKT mərkəzi işini əsasən aşağıdakı üç istiqamətdə təşkil etmişdir:

- Sistem və şəbəkə inzibatçılığı şöbəsi;
- İstifadəçilərə dəstək şöbəsi;
- Elekron təhsil şöbəsi.

Göstərilən İT xidmətlərin səviyyəsinin artırılması məqsədi ilə bir sıra infrastruktur və maddi təchizatla bağlı layihələr icra edilmişdir. Şəbəkədə mövcud olan bütün istifadəçilərin kiber təhlükəsizliyi və şəbəkənin şaxələndirilməsi məqsədi ilə tədris binalarında şəbəkə xətləri yenidən layihələndirilmiş və fəaliyyət planı əsasında yararsız xətlərin yeniləri ilə əvəz olunması, o cümlədən tələb olunan yeni iş masalarına şəbəkə xətlərinin çəkilməsi təmin edilmişdir. Bütün bunlar həmçinin simsiz internet şəbəkəsinin fəaliyyət göstərməsi üçün şərt olaraq çıxış edir.




Şəbəkə xətlərinin şaxələndirilməsi nəticəsində, Sahildə yerləşən tədris korpusunun ərazisi tam, Gənclik və TTM tədris binalarının ərazisi isə qismən əhatə olunmaqla, ictimai açıq simsiz internet xidməti akademik və inzibati heyətin istifadəsinə təqdim edilmişdir. Quraşdırılan avadanlıqların seçilməsi zamanı qoşula biləcək istifadəçi sayı və cari internetin sürəti başlanğıc üçün məqbul hesab edilmişdir.




Bununla yanaşı, server aparat təminatının əldə olunması ilə bağlı işlər görülmüş, göstərilən geniş spektr xidmətlərin sayı artırılmış, xidmətlərə əlçatanlıq səviyyəti yüksəldilmişdir. İstifadəçilərə yönəlik xidmətlərin keyfiyyətli təşkil edilməsi və resusrladan səmərəli istifadənin təmin edilməsi məqsədi ilə server aparat təminatında virtual mühit yaradılmışdır. İstifadəçilərin zərərverici proqramlar və viruslardan müdafiəsinin təşkil olunması məqsədi ilə lisenziyalı antivirus proqram təminatı istifadəyə verilmişdir. Bununla da, kompüterlərdə olan zərərverici proqramların dərhal aşkarlanması, silinməsi və karantinə alınması ilə bağlı mümkün addımlar təmin edilmişdir. Hazırda 300-dən yuxarı kompüterdə lisenziyalı antivirus müdafiə paketi çalışmaqdadır.




Universitetdə istifadəyə verilən "Ruslan" kitabxana informasiya sisteminin verilənlər bazası və digər idarəedici proqram həlləri uğurla daxili serverlərdə yerləşdirilməklə internet üzərindən əlçatanlığı təmin edilmişdir. Distant təhsil sisteminin asinxron hissəsini əhatə edən "Moodle" platforması da daxili serverlərdə yerləşdirilməklə təhsilalanlar üçün əlçatanlığı təmin edilib. Universitetdə yaradılan müxtəlif informasiya sistemlərinə əlçatanlığın təmin edilməsi, bu cür sistemlərə sadələşdirilmiş vahid giriş sisteminin yaradılması məqsədi ilə bulud üzərində istifadəçilərin vahid reyestri yaradılmışdır. Azure AD məhsulu üzərindən formalaşdırılan bu həll vasitəsilə, akademik və inzibati heyat vahid hesab əldə etməklə, ADPU-ya məxsus bütün informasiya sistemlərində doğrulama keçə bilirlər. Əldə etdikləri "Microsoft" hesabı vasitəsilə tədrisdə faydalı ola biləcək tətbiqlər də əlçatan olur.




"Microsoft Office" tətbiqləri tədris prosesində ən çox istifadə edilən proqramlardan biri hesab oluna bilər. "Microsoft Word" tez-tez mətn və rəsmi mətnlər üçün istifadə edilsə də, "Excel" cədvəllər və hesablamalar üçün ən böyük köməkçimizdir. Tədris prosesində təsirli təqdimatlar üçün "Power Point" proqramından da böyük dəstək alırıq. Bunlardan başqa bir çox başqa tətbiqlər ilə Microsoft proqramlarından istifadə tədris prosesini çox

asanlaşdırır. Bir çox proqramlar blog yazılarında, animasiya təqdimatlarının hazırlanmasında və ya veb-saytın hazırlanmasında istifadə edilə bilər. Əvvəllər “Office 365” olaraq “Microsoft” bütün proqramlarını bir paket altında toplayır, eyni zamanda bir hesab vasitəsilə daha asan giriş və idarəetmə təklif edirdi. 2020-ci ildə verdiyi qərarla bu proqramların hamısını “Microsoft 365” adı altında toplayır və eyni imkanları təqdim etməyə davam edir.




Microsoft 365-in ən mühüm üstünlüklərindən biri odur ki, inzibati və akademik heyət bulud saxlama qabiliyyətinə və təhlükəsizlik tədbirlərinə, eləcə də bir istifadəçi hesabı ilə Office proqramlarına sahib ola bilər. İstiadəçilər həmçinin təqvimin təşkili, xatırlatmalar və görüləcək işlərin siyahıları ilə daha planlı fəaliyyət həyata keçə bilər. İstifadəçilər Office proqramlarında ediləcək bütün yeniləmələri pulsuz əldə edə və tətbiqlərinizdə ediləcək təkmilləşdirmələrə anında sahib ola bilir.

Universitetin hər bir inzibati və akademik, o cümlədən tələbələri üçün Microsoft 365 hesab yaradırlır. Bu hesab vasitəsilə univeristet tələbələri müxtəlif onlayn xidmətlərdən yararlana bilir. Belə ki, elektron kitabxana portalı, Moodle tədris platforması və s. xidmətlər yalnız Microsoft 365 hesabları vasitəsilə əlçatan olur.




Tələbələrin tədris fənləri üzrə proqramların daha yaxşı mənimsənilməsi məqsədi ilə kompüter laboratoriyaları yaradılır. Bu zaman maddi təchizat olaraq müasir proqram təminatını işlədə biləcək kompüterlərə üstünlük verilir. Təhsilalanların praktiki biliklərə

malik olması burada əsas şərt olaraq qəbul edilir. Qısa müddət ərzində kompüter laboratoriyalarının sayı 2 dəfədən çox artmışdır.




Auditoriyaların təchizatına gəldikdə isə bütün tədris auditoriyalarının interaktiv lövhə, proyektor və kompüter ilə təmin olunması hədəf olaraq müəyyən edilmişdir. Qısa müddət ərzində bu istiqamətdə ciddi nəticələr əldə edilmişdir. Belə ki, bir sıra auditoriyalar artıq elektron lövhə dəsti ilə təchiz edilmiş, bir hissəsi isə proyektor ilə təmin olunmuşdur. Əsas məqsəd dərslərdə əyaniliyi və interaktivliyi təmin etmək olmuşdur.




İnformasiya cəmiyyətinin bərqərar olduğu bir dönəmdə məlumatların daha asan əldə edilməsi və aktual olması çox vacibdir. Təhsilalanların və abituriyentlərin universitet həyatına daha asan inteqrasiyası və gedən proseslərdən xəbərdar olması üçün universitetə məxsus veb səhifə tamamilə yenilənmiş və fakültələr üçün ayrıca veb səhifələr yaradılmışdır. Bundan başqa inkluziv təhsil layihəsi çərçivəsində yaradılmış olan veb sayta da xidmət göstərilmişdir. Bununla da, ümumilikdə universitetə məxsus veb səhifələrin sayı 8-ə yüksəlmişdir.

İstifadəçi sayının artması və internetə sürətli əlçatanlığın təmin edilməsi məqsədi ilə qlobal internetə çıxış sürətində dinamika qeydə alınmışdır. Hazırda bütün tədris korpusları üzrə internetə çıxış sürəti 300 Mbit/s təşkil etməkdədir.

İnformasiya təhlükəsizliyi nöqtəyi nəzərindən, istifadəçilərin korporativ şəbəkədə davranış qaydalarının müəyyən edilməsi zərurəti yaranmışdır. Bu məqsədlə "informasiya təhlükəsizliyi", "kompüter avadanlıqlardan istifadə", "korporativ şəbəkədə davranış qaydaları"və s. məsələləri özündə ehtiva edən bir sıra siyasət, təlimat və prosedurlar təsdiq olunmuşdur. Korporativ məlumatların təhlükəsziliyinin təmin edilməsi məqsədi ilə, istifadəçilərə mütəmadi qrup və fərdi şəkildə infosessiyalar təşkil edilir, ehtiyat nüsxələmə qaydaları barədə məlumat verilir.

Həm tədris prosesində, həm də inzibati heyətin təsərrüfat fəaliyyəti nəticəsində kompüter avadanlıqları ilə işləmə zamanı çətinliklər yarana bilir. Biznes proseslərin fasizləsizliyi və dayanıqlılığını təmin olunması məqsədi ilə texniki dəstək xidməti əməkdaşlarının işi təşkil edilir. Belə hallar zamanı istifadəçilərə çevik dəstək xidmətinin göstərilməsi şərtdir. Bu məqsədlə "bilet izləmə" sistemi və vahid çağrı mərkəzi yaradılmışdır. Müraciətlərin prioritetlər üzrə qısa zaman kəsiyində həllini tapması hədəf olaraq müəyyən edilmişdir.

## 6.2. Elmi-tədqiqat infrastrukturu

ADPU-nun elmi tədqiqat infrakstruturu əsasən əvvəlki illərdən alınmış cihaz və materiallardan ibarətdir.Elmi tədqiqatların material-texniki və cihaz bazasının nisbətən köhnə olmasına baxmayaraq elmi tədqiqatla məşğul olan universitet əməkdaşları tərəfindən bir çox jurnallarda elmi məqalələr dərc olunmuş, bir sıra beynəlxalq konfranslarda məruzə və tezislərlə çıxış edilmişdir. Elmi tədqiqat infrastrukturu əsasən aparılan təqdiqatlara görə alınmış qrantlar və layihələrin hesabına formalaşdığı üçün bu istiqamətdə işlər aparılır.

Hazırda elmi tədqiqatlarda və layihə prototiplərinin hazırlanması prosesində aşağıdakı cihazlardan istifadə edilir:

-Spektrin görünən və yaxın infroqırmızı fotokeçiricilik spektrini, yüksək müqavimətli maddələrin fotoelektrik xassələrini tədqiq etmək üçün Spektrometr;

-1200 dərəcəyə qədər qızdırıla bilən və kristal maddələrin sintezi üçün Suol Sobası;

-Yükdaşıyıcıların yaşama müddətini təyin etmək üçün 1şüalı və 2 şüalı cihaz;

-Rəngli məhlulların optiki sıxlığının ölçülməsində- KFK-2;

-Məhlullarda mühitin təyinində - İonomer U-120.2;

- Rəngli məhlulların müxtəlif dalğa uzunluqlarında optiki sıxlığının ölçülməsində- SF-26;

- Məhlulların şüasındırma əmsalının təyinində - Reflaktometr- İPF-454B,

- Rəngli məhlulların müxtəlif dalğa uzunluqlarında optiki sıxlığının ölçülməsində və pH-ın təyinində UV-mini -1240 (Shimadzu);

- ekstraksiya etmək üçün WU-4;

- S WL BYTOM -qızdırıcı;

-Analitik tərəzi -Sartorius.

Rəqəmli voltmetrlər, ampermetrlər köməkçi cihaz kimi tələbələrin istifadəsindədir. Tələbələr tədqiqat layihələrində elektrosxemlərin yığılması, plataların hazırlanması maddələrin alıması və s.işlərinə cəlb edilirlər.

# 7. BEYNƏLMİLƏLLƏŞMƏ

## 7.1. Beynəlmiləlləşmə siyasəti

Son illər qloballaşma cəmiyyətin müxtəlif sahələrinə, eləcə də ali təhsil sahəsinə və bu sahədə fəaliyyət göstərən insanların və fikirlərinin mübadiləsinə öz güclü təsirini göstərmişdir. İqtisadi, siyasi və sosial dinamikada qlobal qarşılıqlı asılılığın rolu artıq qəbul edildiyindən universitetlərin beynəlmiləlləşmə funksiyası daha da qarşılıqlı asılılığın vacibliyini önə çıxarır. Qlobal trendlərdən bəhrələnmək üçün ali təhsil müəssisələri regional, beynəlxalq, hətta qitələrarası əlaqələrin yaradılması, müqavilələrin imzalanmasına xüsusi diqqət ayırır. Bu baxımdan prioritet istiqamət qlobal təsirin gücləndirilməsi ilə yanaşı, universitetlərin güclü lokal şəbəkə və birliklər ətrafında birləşməsi, eləcə də biliklərin, qabaqcıl təcrübələrin və strategiyaların mübadiləsinin təmin edilməsidir.

Azərbaycanın ən qədim universitetlərindən biri olan ADPU bu sahədə bir sıra işlər həyata keçirmiş, 2022-ci ildə beynəlmiləlləşmə siyasəti sənədi hazırlanaraq təsdiqlənib. Beynəlmiləlləşmə fəaliyyətinin məqsədləri beynəlmiləllləşmə siyasəti və inkişaf planında əks olunub. Universitet beynəlmiləlləşmə fəaliyyətinin planlaşdırılmasında onları nəzərə alır. Sənəd ADPU rəhbər heyətinin rəy və təklifləri nəzərə alınmaqla tərtib olunub və "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na və ADPU-nun 2018-2021-ci illər üzrə Strateji İnkişaf Planına əsaslanaraq hazırlanıb.

Bu sənəd aşağıdakı strateji hədəfləri özündə əks etdirir:

**1. Universitetin beynəlxalq imicinin təşviqi:**
- Beynəlxalq səviyyəli təşkilatlara üzvlük;
- Beynəlxalq reytinqlərdə iştirak;
- Universitetin ingilis dilli (üçdilli) internet səhifəsinin və broşürların hazırlanması.

**2. Tədris proqramlarının beynəlmiləlləşməsi:**

- beynəlxalq əmək bazarında rəqabət qabiliyyəti kadrların hazırlığı üçün kurikulumun və metodların təkmilləşdirilməsi/ Təhsil proqramlarının milli və beynəlxalq əmək bazarlarının cari tələblərinə uyğunlaşdırılması;
- Peşəkar xarici mütəxəssislərin tədris prosesinə cəlbi;
- Universitetin həm yerli, həm də xarici tələbələr üçün akademik təklifini zənginləşdirəcək ingilis dilində mövcud təhsil proqramlarının təkmilləşdirilməsi və yeni təhsil proqramlarının təşkili/ Xarici dildə həyata keçirilən birgə təhsil proqramlarının sayının və keyfiyyətinin artırılması;
- Akademik prosesin rəqəmsallaşması/ Rəqəmsallaşma vasitəsilə təlim və tədrisin transformasiyasına dəstək;
- Professor-müəllim heyəti üçün ixtisasartırma kurslarının, habelə heyətin peşəkar inkişafı üçün əsas iş yerindən ayrılmadan xarici dil səriştələrinin inkişafı üzrə kursların təşkili;
- Müasir tədris texnologiyalarının tətbiqi;
- Tədris proqramlarının xarici ali təhsil müəssisələrinin təcrübəsi əsasında hazırlanması;
- Nüfuzlu xarici ali təhsil müəssisələri ilə birgə beynəlxalq ikili diplom proqramlarının təşkili;
- Əcnəbi professor-müəllim heyətinin kurikulumların yenilənməsi işinə cəlb edilməsi;
- İkili diplom proqramlarının gələcək dayanıqlığına dair mexanizmin hazırlanması.

**3. Beynəlxalq akademik mobilliyin inkişafı və potensialın gücləndirilməsi istiqamətində layihələrin icrası**:

- ErasmusPlus proqramının da daxil olmaqla mobillikdə iştirak edən tələbələrin, eləcə də akademik heyətin və akademik mobillik müqavilələrin sayının artırılması;
- Universitetin idarəetmə sisteminə töhfə verən regional və beynəlxalq layihələrin sayının artırılması;
- Universitetin administrativ, inzibati və akademik heyəti üçün beynəlxalq təcrübələrinin təşkili.

**4. Əcnəbi tələbələrin cəlbi**:
- Tələbələrin ümumi sayına nisbətdə təhsil alan əcnəbi tələbələrin sayının artırılması (o cümlədən xarici dildə tədris olunan proqramlarda);
- Universitetə qədər hazırlıq proqramı daxil olmaqla əcnəbi tələbə kontingenti üçün təlim keyfiyyətinin yüksəldilməsi;
- Əcnəbi tələbə qəbulunun diversifikasiyası (tələbələrinin qəbul səylərinin coğrafi əhatəsini artırılması/şaxələndirilməsi).
- Universitetin çoxmədəniyyəti və çoxdilli mühitinin formalaşması;

**5. Tədqiqatların beynəlmilləşməsi**:
- Elmi tədqiqatların, elmi məqalələrin nüfuzlu beynəlxalq elmi nəşrlərdə dərcinin təşviq edilməsi;
- Beynəlxalq səviyyəli mütəxəssis və tədqiqatçıların yetişdirilməsində irəliləyiş, nüfuzlu xarici tərəfdaş ali təhsil müəssisələrinin seçimi;
- Əcnəbi professor-müəllim heyətinin, istedadlı tələbələrin elmi araşdırmalarda birgə iştirakını nəzərdə tutan elmi-tədqiqat strukturlarının yaradılması və elmi araşdırma proqramlarının hazırlanması;
- Universitetin tədqiqat imkanlarının (laboratoriyalarının) əhəmiyyətli dərəcədə genişləndirməsi və modernləşdirməsi, dünya standartlarına uyğunlaşdırması.

Beynəlmiləlləşmə siyasətində öz əksini tapan mübadilə proqramları vasitəsilə ADPU-nun tələbə və müəllim heyətinin qarşılıqlı mübadiləsi təmin edilir. Hər mübadilə proqramı çagırış dövründə mübadilə proqramlarının təşviqi məqsədilə ADPU-nun fakültələri və filial direktorları rəsmi məktub və email vasitəsilə məlumatlandırılır, universitetin sosial şəbəkələrində elan şəklində paylaşılır və tələbə gənclər təşkilatı məlumatın tələbələr arasında yayılmasına dəstək olur.

2016-2022-ci illər ərzində Türkiyənin Ali Təhsil Şurasının (YÖK) Tələbə Seçmə və Yerləşdirmə Mərkəzinin (ÖSYM) imtahanlarının nəticələrinə əsasən, Azərbaycan Respublikası ilə xarici ölkələr arasında təhsil sahəsində bağlanılmış ikitərəfli saziş çərçivəsində, ADPU-nun əcnəbi vətəndaşlarla birbaşa bağladığı müqavilələr əsasında ADPU-da təhsil almış 178 nəfər əcnəbi tələbə, 25 nəfər magistr, 9 nəfər doktorant, 128 nəfər əcnəbi dinləyici məzun olmuşdur. Hazırda 100-dək əcnəbi vətəndaş ADPU-nun hazırlıq, bakalavriat, magistratura və doktorantura səviyyələrinin müxtəlif ixtisaslarında təhsil alır. Onların arasında Türkiyə, Rusiya, Gürcüstan, Çin, Türkmənistan, Suriya, Ukrayna, Əfqanıstan, Pakistan və İran vətəndaşları vardır.

ADPU-da təhsil alan əcnəbi tələbələrin əksəriyyətini YÖK xətti ilə qəbul olunan türk vətəndaşları təşkil edirdi. Son illərdə ADPU-ya YÖK xətti ilə əcnəbi tələbə qəbulunun həyata keçirilməməsi əcnəbi tələbə sayının azalmasına səbəb olmuşdur. Belə ki, ADPU-nun bakalavriat səviyyəsi üzrə “Korreksiyaedici təlim”, “Məktəbəqədər təhsil”, “İbtidai sinif

müəllimliyi" ixtisaslarına türk vətəndaşlarının qəbulu YÖK tərəfindən dayandırılmışdır. 2018/2019-cu tədris ilində yalnız iki nəfər Türkiyə vətəndaşı YÖK xətti ilə "Təhsildə sosial-psixoloji" xidmət ixtisasına qəbul olunmuşdur. Həmin vaxtdan bu günədək YÖK xətti ilə ADPU-ya qəbul aparılmamışdır. Türkiyənin Azərbaycandakı Səfirliyinin Təhsil Müşavirlikləri vasitəsilə ADPU-ya kvota ayrılması üçün danışıqlar aparılmış, həmçinin YÖK-ə birbaşa məktub ünvanlanmışdır. Lakin, indiyədək konkret nəticəyə nail olunmamışdır. Dünyada gedən COVİD-19 pandemiyası öz imkanları ilə ADPU-ya təhsil almağa gələn əcnəbi tələbələrin sayının azalmasına səbəb olmuşdur. Həmçinin, Türkiyədə 200-dən artıq universitetlərin və həmin universitetlərin bir çoxunda yuxarıda qeyd olunan ixtisasların mövcudluğu türk vətəndaşlarının əksəriyyətinin öz ölkəsindəki təhsil ixtisaslarına müraciət etməsi ilə əlaqədar, ADPU-ya təhsil almağa gələnlərin sayının azalmasına səbəb olmuşdur. Bütün bunlara baxmayaraq, ADPU-da əcnəbi təhsilalanların cəlb olunmasının təşviq olunması istiqamətində faydalı işlər həyata keçirilmişdir. Bunun nəticəsi olaraq müqavilə yolu ilə və Hökumətlərarası Təqaüd Proqramı çərçivəsində ADPU-ya təhsil almağa gələn əcnəbilərin sayı artmaqdadır

Görülən işlərdən aşağıdakıları göstərmək olar:

- 15 yanvar 2018-ci il tarixdə Feysbuk sosial şəbəkəsində ADPU-nun Əcnəbi tələbələrlə iş şöbəsinin səhifəsi "Adpu internationalstudents" fəaliyyətə başlamışdır. Səhifənin əsas məqsədi əcnəbi məzunları bir araya gətirmək, həmçinin əcnəbilərin cəlbi üçün elan və məlumat xarakterli paylaşımlar etmək, eyni zamanda əcnəbilərlə birlikdə keçirilən tədbirlər barədə izləyiciləri məlumatlandırmaq olmuşdur;
- İlk dəfə olaraq Əcnəbi tələbələrlə iş şöbəsinin (ƏTŞ) Əsasnamə layihəsi hazırlanaraq 2018-ci il oktyabrın 24-də tarixdə təsdiq edilmişdir. Əsasnamə layihəsində ümumi müddəalar, şöbənin vəzifələri, funksiyaları, hüquqları, fəaliyyətinin təşkili adlı paraqraflarda müddəalar öz əksini tapmışdır. 2022-ci ildə yeni əsasnamə layihəsi hazırlanaraq təsdiq olunması üçün aidiyyatı struktura təqdim olunmuşdur;
- ADPU-da 2018-ci ilin yaz semestrdən etibarən əcnəbilərin qəbulu həyata keçirilməyə başlanılmşdır;
- Əcnəbi tələbələr üçün elektron broşür (yaddaş kitabçası) hazırlanaraq 24.12.2018-ci ildə Elm və Təhsil Nazirliyinə təqdim olumuşdur, həmçinin ADPU-nun əvvəlki saytında yerləşdirilməsi təmin edilmişdir;
- 06.11.2019-cu il tarixində Studyinazerbaijan.edu.az internet səhifəsi üçün ADPU haqqında 48 səhifəlik məlumatlar ingilis dilində hazırlanaraq Elm və Təhsil Nazirliyinə təqdim edilmişdir və əcnəbilərin universitet haqqında məlumatlara (təhsil səviyyələri, ixtisaslar, bölmə, dil hazırlıq kursları, təhsil haqqı və s.) əlçatanlığı təmin edilmişdir;
- 19.11.2019-cu il tarixində İordaniya Ali Təhsil və Elmi-Tədqiqat Nazirliyinin internet səhifəsində tanınmaya dair sorğuya uyğun olaraq ADPU haqqında 40 səhifəlik məlumat ingilis dilində hazırlanaraq müraciət forması ilə birlikdə qarşı tərəfə ötürülməsi üçün Elm və Təhsil Nazirliyinə təqdim olunmuşdur. Məqsəd ADPU-da təhsil almaq istəyən əcnəbi gənclərə universitet haqqında məlumatların əlçatanlığını təmin etmək olmuşdur;
- 2021-ci ildə Əcnəbi tələbələrlə iş şöbəsinin instaqram səhifəsi fəaliyyətə başlamışdır.
- Əcnəbilərin qəbulu ilə bağlı SIACAS mərkəzləşmiş müraciət portalı üçün ADPU haqqında məlumatlar atis.edu.az-da yerləşdirilməsi təmin edilmişdir;
- İnternet üzərindən fəaliyyətin aktivləşdirilməsi həyata keçirilmişdir. Əcnəbilərin ölkəyə daxil olması, ADPU-ya qəbul şərtləri və digər lazımi proseduraları əks

etdirən məlumatlar 3 dildə (Azərbaycan, ingilis, rus dillərində) ADPU-nun əvvəlki rəsmi internet səhifəsinin Əcnəbi tələbələrlə iş şöbəsinin bölməsində yerləşdirilmişdir. Yeni internet səhifəsi üçün universitet haqqında məlumatlar 3 dildə (Azərbaycan, ingilis, rus dillərində) hazırlanaraq yerləşdirilməsi üçün İKT şöbəsinə təqdim olunmuşdur.

- ADPU-da türk vətəndaşlarının YÖK vasitəsilə təhsil alması üçün kvota ayrılmasına köməklik göstərilməsi məqsədilə Türkiyə Respublikasının Ali Təhsil Şurasına müraciət olunmuşdur. Türkiyə Respublikasının Azərbaycandakı Səfirliyinin Təhsil Müşavirliyi vasitəsilə bu məsələnin səmərəli həlli üçün zəruri işlər görülür.
- Türkiyənin YÖK imtahanlarında yüksək nəticələrinə görə fərqlənən litseylər araşdırılaraq, həmin litseylərə ADPU haqqında maarifləndirici məlumatlar təqdim edilmiş, türk vətəndaşlarının ADPU-da təhsili təşviq olunmuşdur.
- ADPU-dan məzun olmuş əcnəbi vətəndaşlar vasitəsilə universiteti təbliğ imkanları genişləndirilir.
- ADPU-nun saytı və sosial şəbəkələr (feysbuk, instaqram, vatsap) vasitəsilə universitetdə təhsil imkanları barədə mütəmadi elan xarakterli məlumatlar əcnəbilərə təqdim edilir.
- Hökumətlərarası Təqaüd Proqramı çərçivəsində ADPU-ya əcnəbilərin cəlbi üçün Elm və Təhsil Nazirliyinin aidiyyatı strukturu ilə danışıqlar aparılmış, bunun nəticəsində son illərdə sözügedən proqram çərçivəsində universitetin magistratura və doktorantura səviyyələri üzrə 27 nəfər çinli təqaüdçünün qəbulu həyata keçirilmişdir.
- ADPU-nun Türk tələbələrinin İdarəetmə Şurası ilə birgə universitetin təhsil imkanları barədə təbliğat işi aparılır. Türkiyə və Azərbaycanın əlamətdar tarixi, mədəni, ictimai hadisələrinə uyğun tədbirlər təşkil olunur.
- ADPU-da təhsil alan əcnəbi vətəndaşlar üçün müxtəlif auditoriyadankənar işlər – şəhər (Şəhidlər Xiyabanı, Fəxri xiyaban) və şəhərkənarına (Qobustan, Qala və s.), muzey, abidələrə və sərgilərə ekskursiyalar təşkil edilirADPU-da təhsil alan əcnəbi tələbələrə qayğı ilə yanaşılır, onların təhsili və problemləri diqqət mərkəzində saxlanılır. Mövcud olan problemlərin aradan qaldırılması üçün universitetin digər strukturları ilə birgə həllinə çalışılır.

Aparılan təşviq-təbliğat nəticəsində ADPU-da təhsil almaq üçün müraciət edənlərin sayı artmaqdadır. Eyni zamanda qeyd etmək istəyirik ki, ADPU-da müqavilə yolu ilə təhsil almaq istəyən əcnəbi vətəndaşlar üçün universitetin müsahibə komissiyası fəaliyyət göstərir. Əcnəbi namizədlər komissiyanın iclasına dəvət olunurlar. Müsahibədən uğurla keçən namizədlər universitetdə təhsil almaq hüququ qazanırlar. ADPU əcnəbi tələbə sayının kəmiyyətcə deyil, istedadlı gənclərin seçilməsində və keyfiyyətli tədrisinin təşkilində maraqlıdır. Çünki bu gənclər universiteti, bütövlükdə Azərbaycan təhsilinin öz ölkələrində təbliğatçısına çevrilirlər.

**ADPU-da əcnəbi təhsialanlar haqqında məlumat (təshil səviyyələrinə görə)**

| İllər | Hazırlıq (nəfər) | Təhsilin səviyyələri üzrə (nəfər) | | | Toplam |
|---|---|---|---|---|---|
| | | Bakalavriat | Magistratura | Doktorantura | |
| 2016-17 | 61 | 160 | 9 | 9 | 239 |
| 2017-18 | 24 | 188 | 17 | 1 | 230 |
| 2018-19 | 8 | 190 | 15 | - | 213 |
| 2019-20 | 16 | 162 | 10 | - | 188 |
| 2020-21 | 8 | 117 | 12 | 1 | 138 |
| 2021-22 | 12 | 81 | 7 | 1 | 101 |
| 2022-23 | 10 | 68 | 10 | 3 | 91 |

**ADPU-da əcnəbi təhsialanlar haqqında məlumat (ölkələrə görə)**

| İllər | Türkiyə | Gürcüstan | Çin | Rusiya | Türkmənistan | Ukrayna | Suriya | Digər ölkələr | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2016/17 | 194 | 25 | 13 | 6 | 0 | 0 | 0 | 1 (Kongo) | 239 |
| 2017/18 | 184 | 25 | 14 | 7 | 0 | 0 | 0 | 0 | 230 |
| 2018/19 | 159 | 29 | 13 | 11 | 1 | 0 | 0 | 0 | 213 |
| 2019/20 | 131 | 31 | 10 | 13 | 1 | 1 | 1 | 0 | 188 |
| 2020/21 | 80 | 31 | 10 | 13 | 2 | 1 | 1 | 0 | 138 |
| 2021/22 | 38 | 33 | 9 | 15 | 2 | 2 | 1 | 1 (Özbəkistan) | 101 |
| 2022/23 | 24 | 31 | 11 | 14 | 3 | 4 | 1 | 3 (İran, Əfqanıstan və Pakistan) | 91 |

Qeyd: ADPU-da təhsil alan əcnəbi tələbələrin coğrafiyası cədvəldən də göründüyü kimi genişlənmişdir. Əvvəllər 5 ölkədən əcnəbi tələbələr təhsil alırdısa, hazırda 10 ölkədən olan əcnəbi vətəndaşlar universitetdə təhsil alır. Bunlar təşviqin genişləndirilməsinin nəticəsidir.

Aşağıda illər üzrə əcnəbi tələbələrin cəlb olunma dinamikası göstərilib.




Akademik heyətin beynəlmiləlləşmə proqramlarına cəlb olunması siyasət sənədinin əsas hədəflərindən biridir. 2016-2023-cü illərdə ADPU-nun akademik heyəti ADPU-nun tərəfdaş olduğu ERASMUS+ KA1 (2 layihə üzrə) və KA2 (3 layihə üzrə) və DAAD proqramı tərəfindən maliyyələşdirilən "Müsəlman Dünyası ilə Ali Təhsil Dialoqu" layihəsi üzrə ümumilikdə 27 nəfər beynəlmiləlləşmə proqramlarında iştirak etmişdir. Akademik heyətin beynəlmiləlləşmə dinamikası aşağıdakı cəvəldə göstərilib.




Siyasət sənədində universitetin beynəlxalq imicinin təşviqi istiqamətində görülən işləri sırasında mübadilə proqramlarının artırılması, əcnəbi təhsilalanların cəlb olunmasının təşviqi, universitetin beynəlxalq səviyyəli təşkilatlara üzvlüyü, ikili diplom proqramlarının icrası və sayının artırılması da öz əksini tapıb.

ADPU-da tələbə və müəllimlərin beynəlxalq proqramlarda fəal iştirakını təmin etmək, həmçinin onların mövcud mexanizmlərdən istifadə etmələri üçün təşviqat və təbliğat işləri aparılır. Universitet Avropa Birliyinin Erasmus+ KA1 Mobillik Proqramı, Erasmus+ KA2 Ali Təhsildə Potensialın Gücləndirilməsi Layihələri, Tvinninq layihəsi, Yerli Qrant Layihələri, Türkiyənin Mevlana Mübadilə Proqramı, Alman Akademik Mübadilə Xidməti (DAAD) kimi beynəlxalq proqramların təqdim etdiyi imkanlardan yararlanır, bu proqramlar çərçivəsində xarici universitetlərlə əməkdaşlıq edir və mübadilə həyata keçirir.

ADPU 2016-2023-cü illər ərzində 67 əməkdaşlıq müqaviləsinə imza atıb. Onlardan 45 ikitərəfli əməkdaşlıq müqaviləsi, 15 Mövlanə Mübadilə Proqramı Protokolu, 6 ERASMUS+ KA1 müqaviləsi və 1 universitetlə ikili diplom proqramı çərçivəsində əməkdaşlıq müqaviləsi mövcuddur. Həmin illər ərzində sözügedən proqramlar çərçivəsində ADPU-nun 21 təhsilalanı, 27 nəfər akademik heyəti beynəlmiləlləşmə proqramlarına cəlb olunublar.

ADPU dünyanın bir çox ölkələri ilə əlaqələri genişləndirir, bununla yanaşı bir sıra beynəlxalq təşkilatlara üzvlük edir. 2002-2021 – ci illər Qara Dəniz Universitetlər Birliyinin, 2008-ci ildən Avropa Müəllim Hazırlığı Şəbəkəsinin (ETEN), 2017-2021-ci illər Universitet Prezidentlərinin Beynəlxalq Assosiasiyasının (İAUP) üzvüdür. Üzvlükdə məqsəd Avropanın müəllim hazırlığı ilə məşğul olan ali təhsil müəssisələri ilə əməkdaşlıq şəbəkəsi yaradaraq bilik mübadiləsi və mobillik imkanlarını genişləndirməkdir. Universitet EURAS, KÜNİB kimi təşkilatlarla yaxından əməkdaşlıq edir.

2019-2023-cü illər üçün dövlət proqramı əsasında həyata keçirilən ikili diplom proqramı ABŞ-ın Corc Vaşinqton Universiteti-nin (CVU) “Təhsil və İnsan İnkişafı” məktəbi ilə birgə həyata keçirilir. İki illik birgə beynəlxalq magistratura proqramı ”Təhsil siyasəti və idarəetməsi” ixtisası üzrə həyata keçirilir. Proqrama ilk qəbul 25 nəfər olmaqla 2020-ci ildə olmuşdur. 2022-ci ilin iyununda proqramı 22 nəfər məzun uğurla başa vurmuşdur. Hazırda proqramda 60 nəfər tələbə təhsil alır.

Proqramın həyata keçirilməsi və kurikulumun hazırlanması ADPU-ilə CVU arasında 30 yanvar 2020-ci ildə imzalanmış müqavilə əsasında icra olunur. ADPU-nun tədris etdiyi fənlərin və onların məzmununun müəyyən olunması Təhsil İnstitutu ilə əməkdaşlıq əsasında hazırlanmışdır. Tədris planı 2021-ci ilin 7 oktyabr tarixində Elmi Şura tərəfindən təsdiq edilmişdir. 20 fəndən (120 kredit) və capstone project-dən ibarət olan tədris planında 10 fənn CVU, 10 fənn də ADPU professor-müəllim heyəti tərəfindən tədris olunur. Hər fənn üçün 6 AKTTS müəyyən olunmuşdur. Tələbələrin amerikan kredit sistemi üzrə aldıqları qiymətlər AKTS sisteminə transfer edilir.

Dərslərin tədrisində müasir təlim metodlarından, innovativ üsullardan istifadə olunur. Qrup layihələrinin icrası, komanda işi, simulyasiyalardan, tədqiqat formalarından geniş şəkildə istifadə olunaraq tələbələrin təkcə bilik almasına deyil, onların tətbiqinə imkan verən kompetensiyalarının artırılmasına xüsusi diqqət yetirilir. Tədrisə və təlimə bu kimi yanaşmalar əslində AKTTS tələblərinə təkcə formaca deyil, mahiyyət baxımından da daha çox cavab verməsinə imkan yaradır.

Bu baxımdan CVU ilə birgə həyata keçirilən ikili diplom proqramı həm yerli, həm də beynəlxalq təcrübənin üstün cəhətlərini tətbiq edir. Beləliklə, tələbələr bu kimi beynəlxalq proqramda təhsil almaqla yanaşı, həm də yerli qanunvericilik mühitində beynəlxalq praktikanın tətbiqi imkanları ilə əyanı şəkildə öyrənmək imkanı əldə edirlər.

ADPU beynəlxalq ikili diplom proqramlarının sayını artırmaq məqsədilə Türkiyənin Ankarada yerləşən Qazi Universiteti ilə Məktəbəqədər təhsil sahəsi üzrə birgə proqramın icrası üçün müəyyən hazırlıqlar ərəfəsindədir. Artıq müqavilə nüsxəsi hazırlanmış, rəhbərliyin müzakirəsinə təqdim edilmişdir. Bundan başqa, Litvanın Vytatus Magnus Universiteti ilə ikili diplom proqramlarının icrası üçün danışıqlara başlanılıb.

## 7.2. Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilatı strukturu

ADPU-nun beynəlxalq əməkdaşlıqla əlaqəli bütün struktur bölmələri universitetin beynəlxalq əlaqələr üzrə prorektoru tərəfindən koordinasiya olunur. Universitetin beynəlxalq əlaqələri aşağıdakı istiqamətlər üzrə qurulmuşdur:

- Xarici universitet, təşkilat və mərkəzlərlə ilə əməkdaşlıq (Beynəlxalq əlaqələr şöbəsi)
- Beynəlxalq layihələr və qrantlar (Beynəlxalq layihələr və qrantlar şöbəsi
- Əcnəbi tələbələrin qəbulu və tədrisi (Əcnəbi tələbələrlə iş üzrə şöbə)
- Beynəlxalq və yerli təlimlərin təşkili və idarə olunması (Təlim-tədris Mərkəzi)

Beynəlmiləlləşmə siyasəti və bundan irəli gələn işlərin düzgün nəzarəti üçün universitetin beynəlxalq əlaqələrinə cavabdeh struktur bölmələrində son 3 il ərzində bir sıra struktur islahatları aparılmış və şöbələrin işləri təkmilləşdirilmişdir. Belə ki, fəaliyyətlərin daha çevik və optimallaşdırılması üçün 2020-ci ildə Təlim- tədris Mərkəzi, 2021-ci ildə Beynəlxalq layihələr və qrantlar şöbəsi yaradılmışdır.

Mübadilə proqramlarında tələbə seçimi beynəlxalq əlaqələrə və tədris planının uyğunluğu məsələləri fakültə və tədris departamentinin müvafiq bölmələrinə, akademik heyət seçimi məsələsi fakültələrə yönləndirilir. Həm tələbə, həm də müəllim seçimi tam şəffaf şəkildə - elan yerləşdirilməsi, namizədlərin seçimi, onlardan lazımi sənədlərin toplanması, namizəd sayına uyğun siyahı tərtib edilərək qarşı tərəf universitetə göndərilməsi və s. prosedurlar ardıcıllıqla həyata keçirilir.

Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi zamanı ADPU-nun müvafiq struktur vahidləri işə cəlb olunur. İşə cəlb olunan struktur vahidləri qrafik şəklində aşağıdakı cədvəldə göstərilib.




Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması proseduru ADPU-da tədrisin təşkili, kreditlərin tanınması və tələbələrin attestasiyasına dair qaydaları ilə tənzimlənir. Qaydalar ADPU-nun Elmi Şurasının 29 dekabr 2022-ci il tarixli iclasının (protokol № 3) qərarı ilə təsdiq edilmişdir. Kredit transferi ADPU-da və tələbəni qəbul edən digər ali təhsil müəssisəsində vahid kredit sistemi yaratmaqla Tədris departamenti ilə birlikdə həyata keçirilir. Mübadilə zamanı keçiriləcək əsas fənlərin mövzusu araşdırılır və ortaq fənlər müəyyən edilir. Tələbənin transkripti, universitet rəhbərliyi tərəfindən təsdiq edilmiş təhsil proqramının və fənlərin sillabusu, kreditlərin tanınması və ekvalentliyinin tanınması üçün zəruri olan sənədlərdir. Tələbə uyğunluq gözlənilməklə seçilən əsas fənlərdən və təhsil proqramında seçmə fənn bloku üzrə nəzərdə tutulan fənlərə aid məşğələlərdən və attestasiyadan azad olunur. Digər ali təhsil müəssisələrində qazanılacaq kreditlərin sayı ixtisas (ixtisaslaşma) üzrə nəzərdə tutulmuş kreditlərin 30%-dən çox olmamalıdır. Növbəti mərhələdə tələbə haqqında məlumatları əks etdirən Təhsil müqaviləsi hazırlanır. Həmin müqavilə ADPU-nun məsul şəxsləri və tələbə tərəfindən imzalandıqdan sonra mübadilə proqramı çərçivəsində

tələbəni qəbul edən universitetə təsdiq üçün göndərilir. Tələbə digər ali təhsil müəssisəsində təhsilini tamamladıqdan sonra mübadilə zamanı əvəzlənməmiş fənlərin alt qruplarında iştirak edərək kredit borclarını bağlayır.

ADPU əcnəbi müəllimlərin tədris prosesinə cəlb olunması məsələsinə xüsusi diqqət ayırır. Bu yanaşma siyasət sənədində də öz əksini tapıb. 2016-2022-ci illər ərzində ADPU ümumilikdə 10 əcnəbi müəllimin tədris prosesinə, eləcə də kurikulumların yenilənməsi işinə cəlb olunmasına dəstək verib. Aşağıda cəlb olumuş əcnəbi müəllimlərin siyahısı və inkişaf dinmaikasını əks etdirən diaqram göstərilib.

Fulbrayt proqramı çərçivəsində 2016-2017-ci tədris ilində Valden Universitetinin dosenti Melda Yıldız "Kurikulumun idarə edilməsi", "Təhsil sisteminin idarə edilməsi", "Qiymətləndirmə, monitorinq və dəyərləndirmə" və "Filologiya" fakültəsinin tələbələri üçün "Müasir ingilis dili", "Xarici dildə oxu və nitq", "Orta oxu və nitq", "Yuxarı oxu və nitq" və "Yüksək oxu və nitq" fənlərindən mühazirə demişdir.

Mary Diane Whaley 2017 aidiyyəti rəhbər şəxslərlə görüşlərin keçirilməsi, İngilis dili müəllimliyi ixtisasının tədris planının yenidən işlənməsi, sillabusların təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması görüşləri keçirilib.

Annette Bruun, Klaus Bruun Hansen, Brigitte Damgaard (2017/2018) ADPU və UCC arasında bağlanmış müəssisələrarası müqavilə çərçivəsində mübadilədə iştirak edib.

2018-ci ildə ABŞ-nin Bakıdakı səfirliyi ilə əməkdaşlıq çərçivəsində Lehigh Universitetinin professoru Jill Sperando universitetdə aparılan islahatları dəstəkləmək və planlaşdırmaq məqsədilə tədqiqatçı kimi çalışmış, müəllimlər üçün "Yeni öyrənmə metodları və təlim biliyinin qiymətləndirilməsi" mövzusunda seminarlar keçirmiş və tədris prosesinin modernləşdirilməsinə dəstək olmuşdur.

ABŞ Dövlət Departamentinin maliyyələşdirdiyi "Fulbright English Language Specialist" təqaüd proqramı çərçivəsində ingilis dili mütəxəssisi Mary Diane Whaley və İan Dooley 09.11.2018-23.12.2018-ci il tarixlərdə ADPU-ya dəvət olunmuşdur. Onun universitetdə fəaliyyət göstərdiyi müddətdə aidiyyəti rəhbər şəxslərlə görüşlərin keçirilməsi, İngilis dili müəllimliyi ixtisasının tədris planının yenidən işlənməsi, sillabusların təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması nəzərdə tutulur.

Klaus Bruun (2019/2020) ADPU və UCC arasında bağlanmış müəssisələrarası müqavilə çərçivəsində mübadilədə iştirak edib.

Peter Mikael Hansen, Klaus Bruun və dosenti Jesper Heidemann Langhoff (2021/2022) ADPU və UCC arasında bağlanmış müəssisələrarası müqavilə çərçivəsində mübadilədə iştirak edib.

ABŞ Dövlət Departamentinin maliyyələşdirdiyi "English Language Fellow" təqaüd proqramı çərçivəsində ingilis dili mütəxəssisi Richard Schlight 2020-2021, 2021-2022 1 semester əyani, 5 semester online olmaqla ingilis dili müəllimliyi ixtisasında "Xarici dil bacarıqları" dərsi keçib.

ABŞ-nin Bakıdakı səfirliyi ilə əməkdaşlıq çərçivəsində, 2021-ci ildə ABŞ-nin Aviasiya universitetinin ingilis dili üzrə mütəxəssisi Embri Ridl tərəfindən universitetin müəllimlərinə "Akademik yazı" mövzusunda 3 aylıq onlayn təlim keçib.

Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinin Təhsil Müşavirliyinin dəstəyi ilə Qaziantep Universiteti Qaziantep Təhsil fakültəsi təhsil elmləri kafedrasının təhsilin fəlsəfi sosial və tarixi əsasları ixtisası üzrə fəlsəfə doktoru Sadık Çetin 2021/2022-ci tədris ilinin ikinci semestrindən ADPU-da "Tarix müəllimliyi", " Tarix və coğrafiya müəllimliyi" ixtisaslarının tədris planına uyğun olaraq "Osmanlı tarixi" fənnindən mühazirə kursu oxuyur

Ariella Kissin ABŞ Dövlət Departamenti tərəfindən "Fulbright English Teaching Assistant" proqramı çərçivəsində Ariella Kissing Filologiya fakültəsində 2022-2023 -cü illər ərzində ingilis dilini tələbələrə tədris edir, danışıq qrupları və auditoriyadan kənar saatlar təşkil edir.

William Wilder Bausch (2022/2023) ABŞ Dövlət Departamenti tərəfindən “Fulbright English Teaching Assistant” proqramı çərçivəsində ADPU-nun Şəki filialında kitab, danışıq klubları təşkil edərək filial tələbələrinin auditoriyadan kənar saatlarının səmərəli keçməsinə dəstək olur.

Jacqueline Stephen (2022/2023) ABŞ Dövlət Departamenti tərəfindən “Fulbright English Teaching Assistant” proqramı çərçivəsində ADPU-nun inzibati, akademik və tələbə heyətinin kommunikasiya bacarıqları, kurikulum dizaynı kimi təlimlərə cəlb olunur.

Səfərlərdə əsas məqsəd Azərbaycan təhsil sistemi, eyni zamanda ADPU rəhbərliyi və heyəti ilə yaxından tanış olmaq, əməkdaşlığın genişləndirilməsi istiqamətində görüşlər keçirmək, bilik və təcrübə mübadiləsi aparmaqdır.

2016-2023-ci illər üzrə ümumilikdə 19 nəfər əcnəbi müəllim heyəti tədris prosesinə cəlb olunub.




ADPU-nun yeni hazırlanmış beynəlmiləlləşmə siyasətinin idarəedilməsi universitetin rektoru və beynəlxalq əlaqələr üzrə prorektorunun səlahiyyətlərinə daxildir, burada əsas icraçı struktur isə universitetin Beynəlxalq əlaqələr şöbəsi, fakültə və kafedralardır. Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinə nəzarət mexanizmi formalaşdırılaraq 2022-2023-cü tədris ilindən etibarən illik və ya yarımillik hesabatlar formasında monitorinq edilməsi nəzərdə tutulub.

Akademik mobilliyin inkişafı üzrə layihələrin icrası istiqamətində ADPU əlaqələrini genişləndirməkdə davam edir.

2016-2023-cü illərdə ADPU-nun akademik heyəti Erasmus+ akademik mobillik proqramında iştirak edib. Bu müddət ərzində universitetin müəllim-professor heyəti Erasmus+ proqramı KA1 layihəsi çərçivəsində Danimarkanın Kopenhagen Universitet Kollecində (UCC) 9 nəfər, Ruminyanın Qalati şəhərində “Dunărea de Jos” Universitetində (UDJG) 2 nəfər təcrübə mübadiləsində iştirak etmişdir. 2020-2021-ci illərdə pandemiya səbəbindən akademik heyətin mübadiləsi fəaliyyəti dayandırılmışdır. 2016-2023-cü illər üzrə akademik heyətin mübadilə dinamikası aşağıda göstərilib.




Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaflığını və əlçatanlığını təmin etmək üçün hər mobillik çağırışı zamanı Beynəlxalq əlaqələr üzrə prorektor tərəfindən fakültələr və filial direktorlarına rəsmi məktub göndərilir. Məlumatı fakültə rəhbərləri və filial direktorları elan şəklində professor-müəllim heyəti arasında yayımlayır. Proqramda iştirak etmək istəyən namizədlərin siyahısı beynəlxalq əlaqələr şöbəsinə təqdim edilir. Xarici dil biliyi və peşəkarlığı ilə fərqlənən namizədlərin mobillikdə iştirakı təsdiq olunur.




Diaqram 2016-2023-cü illərdə ADPU-nun beynəlxalq və mübadilə proqramlarında iştirak edən akademik, inzibati və tələbə heyətinin mobillikdə iştirakının dinamikasını əks etdirir. Mobillik Danimarkanın Kopenhagen Universitet Kolleci, Türkiyənin Qazi və Bilkent Universitetləri, Finlandiyanın Yuvaskala Universiteti, Avstriyanın Vyana Tətbiqi Elmlər Universiteti, İsveçin Kral Texnologiya Universiteti, İngiltərənin Middlesex Universiteti,

Litvanın SMK Tətbiqi Elmlər Universiteti, Polşanın Varşava İqtisadiyyat məktəbi, Almanyanın Fridrix Alexandr Universiteti, Ruminyanın Dunarea de Jos Galati Universiteti, Fransanın Beynəlxalq Təhsil Universiteti, Abay adına Qazaxıstan Milli Pedoqoji Universiteti ilə aparılıb. 2020-2021-ci illərdə pandemiya səbəbindən akademik heyətin mübadiləsi həyata keçirilməyib. 2021-2023-cü illər ərzində ADPU-nun “Rektorlar Konfransının Yaradılması” (ECAR) layihəsinə tərəfdaş qismində qoşulduqdan sonra hərəkətlilik intensivləşib.

2016-2023-cü illər ərzində ADPU-nun 27 nəfər akademik heyəti, 49 nəfər inzibati heyəti, 21 nəfər tələbəsi beynəlmiləlləşmə proqramında iştirak edib.




ADPU https://www.4icu.org/ “uniRank”, “EduRank”, “Webometrics”, Academic İnfluence və digər beynəlxalq agentliklərin reytinqlərində yer alır.

Aşağıda 2022-ci il üzrə reytinq göstəriciləri verilmişdir:

| Reytinq | link | Logo |
|---|---|---|
| 10196 | https://www.4icu.org/ | UniRank |
| 7639 | https://www.edurank.org/ | EduRank |
| 6611 | https://www.webometrics.info/en/europe/azerbaijan | Webometrics RANKING WEB OF UNIVERSITIES |
| 2482 | https://academicinfluence.com/ | ACADEMIC INFLUENCE |

## 7.3. Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar

Beynəlmiləlləşmə siyasətinin icra edilməsi əsasən Avropa Birliyi qrant layihələrindən, Elm və Təhsil Nazirliyi və ADPU büdcəsindən ayrılan maliyyə resursları vasitəsilə tənzimlənir. Siyasətin icra edilməsində Beynəlxalq əlaqələr üzrə prorektorluq ADPU-nun digər struktur vahidləri ilə əməkdaşlıq edir.

ADPU 2016-2023-cü illərdə 11 beynəlxalq qrant layihəsinin işlənilməsinə birbaşa olaraq cəlb olunmuşdur. Bu layihələr çərçivəsində Avropanın ali təhsil məkanının ən yaxşı təcrübəsini öyrənərək universitetin potensialının artırılmasına dəstək olur.

Bunlardan 5-i Erasmus KA1, 4-ü Erasmus KA2, 1-i DAAD proqramı, Azərbaycan Respublikasının Prezidenti Yanında Elmin İnkişaf Fondu qrant müsabiqəsi çərçivəsində layihələr həyata keçirir. Layihələr çərçivəsində elm və təhsil sahəsində müxtəlif istiqamətlər üzrə ən yaxşı Avropa təcrübəsi öyrənilmiş, elmi əməkdaşlıq sahələri müəyyən edilmiş və geniş əməkdaşlıq şəbəkəsi qurulmuşdur.

1. “Azərbaycan Universitetlərində Təlim və Tədrisin təkmilləşdirilməsi”, (PETRA),(2017-2020) Erasmus+ KA2 layihəsi - 66.093 Avro;
2. “Azərbaycan Universitetlərində Keyfiyyətə Nəzarət Mərkəzinin Yaradılması və İnkişaf Etdirilməsi” (EQAC) Erasmus+ KA2 layihəsi (2017-2021) – 43.672 Avro;
3. Azərbaycan və Rusiya ali təhsil müəssisələrində tədris, öyrənmə və qiymətləndirmədə təhsilin daxili keyfiyyət təminatının artırılması (IQIinAR) Erasmus+ KA2 layihəsi (15.01.2021-14.01.2024) – 68.875 Avro;
4. “Azərbaycanda Rektorlar Konfransının Yaradılması” (ECAR) Erasmus+ KA2 layihəsi (2021-2023) -39.328 Avro;
5. “Müsəlman Dünyası ilə Ali Təhsil Dialoqu” layihəsi (DAAD) (2021-2023) - 30.097 Avro.

ADPU-nun beynəlmiləlləşmə siyasətinin əsas icraçısı kimi “Beynəlxalq əlaqələr şöbəsi” 2021-ci ildən etibarən 8 ştat vahidindən, Əcnəbi tələbələrlə iş şöbəsi 5 ştat vahidindən, Beynəlxalq layihələr və qrantlar şöbəsi 4 ştat vahidindən, Təlim-tədris mərkəzi isə 6 ştat vahidindən ibarət olmaqla, ümumilikdə 23 işçi komandası fəaliyyət göstərmişdir.

## 7.4. Beynəlmiləlləşmə performansı

ADPU-nun Beynəlxalq əlaqələr şöbəsi tərəfindən beynəlxalq əməkdaşlıqların qurulması; kurikulumun beynəlxalq tələblərə uyğunlaşdırılması; müəllim və tələbələrin mübadiləsi; xarici ali təhsil müəssisələri ilə birgə təhsil proqramlarıının həyata keçirilməsi; əcnəbi tələbələrin cəlb edilməsi, tələbə və müəllim mübadiləsinin sayının artırılması, ikili diplom proqramlarının genişləndirilməsi, əcnəbi müəllimlərin tədrisə cəlbi, beynəlxalq qrant layihələri çərçivəsində akademik və inzibati heyətin potensialının artırılması, bütün ixtisaslar üzrə tədris planlarının beynəlxalq tələblərə uyğunlaşdırılması və s. istiqamətlər üzrə özünütəhlil aparılır və zəif nöqtələr müəyyənləşdirilir. Həmin nəticələrə əsasən beynəlmiləlləşmənin fəaliyyət göstəricilərinin təkmilləşdirilməsi üçün işlər aparılır. Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlər istiqamətində beynəlxalq layihələr və qrantlar şöbəsi bir sıra təlimlər həyata keçirir.

- Layihə yazılışı və idarəedilməsi ilə bağlı təlimlər (2022-ci ildə 2 dəfə);
- Layihələrin maliyyələşməsi imkanları (müsabiqə, qrantlar, fondlar) haqqında təlimlər (2022-ci ildə 2 dəfə);
- Horizon Europe proqramı haqqında məlumat sessiyaları (2022-ci ildə 2 dəfə);
- Erasmus+ məlumat seminarı (2022-ci ildə 1 dəfə).




2016-2023-cü illər ərzində ADPU 67 əməkdaşlıq müqaviləsinə imza atıb. Onlardan 45 ikitərəfli əməkdaşlıq müqaviləsi, 15 Mövlanə Mübadilə Proqramı Protokolu, 6 ERASMUS+ KA1 müqaviləsi və 1 universitetlə ikili diplom proqramı çərçivəsində əməkdaşlıq müqaviləsi mövcuddur.

## 5.Azərbaycan Dövlət Pedaqoji Universitetinin özünütəhlil nəticələri

| İstiqamətlər və meyarlar | Yekun Bal | Uyğun deyildir | Qismən uyğundur | Əsasən uyğundur | Uyğundur |
|---|---|---|---|---|---|
| **1. Strateji inkişaf** | | | | | |
| 1.1 Ali təhsil müəssisəsinin (ATM) missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri | 34 | | | | |
| 1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi | 11 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **45** | | | | |
| **2. Keyfiyyət təminatı** | | | | | |
| 2.1 Keyfiyyət təminatı siyasəti | 11 | | | | |
| 2.2 Daxili keyfiyyət təminatı mexanizmləri | 29 | | | | |
| 2.3 Keyfiyyət təminatı mədəniyyəti | 12 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **52** | | | | |
| **3.Təlim və tədris** | | | | | |
| 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması | 11 | | | | |
| 3.2 Təhsil proqramları | 28 | | | | |
| 3.3 Tədrisin təşkili | 60 | | | | |
| 3.4 Tədris metodları və üsulları | 19 | | | | |
| 3.5 Təlim və tədris resursları | 40 | | | | |
| 3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | 32 | | | | |
| 3.7 Professor-müəllim heyəti | 32 | | | | |
| 3.8 Tələbəyönümlü tədris | 30 | | | | |
| 3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi | 12 | | | | |
| 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi | 12 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **276** | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **4. Elmi tədqiqat** | | | | | |
| 4.1 Elmi-tədqiqat strategiyası | 22 | | | | |
| 4.2 Tədqiqat resursları | 19 | | | | |
| 4.3 Elmi-tədqiqat fəaliyyəti | 55 | | | | |
| 4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti | 9 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **105** | | | | |
| **5. İdarəetmə sistemi** | | | | | |
| 5.1 İdarəetmə orqanları | 21 | | | | |
| 5.2 İnsan resurslarının idarə edilməsi | 23 | | | | |
| 5.3 Maliyyə resusrlarının idarə ediləsi | 35 | | | | |
| 5.4 İnformasiya idarəetmə sistemi | 15 | | | | |
| 5.5 İctimaiyyətlə əlaqələr | 17 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **111** | | | | |
| **6. İnfrastruktur** | | | | | |
| 6.1 Tədris infrastrukturu | 31 | | | | |
| 6.2 Elmi-tədqiqat infrastrukturu | 4 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **35** | | | | |
| **7. Beynəlmiləlləşmə** | | | | | |
| 7.1 Beynəlmiləlləşmə siyasəti | 17 | | | | |
| 7.2 Beynəlmiləlləşmə prosesinin idarə edilməsi və təşkilatı strukturu | 26 | | | | |
| 7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar | 10 | | | | |
| 7.4 Beynəlmiləlləşmə performansı | 5 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **58** | | | | |
| **Təhsil müəssisəsi üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi** | **682** | | | | |

## 6. Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər

ADPU-da akkreditasiya üzrə aparılan özünütəhlil işlərinin nəticəsində Təşkilat Komissiyası aşağıdakı əsas nəticələrə gəlmişdir:

1. **<u>Strateji inkişaf istiqaməti üzrə</u>**

- ADPU-da SİP-nin hazırlanması üçün yerli və xarici mütəxəssislərin və bütün maraqlı tərəflərin iştirakı ilə onlarla sorğular keçirilmiş və GZİT analizi edilmiş, təklif olunmuş strateji plan layihələri və 2015-ci ildə qəbul edilmiş plana əsasən, "ADPU 2018-2021" Starteji İnkişaf Planı Elmi Şurada qəbul edilmişdir.
- ARETN-nin əmri ilə 25 iyun 2021-ci tarixində ADPU-da strateji inkişaf məsələləri üzrə prorektorluq yaradılmışdır. 07 oktyabr 2021-ci il tarixli Elmi Şuranın qərarı ilə Strateji inkişaf məsələləri üzrə prorektorluğun nəzdində Strateji İnkişaf Mərkəzi təsis edilmişdir.
- "ADPU-2021" Strateji İnkişaf Planında 5 əsas istiqamət üzrə tədris və ümumi idarəçilik işləri üzrə 102, elm və innovasiyalar üzrə 65, beynəlxalq əlaqələr və inkişaf sahəsi üzrə 34, inzibati və iqtisadi işlər üzrə 32, sosial və humanitar işlər üzrə 31 olmaqla, cəmi 264 işin görülməsi nəzərə tutulmuşdur. Bu işlərindən 238-i iş tam (90%), 21-i qismən (8%), 5-i iş icra (2%) edilməmişdir.
- Universitetin bütün struktur bölmələri bu işlərin icrasına birbaşa məsul və köməkçi qurumlar kimi cəlb edilmişdir. Strukturların illik iş planları, onun əsasında isə ADPU-nun illik iş planı ilə Strateji İş Planı detallandırılmış və icra edilmişdir. Ayrı-ayrı strukturların illik hesabatları sahə prorektorluqları vasitəsilə nəzarətdə saxlanılmış, monitorinq edilmiş, hesabatlar dinlənilmişdir.
- ADPU-nun Elmi Şurası 2020/2021-ci tədris ilinin pandemiya şəraitində davam etməsini, 2020-ci ildə Zəfərlə yekunlaşmış Vətən müharibəsini, onun nəticələrini, Böyük Qayıdış-I Dövlət Proqramını, universitetin 2023-cü ilin aprelində institusional akkreditasiya olunmasını və onun hədəflənən nəticəsini nəzərə alaraq, 29 dekabr 2022-ci il tarixli iclasının qərarı ilə "ADPU-2021" Strateji İnkişaf Planının icrasını 2023-cü ilin sonunadək uzatmışdır.
- ADPU-nun 2018-2021-ci illər üzrə Strateji İnkişaf Planının icrası 29.12.2022-ci il Elmi Şuranın qərarı ilə 2023-cü ilin sonuna qədər uzadılmışdır. Elmi Şuranın 14.09.2022-ci il tarixli qərarı ilə "ADPU 2023-2030" Strateji İnkişaf Planının hazırlanması məqsədilə işçi qrup yaradılmışdır.

2. **<u>Keyfiyyət təminatı istiqaməti üzrə</u>**

- Universitet 2018-ci ildə Avropa komissiyasının Erasmus+ proqramı çərçivəsində "Azərbaycan Universitetlərində Keyfiyyətin Təminatı (KT) Mərkəzlərinin Yaradılması və İnkişaf Etdirilməsi (EQAC)" adlı üç illik layihəsinə qoşulmuşdur. Həmin ildə universitetdə daxili keyfiyyət sistemi institusional səviyyədə qurulmuşdur. İlk növbədə maraqlı tərəflər arasında sorğular aparılaraq hədəf qrupunun ehtiyacları universitet tərəfindən SWOT təhlilə əsasən müəyyənləşdirilmişdir.
- Universitetin Elmi Şurasının 14 sentyabr 2018-ci il tarixli iclasının qərarı ilə (protokol № 1) ADPU-da Keyfiyyət Siyasəti sənədi təsdiq edilmişdir.
- ESG standartlarına əsasən layihənin xarici tərəfdaşları Avropa universitetlərinin əməkdaşları tərəfindən dəyərləndirilmiş və onlar tərəfindən müəyyən tövsiyələr paketi hazırlanmışdır.

- ADPU-da bütün proseslərin monitorinqini və davamlı təkmilləşdirilməsini onun strateji məqsəd və vəzifələrinə, milli və beynəlxalq inteqrasiya öhdəliklərinə, habelə dövrün tələblərinə uyğun keyfiyyət siyasəti tətbiq edilir.
- ADPU keyfiyyət siyasəti olaraq missiyasına, vizyonuna və əsas dəyərlərinə əsasən maraqlı tərəflərin ixtisaslı kadr hazırlığı proseslərində yüksək səviyyədə iştirakını və məmnunluğunu təmin edir.
- 3 dekabr 2018-ci il tarixindən ADPU-da mərkəzləşdirilmiş daxili keyfiyyət təminatı sistemini təmin edən kollegial qurum kimi Elmi Şuranın qərarı ilə rektorun rəhbərlik etdiyi Keyfiyyətin Təminatı Komissiyası fəaliyyət göstərir. Bu komissiya ildə bir-neçə dəfə görüşərək ADPU-da aparılan işlərin keyfiyyət göstəricilərini müzakirə edir.
- 19 noyabr 2021-ci il tarixindən başlayaraq, ADPU-nun beş filialında da Keyfiyyətin təminatı şöbələri fəaliyyətə başlamışdır. Həmin ildən universitetin bütün filiallarını və kollecini əhatə edə bilən, Keyfiyyətin Təminatı Komissiyanın nəzdində 26 nəfərdən ibarət Keyfiyyətin təminatı üzrə işçi qrupu fəaliyyət göstərir.
- Keyfiyyətin təminatı şöbəsi tərəfindən 2021-ci ildən başlayaraq, 30 mart - 19 aprel tarixinədək ADPU-da tədris, öyrənmə mühiti, təchizat və gözləntilərlə bağlı 60 sualdan ibarət Tələbə Məmnuniyyəti ilə əlaqədar meqasorğu keçirilmiş, nəticələr təhlil olunaraq Elmi Şurada geniş müzakirə edilmişdir. Sorğuda 2021-ci ildə 2976 nəfər, 2022-ci ildə isə 7260 (bütün kollec və filiallar da daxil olmaqla 8964) tələbə iştirak etmişdir.
- İlk dəfə olaraq 2022-ci ildə ADPU-da Keyfiyyətin Təminatı şöbəsi tərəfindən 38 keyfiyyət göstərici üzrə vahid sistem əsasında fakültələr, filiallar və kollecin institusional qiymətləndirilməsi işinə başlanılmışdır.
- Bütün bu işlərin nəticəsi olaraq Universitetdə akademik-inzibati heyətin fəaliyyətinin keyfiyyətini daim artıran rəqabət mühiti yaradılmışdır.

3. <u>Təlim və tədris istiqaməti üzrə</u>

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin (NK) 2007-ci il 25 iyun tarixli 102 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyasına müvafiq olaraq ADPU-da bu sahədə yüksək ixtisaslı kadrlar hazırlanır. Universitetdə tədrisi təşkil edilən ixtisas və ixtisaslaşmalarda təhsilalanların say həddi üzrə sifarişlər verilərkən cəmiyyətin və əmək bazarının ehtiyacları nəzərə alınmağa çalışılır.
- ADPU-da ali təhsil pilləsinin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə ETN-nin təsdiq etdiyi Təhsil Proqramlarına, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanuna, "Elm haqqında" Azərbaycan Respublikası Qanuna, Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də mövcud ixtisas təsnifatlarına, "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nin müvafiq səviyyələrinə uyğun mütəxəssis və elmi-pedaqoji kadr hazırlığı aparılır.
- Universitetdə əvvəlki akkreditasiya dövrü ilə müqayisədə tədris prosesində nəzərə çarpacaq dərəcədə kəmiyyət və keyfiyyət dəyişikliyi var.
- Universitetdə tədrisin təşkili "Təhsil haqqında" AR Qanunun, NK-nın 2010-cu il 23 aprel tarixli 75 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın, 2010-cu il 24 iyun tarixli 117 nömrəli qərarı ilə təsdiq edilmiş "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"nın və 2010-cu il 12 may tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"nın tələblərinə uyğun olaraq həyata keçirilir.
- Universitetdə təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalar təlimin səmərəliliyini artırır. Məşğələlərdə tapşırıqlar, müstəqil iş, araşdırma, video və audio mühazirələrin köməyi ilə əldə olunan təlim nəticələrini reallaşdırmaq üçün ağıllı lövhələr, monobloklardan,

kompüter və proyektorlardan istifadə edilir. Məşğələlərdə yazılı tapşırıqlar, sorğular, frontal sorğu, açıq mühazirə metodları tətbiq edilir.

- Universitetdə Tədris İdarəetmə Sisteminin (LMS) qurulması və alınması üzərində davamlı işlər aparılsa da, təəssüflər olsun ki, NEYRON şirkəti ilə 2017-2022-ci illərdə edilmiş əməkdaşlıq uğurlu nəticə verməmiş və ona görə də əməkdaşlıq dayandırılmışdır. Buna baxmayaraq ADPU olaraq informasiya idarəetmə sisteminin yaradılması üzrə fərqli platformalar üzərində işlər davam etdirilir və universitetin LMS-nin qurulması üçün imkanları gücləndirilir.
- Universitetdə təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi ARTN-nin 11.09.2008-ci il tarixli 1060 nömrəli əmrlə təsdiq edilmiş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında əsasnamə"nin tələblərinə, "ADPU-da bakalavriat səviyyəsində tələbələrin dövlət attestasiyası haqqında qaydaların tələbələrinə uyğun həyata keçirilir. ADPU-ya qəbul olunan I tədris ili tələbələrinə semestr ərzində və imtahan sessiyası dövründə biliyin qiymətləndirilməsi meyarları ilə və fənnin öyrənilməsi tələbləri tanış edilir.
- Komissiya ADPU-da idarəetmənin daha da yaxşılaşdırılması, tədrisin təşkili sahəsində qabaqcıl təcrübənin tətbiq edilməsi və tədris prosesinin keyfiyyətinin yüksəldilməsi, bütün struktur vahidlərində insan resurslarının idarə olunmasının təkmilləşdirilməsi, yüksək ixtisaslı kadr potensialının təmin edilməsi, habelə universitetin idarəedilməsi strukturunun optimallaşdırılması məqsədilə mövcud və gələcəkdə ehtiyac duyulacaq ixtisaslı mütəxəssislərin cəlb edilməsi, o cümlədən vakant vəzifələr üzrə müsabiqələr keçirir.
- ADPU-nu ali təhsil sisteminin Avropa Ali Təhsil Məkanının tələblərinə daha da uyğunlaşdırılması məqsədilə ARTN-ə dəstək göstərilməsi layihəsi çərçivəsində 2017-ci ADPU pilot layihə çərçivəsində institusional, bunun davamı olaraq 2019-cu ildə 4 təhsil proqramı üzrə proqram akkreditasiyası, Finlandiya, Litva, Latviya, Estoniya, Fransa təhsil ekspertlərinin iştirakı ilə İnformatika müəllimliyi, İbtidai sinif müəllimliyi, Xarici dil müəllimliyi, Riyaziyyat müəllimliyi, Kimya müəllimliyi təhsil proqramlarının tədrisinin təşkili prosesi monitorinq edilmiş, müzakirələr aparılmış və tövsiyələr verilmişdir.
- Universitet Məzun koordinasiya və karyera şöbəsi təhsilalanların intellektual və mədəni inkişafı, peşəkar hazırlıq səviyyəsinin yüksəldilməsi ilə yanaşı, onların məşğulluq problemlərinin həll edilməsi üzrə kompleks təşkilati, texniki, informasiya, konsaltinq xidmətlərini həyata keçirir, onları əmək bazarına hazırlanmasında yaxından iştirak edir. Universitet təhsil və əmək bazarı arasında körpü rolunu oynayır.

4. <u>Elmi-tədqiqat istiqaməti üzrə</u>

- ADPU-da elmi-tədqiqat işlərinin planlaşdırılması və reallaşdırılması Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "Elm haqqında Azərbaycan Respublikasının Qanunu"na uyğun olaraq həyata keçirilmişdir.
- 7 dövri elmi jurnal nəşr edilmiş (2016-cı ilə qədər cəmi 2 dövri elmi jurnal nəşr edilirdi), onlarla beynəlxalq və respublika səviyyəli konfranslar, konqreslər, simpoziumlar keçirilmiş, yeni kafedralar, Elmi Tədqiqat Mərkəzi yaradılmış, magistratura səviyyəsində yeni ixtisaslaşmalar üzrə kadr hazırlığına başlanmış, elm və təhsil sahəsində beynəlxalq əməkdaşlıq genişləndirilmiş, Gənc Alimlər və Tədqiqatçılar Şurası, Elm Komissiyası fəaliyyətə başlamış, kitabxana müasir elmi texniki tələblərə uyğun olaraq yenidən qurulmuşdur.

- Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılmasına diqqət artırılmışdır. ADPU 2016-2018-ci illərdə elm sahəsində uğurlarına görə "Web of Science" elmi bazasının "Ən mütərəqqi Universitet"i mükafatına layiq görülmüşdür.
- 2019-2022-ci illərdə ETM-in əməkdaşlarının əmək haqqı ADPU tərəfindən maliyyələşir. Elmi-tədqiqata ayrılan büdcə vəsaitinin ümumi büdcədə payı illər üzrə: 2016 - 107,7; 2017 - 109,5; 2018 - 97,4; 2019 - 80,7; 2020 - 125,1; 2021 - 142,8 və 2022 - 148,8 min manat olmuşdur.
- 2016-2022-ci illərdə universitetin 34 kafedrasında 541 problem üzrə 2966 mövzuda yerinə yetirilən elmi-tədqiqat işləri bakalavr və magistr hazırlığı üzrə təhsil proqramları çərçivəsində aparılır və onların istiqamətlərinə uyğundur. Son yeddi il ərzində 379 elmi tədqiqat işi tədris prosesində tətbiq olunmuşdur.
- 2016-2022-ci illərdə professor-müəllim heyəti və elmi işçilər tərəfindən 194 monoqrafıya, 180 dərslik, 534 dərs vəsaiti, 1485 proqram, metodik vəsait, 4685 elmi məqalə (impakt faktor göstəricili jurnallarda 213 məqalə) nəşr olunmuş və 12 patent alınmışdır.
- 2016-2022-ci illər üzrə ADPU-da müxtəlif mövzularda 18 beynəlxalq, 47 respublika, 100-ə yaxın universitetdaxili elmi, elmi-praktik konfranslar keçirilmişdir.
- ADPU-da fəaliyyət göstərən 62 alimin Google Scholar bazasında elmi məqalələrinə istinad etmə sayı cəmi 3045-dir. Onlardan 17-si məqaləsinə H indeksi 5 -dən yuxarı olan professor-müəllim, 24 nəfərin məqaləsinə istinad etmə isə İ10 indeksi-dir. (İ10 indeksi müəllifin ən azı 10 istinad almış məqalələrinin sayına bərabərdir).
- ADPU-da Elmin İnkişaf Fondundan 2016-2022-ci illərdə ümumi məbləği 391.088 manat olan 7 qrant layihəsi hesabına maliyyələşən elmi-tədqiqat işləri yerinə yetirilmişdir.
- 28.02.2017-ci il tarixdə Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə "Plagiat.PL" MMC arasında bağlanmış müqavilə əsasında bütün magistr və doktorluq dissertasiyaları, ADPU-nun professor-müəllim heyətinin, həmçinin digər təhsil və elmi-tədqiqat müəssisələrinin də mütəxəssislərinin elmi-tədqiqat işlərinin orijinallığı Antiplagiat proqramı əsasında yoxlanılır.
- 2017-2023-cü illər ərzində 200 elmlər doktorluğu dissertasiyası, 865 fəlsəfə doktorluğu dissertasiyası, 273 kitab, dərslik və dərs vəsaitləri, 3216 magistr dissertasiyası, 653 buraxılış işi, 321 məqalə və 940 fərqli adda elmi işlər olmaqla, ümumilikdə 6468 iş yoxlanılmışdır.

### 5. İdarəetmə sistemi istiqaməti üzrə

- Azərbaycan Respunlikası Nazirlər Kabinetinin "Azərbaycan Dövlət Pedaqoji Univesitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi barədə" 12.08.2022-ci il tarixli 302 № li Qərarına əsasən, çevrilmə yolu ilə yenidən təşkil olunmuş və Azərbaycan Dövlət Pedaqoji Universiteti Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olmuş, yeni nizamnaməsi təsdiq edilmişdir.
- Hazırda ADPU publik hüquqi şəxs olaraq Bakıda beş tədris binasında təhsil verməklə bərabər, ölkənin 5 müxtəlif regionunda universitetin Şəki, Quba, Ağcabədi, Cəlilabad və Şamaxı filialları fəaliyyət göstərir. Həmçinin Bakıda iki korpusda ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci subbakalavr təhsil xidməti göstərməkdədir.
- ADPU-nun yeni nizamnaməsinə görə strateji inkişaf məsələləri üzrə idarəetmə orqanı ictimai əsaslarla fəaliyyət göstərən Himayəçilər Şurasının yaradılması nəzərdə tutulub. Himayəçilər Şurasının tərkibini azı 3 (üç) nəfər olmaqla, Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq ediləcəkdir. Himayəçilər Şurasının yaradılması, səlahiyyətləri və fəaliyyətinin təşkili qaydası Nazirliyin təsdiq etdiyi nümunəvi əsasnamə və ADPU Nizamnaməsi ilə müəyyən olunur. Himayəçilər Şurasının yaradılması üzrə işlər davam etdirilir. Yaxın vaxtlarda Himayəçilər Şurasının üzvlərinin Elm və Təhsil Nazirliyi tərəfindən təyin

olunması gözlənilir. Tərkibdə işəgötürənlərin və ictimaiyyət nümayənlərinin də olması nəzərdə tutulur.

- İdarəetmə orqanlarının səlahiyyət və vəzifə bölgüsü ADPU Nizamnaməsi, daxili əsasnamələr, struktur sxemi və iş öhdəlikləri ilə müəyyən olunub. Onların fəaliyyəti, gündəliyin təsdiqi, qərarların verilməsi reqlamenti və s. məsələlər daxili əsasnamələri ilə müəyyən edilmişdir.
- Elmi Şura öz işini əsasnaməsi əsasında qurur və onun qərarları rektorun əmri ilə icraya yönəldilir. Spesifik məsələlər öncə Tədris-Metodiki Şura, Elm Komissiyası və Maliyyə Komissiyasında kollegial qaydada müzakirə edilərək Elmi Şuraya çıxarılır. Müvafiq Şura və komissiyalara həmin sahəyə məsul prorektor rəhbərlik edir. Tədris-Metodiki Şura, Elmi Şura nəzdində Elm və Maliyyə komissiyaları zərurət olduqda toplanır və qərarları kollegial qəbul edir, protokollaşdırır. Elmi Şuranın bütün iclas sənədləri müvafiq olaraq Elmi katiblikdə, şura və komissiya katibliklərində saxlanılır.
- Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Müəllimlər İnstitutunun Azərbaycan Dövlət Pedaqoji Universitetinə qoşulması barədə" 26 noyabr 2015-ci il tarixli 1582 №-li Sərəncamının icrası ilə əlaqədar universitetdə bir sıra tədbirlər həyata keçirilmişdir. 2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetində 11 fakültə, 45 kafedra olmaqla, 1800 ştat mövcud idi. Onlardan 694 nəfər professor-müəllim heyəti, 908 nəfər inzibati işçi, o cümlədən 69 nəfər kitabxanaçı, 207 nəfər laborant və böyük laborant idi.
- ADPU-nun yeni strukturunda 1643 ştat mövcud və onlardan faktiki işləyənlərin sayı 1389 nəfərdir. Onlardan 115 nəfəri inzibati idarəetmə, 599 nəfəri tədris- köməkçi, 675 nəfəri professor-müəllim (73 nəfər daxili, 46 nəfər kənar əvəzçi) heyətidir.
- ADPU-da idarəetmə strukturunun optimallaşdırılması və insan resurslarının idarə olunmasında obyektivliyin və şəffaflığın təmin edilməsi üçün Müsabiqə Komissiyası yaradılmışdır.
- Maliyyə resursları planlaşdırılarkən Strateji inkişaf planına (SİP) olan uyğunluq nəzərə alınır. SİP-də göstərildiyi kimi ADPU-da əməkdaşların maddi motivasiyasının yaxşılaşdırılması məqsədilə səriştə və nəticə əsaslı diferensiallaşdırılmış rəqabətqabiliyyətli əməkhaqqı və müxtəlif stimullaşdırıcı paketlər sisteminin yaradılması üçün əməkdaşların və professor-müəllim heyətinin illik fəaliyyətinin Reytinq Qiymətləndirilməsi ilə bağlı qaydalara əsasən, əməkhaqqına əlavələrin, maddi yardım və mükafatların verilməsi mümkündür. ADPU-nun gəlirlərinin artırılması haqqında strategiyaya əsasən, ödənişli təhsil haqqı gəlirlərindən əlavə olaraq, təlim kurslarından və digər xidmətlərdən (plagiat, yataqxana, yeməkxana, mətbəə və s.) olan gəlirlərin artırılmasının mümkünlüyü qarşımızda duran vacib məsələlərdən biridir.
- Universitetdə 2016-2022-ci illərdə keçirilmiş bütün satınalma müsabiqələrinin nəticələrinə dair yekun protokol hazırlanaraq 2 nüsxə olmaqla, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə göndərilmişdir. Xidmət tərəfindən keçirilmiş müsabiqələrin nəticələri qeydə alındıqdan sonra aidiyyəti üzrə qalib müəssisə ilə müqavilə bağlanmışdır.
- ADPU-da daxili audit bölməsi yeni (Elmi Şuranın qərarına əsasən) yaradılmışdır. Bu səbəbdən də yaxın zamanda nəzarət tədbirləri görüləcəkdir.
- Maliyyə resurslarının əldə olunması və istifadəsinə görə alınmış qrant layihə çərçivəsində xərclərin təyinatına görə istifadəsi ilə bağlı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə hesabat verilir.
- 2019/2020-ci tədris ilindən başlayaraq, qısa müddət ərzində Moodle platformasının qurulması və tətbiqi üçün fəaliyyət planı təsdiq edildi. Fəaliyyət planına əsasən I mərhələdə platformanın texniki olaraq quraşdırılması və sazlanması prosesi həyata keçirildi. Tezliklə, platforma internet üzərindən istifadəyə açıq elan olundu. 185 profesor-müəllim moodle kabineti yaratmışdır.

- 2006-cı ildə universitetin ölkənin kütləvi informasiya vasitələri ilə sıx əlaqələrinin qurulması və universitetin mədəni-kütləvi, elmi-pedaqoji həyatının işıqlandırılması məqsədilə Mətbuat və informasiya şöbəsi yaradılmışdır. 2016-cı ildə şöbənin adı dəyişdirilərək İctimaiyyətlə əlaqələr və marketinq adlandırılmışdır. 2021-ci ilin mart ayında İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin Tədbirlərin təşkili və tələbələrlə iş şöbəsinə birləşdirilməsi nəticəsində daha geniş səlahiyyətlərə malik Tələbələrlə iş və ictimaiyyətlə əlaqələr şöbəsi yaradılmışdır. 2022-ci ilin sentyabrında təkmilləşdirmə işləri ilə əlaqədar müstəqil İctimaiyyətlə əlaqələr və marketinq şöbəsi yaradılmışdır.
- ADPU-nun rəsmi www.adpu.edu.az saytı Azərbaycan və ingilis dilində fəaliyyət göstərir.
- Saytın yenilənmiş versiyası 2022-ci ildə istifadəyə verilmişdir. Saytda mütəmadi yenilənmə işləri davam etdirilir. Hazırda ADPU-nun əsas saytı ilə yanaşı, universitetin 8 fakültəsinin də saytları fəaliyyət göstərir.
- 65 ildir nəşr olunan “Gənc Müəllim” qəzeti 2021-ci ilin yanvar ayından etibarən yeni üslub və dizaynda rəngli formada çap və elektron qaydada dərc edilməyə başlanılıb.
- Universitetin rəsmi sosial media hesablarını (feysbuk, instaqram, tvitter, teleqram, youtube və s.) vardır.
- Hesabat dövründə mediada xəbər və mənbə sayının müqayisəli təhlilinə əsasən, 2016-cı ilə nisbətdə 2021-ci ildə yayımlanan xəbər sayı 575 %, xəbərlərin yayımlandığı mənbə sayı isə 1255 %, 2022-ci ildə isə müvafiq olaraq yayımlanan xəbər sayı 982 %, xəbərlərin yayımlandığı mənbə sayı isə 1970 % artmışdır.

### 6. İnfrastruktur istiqaməti üzrə

- Universitetdə İnzibati-təsərrüfat şöbənin bazasında İnzibati departament yaradılmışdır. Departamentin tərkibində Təsərrüfat şöbəsi, Təchizat və satınalmalar bölməsi və SƏTƏM bölməsi fəaliyyət göstərir.
- ADPU-nun korpuslarında (“Səbail”, “Gənclik”, “Nəsimi”, “Təbriz”) təsərrüfat xidmətini həyata keçirir, liftlərin, işıqlandırma sisteminin, ventilyasiyanın (laboratoriyalarda) saz vəziyyətdə olmasını, əməkdaşların səmərəli işləməsi üçün zəruri şəraitin yaradılmasını təmin edir. Müvafiq olaraq “Sahil” və “Gənclik” tədris korpusları ADPU-nun balansında, “Nəsimi” və “Təbriz” korpusları isə Elm və Təhsil Nazirliyinin balansında (ADPU-nun istifadəsində) fəaliyyət göstərir.
- ADPU-nun tabeliyində olan korpusların hər birində kitabxanalar fəaliyyət göstərir. Kitabxanalarda ümumi kitabların sayı 746221 ədəddir və tələbələrin istifadəsindədir. Sahil korpusundakı Kitabxana-İnformasiya Mərkəzi “BP Azərbaycan” şirkətinin dəstəyi ilə ən müasir standartlara uyğun avadanlıq və proqram təminatı ilə təchiz olunmuşdur.
- ADPU-nun maddi-texniki və tədris bazasına tədris laboratoriyaları, emalatxanalar, idman və akt zalları, tibb otağı, yeməkxana, təhsilalanlar və təhsilverənlər üçün mebel avadanlığı, informasiya-kommunikasiya texnologiyaları, audiovizual avadanlıqlar, tədris-əyani vəsaitlər, təlimin texniki vəsaitləri, dərslik və elmi-bədii ədəbiyyat fondu və tədris-təcrübə sahəsi daxildir. Ümumi təhsilin infrastrukturuna təhlükəsiz təhsil şəraiti, pedaqoji kadrlarla təminat, təhsil fəaliyyəti üçün zəruri imkanlara malik binalar, yardımçı binalar və qurğular, sadə idman, təlim meydançaları və qurğuları, müvafiq kadrlarla təmin olunmuş tibb, iaşə obyektləri, kitabxana, rabitə, su, istilik, elektrik sistemləri və internet xidməti daxildir.
- 14 mərtəbəli tədris binasının fasad üzlüyü yanğına davamlı, kompozit keramik material ilə üzlənmiş, bütün qapı və pəncərələr daha keyfiyyətlisi ilə əvəz edilmişdir. Binanın üzlüyünün dəyişdirilməsi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmişdir. ADPU-nun çoxminli kollektivi bu faktı ölkə rəhbərliyinin təhsilə, pedaqoji və elmi-pedaqoji kadr hazırlığına diqqət və qayğısının təzahürü kimi dəyərləndirir.

- Kimya fakültəsində 24 və Fizika fakültəsində isə 22 tədris laboratoriya fəaliyyət göstərir. ADPU-nun istehsalat təcrübə bazası Şamaxı rayonunun Çuxuryurd kəndində yeləşir. Lakin maliyyə çatışmamazlığı səbəbindən təmir işləri tam yekunlaşmayıb.
- ADPU-nun tabeliyində Bakı şəhərinin müxtəlif ərazilərində yerləşən 5 yataqxana fəaliyyət göstərir. ADPU-nun 4 yataqxanasında 626 məcburi köçkün ailəsi (2315 nəfər) məskunlaşıb. Bu da əksəriyyəti regionlardan olan tələbələrin sosiallaşmasına, keyfiyyətli təhsil almasına, tələbə və müəllimlərin mobilliyinə, xarici ölkə tələbələrinin ADPU-ya cəlb edilməsinə mənfi təsir edir.
- ADPU-nun elmi-tədqiqat infrakstruturu əsasən əvvəlki illərdən alınmış cihaz və materiallardan ibarətdir. Elmi tədqiqatların material-texniki və cihaz bazasının nisbətən köhnə olmasına baxmayaraq elmi tədqiqatla məşğul olan universitet əməkdaşları tərəfindən bir çox jurnallarda elmi məqalələr dərc olunmuş, bir sıra beynəlxalq konfranslarda məruzə və tezislərlə çıxış edilmişdir. Elmi-tədqiqat infrastrukturu əsasən aparılan təqdiqatlara görə alınmış qrantlar və layihələrin hesabına formalaşdığı üçün bu istiqamətdə işlər aparılır.
- Hazırda elmi tədqiqatlarda və layihə prototiplərinin hazırlanması prosesində 11 cihazdan istifadə edilir.
- Rəqəmli voltmetrlər, ampermetrlər köməkçi cihaz kimi tələbələrin istifadəsindədir. Tələbələr tədqiqat layihələrində elektrosxemlərin yığılması, plataların hazırlanması maddələrin alıması və s.işlərinə cəlb edilirlər.

7. **<u>Beynəlmiləlləşmə istiqaməti üzrə</u>**

- Azərbaycanın ən qədim universitetlərindən biri olan ADPU bu sahədə bir sıra işlər həyata keçirmiş, 2022-ci ildə beynəlmiləlləşmə siyasəti sənədi hazırlanaraq təsdiqlənib.
- 2016-2022-ci illər ərzində Türkiyənin Ali Təhsil Şurasının (YÖK) Tələbə Seçmə və Yerləşdirmə Mərkəzinin (ÖSYM) imtahanlarının nəticələrinə əsasən, Azərbaycan Respublikası ilə xarici ölkələr arasında təhsil sahəsində bağlanılmış ikitərəfli saziş çərçivəsində ADPU-nun əcnəbi vətəndaşlarla birbaşa bağladığı müqavilələr əsasında ADPU-da təhsil almış 178 nəfər əcnəbi tələbə, 25 nəfər magistr, 9 nəfər doktorant, 128 nəfər əcnəbi dinləyici məzun olmuşdur. Hazırda 100-dək əcnəbi vətəndaş ADPU-nun hazırlıq, bakalavriat, magistratura və doktorantura səviyyələrinin müxtəlif ixtisaslarında təhsil alır. Onların arasında Türkiyə, Rusiya, Gürcüstan, Çin, Türkmənistan, Suriya, Ukrayna, Əfqanıstan, Pakistan və İran vətəndaşları vardır.
- Akademik heyətin beynəlmiləlləşmə proqramlarına cəlb olunması siyasət sənədinin əsas hədəflərindən biridir. 2016-2023-cü illərdə ADPU-nun akademik heyəti ADPU-nun tərəfdaş olduğu ERASMUS+ KA1 (2 layihə üzrə) və KA2 (3 layihə üzrə) və DAAD proqramı tərəfindən maliyyələşdirilən “Müsəlman Dünyası ilə Ali Təhsil Dialoqu” layihəsi üzrə ümumilikdə 27 nəfər beynəlmiləlləşmə proqramlarında iştirak etmişdir.
- ADPU-nun beynəlxalq əməkdaşlıqla əlaqəli bütün struktur bölmələri universitetin beynəlxalq əlaqələr üzrə prorektoru tərəfindən koordinasiya olunur. Universitetin beynəlxalq əlaqələri xarici universitet, təşkilat və mərkəzlərlə ilə əməkdaşlıq (Beynəlxalq əlaqələr şöbəsi), beynəlxalq layihələr və qrantlar (Beynəlxalq layihələr və qrantlar şöbəsi, əcnəbi tələbələrin qəbulu və tədrisi (Əcnəbi tələbələrlə iş üzrə şöbə), beynəlxalq və yerli təlimlərin təşkili və idarə olunması (Təlim-tədris Mərkəzi) əsasında qurulub.
- ADPU əcnəbi müəllimlərin tədris prosesinə cəlb olunması məsələsinə xüsusi diqqət ayırır. Bu yanaşma siyasət sənədində də öz əksini tapıb.
- 2016-2023-ci illər üzrə ümumilikdə 19 nəfər əcnəbi müəllim heyəti tədris prosesinə cəlb olunub.

- 2016-2023-cü illər ərzində Erasmus+ KA1, KA2 və  DAAD proqramları üzrə ADPU-nun 27 nəfər akademik heyəti, 49 nəfər inzibati heyəti, 21 nəfər tələbəsi beynəlmiləlləşmə proqramında iştirak edib.
- ADPU https://www.4icu.org/ "uniRank", "EduRank", "Webometrics", Academic İnfluence və digər beynəlxalq agentliklərin reytinqlərində yer alır.
- ADPU 2016-2023-cü illərdə 11 beynəlxalq qrant layihəsinin işlənilməsinə birbaşa olaraq cəlb olunmuşdur.
- 2016-2023-cü illər ərzində ADPU 67 əməkdaşlıq müqaviləsinə imza atıb. Onlardan 45 ikitərəfli əməkdaşlıq müqaviləsi, 15 Mövlanə Mübadilə Proqramı Protokolu, 6 ERASMUS+ KA1 müqaviləsi və 1 universitetlə ikili diplom proqramı çərçivəsində əməkdaşlıq müqaviləsi mövcuddur.

## III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər

1. ADPU-nun Nizamnaməsi;
2. ADPU-nun ötən beş və qarşıdan gələn beş il üzrə Strateji İnkişaf Programı;
3. ADPU-nun tədris illəri üzrə iş planı;
4. ADPU-nun son beş il üzrə maliyyə hesabatı;
5. ADPU-da təhsil alan təhsilalanların beş il üzrə müvəffəqiyyət göstəriciləri (keyfiyyət göstəriciləri daxil olmaqla);
6. Son beş tədris ilində təhsilalan, akademik heyət və məzunlar arasında keçirilmiş sorğuların nəticələri;
7. Son 5 ildə elmi dərəcə və elmi ad almış professor-müəllim heyəti haqqında məlumat;
8. Elmi-tədiqat fəaliyyətindəki gəlir və xərclər ilə bağlı hesabat;
9. Məzun olan təhsilalanların məşğulluq göstəriciləri;
10. Təlim resursları və tələbələrə dəstək xidmətləri;
11. ADPU-nun maddi-texniki bazası;
12. ADPU-nun sosial-məişət şəraiti;
13. Kitabxana fondunun (elektron daxil) vəziyyəti;
14. ADPU-da çalışan professor-müəllim heyəti və digər əməkdaşların xarici ölkələrdə təcrübə və mübadilə proqramlarında iştirakı barədə məlumat;
15. Son 5 ildə ADPU-ya qəbul olunan əcnəbi tələbələr barədə məlumat;
16. ADPU tərəfindən daxili keyfiyyət təminatı siyasətini əks etdirən sənəd;
17. ADPU tərəfindən tərtib edilmiş müəssisənin elmi (pedaqoji) fəaliyyətinin və tədris prosesinin tənzimlənməsinə və təşkilinə dair tədris planları və digər müvafiq sənədlər;
18. Akkreditasiya olunan proqramlar üzrə tədris planına daxil olan fənlərin, dərsdənkənar məşğələlərin, proqramların, sillabusların (işçi tədris proqramları) və (və ya) modulların təsviri;
19. Akkreditasiya olunan proqramlar üzrə təhsilalanların sayı və təhsilalanların qəbulu, yerdəyişməsi, köçürülməsi, bərpası və xaric edilməsi haqqında əmrlərin surəti;
20. Akademik (pedaqoji) heyətin siyahısı, professor müəllim heyətinin şəxsi uçot məlumatları;
21. Tədris planında nəzərdə tutulmuş bütün növ təcrübələr üzrə proqramlar, təcrübənin keçirildiyi müəssisələrlə bağlanılmış müqavilələrin surəti və təcrübənin nəticəsi barədə hesabat;
22. ADPU-da proqramlar üzrə bütün imtahanların nəticələri, diplom işləri haqqında məlumat və təhsilalanların yekun tezislərinin siyahısı;
23. Əvvəlki akkreditasiya qiymətləndirmə nəticələrinin icmalı və müvafiq Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabat;
24. ADPU ilə birgə təhsil proqramını təklif edən Corc Vaşinqton Universiteti arasındakı razılaşma;
25. Akkreditasiyaya görə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd.